AZƏRBAYCAN TARİX QURUMU
SƏDƏRƏK XEYRİYYƏ CƏMİYYƏTİ

# NAXÇIVAN QƏDİMDƏN GÜNÜMÜZƏ QƏDƏR
## (Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş məqalələr toplusu)

Bakı 2014

**Redaksiya heyəti :**

**Akademik İsmayıl Hacıyev**

**t.ü.e.d., prof. Tofiq Mustafazadə**

**t.ü.f.d. Nəcəf Museyibli**

**t.ü.f.d İradə Məmmədova**



**İsmayıl HACIYEV**

AMEA Naxçıvan Bölməsi
E-mail: ismayil_haciyev@yahoo.com

## NAXÇIVANIN MUXTARİYYƏT STATUSU

*Məqalədə Azərbaycan Cümhuriyyəti dövründə Naxçıvan əhalisinin erməni basqınlarına qarşı inadlı mübarizəsi, böyük dövlətlərin ikili siyasətinə qarşı Müsəlman Milli Şurasının, görkəmli şəxsiyyətlərin fəaliyyətləri araşdırılmışdır. Naxçıvanın Azərbaycanın tərkibində qorunub saxlanılması üçün keçirilən referendumun nəticəsi, B.Şahtaxtinskinin siyasi mübarizəsi Naxçıvan diyarına Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsinə gətirib çıxarmışdır. Çıxarılan nəticə ondan ibarətdir ki, əgər 1917-1921-ci illərdə naxçıvanlıların qəhrəmanlığı və məqsədyönlü fəaliyyətləri olmasa idi, Naxçıvanın Azərbaycanın himayəsində qoruyub saxlamaq çox çətin olardı.*

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası çox mürəkkəb tarixi inkişaf yolu keçmişdir. Bütün dövrlərdə Naxçıvan nəinki qonşu dövlətlər, həmçinin dünyanın digər dövlətləri üçün də çox böyük coğrafi-siyasi və strateji əhəmiyyət kəsb etmişdir. Xüsusilə, XX əsrin əvvəllərində yaranmış şəraitdən istifadə edən erməni daşnakları Naxçıvana qarşı ərazi iddiaları irəli sürmüş, bu ərazini "Böyük Ermənistan"a qatmaq üçün cəhdlər göstərmiş, azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirmişlər. Çətin və mürəkkəb mərhələlərdən keçən Naxçıvan Muxtar Respublikası Azərbaycanın əzəli və əbədi tərkib hissəsi kimi qorunub saxlanılmış, ona muxtariyyət statusu verilmişdir. Naxçıvanın muxtariyyət statusu qazanması bu bölgədə 1918-1921-ci illərdə cərəyan edən ictimai-siyasi hadisələrin, onlara təsir edən daxili və xarici amillərin, əhalinin inadlı mübarizəsinin, referendumun nəticəsinin və iki mühüm beynəlxalq müqavilənin sayəsində olmuşdur.

XX əsrin əvvəllərində dünyada baş verən sosial-siyasi proseslər, xüsusən, Birinci dünya müharibəsinin nəticələri, Rusiya imperiyasının dağılması, siyasi həyata yeni müstəqil dövlətlərin gəlməsi Naxçıvan diyarının da taleyində dərin iz buraxmışdı. Rusiyada çarizm devrildikdən sonra imperiyanın əksər əyalətlərində olduğu kimi, Naxçıvan bölgəsində də ikihakimiyyətlilik meydana gəlmiş, bu diyar bir sıra dövlətlərin maraq dairəsində olmuşdur [37, s. 90].

1917-1920-ci illər Naxçıvan diyarı üçün çətin inkişaf dövrü olmuş, bu qədim Azərbaycan torpağının real olaraq Ermənistana ilhaq edilmək təhlükəsi yaranmışdı. Birinci dünya müharibəsində qalib gəlmiş dövlətlərin himayə etdiyi Ermənistanın daşnak hökuməti bu bölgəni "Böyük Ermənistan"a qatmaq üçün silahlı təcavüzə əl atmış, bu məqsədlə Andronik, Dro, Njde və b. qaniçənlərin başçılıq etdikləri quldur daşnak dəstələrindən də fəal istifadə edilmişdi. Lakin diyarın yerli azərbaycanlı əhalisi bu amansız təcavüzlərə mərdliklə müqavimət göstərmiş, özünün yeganə xilas yolunu tarixi vətənə - Azərbaycana birləşməkdə görmüşdü. Naxçıvan diyarının əhalisi hələ o vaxt öz qəti fikrini belə ifadə etmişdi: "Bu xalq mədəni dövlətlərin alovlarında məhv olmağa razı olar, amma Azərbaycandan ayrılmaz" [11, v. 12].

Fevral inqilabı keçmiş Rusiya imperiyasının bütün ərazilərində, o cümlədən Naxçıvanda da tamamilə yeni siyasi şərait yaratdı. 1917-ci il martın 9-da diyarda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə (OZAKOM) verildi [38, s. 68]. Xüsusi Zaqafqaziya Komitəsi Cənubi Qafqazda mülki işləri idarə etmək üçün təsis edilmişdi, ancaq qanunvericilik hüququna malik deyildi. Komitənin sədri V.A.Xarlamov, üzvləri isə M.Y.Cəfərov, K.Abaşidze, M.Papacanov və A.Çxenkeli idi. Xüsusi Zaqafqaziya Komitəsinin 1917-ci il 26 aprel və 18 iyun tarixli qərarları ilə Naxçıvana iki müvəkkil (B.Maqsudov, Mxitaryants) təyin edildi [32, s. 37].

Naxçıvan, Culfa və Ordubad şəhərlərində Müsəlman və Erməni milli komitələri yaradıldı. Bu komitələr faktiki olaraq yerli idarəetmə funksiyalarını yerinə yetirməyə başladılar. Eyni zamanda, onlar öz silahlı qüvvələrini yaratmaq məqsədi ilə əhali arasında fəal iş aparırdılar.



1917-ci il noyabrın 11-də Tiflisdə keçirilən müşavirədə gürcü menşevikləri, Azərbaycan müsavatçıları, erməni daşnakları və sağ eserlərinin nümayəndələri Rusiya bolşevik hökumətini tanımaqdan imtina etdilər. Belə qərar qəbul edildi ki, Müəssislər Məclisi tərəfindən hakimiyyət məsələsi həll edilənə qədər regionu idarə etmək üçün Zaqafqaziya hökuməti yaradılsın. Noyabrın 15-də Zaqafqaziya Komissarlığı yaradıldı [43, s. 71]. Gürcü menşeviki E.P.Gegeçkorinin rəhbərlik etdiyi hökumətdə 10 komissarlıq təsis edilmişdi. Zaqafqaziya Komissarlığının əsas fəaliyyət istiqamətlərindən biri diyarı bolşevik Rusiyasından ayırmaq və Türkiyə ilə münasibətləri nizamlamaqdan ibarət idi.

Zaqafqaziya Komissarlığının yaradılması ilə Naxçıvanın inzibati idarəçiliyində əsaslı dəyişiklik baş vermədi. Diyarda Zaqafqaziya Komissarlığının müvəkkilliyi fəaliyyət göstərsə də, yerlərdə əsas hakimiyyət yenə də milli komitənin əlində idi. Naxçıvan şəhərində isə Qarışıq Komitə fəaliyyət göstərirdi.

Ərzincan barışığı imzalandıqdan sonra (1917, 18 dekabr) rus qoşunları Naxçıvanı tərk etdi. Onların malik olduqları silah-sursatı erməni daşnakları ələ keçirdi. Yerli azərbaycanlılarla müqayisədə ermənilər kifayət qədər silah-sursat üstünlüyünə malik idi. Rus komandanlığı erməniləri silahlandırdığı halda, müsəlmanlara silah verməkdən imtina edirdi.

1918-ci ilin əvvəllərindən başlayaraq daşnakların silahlı dəstələri Naxçıvanın bir çox kəndlərini yerlə yeksan etmiş, çoxlu dinc əhalini qırmışdı [40, s. 15]. Yanvarın 29-da Əznəbürd kəndinin erməniləri 22 nəfər müsəlmanı qətlə yetirdilər. Martın əvvəllərində Naxçıvan şəhərində və ətraf kəndlərdə ermənilərlə azərbaycanlılar arasında qarşıdurma qızışdı. Naxçıvan şəhərindəki döyüşlərdə azərbaycanlılar özlərini müdafiə edirdilər, bölgənin digər yerlərində vəziyyət ağır idi. Kəndlərdə yerli müsəlmanlar silahlı erməni dəstələri qarşısında, demək olar ki, müdafiəsiz qalmışdılar.

Osmanlı komandanlığı ermənilərin törətdikləri vəhşiliklərin davam etdirildiyini daşnaklara xatırladıb türk ordusunun müsəlmanların qırılması təqdirində sadəcə müşahidəçi olmayacağını bildirdi. Türkiyə silahlı qüvvələrinin Qafqaz ordusu Baş komandanı Mehmed Vehib paşa öz ordusuna hücum əmri verdi. Osmanlı ordusunun bütün cəbhə boyu irəliləməsi fevralın 23-də Zaqafqaziya Seyminin açılmasına kimi davam etdi [41, s. 13]. 1918-ci il fevralın 23-də Zaqafqaziya Komissarlığmm əvəzinə yeni orqan – Zaqafqaziya Seymi yaradıldı [46, s. 90]. Həmin ilin aprelin 22-də Zaqafqaziya Seymi müstəqil Zaqafqaziya Federativ Respublikasının yaradılması haqqında qərar qəbul etdi. A.Çxenkelinin başçılığı altında 12 nəfərdən ibarət yeni hökumət yaradıldı [46, s. 107-108].

Cənubi Qafqaz bölgəsində baş vermiş hadisələr son nəticədə Zaqafqaziya Federasiyasının süqutu və üç müstəqil dövlətin – Azərbaycan, Ermənistan və Gürcüstan respublikalarının yaranması ilə nəticələndi. Azərbaycanın müstəqil dövlət elan edilməsi Naxçıvan diyarı əhalisində müəyyən ümidlər yaratdı. Naxçıvan bölgəsinin qarşılaşdığı problemləri həll etmək və çətinlikləri aradan qaldırmaq üçün istər yerli əhali və onun başçıları, istərsə də Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti tərəfindən müəyyən işlər görülmüş, ermənilərin ərazi iddialarının və etnik təmizləmə siyasətinin reallaşdırılması istiqamətində ilkin cəhdləri dəf olunmuşdu.

Erməni tərəfin Azərbaycan xalqına qarşı düşmənçilik siyasəti aparmasına baxmayaraq, Azərbaycan Milli Şurası Ermənistan nümayəndələrinin yardım üçün müraciətlərini qəbul edərək əzəli Azərbaycan şəhərini – İrəvan şəhərini onlara paytaxt kimi güzəşt edilməsinə razılıq verdi. Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Tiflisdən xarici işlər naziri M.H.Hacınskiyə göndərdiyi teleqramda yazırdı ki, "... biz İrəvanı ermənilərə verməyə razılaşdıq" [12, s. 51-52]. Azərbaycan hökuməti bu güzəştə getməklə Ermənistanın ölkəmizə qarşı torpaq iddialarından əl çəkəcəyini zənn edirdi. Bu xeyirxahlıq erməni tərəfini yeni-yeni ərazi iddiaları irəli sürməkdən çəkindirmədi. Ermənistan hökuməti bütün İrəvan quberniyasını, Qars vilayətini, Tiflis və Yelizavetpol quberniyalarının bir hissəsini (o cümlədən indiki Dağlıq Qarabağı – İ.H.) özünün ayrılmaz hissəsi elan edərək, əhalinin 62,5 faizi azərbaycanlılar olan Naxçıvana da iddia etdiyini bəyan etdi [10 a, s. 1-2].

Osmanlı dövləti nümayəndələri ilə Batumda aparılan danışıqlarda türk heyəti Azərbaycan torpaqları hesabına ermənilərin lehinə bir sıra ərazi güzəştlərinə gedərək İrəvan şəhərinin də daxil olduğu Yeni Bəyazid və Eçmiədzin bölgələrindən ibarət bir Ermənistan dövlətinin qurulmasını təsdiqlədi [43, s. 168]. 4 iyun 1918-ci il tarixdə imzalanmış Batum müqaviləsinin şərtlərinə görə Ermənistan Respublikası Cənubi Qafqazda 10 min kv. km ərazisi olan bir dövlət oldu.

Batumdakı Azərbaycan və Ermənistan nümayəndələri arasında da ərazi-sərhəd məsələləri ilə bağlı danışıqlar aparıldı və razılıq əldə edildi ki, Azərbaycan "Aleksandropol quberniyası" hüdudlarında erməni dövlətinin yaradılmasına razıdır. İrəvanı siyasi mərkəz kimi Ermənistana vermək məcburiyyətində olan Azərbaycan nümayəndələri şəhəri bu şərtlə güzəştə getməyə razı oldular ki, ermənilər Yelizavetpol quberniyasının bir hissəsinə, yəni Qarabağa, eləcə də İrəvan quberniyasının Naxçıvan bölgəsinə olan iddialarından imtina etsinlər [17, v. 47].

1918-ci ilin may-iyun aylarında ermənilər və Andranikin başçılığı ilə erməni yaraqlıları Naxçıvan diyarına yiyələnmək üçün öz fəaliyyətlərini daha da genişləndirdi. Erməni silahh quldur dəstələri bölgədə azərbaycanlı dinc əhaliyə divan tutur, Naxçıvan əhalisinə qarşı vəhşi hərəkətlərini davam etdirir, yaşayış məntəqələrinə basqınlar edir, etnik təmizləmə siyasəti aparır, yerli azərbaycanlıların sayını süni surətdə azaltmaq üçün hər cür vasitələrə əl atır, Naxçıvanın ən yaxın vaxtlarda Ermənistana birləşdiriləcəyi barədə məlumatlar yayır, bu yerlərin Ermənistanın bir hissəsi olduğunu iddia edirdilər.

Erməni daşnakları Naxçıvan qəzasının bir sıra kəndlərini və Culfanı işğal edən zaman – 1918-ci il mayın 17-də kapitan Xəlil bəyin başçılığı ilə türk hərbi heyəti Naxçıvana gəldi. O, bölgəyə

gəldikdən sonra Naxçıvanı gözlənilən erməni təcavüzündən qorumaq üçün yerli gənclərdən könüllü qoşun hissələri təşkil etməyə başladı.

Batum müqaviləsini əsas götürən Osmanlı dövləti qəti tədbirlər görməyə məcbur oldu. Türkiyə hərbi komandanlığı Kazım Qarabəkir paşanın komandanlığı altında olan IX Orduya Naxçıvana kömək etməyi tapşırdı. IX Ordunun tərkibində olan XI Qafqaz diviziyası 1918-ci il iyulun əvvəlində erməni dəstələrini məğlub edərək Naxçıvan şəhərinə yaxınlaşdı. İyul ayının 20-21-də baş vermiş döyüşlərdən sonra şəhər erməni qüvvələrindən təmizləndi, Culfa isə azad edildi [30, s. 65-66].

Naxçıvan bölgəsi türk qoşunlarının nəzarətinə keçdikdən sonra burada Osmanlı sisteminə uyğun inzibati idarəetmə sistemi yaradılmağa başlandı [26, s. 71-75]. Alay komandiri Sürəyya bəy qəza rəisi təyin edildi. Sürəyya bəyin əmri ilə Naxçıvan Milli Komitəsi ləğv edilərək yerində jandarm, ədliyyə və bələdiyyə idarələri yaradıldı. Jandarm komandanlığına Məhəmməd Əli xan, onun müavini Qəni bəy Vəzirov, Bələdiyyə idarəsinin rəisi Cəfərqulu xan, üzvləri isə Hacı Abdulla Şeyxov və Tağı Nağdalıyev təyin edildilər. Ədliyyə məhkəməsinə isə Şeyx Kərim Axundzadə, Cabbar Kələntərov, Vəliağa Kəndlinski, Abbasqulu bəy Tahirov və İbrahim paşa Kəngərlinski təyin olundular [26, s. 72]. Bir müddət sonra ordunun Təbrizə getməsi ilə əlaqədar, Sürəyya bəyin yerinə mayor Əli Şəfiq bəy təyin olunmuş, o isə öz növbəsində bir sıra inzibati dəyişikliklər etmişdi. Türk komandanlığı Naxçıvanda hərbi vəziyyət elan etdi, yerli əhalidən özünümüdafiə dəstələri təşkil edərək onlara hərbi təlim keçməyə başladı.

1918-ci il avqustun 1-də Osmanlı imperatorluğunda kolorduların (xüsusi korpusların – Red.) təşkili və cəbhələrdə aparılan yerdəyişmələrlə əlaqədar Naxçıvan bölgəsinin müdafiəsi Kazım Qarabəkir paşanın komandanlığı altında olan I Qafqaz kolordusuna tapşırıldı, 9 və 11-ci diviziyalar onun tərkibinə qatıldı. Avqustun 7-dən Naxçıvanda olan Kazım Qarabəkir paşa bölgənin müdafiəsi üçün bir sıra tədbirlər gördü və bununla da erməni silahlı qüvvələrinin yenidən Naxçıvana hücum etmələrinin qarşısı alındı [32, s. 62].



Birinci dünya müharibəsində məğlub olan Osmanlı dövləti oktyabrın 30-da Mudros sazişini imzalamağa məcbur oldu. Müqaviləyə görə Türkiyə Azərbaycanı, eləcə də Naxçıvanı ingilislərin himayəsinə verməli idi. Siyasi vəziyyət həddindən artıq çətin və mürəkkəb idi. Türk qoşunu ölkəni tərk etmək ərəfəsində - 1918-ci il noyabrın 3-də (bəzi mülahizələrə görə 18-də - Red.) sabiq Naxçıvan Müsəlman Milli Şurasının əsasən üzvlərindən ibarət Araz-Türk Cümhuriyyəti yaradıldı [26, s. 82-84]. Kazım Qarabəkir paşa bu cümhuriyyətin silahlı qüvvələrinin yaradılmasına kömək məqsədi ilə bölgədə türk ordusundan ibarət əsgər və zabit saxlanılmasına icazə verdi. Polkovnik Xəlil bəy bu cümhuriyyətdə Türkiyəni təmsil edirdi. Gələcəkdə erməni hücumlarından qorunmaq üçün türk komandanlığı burada güclü və sabit hakimiyyət yaratmağa, könüllülərdən ibarət hərbi qüvvələr qurmağa, müsəlman əhalisini təşkilatlandırmağa başlamışdı. Bu məqsədlə Naxçıvan şəhər əhalisinin ümumi yığıncağında Müsəlman Milli Şurasının yenidən təşkilinə, əhalinin silahlandırılmasına, müdafiə işlərinin sürətləndirilməsinə qərar verilmiş, Naxçıvam tərk edən Əli Şəfiq bəyin yerinə Mirzə Nəsrullah Əmirov yerli hökumətin başçısı təyin edilmişdi [26, s. 83-84].

1919-cu ilin yanvarında Naxçıvan bölgəsinə çox az miqdarda ingilis hərbi qüvvələri gətirildi. Bir neçə gündən sonra mayor Vilyam Gibbon Naxçıvana gəldi. Onun gəlişinin əsas məqsədi erməni mühacirlərinin məsələsini həll etmək, diyarın iqtisadi və siyasi vəziyyəti ilə tanış olmaq, Araz-Türk Cümhuriyyəti silahlı qüvvələrinin vəziyyətini, bu dövlətin siyasətinə türklərin təsir dərəcəsini öyrənmək olmuşdur [31, s. 45-46]. V.Gibbon Naxçıvan hökumətinin səlahiyyətli şəxsləri ilə görüşündə erməni mühacirlərinin məsələsini həll etmək, onları buradakı evlərində yerləşdirmək üçün gəldiyini bildirsə də, müsbət cavab ala bilmədi və geri qayıtdı [30, s. 156].

1919-cu il yanvarın 19-da Fridrix Lautenin başçılığı ilə daha bir ingilis heyəti Naxçıvana gəldi [32, s. 87]. F.Lauten Milli Şura üzvləri ilə görüşdükdən sonra münaqişənin qəti həllinə və sərhədlərin

müəyyənləşdirilməsinədək bu ərazilərin ingilis komissiyası tərəfindən idarə olunacağını, müsəlmanların silahlı qüvvələrinin Arazdəyən stansiyası və Sədərəkdə, erməni hərbi hissələrinin isə Arazboyu Yaycıda qalacağını bildirdi [6, v. 7-8].

1919-cu il fevralın əvvəllərində Qafqazdakı ingilis hərbi komandanlığının əmri ilə F.Lauten Naxçıvan rayonunun general-qubernatoru təyin edildi. Polkovnik F.Lautenə səlahiyyət verilmişdi ki, "əhalinin əksəriyyətini müsəlmanlar təşkil edən qonşu rayonları da öz general-qubernatorluğuna birləşdirə bilər" [32, s. 88]. İngilislər dəmiryolu, poçt, teleqrafı nəzarətə götürmüş, yerli əhalidən vergi toplanması hüququnu əllərinə keçirmiş, hərbi qüvvələrini Naxçıvan, Culfa, Şahtaxtı və Dəvəlidə yerləşdirmişdilər [47, s. 57]. İngilislər özlərini bitərəf elan etmələrinə baxmayaraq, Naxçıvanın Ermənistana qatılması ideyasını müdafiə edirdilər. Milli Şuranın sədri Cəfərqulu xan və üzvləri 1919-cu il fevralın 26-da general-qubernator F.Lautenə məktub göndərərək bölgənin müsəlmanların iradəsinin əksinə olaraq Ararat Respublikasına verilməsinə etiraz edir və göstərirdilər ki, "müsəlmanlar bizdən heç bir cəhətdən üstün olmayan, əksinə bir çox hallarda bizdən geri qalan ermənilərin qulu ola bilməzlər" [13, v. 2].

İngilis missiyası ermənilərin Naxçıvana qarşı işğalçılıq hərəkətlərinə nəinki mane olmur, əksinə erməniləri silahlandırırdı. Onlar bir tərəfdən Naxçıvanın Azərbaycanın bir hissəsi olduğunu tanıyır, maliyyə və silah vəd edir, digər tərəfdən isə Naxçıvanın daşnak Ermənistanın hakimiyyətinə verilməsi təkliflərini irəli sürürdülər [47, s. 59].

1919-cu il 3 aprel tarixindən F.Lauteni Con Simpson əvəz etdi. Yeni general-qubernatorun fəaliyyəti sayəsində Naxçıvanın Ermənistana tabe etdirilməsi daha da sürətləndi. Onun bilavasitə göstərişi ilə əhalidəki silahlar yığılmağa, Osmanlı təəbələri bölgədən çıxarılmağa başlandı. Azərbaycan hökuməti tərəfindən Naxçıvana göndərilmiş polkovnik Ququşovun başçılığı ilə zabit heyətindən Naxçıvanı tərk etmək tələb olundu [28, s. 66].



Naxçıvanın erməni idarəsinə verilməsinin ilk mərhələsini Britaniyanın Qafqazdakı qoşunlarının komandanı Devi aprelin 17-də Xatisyan ilə Gümrüdə müzakirə etdi. Erməni komandiri Dronun Naxçıvanı silah gücünə tabe etdirmək haqqında planı Devinin Simpsonla görüşündə bəyənildi [30, s. 167-168]. General Tomson da onların bu məqsədlərini qəbul etdi. Tomson erməni rəhbərlərinə təkilf edirdi ki, Qarabağın və Zəngəzurun Azərbaycana verilməsini qəbul edərlərsə, Qars və Naxçıvanın onların nəzarəti altına keçməsinə kömək edəcəkdir.

Bölgənin Ermənistanın müvəqqəti idarəçiliyinə verilməsi yolunda atılan ən mühüm addımlardan birini də ingilis generalı Devinin mayın 2-də Naxçıvana səfəri təşkil edir. Devi Müsəlman Milli Şurasının üzvləri və Naxçıvanın sayılan adamları ilə görüşündə Naxçıvan və Şərur qəzalarının Ermənistan Respublikası ərazisində yerləşdiklərinə görə onun hakimiyyətinin tabeçiliyinə keçməli olduqlarını bildirdi [8, v.4]. Naxçıvan müsəlmanları Ermənistana birləşməkdən qəti imtina etdilər və bunu açıq zorakılıq kimi səciyyələndirdilər.

İngilislərin bu rayonları ermənilərə vermək fikrindən dönmədiklərini görən naxçıvanlılar bir sıra şərtlər irəli sürdülər. Bu şərtlərin yerinə yetirilməsi zorla ayrılmış vilayətlərin vəziyyətini qismən yüngülləşdirdi. Naxçıvan bölgəsinin Ermənistan Respublikasının müvəqqəti idarəçiliyinə verilməsi barədə ingilis generalı Devi və İrəvan hərbi dəstəsinin rəisi Dro tərəfindən 1919-cu il noyabrın 3-də birgə əmr imzalandı [17, v.30-32]. Azərbaycan hökumətinin və yerli müsəlmanların bununla əlaqədar etirazları ingilislər tərəfindən qəbul edilmədi.

İngilis generalı Devi Naxçıvan, Şərur və Ordubad qəzalarının ermənilərə verilməsi haqqında rəsmi xəbəri naxçıvanlılara çatdırmaq üçün 1919-cu il mayın 5-də Naxçıvana gəldi. O həmin gün Milli Şuranın üzvləri və şəhərin nüfuzlu şəxsləri ilə görüşərək bu barədə məlumat verdi. Naxçıvanlılar Ermənistanla birləşməkdən qəti imtina etdilər, bunu zorakılıq kimi qiymətləndirdilər [18, v. 15]. Onlar qəti olaraq bildirdilər ki, erməni hökuməti tanınmayacaq, ermənilərə

xidmət edənlər edam ediləcək, əhalinin bölgədən çıxmasına icazə verilməyəcək. Biz yeganə hakimiyyət orqanı olaraq yaradılan Milli Komitəni tanıyırıq [26, s. 121].

Mayın 14-də general Devi və Ermənistanın Baş naziri Q.Xatisyan Naxçıvana gəldilər. Onları Kalbalı xan, Milli Komitənin üzvləri qarşıladılar. Onlar şəhərdə əhali ilə görüşlərində naxçıvanlıların barışmaz mövqeyinin şahidi oldular. Beləki, Q.Xatisyan müttəfiq dövlətlərin Qafqazdakı nümayəndələrinin – ingilislərin iradəsi ilə Naxçıvanın müvəqqəti olaraq Ermənistanm idarəçiliyinə verilməsi fikrini söyləyərkən tədbirdəki ağsaqqalların kəskin etirazları ilə qarşılaşdı. Naxçıvanlılar öz etirazlarını həmçinin, yazılı surətdə Cənubi Qafqazdakı Britaniya qoşunlarının komandanhğına, Ermənistan, Azərbaycan və müttəfiq dövlətlərin hökumətlərinə bildirdilər. Lakin azərbaycanlı əhalinin etirazları əməli nəticə vermədi və bölgənin əhalisi iyulun sonlarına qədər erməni “idarəçiliyi”altında yaşamalı oldu. Mayın ortalarında Ermənistam hökumətinin qərarı ilə daşnak Varşamyanın başçılığı ilə Naxçıvan general-qubernatorluğu yaradıldı. Daşnaklar yalnız Naxçıvan şəhərini və dəmiryolu ətrafındakı əraziləri nəzarətdə saxlaya bilmişdi. Qəzalarda hakimiyyət yerli liderlərin əlində idi. Şərura zabit Həmzəyev, Naxçıvanın şimal sahəsinə Bəhram xan Naxçıvanski, Ordubada Səmədbəyov nəzarət edirdi [47, s. 62].

1919-cu ilin mayın ortalarından iyulun sonlarınadək – təxminən iki aylıq bir müddətdə Naxçıvan bölgəsində erməni “idarəçiliyi” peyda oldu. Həmin müddət çoxlu mühüm siyasi hadisələrlə zəngin olub naxçıvanlıların ermənilərə qarşı qəhrəmancasına mübarizəsi ilə səciyyələnir [32, s. 139]. Azərbaycanlı əhali bir sıra mülahizələri, xüsusilə, bütün işlərin müttəfiq dövlətlər adından görüldüyünü, Devi və Xatisyanın vədlərini nəzərə alaraq əvvəlcə ermənilərə müqavimət göstərmədi. Lakin Naxçıvan Müsəlman Milli Şurasının sədri həmin dövrdə bölgədə baş verən siyasi hadisələr barədə məlumatda yaranmış şəraitdə onların tutduqları mövqeyi belə izah edirdi: “Baxmayaraq ki, hazırda Naxçıvanda erməni mülki qubernatoru və general-qubernatoru vardır, biz hamımız, Naxçıvan rayonunun



sakinləri öz təşkilatlarımızı dağıtmamışıq və ingilislərin buradan getməsini və Zəngəzur qəzasının Azərbaycan qoşunları tərəfindən tutulmasını gözləyirik. Azərbaycan bu qəzanı ələ keçirən kimi biz onlarla birləşib elə həmin gün ermənilərə təklif edəcəyik ki, öz avadanlıqlarını bizim ərazidən yığışdırsınlar, əgər biz buna sülh yolu ilə nail olmasaq, silaha əl atacağıq, çünki biz özümüzü Azərbaycanın ayrılmaz hissəsi hesab edirik...” [18, v.16].

1919-cu il iyunun sonu – iyulun əvvəllərində ingilis qoşunları Naxçıvanı tərk etməyə başladı. Ermənilər ingilislər hələ bölgədən çıxmamış Naxçıvan məsələsini öz xeyirlərinə həll etmək məqsədilə bölgəni azərbaycanlılardan təmizləmək, etnik tərkibdə ermənilərin sayını artırmaq, ölkədə hərbi səfərbərlik aparmaq və Naxçıvan bölgəsinə əlavə qoşun hissələri yeridilməsinə başladılar. Bunun müqabilində naxçıvanlılar da ingilislərin çıxmasından istifadə edərək erməni “idarəçiliyi”nə son qoymaq üçün bir sıra tədbirlər gördülər.

Naxçıvan əhalisi erməni işğalçılarına qarşı tədricən əsl müharibəyə çevrilən azadlıq mübarizəsinə başladı. Naxçıvan bölgəsinin bir sıra yerlərində könüllü partizan dəstələri ermənilərə qarşı uğurlu əməliyyatlar aparır, onların qüvvələrini sarsıdırdı. Ermənilərə qarşı vuruşan könüllülərin sayı 10 minə çatırdı [30, s. 205]. İrəvandakı səlahiyyətli nümayəndə M.Təkinski vasitəsi ilə Azərbaycan hökuməti naxçıvanlılara geniş siyasi, diplomatik və maliyyə yardımı göstərirdi [33, s. 148-149].

Ermənilərin bölgədəki ağalığına son qoyulması ilə nəticələnən əsas hərbi hadisələr 1919-cu il iyul ayının son ongünlüyündə baş verdi. Naxçıvan şəhəri ətrafında, Şahtaxtı, Yengicə və Noraşen stansiyalarında hərbi sursat cəhətdən daha üstün olmalarına baxmayaraq, erməni qüvvələri məğlub edildilər, çoxlu silah və sursat, zirehli qatar ələ keçirildi. Şahtaxtıda erməni qarnizonu və Naxçıvandakı qoşunlara köməyə gələn Humba paşanın – “Yapon”un eşalonu darmadağın edildi. Xanlıqlar kəndi döyüşsüz təslim oldu, 5 zabit, 95 əsgər əsir alındı, 600 tüfəng qənimət götürüldü.

General Şelkovnikovun qüvvələri Naxçıvan şəhərində bir müddət müqavimət göstərsə də iyulun 24-də o, şəhəri tərk etməli oldu.

Ordubad bölgəsi üç günlük döyüşlərdən sonra ələ keçirildi. Düşmənin Vedidə möhkəmlənmək cəhdi də baş tutmadı, ermənilər burada 4 min canlı qüvvə itirdi.

Naxçıvan bölgəsində ingilislərin "himayəsi" altında silah gücünə yaradılmış erməni "idarəçiliyi" iflasa uğradı və biabırçılıqla başa çatdı. Azərbaycan Xalq Cümhuriyyətinin baş naziri N.Yusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında bu barədə demişdi ki, İrəvan quberniyasının bütün türk rayonu, o cümlədən də Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək təbii orqanizm saydığı Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi [32, s. 155].

Ermənilərin Naxçıvan bölgəsindən qovulması regionun Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələrini möhkəmlətdi. Bundan istifadə edən respublika hökuməti öz nümayəndəsi Səməd bəy Cəmillinskini buranın müvəqqəti general-qubernatoru təyin etdi [32, s. 159].

Erməni işğalına son qoyulduqdan sonra bölgənin idarə edilməsində çox mürəkkəb vəziyyət yaranmışdı. Əslində hakimiyyət üç qüvvənin: Azərbaycan hökumətinin bölgədəki nümayəndəsi – general-qubernator S.Cəmillinskinin, Türkiyənin hərbi nümayəndəsi Xəlil bəyin və Kalbalı xan və onun tərəfdarlarının əlində idi. Bölgənin ermənilərdən azad edilməsində onlar birgə mübarizə aparsalar da hakimiyyət bölgüsündə, diyarın idarə edilməsində, xarici oriyentasiya və s. məsələlərdə onlar arasında kəskin fikir ayrılıqları var idi.

General-qubernator S.Cəmillinski Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xəttini yeridir və diyarın Azərbaycanla əlaqələrini daha da möhkəmləndirməyə çalışırdı. Naxçıvan bölgəsində öz mütləq hakimiyyətini qurmağa və müstəqil fəaliyyət göstərməyə çalışan Kalbalı xan və 1919-cu ilin yayında yenidən Naxçıvana qayıtmış, bölgəni Türkiyənin nüfuz dairəsinə qatmağa çalışan Xəlil bəy arasında münasibətlər kəskinləşmiş, onlar arasında ziddiyətlər yaranmışdı. Bu ziddiyətləri aradan qaldırmaq məqsədi ilə S.Cəmillinski Xəlil bəyi Naxçıvan qoşunlarının baş komandanı, rütbəsi artırılmış Kalbalı xanı isə onun köməkçisi, eyni zamanda, Naxçıvan qoşun dəstəsinin komandiri təyin etmişdi [28, s. 85]. S.Cəmillinski Naxçıvanda Azərbaycan hökumətinin nüfuzunu yüksəltmək və çoxhakimiyyətliliyə son qoymaq üçün bölgəyə nizami qoşun hissələrinin göndərilməsini, yerli xəzinənin pul vəsaiti ilə təmin edilməsini və s. kimi addımların atılmasını hökumətdən xahiş edirdi.

Naxçıvan diyarının idarə edilməsini yaxşılaşdırmaq və onun sosial-iqtisadi problemlərini həll etmək üçün dövlət orqanları fəaliyyətə başlamışdı. Bu problemlər içərisində qaçqınlar problemi xüsusi yer tuturdu. Erməni hökumətinin təcavüzkar siyasəti nəticəsində İrəvan quberniyasından Naxçıvan ərazisinə pənah gətirmiş qaçqınların sayı 70 mindən artıq idi [9, v.4]. Bölgədəki qaçqınların yerləşdirilməsi və təmin olunması üçün B.Şahtaxtinskinin başçılığı ilə Qaçqınlar Komitəsi yaradıldı [29, s. 37-39].

1919-cu ilin yayında Naxçıvan bölgəsində ingilislərin mövqelərinin zəiflədiyini görən ABŞ burada daha fəal siyasət yeritməyə başladı. Qafqazda nüfuz dairəsini qazanmaq uğrunda İngiltərə ilə rəqabətə girən Birləşmiş Ştatlar Şimali Azərbaycanın, xüsusi ilə də Naxçıvan bölgəsinin strateji mövqeyinə mühüm əhəmiyyət verir, ermənilərin bu diyarı ələ keçirmək niyyətlərindən öz məqsədləri üçün istifadə edərək, müxtəlif vasitə və üsullarla bölgədə möhkəmlənməyə çalışırdı [31, s. 228]. ABŞ əsasən, daşnakpərəst mövqedən çıxış etsə də, bölgəyə kifayət qədər hərbi qüvvə gətirə bilməməsi, yerli azərbaycanlı əhalinin çox güclü müqaviməti, AXC hökumətinin prinsipial mövqeyi və s. görə ikili siyasət yeridirdi. Belə ki, 1919-cu il avqustun 22-də Paris konfransının Ermənistana Ali komissar təyin etdiyi polkovnik V.Haskel Ermənistandakı çıxışında daşnakların bu qəzalara qarşı irəli sürdükləri ərazi iddialarını müdafiə etdiyini bildirmişdi. Avqustun 29-da Bakıda Baş nazir N.Yusifbəyli, Xarici İşlər naziri M.Cəfərov və b. ilə görüşündə bölgənin Azərbaycanın idarəçiliyində saxlanacağını elan etmişdi [31, s. 228].

1919-cu ilin sentyabrında V.Haskel Naxçıvan və Şərur-Dərələyəz torpaqlarını əhatə edən "bitərəf zona" yaradılması layihəsini Azərbaycan hökumətinə təqdim etdi. Bu layihəyə görə "bitərəf zona" polkovnik V.Haskelin təyin etdiyi amerikalı qubernatorun idarəsində olmalı idi. "Bitərəf, yaxud neytral zona" yaradılması haqqında Haskelin birinci layihəsi yerli hakimiyyət orqanlarının tamamilə Amerika qubernatoruna tabeliyini nəzərdə tuturdu. Bu layihəyə görə Şərur və Naxçıvan qəzaları amerikalı qubernatorun başçılığı ilə müttəfiqlərin idarəsi altmda olan zonanı təşkil etməli idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti V.Haskelin layihəsini qəbul edə bilməzdi. Hələ 1919-cu il 28 fevral tarixli qərarı ilə AXC hökuməti Naxçıvan general-qubernatoru yaratmış və Bəhram xan Naxçıvanskini oraya qubernator təyin etmişdi [7, v.2]. Xarici İşlər naziri M.Cəfərovun V.Haskelə göndərdiyi teleqramda "bitərəf zona" yaradılmasına qəti etiraz olunur, bölgənin yalnız Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Amerika general-qubernatorluğu tərəfindən idarə edilməsinə razılıq verilirdi.

V.Haskelin layihəsi əsasında Naxçıvanda general-qubernatorluğun yaradılması yerli azərbaycanlı əhalinin də kəskin etirazına səbəb oldu. Onlarm nümayəndələrinin 1919-cu il sentyabrın 9-da Haskelə təqdim etdiyi tələbnamədə, eləcə də həmin ilin oktyabrın 1-də Naxçıvanda S.Cəmillinskinin, Xəlil bəyin və Kalbalı xanın V.Haskelin nümayəndəsi A.Robenzonla görüşündə Naxçıvan, Şərur, Dərələyəz, Vedibasar və Milistan əhalisinin əksəriyyətinin Azərbaycan türkləri olduğunu, bu ərazilərin iqtisadi, siyasi, mədəni və strateji cəhətdən Azərbaycamn ayrılmaz tərkib hissəsi olduğunu və öz qanları ilə azadlıq qazandıqlarını nəzərə çatdırmışdı [19, v.73].

Müttəfiqlərin Ali komissarının Azərbaycan üzrə müvəkkili Ceyms Rey 1919-cu il oktyabrın 16-da Müsəlman Milli Şurasına və Kalbalı xana göndərdiyi məktubunda Naxçıvan və Şərur rayonlarının müttəfiq idarəçiliyndə saxlanıldığını, orada Amerika general-qubernatorluğunun yaradıldığını, ABŞ ordusunun mühəndisi, polkovnik Edmond L.Dellinin ona başçı təyin edildiyini və oktyabrın 23-də Naxçıvana gəlib vəzifələrinin icrasına başlayacağını çatdırırdı [45, 1919, 23 oktyabr].

1919-cu il oktyabrın 24-də Naxçıvana gələn C.Rey S.Cəmillinski, Kalbalı xan və Xəlil bəylə görüşündə V.Haskelin Naxçıvanda general-qubernatorluq yaradılması haqqında bəyanatını elan etdi. Bəyanatda, həmçinin bölgədə yaşayan xalqların sayına görə erməni və azərbaycanlılardan ibarət Mərkəzi Şuranın yaradılması, bölgədən Azərbaycan və Ermənistan qoşunlarının çıxarılması, dəmiryolun və teleqrafın qubernatorun nəzarəti altında qalacağı, idarəetmə xərclərinin yerli büdcə hesabına ödənilməsi bildirilirdi [18, v. 76]. Lakin Naxçıvan rəhbərləri öz mövqelərində qalaraq C.Reyin təkliflərini qətiyyətlə rədd etdi. Ertəsi gün ictimaiyyətin geniş nümayəndələri amerikalı nümayəndələr ilə görüşündə də əhalinin yalnız Azərbaycan hökumətini tanıdığı amerikah nümayəndələrin nəzərinə çatdırıldı. Bölgənin azərbaycanlı əhalisinin güclü müqaviməti ilə rastlaşan C.Rey Delinin burada general-qubernator kimi deyil, müttəfqilərin Ali komissarlığının nümayəndəsi kimi qalması ilə razılaşdı.

Beləliklə, Naxçıvan əhalisinin inadlı mübarizəsi və Azərbaycan hökumətinin ciddi səyləri nəticəsində ermənilərin bölgəni "bitərəf zona"ya çevirmək və orada Amerika general-qubernatorluğu yaratmaq yolu ilə Naxçıvanı Azərbaycandan ayırmaq cəhdləri boşa çıxdı. Məqsədlərinə nail ola bilməyən Amerika nümayəndələri 1919-cu ilin sonu – 1920-ci ilin əvvəllərində Naxçıvanı birdəfəlik tərk etdilər [14, s. 121].

Bu dövrdə Naxçıvan bölgəsində hərbi-siyasi vəziyyət yenidən gərginləşməyə başladı. Erməni daşnakları tərəfindən bütün sərhəd boyu Naxçıvan mahalının Vedibasardan Ordubada qədər bölgəyə hücum üçün hazırlıqlar görülür, nizami silahlı qüvvələr cəmləşdirilirdi. 1920-ci ilin yanvarında Naxçıvanı işğal etmək üçün daşnak Ermənistanı yeni cəhd göstərdi. Naxçıvan rəhbərləri arasında birliyin olmaması vəziyyəti çətinləşdirirdi. 1920-ci ilin martında Cavid bəyin xahişi ilə Kazım Qarabəkir paşanın qərarı ilə Naxçıvana Əli Teymur bəyin komandanlığı altında 50 nəfərdən ibarət yeni türk

qoşun hissəsi gəldi [31, s. 62]. Kalbalı xanın, Ədib bəyin, Abbasqulu bəy Şadlinskinin başçılığı ilə yerli azərbaycanlılar erməni quldur dəstələrinə layiqli cavab verdilər və İrəvanın 8 km-liyinə qədər çatdılar [30, s. 274].

Türkiyə milli azadlıq hərəkatının liderləri Antantanın işğalçılıq planlarına qarşı mübarizədə yeganə müttəfiq Sovet Rusiyasını görür və onunla yaxınlaşmağa can atırdı. Sovet Rusiyası ilə Türkiyə arasında əlaqənin, ancaq Naxçıvan ərazisi vasitəsi ilə mümkün olacağını başa düşən Mustafa Kamal hökuməti Azərbaycanda bolşevizmin hakimiyyətə gəlməsində maraqlı olmuş, XI Ordu ilə sıx əlaqə yaradılmışdı.

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti devrildi və bolşeviklər hakimiyyətə gəlməklə Şimali Azərbaycan sovetləşdirildi. Aprel çevrilişindən sonra Ermənistan hökuməti bildirdi ki, əgər Azərbaycan Şərur-Dərələyəz qəzasından və Naxçıvan rayonundan imtina edərsə, o da Qarabağ və Zəngəzurun Azərbaycana birləşdirilməsinə razılıq verər. Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov bu təklifi rədd edərək, Culfa və Naxçıvanın sovet qoşunları tərəfindən dərhal tutulmasını və Azərbaycana birləşdirilməsini təkidlə tələb edirdi.

Erməni basqınlarından cana doymuş yerli əhali 1920-ci ilin iyulunda məktubla N.Nərimanova və Q.Orconikidzeyə müraciət etdi. Məktubda deyilirdi: "Yerli əhali öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur, Qırmızı ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycanla birləşdirməyi təmin etməyi təvəqqe edirik" [22, s. 252].

Beləliklə, iyulun 28-də Naxçıvanda sovet hakimiyyətinin qurulması ilə Naxçıvan Sovet Sosialist Respublikası elan edildi və respublikanın ali hakimiyyət orqanı – Naxçıvan İnqilab Komitəsi (M.Bektaşov, A.Qədimov, A.Bağırov, F.Mahmudbəyov, Q.Babayev, Q.Əsgərov, N.Nəcəfov) yaradıldı. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsi Azərbaycan SSR XKS-in sədri N.Nərimanova göndərdiyi məktubda deyilirdi: "Naxçıvan camaatının çox böyük əksəriyyətinin



qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz tərkib hissəsi hesab etmişdir" [20, v. 3].

1920-ci ilin oktyabrında G.Əsgərov Naxçıvan İnqilab Komitəsinin sədri təyin olunur və 10 şöbə yaradılır.

Bu dövrdə Sovet Rusiyası yenə ikili siyasət yeridirdi. Bir tərəfdən erməni daşnak qüvvələri ilə müharibə aparır, digər tərəfdən isə onlarla danışıq aparırdı. Məhz Sovet Rusiyasının təşəbbüsü ilə 1920-ci il avqustun 10-da daşnak Ermənistanı ilə barışıq sazişi imzalandı [2, v. 171-172]. Sazişə görə tərəflər hərbi əməliyyatları dayandırmalı, erməni qoşunları Şahtaxtı-Xok-Əznəbürd-Sultanlı, daha sonra Küküdən şimala və Bazarçaydan qərbə uzanan demarkasıya xəttində dayanmalı, sovet qoşunları isə Qarabağ, Zəngəzur və Naxçıvanı tutmalı idilər. Gümrü-Şahtaxtı-Culfa dəmiryolundan ermənilər qeyri-hərbi məqsədlər üçün istifadə edə bilərdilər. Beləliklə, Azərbaycanın iştirakı olmadan onun torpaqlarının məsələsi müzakirə olunur, Ermənistanla danışıqlarda Sovet Rusiyası onun adından çıxış edirdi.

Erməni tərəfi Dərələyəz, Zəngəzur, Ordubad, Şərur, Şahtaxtı ərazilərinə basqınlar edir, onları tutmağa çalışırdı. Türk və sovet qoşunları ilk dəfə olaraq ermənilərə qarşı birgə döyüşə girdi və daşnakları məğlub etdilər. 1920-ci ilin noyabr-dekabr aylarında bütün Şərur qəzası ermənilərdən təmizləndi [32, s. 264].

1920-ci il dekabrın 2-də Gümrüdə Türkiyə ilə Ermənistanın daşnak hökuməti arasında müqavilə imzalandı. Müqavilənin ikinci və on ikinci maddələri bilavasitə Naxçıvanla bağlı idi. İkinci maddəyə görə Naxçıvanın ərazisi və statusu aşağıdakı şəkildə müəyyənləşdirilirdi: Kükü dağı – Həməsür dağı – Qurdqulaq kəndi – Saat dağı – Arpaçay evləri – Gömürlü dağı – Saray bulağı – Ararat stansiyası – Araz çayı – Aşağı Qarasu çayının töküldüyü yerdən keçən zolağın cənubundakı (Naxçıvan, Şahtaxtı, Şərur) ərazisinə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi torpaqlara Ermənistanın müdaxilə etməyəcəyi, bu ərazidə hələlik Türkiyənin himayəsində yerli idarə yaradılması nəzərdə tutulmuşdu. On ikinci maddəyə görə isə Türkiyə Şərur-

Şahtaxtı-Naxçıvan-Culfa yolu və İran-Maku-Ermənistan tranzit yolunun təhlükəsizliyinə təminat verirdi [3, v. 86; 27, s. 4-5].

Çox qəribə idi ki, Naxçıvanda olan bolşevik ordusu Ermənistanla müharibə apardığı halda, həm də onlarla siyasi və diplomatik danışıqları davam etdirirdi. Bu danışıqlarda Azərbaycanın mübahisəsiz torpaqlarının Ermənistana verilməsi məsələsi müzakirə olunurdu. Bunu bilən Nəriman Nərimanov Leninə göndərdiyi məktubda yazırdı: "Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstanın və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir..." [21, v.1; 39, s. 103].

Sovet Rusiyası Ermənistanı öz tərəfinə çəkmək, öz nüfuz dairəsinə almaq üçün Azərbaycanın əzəli torpaqları olan Naxçıvan və Zəngəzuru Ermənistana verməyi planlaşdırırdı. Bu yolla həm də Ermənistanı sovetləşdirmək istəyirdi. Sovet Rusiyasının Azərbaycanın bu bölgəsinə dair planlarını İ.Stalinin 1920-ci ilin noyabrın 9-da Bakıdakı çıxışında dediyi bu sözlər də təsdiqləyir: "Əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada sovet hökuməti yaranarsa vermək olar" [15, v. 30].

İ.Stalinin bu fikri özünü çox gözlətmədi. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan dərhal sonra Azərbaycan torpaqlarının Ermənistana verilməsi istiqamətində konkret addımlar atılmağa başlandı.

Ermənistanın bolşeviklərin nəzarəti altına keçməsi ilə əlaqədar Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi [35, v. 6]. HİK-in sədri N.Nərimanovun imzası ilə yayılan bəyanat Rusiyanın diqtəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Bəyanatda deyilirdi: "...Bundan sonra heç bir ərazi əsrlər boyu qonşu olan iki xalqın qanının tökülməsinə səbəb ola bilməz. Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ayrılmaz hissəsidir. Dağlıq Qarabağın



zəhmətkeş kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir" [35, v. 6].

Q.Orconikidze dekabrın 2-də Azərbaycan torpaqlarının Ermənistana verilməsi barədə Rusiya rəhbərliyinə məlumat verir və həmin gün RSFSR ilə Sovet Ermənistanı arasında bu bəyanatı "bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt " adlandırır. Həmin gün RSFSR ilə Sovet Ermənistanı arasında səkkiz maddədən ibarət Gümrü sazişi imzalanır. Həmin sazişin üçüncü maddəsində göstərilirdi ki, Rusiya Sovet hökuməti Ermənistanın 1920-ci il oktyabrın 23-nə kimi sahib olduğu aşağıdakı ərazilərini – İrəvan quberniyasının, Qars vilayəti hissəsinin, Zəngəzur qəzasının, Qazax qəzası hissəsinin, Tiflis quberniyası hissəsinin "Sovet Erməni Respublikasının" tərkibinə daxil olduğunu mübahisəsiz təsdiq edir [1, s. 63].

Bu məlumatdan xəbər tutan Naxçıvan əhalisi kəskin etirazlarını bildirir və buna yol verməyəcəklərini bəyan edirlər. Vəziyyətin gərginləşdiyini görən Azərbaycan rəhbərliyi Hərbi İnqilab Komitəsinin üzvü, Ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini dekabrın 15-də Naxçıvana göndərdi. B.Şahtaxtinski Naxçıvan şəhərində, Şərur və Ordubadda əhali ilə keçirdiyi görüşlərdə 1920-ci il 1 dekabr tarixli bəyanatı ilə əlaqədar əsil həqiqəti əhaliyə söyləməli oldu: "Azərbaycan sizi torpağınızla birlikdə Ermənistana satıb, əgər mən Bakıda olsaydım, buna qəti surətdə razılıq verməzdim. Mən Azərbaycan İnqilab Komitəsinin üzvü kimi B.Vəlibəyovu vəzifəsindən azad edib, özümlə Bakıya aparacağam. Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada istinad edə biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər" [36, v. 1].

B.Şahtaxtinskinin əhali ilə görüşləri və söhbətləri öz nəticəsini verir. Diyarın əhalisi Azərbaycanın himayəsi altında olmaqla Naxçıvanda müstəqil sovet respublikası yaradılmasını tələb edirlər. Naxçıvan əhalisinin qətiyyətli mövqeyi mərkəzin öz mövqeyini

müəyyən qədər də olsa dəyişməsinə səbəb oldu. Naxçıvanın azərbaycanlı əhalisinin qətiyyətli və inadlı mübarizəsi ermənilərin Naxçıvan barəsindəki planlarını pozur. Məkrli niyyətlərini həlalik pərdələyən ermənilər və Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil sovet respublikası kimi tanımış və bu ərazi ilə əlaqədar iddialarından imtina etmişdir. Əslində Ermənistanın Naxçıvanı Azərbaycanın bir hissəsi kimi deyil, müstəqil respublika kimi tanıması onun düşünülmüş, məkrli planlarının tərkib hissəsi idi. Naxçıvanı müstəqil qurum kimi tanımaqla Ermənistan gələcəkdə onu ilhaq etmək niyyəti güdürdü.

Azərbaycan boşevik rəhbərliyi Naxçıvan vilayətində təsirli tədbirlər görmək, əhalinin narazılığını sakitləşdirmək üçün B.Şahtaxtinskini 1921-ci il yanvarın 11-də Hərbi İnqilab Komitəsinin mandatı ilə fövqəladə komissar kimi Naxçıvan göndərir [16, v. 15].

Naxçıvan ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanm muxtariyyət məsələsini zəruri edirdi. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi: "Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi" [25, s. 75].

Naxçıvan diyarınm əhalisi Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində muxtariyyət tələb edirdi. 1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90%-dən çoxu Naxçıvan diyarınm muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi [34, v. 79]. Bu rəy sorğusunun nəticəsi Naxçıvanın Azərbaycanın tərkibində saxlanılmasında mühüm rol oynadı.

Naxçıvan məsələsində N.Nərimanovun əvvəlki mövqeyindən fərqli olaraq sonradan prinsipial mövqe tutması, onun adından B.Şahtaxtinskinin Moskvada apardığı danışıqlar Moskvanın Naxçıvan məsələsinə münasibətinin dəyişməsinə və nəticə etibarı ilə Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsinə təsir etdi. Ümumiyyətlə, Naxçıvan Diyar İnqilab Komitəsinin və



Xalq Komissarları Sovetinin sədri, Azərbaycanın Ədliyyə komissarı, Rusiyada Azərbaycan SSR-in səlahiyyətli nümayəndəsi, Azərbaycan SSR-in Fəhlə-Kəndli Müfəttişi, Azərbaycan Xalq Komissarları Sovetinin sədr müavini kimi çox məsul vəzifələrin öhdəsindən layiqincə gələn Behbud ağa Şahtaxtinsikinin Naxçıvanın müxtariyyət statusu qazanmasında çox böyük xidməti olmuşdur [29]. O, fəaliyyəti dövründə Azərbaycan SSR-in müxtəlif problemləri ilə bağlı RSFSR XKS-in sədri V.Leninə teleqramlar vurmuş, məktublar yazmış, bu məktublara bir sıra arayışlar da əlavə etmişdir. Onun V.Leninə göndərdiyi məktub və arayışlar içərisində 1921-ci il martın 1-də göndərdiyi teleqram və ona daxil etdiyi əlavələrin xüsusi əhəmiyyəti vardır. Onun V.Leninə ünvanladığı bu teleqramda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan rahatsızlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər irəli sürmüşdü [32, s. 304]. Martın 7-də V.Leninin dərkənarı ilə müzakirə üçün Siyasi Büroya göndərilən həmin məktuba martın 16-da Stalinin, Çiçerinin və b. iştirakı ilə baxılmış, B.Şahtaxtinskinin təklifi nəzərə alınmaqla Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul olunmuşdu.

Naxçıvamn Azərbaycan SSR-in himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında imzalanmış "Dostluq və qardaşlıq haqqında"kı müqavilədə də öz əksini tapdı. 1921-ci il martın 16-da imzalanan Moskva müqaviləsinin 3-cü maddəsinə əsasən belə bir qarşılıqlı razılığa gəlindi ki, "Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir" [22, v. 93 arx.; 16, s. 33, 37-38]. "Naxçıvanın ərazisi" adlı I (B) əlavəsində bölgənin sərhədləri aşağıdakı kimi müəyyənləşdirilirdi: "Ararat stansiyası – Saray Bulaq dağı – Kömürlüdağ – Sayatdağı (7868)– Qurdqulaq kəndi – Həməsür dağı (8060) – 8022 yüksəkliyi – Kükü dağı (8282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi" [44,

s. 38]. Bununla da Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə bir aydınlıq gətirildi.

1921-ci il oktyabrın 13-də RSFSR-in nümayəndəsinin iştirakı ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR ilə Türkiyə arasında imzalanan Qars müqaviləsinə əsasən, Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi. Müqavilənin 5-ci maddəsi və 3-cü əlavəsi Naxçıvamn ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Burada göstərilirdi ki, Naxçıvan vilayəti bu müqavilənin 3-cü əlavəsində müəyyən edilmiş sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar bir ərazi olduğu məsələsində müttəfiqdirlər [4, v. 9-19]. Müqavilə maddəsindən də göründüyü kimi, burada Moskva müqaviləsinin üçüncü maddəsinin müəyyən bir hissəsi, yəni, "Azərbaycan bu himayəçilik haqqını üçüncü bir dövlətə heç bir zaman güzəştə gedə bilməməsi" öz əksini tapmışdı.

"Naxçıvanın ərazisi" adlı 3 nömrəli əlavədə bögənin sərhədləri aşağıdakı kimi müəyyənləşdirildi: "Urmiya kəndi, oradan düz xəttlə Arazdəyən stansiyasına (bu stansiyanı Ermənistan SSR-də saxlamaqla), sonra düz xəttlə qərbi Daş-Burun dağına (3142) və daha sonra suayrıcı xətlə şərqi Daş-Burun dağı (4108) və Cəhənnəmdərəsi çayından keçməklə "Bulaq"dan cənuba, Bağırsaq dağı (6607), (6587 suayrıcı xətti ilə və buradan keçmiş İrəvan, Şərur-Dərələyəz qəzalarının inzibati sərhədi ilə 6625 yüksəkliyindən keçərək Kömürlü dağına (6839), (6930) və daha sonra 3080 – Sayatdağ (7868) yüksəklikləri ilə Qurdqulaq kəndi, Həməsür dağı (8160),· 8022 yüksəkliyi, Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi" [22, v. 114-115].

Qars müqaviləsinin mühüm əhəmiyyətindən biri Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflərin müəyyən edilməsidir. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri idi [42, s. 17]. Qars müqaviləsi ilə Ermənistan da Naxçıvanın Azərbaycan ərazisi olduğunu rəsmən təsdiq etdi. Müqavilənin ən əhəmiyyətli tərəflərindən biri də onun müddətsiz imzalanması idi.



Bununla belə, Moskva müqaviləsindən fərqli olaraq Naxçıvanın statusu və tabeçiliyinə aid Azərbaycamn himayəçilik hüququ haqqında müddəa Qars müqaviləsində əks olunmamışdır.

Ümummilli lider Heydər Əliyev beynəlxalq Qars müqaviləsinin tarixdəki yerini və rolunu yüksək qiymətləndirərək demişdir: "Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir..." [24, s. 9].

Naxçıvanın tarixi müqəddəratında, onun Azərbaycanın tərkibində saxlanılmasında bir sıra amillərlə yanaşı, Moskva və Qars beynəlxalq müqavilələrinin də rolu olmuşdur. Hər iki beynəlxalq müqavilə müddətsiz imzalanmış və bu gün də qüvvədədir. Həmin müqavilələri birtərəfli qaydada onu imzalayan dövlətlər ləğv edə bilməz.

Beləliklə, 1917-1921-ci illərdə aparılan inadlı mübarizə, 1921-ci il rəy sorğusunun nəticəsi, bir sıra görkəmli şəxsiyyətlərin fəaliyyətləri, Türkiyənin köməyi, beynəlxalq Moskva və Qars müqavilələrinin şərtləri Naxçıvan diyarına Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsi ilə nəticələndi.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 – iyun 1941). Bakı: Elm, 2008, 568 s.
2. ARDA, f.28, siy. 1, iş 20
3. ARDA, f.28, siy. 1, iş 55
4. ARDA, f.28, siy. 1, iş 67
5. ARDA, f.411, siy. 1, iş 199
6. ARDA, f.894, siy. 2, iş 92
7. ARDA, f.894, siy. 2, iş 102
8. ARDA, f.894, siy. 10, iş 33
9. ARDA, f.894, siy. 10, iş 80
10. ARDA, f.894, siy. 10, iş 104
11. ARDA, f.897, siy. 1, iş 57[a]
12. ARDA, f.970, siy. 1, iş 1

13. ARDA, f.970, siy. 1, iş 37
14. ARDA, f.970, siy. 1, iş 65
15. ARPİİ SSA, f.1, siy.1, iş 24
16. ARPİİ SSA, f.1, siy.2, iş 18
17. ARPİİ SSA, f.276, siy.9, iş 1
18. ARPİİ SSA, f.277, siy.2, iş 57
19. ARPİİ SSA, f.277, siy.2, iş 58
20. ARPİİ SSA, f.609, siy.1, iş 6
21. ARPİİ SSA, f.609, siy.1, iş 71
22. ARPİİ SSA, f.609, siy.1, iş 94
23. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. İki cilddə. c.2, Bakı, Lider nəşriyyatı, 2005, 472 s.
24. Behbud ağa Şahtaxtinski və Qars müqaviləsi (12 oktyabr 2011-ci ildə Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi və beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümünə həsr olunmuş konfransın materialları). Naxçıvan: Əcəmi NPB, 2012, 88 s.
25. *Əliyev Heydər.* Müstəqilliyimiz əbədidir. 24-cü kitab. Bakı: Azərnəşr, 2005, 520 s.
26. *Əliyev M.B.* Qanlı günlərimiz (1918-1920 Naxçıvan). Bakı: Azərnəşr, 1992, 142 s.
27. Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taley (Tərtib edən və ön sözün müəllifi İsmayıl Hacıyev). Bakı: Elm, 1999, 36 s.
28. *Hacıyev A.* Qars və Araz-Türk respublikalarının tarixindən. Bakı: Azərnəşr, 1994, 124 s.
29. *İbrahimzadə F.Z.* Behbud ağa Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyəti. Bakı, 2007, 232 s.
30. *İbrahim Ethem Atnur.* Osmanlı idarəçiliyindən Sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan: Əcəmi NPB, 2013, 496 s.
31. *Mədətov Q.Ə.* Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in yaranması. Bakı: Azərnəşr, 1958, 164 s.
32. *Musayev İ.M.* Azərbaycanın Naxçıvan və Zəngəzur bplgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1996, 328 s.
33. *Musayev İ.* Naxçıvan bölgəsində Amerika general-qubernatorluğuna dair /Tarixi keçmişsiz bu günümüz və gələcəyimiz yoxdur (məruzələr məcmuəsi). Bakı, 1995, s.228-229.
34. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), f.1, siy. 3, iş 13
35. NMR DA, f.314, siy.5, iş 14
36. NMR DA, f.314, siy. 5, iş 15
37. Naxçıvan Muxtar Respublikası – 75. Bakı Universiteti "Xəbərləri"nin xüsusi buraxılışı. Bakı, 1999, № 3, 250 s.
38. Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının 90 illiyinə həsr edilmiş təntənəli yubiley iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. "Azərbaycan", 2014, 9 aprel
39. *Nəriman Nərimanov.* Tərtib edən və ön sözün müəllifi prof. Teymur Əhmədov. Bakı: Nurlan NPM, 2010, 160 s.
40. *Piriyev V.Z.* Azərbyacanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim, 2006, 148 s.
41. *Rəhimov K., Sadıxov S.* Naxçıvan 1920-ci illərin burulğanında // "Dirçəliş", 1992, №1, s.40-46.
42. Qars müqaviləsi. Azərbaycan, rus, türk və fransız dillərində. Tərtib edən və ön sözün müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: AzAtam, 2004, 84 s.
43. *Qafarov V.* Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, 2011, 474 s.
44. *İsmayil Soysal.* Tarihçeleri ve açıklamaları ile birlikte Türkiyenin siyasal andlaşmaları. I cilt (1920-1945). 2. Baskı. Ankara, 1989, 704 s.
45. «Азербайджан» qəzeti.

46. *Казымзаде Б.* Борьба за Закавказье (1917-1921). Баку: Şərq-Qərb, 2010, 328 s.
47. *Мадатов Г.А.* Победа Советской власти в Нахичевани и образованиеНахичеванской АССР. Баку: Элм, 1968, 187 с.



**Nəcəf Müseyibli**
**AMEA Arxeologiya və Etnoqrafiya İnstutunun**
**elmi işlər üzrə direktor müavini**

## NAXÇIVANIN ARXEOLOJİ ABİDƏLƏRİ TARİXİ İRSİMİZİN VARİSLİK RƏMZİDİR

***Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir.***

***Heydər Əliyev***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev «Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında» 14 yanvar 2014-cü il tarixli Sərəncam imzalamışdır. Sərəncamda qeyd edilir ki, «Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır».

Doğrudan da Naxçıvan bölgəsinin zəngin abidələri Azərbaycanın milli maddi mədəni irsinin ən parlaq nümunələri sırasındadır. Naxçıvan minilliklər ərzində coğrafi mövqeyi və tarixi ənənələri ilə vəhdət təşkil etməklə Azərbaycanın mühüm strateji əhəmiyyətə malik qədim bir bölgəsidir. Azərbaycanın qədim mədəniyyətlərinin, tarixi varisliyinin öyrənilməsində Naxçıvanın arxeoloji abidələrinin müstəsna əhəmiyyəti vardır.

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan diyarı özünəməxsus təbii coğrafi şəraiti ilə tarixin bütün mərhələlərində insanların burada məskunlaşmasına səbəb olmuşdur.

Şimaldan Kiçik Qafqazın Dərələyəz və Zəngəzur dağ silsilələri, cənubdan Araz çayı ilə sərhədlənən Naxçıvan bölgəsi Araz çayının və onun qollarının vadilərindəki münbit torpaqları, yüksək dağlıq ərazilərindəki otlaqları ilə qədim əkinçilik və maldarlığın inkişaf etdirilməsi üçün əlverişli şəraitə malik olmuşdur. Məhz bu səbəbdən Naxçıvan ərazisində tarixin bütün mərhələlərini əks etdirən tarixi-arxeoloji abidələr mövcuddur.

Naxçıvan ərazisindəki abidələr barədə hələ XVII-XIX əsr Avropa və Osmanlı səyyahları (Jan Şardən, Evliya Çələbi, Debua-de Monpere və b.) məlumatlar vermişlər. Naxçıvan abidələrində elmi əsaslara söylənən ilk arxeoloji qazıntı işləri XX əsrin 20-ci illərində aparılmışdır. 1926-cı ildə Azərbaycanı Tədqiq və Tətətöbbə Cəmiyyəti tərəfindən Naxçıvana tanınmış alim İ.İ.Meşaninovun rəhbərliyi, Ə.Ələkbərov, İ.Cəfərzadə, Ə.Ələsgərzadə və İ.Əzimbəyov kimi bu sahədə ilk milli kadrların iştirakı ilə ekspedisiya göndərilmişdir. Ekspedisiya indiki Babək rayonu ərazisində, Araz çayı sahilində e.ə. II minilliyə aid Qızılburun nekropolunda qazıntı işləri aparmışdır.

İkinci dünya müharibəsinə qədərki illərdə Naxçıvan abidələri barədə ən geniş və tutarlı məlumatlar görkəmli arxeoloq və etnoqraf Ələsgər Ələkbərov tərəfindən verilmişdir (A.K.Алекперов 1960). Onun rəhbərliyi ilə 1936-cı ildə Naxçıvana göndərilmiş ekspedisiya Şərur və Kəngərli rayonları ərazisindəki son tunc – erkən dəmir dövrünə (e.ə. II min. sonu – I min. əvvəli) aid Oğlanqala, Şortəpə və Şahtaxtı abidələrində arxeoloji tədqiqat işləri aparmışdır. Ə.Ələkbərov bu tədqiqatlar nəticəsində Naxçıvan ərazisində qeyd edilən dövrə aid siklop tikililərin, şəhər və kənd tipli yaşayış yerlərinin olduğunu və bu bölgədə inkişaf etmiş sinifli cəmiyyətin – dövlətin mövcudluğunu və bölgənin Yaxın Şərq (Assuriya) mədəniyyətləri ilə əlaqələrinin olduğunu yazmışdır.



Babək rayonu ərazisindəki I Kültəpə qədim yaşayış məskənində görkəmli Azərbaycan arxeoloqu Osman Həbibullayevin apardığı qazıntı işləri bütövlükdə Qafqaz arxeologiyasında neolit, eneolit və ilk tunc dövrlərinin (e.ə. VI-III minillikdə) tədqiqində mühüm dönüş nöqtəsi oldu (Həbibullayev 1959; Абибуллаев 1982). Məhz I Kültəpənin qazıntıları ilə Qafqazda ilk dəfə olaraq neolit və eneolit (xalkolit) dövrlərinin erkən əkinçilik mədəniyyəti aşkara çıxarılmış oldu. 15 il müddətində (1951-1964) bu abidədə aparılan arxeoloji qazıntılar burada 6 min ilə yaxın böyük bir tarixi mərhələdə həyatın ardıcıl davam etdiyini sübuta yetirmişdir. Qafqazda analoqu olmayan I Kültəpə yaşayış məskəninin mədəni təbəqəsinin qalınlığı 22 m çatır. Heç də təsadüfi deyildir ki, etalon hesab edilən bu abidə neolit və eneolit dövrlərini əhatə edən "Kültəpə arxeoloji mədəniyyətinin" müəyyən edilməsinə səbəb olmuşdur. I Kültəpədə aparılan arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılan maddi mədəniyyət qalıqları Naxçıvanın qədim əhalisinin təsərrüfat həyatı, müxtəlif sənətkarlıq sahələri, dəfn adətləri, Yaxın Şərqin qədim sivilizasiya mərkəzləri ilə əlaqələri barədə dəyərli məlumatlar vermişdir.

XX əsrin 60-80-ci illərində Naxçıvan MR ərazisində arxeoloji tədqiqat işləri daha da genişlənmişdir. 60-cı illərdən başlayaraq çoxtəbəqəli II Kültəpə yaşayış yerinin tədqiqatları əsasında V.Əliyev burada orta tunc dövründə – e.ə. II minilliyin birinci yarısında erkən şəhər tipli yaşayış yerinin olduğunu əsaslandırmışdır (Алиев 1991).

Muxtar Respublika ərazisində ən qədim arxeoloji abidə Şərur rayonunun Tənənəm kəndi yaxınlığındakı ibtidai insanların məskunlaşdığı Qazma mağara düşərgəsidir. Ötən əsrin 80-ci illərində mağarada aparılan tədqiqatlar burada ibtidai insanların orta paleolit dövründə yaşadığını sübut etmişdir (M.Hüseynov, Ə.Cəfərov, A.Zeynalov).

Ordubad rayonunda e.ə. II minillikdən başlayaraq orta əsrlərə qədərki dövrləri əhatə edən yaşayış yerləri və qəbir abidələri tədqiq edilmişdir (Ибрагимов 2000; Асланов, Ибрагимов, Кашкай 2002). Naxçıvanın müxtəlif yerlərində e.ə. IV-I minilliklərə aid yaşayış yerləri, kənd və erkən şəhər tipli məskənlər, müxtəlif növ qəbir

abidələri aşkar edilib, qazıntı işləri aparılmışdır. Geniş qazıntı işləri aparılan abidələrdən biri də e.ə. II min. sonu – I min. əvvəlinə aid şəhər tipli Şahtaxtı abidələri kompleksidir (Араев 2002). Həmin illərdə Naxçıvan ərazisində tunc dövrünə aid çoxsaylı Govurqala (Vayxır), Qazançı qala, Qalacıq, Çalxanqala və s. müdafiə istehkamları tədqiq edilmişdir (Керимов 1998).

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 70-80-ci illərdə respublikanın hər yerində olduğu kimi Naxçıvan MR ərazisində də qədim tariximizin, maddi mədəni irsimizin öyrənilməsinə və qorunmasına böyük diqqət yetirilirdi. Naxçıvanda bütün XX əsr ərzində ən iri miqyaslı arxeoloji qazıntı işləri, çoxsaylı abidələrin qeydə alınması, maddi mədəniyyət qalıqlarının toplanması və geniş ictimaiyyətə təbliğ edilməsi üçün tarix diyarşünaslıq muzeylərinin yaradılması məhz Heydər Əliyevin bilavasitə diqqət və qayğısı sayəsində həyata keçirilmişdir.

Sovet imperiyası dağıldıqdan sonra ölkəmiz üçün ağır 90-cı illərdə bütün sahələrdə olduğu kimi elmdə də durğunluq dövrü hökm sürürdü. 1991-1993-cü illərdə Naxçıvana rəhbərlik edən Ulu Öndər Heydər Əliyevin müdrik, fədakar siyasəti nəticəsində Ermənistan tərəfindən blokadaya alınmış Muxtar Respublika düşmənə qarşı qəhrəmanlıqla mübarizə apararaq işğaldan xilas oldu. Xalqın tələbi ilə Azərbaycana rəhbərliyi öhdəsinə götürən Heydər Əliyev 90-cı illərdə müstəqil Azərbaycan dövlətini yaratmaqla respublikamızın siyasi, hərbi, iqtisadi inkişafının, mədəni, elmi yüksəlişinin təməlini qoydu. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində XX əsrin ilk illərindən Azərbaycan sürətli inkişafa qədəm qoydu. Şübhəsiz, bu inkişaf özünü elm sahəsində də göstərməyə başladı.

Xalqımızın maddi mədəni irsinin öyrənilməsinin zəruriliyini önə çəkən Heydər Əliyev Azərbaycamn qədim tarixinin öyrənilməsində Naxçıvan abidələrinin müstəsna əhəmiyyətini nəzərə alaraq 2001-ci ildə Muxtar Respublikaya geniş tərkibli arxeoloji ekspedisiyamn ezam edilməsi barədə göstəriş verdi. Bu sətirlərin müəllifinin rəhbərlik etdiyi bir neçə dəstədən ibarət «Naxçıvan – Gəmiqaya» arxeoloji ekspedisiyası yaradıldı. İki il fəaliyyət göstərən bu



ekspedisiyanın əsas tədqiqat obyekti Ordubad rayonu ərazisində, Kiçik Qafqazın Azərbaycan Respublikası ərazisində ən yüksək zirvəsi olan (3906 m) Gəmiqaya dağının yamaclarındakı abidələr kompleksi – tunc dövrünə aid qayaüstü rəsmlər, qəbir abidələri və yurd yerləri olmuşdur. Burada 1500-ə qədər qayaüstü təsvirlər qeydə alınmış, qeyd edilən abidələrdə arxeoloji qazıntı işləri aparılmışdır (Müseyibli 2002; Müseyibli 2004; Baxşəliyev 2003; Seyidov 2003; Керимов 2005). Bundan əlavə, Gəmiqaya təsvirləri Azərbaycanın e.ə. IV-II minilliklərdə Yaxın Şərq mədəniyyətləri ilə əlaqələrinin tarixinin tədqiq edilməsi üçün əvəzsiz mənbələrdir. Bu abidədə aşkar edilmiş bir sıra rəsmlərin ən yaxın analoqlarına Yaxın Şərq incəsənətində rast gəlinir. Aparılan arxeoloji tədqiqatlar Gəmiqaya abidələrinin Naxçıvanın, o cümlədən bütövlükdə Azərbaycanın tunc dövrü tarixinin öyrənilməsi üçün böyük əhəmiyyətə malik olduğunu göstərdi.

Gəmiqaya rəsmləri Azərbaycanın qədim tarixinin, maddi və mənəvi mədəniyyətinin, incəsənətinin, eyni zamanda xalqımızın etnogenez tarixinin öyrənilməsi üçün olduqca zəngin, dəyərli mənbələrdir. Burada yalnız bir nümunə göstərməklə kifayətlənirik. Belə ki, Gəmiqayada 252 №-li daşda canavarın keçiyə hücum etməsi, daha doğrusu Azərbaycan folklorunda, etnoqrafiyasında bu günə qədər saxlanmış və heyvandarlar tərəfindən icra edilən "qurd ağzı bağlama" mərasimi səhnəsi təsvir edilmişdir (Müseyibli 2004, səh. 99). Bununla əlaqədar burada üz-üzə dayanmış canavar və keçinin arasından bir sonluğunda hansısa əşyanın bağlandığı uzun xətt (kəndir?) çəkilmişdir. Etnoqrafik tədqiqatlar göstərir ki, "qurd ağzı bağlama" ovsununun icrası zamanı qırxılığın ağzını iplə və ya kəndirlə bağlayırlar (Azərbaycan folklor antologiyası, 1994, səh. 63). Gəmiqayadakı tunc dövrünə aid bu səhnədə "qurd ağzı bağlama" səhnəsi demək olar ki, bütün mahiyyəti ilə təsvir edilmişdir. Göründüyü kimi, Gəmiqaya rəsmləri Azərbaycan folklorunun minilliklər öncəyə – tunc dövrünə bağlandığını əyani surətdə nümayiş etdirməklə yanaşı, xalqımızın etnogenez tarixinin tədqiqi üçün tutarlı faktlar verir. Gəmiqaya rəsmlərinin araşdırılması sübut

etdi ki, indiki Ermənistan ərazisində - Göyəm və Zəngəzur dağlarındakı Gəmiqaya ilə eyni tipli petroqliflər də qədim Azərbaycan mədəniyyət nümunələridir. Bütün bu təsvirlərin mövzusu Azərbaycanın tunc dövrünün (e. ə. IV-II minilliklər) maldar əhalisinin maddi və mənəvi mədəniyyəti ilə bağlıdır. Ermənilər isə tarixən heç bir zaman maldarlıqla, xüsusilə də yaylaq maldarlığı ilə məşğul olmamışlar.

Bundan əlavə, "Naxçıvan – Gəmiqaya" ekspedisiyası Naxçıvanın bütün rayonlarında əvvəllər elmə məlum olmayan onlarla arxeoloji abidələr aşkar etmiş və qazıntı işləri aparmışdır. Bunlardan Sədərək rayonunda son tunc erkən dəmir dövrünə (e.ə. II min. sonu – I min. əvvəlinə) aid Sədərək qalasını, Cırdatəpə yaşayış yerini, tunc dövrünün müxtəlif mərhələlərinə aid qəbir abidələrini (Müseyibli 2003), Şərurda eneolit və ilk tunc dəmir dövrlərinə aid Ovçular təpəsi, Aşağı Daşarx yaşayış yerlərini və Qarabulaq kurqanlarını (Müseyibli, Aşurov 2002), orta tunc dövrünə aid Nəhəcir abidələrini (Seyidov, Baxşəliyev 2002), Babək rayonunda antik dövrə aid Meydantəpə yaşayış yerini (Bədəlov) və s. abidələri göstərmək olar.

Ulu Öndərin müdrik siyasətini böyük uğurla davam etdirən, ölkəmizi dünyanın ən sürətlə inkişaf edən dövlətləri sırasına çıxaran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən 2008-2009-cu illərdə aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2008-ci il 5 fevral tarixli Sərəncamı Azərbaycanda arxeologiya elminin inkişafında yeni mərhələnin başlanğıcı oldu. Bundan əlavə, cənab Prezident "Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqında" 2012-ci il 26 aprel tarixli Sərəncam imzalamışdır.

Bu Sərəncamların icrası ilə əlaqədar olaraq Arxeologiya və Etnoqrafiya İnstitutunun 40-a yaxın ekspedisiyaları respublikamızın bütün bölgələrində geniş miqyaslı arxeoloji qazıntı işləri aparmışlar. Bunlardan 8 ekspedisiya yalnız Naxçıvan MR abidələrində tədqiqat



işlərini həyata keçirmişlər. Bu ekspedisiyalar AMEA Naxçıvan Bölməsinin mütəxəssisləri ilə sıx əməkdaşlıq şəraitində çalışır, eyni zamanda Şərur rayonundakı Ovçulartəpəsi və Oğlanqala abidələrində Fransa və ABŞ alimlərinin də daxil olduğu beynəlxalq ekspedisiyalarda fəaliyyət göstərirlər. Son 6 ildə bu ekspedisiyalar Şərur və Sədərək rayonlarında paleolit dövrü Qazma mağara düşərgəsində (A.Zeynalov), eneolit və ilk tunc dövrlərinə aid Ovçulartəpəsi, Maxta (V.Baxşəliyev, S.Aşurov), Ərəbyengicə, Xələc, Sədərək (V.Baxşəliyev, A.Seyidov), Babək rayonunda orta tunc dövrünə aid II Kültəpə (V.Əliyev), Ordubad rayonunda erkən, orta və son tunc dövrlərinə aid Plovdağ, Sumbatan (B.İbrahimli), Rəsul dərəsi (Q.İsmayılzadə), Kəngəri rayonunda son tunc – ilk dəmir dövrünə aid Şahtaxtı, erkən dəmir (e.ə. I min. birinci yarısı) və antik dövrə aid Şərur rayonundakı Oğlanqala (V.Baxşəliyev, S.Aşurov) və Babək rayonunda Meydantəpə (Ə.Bədəlov) abidələrində ətraflı arxeoloji qazıntı işləri aparmışlar. Bütün bu arxeoloji tədqiqatlar minilliklər ərzində Naxçıvanın qədim əhalisinin maddi və mənəvi mədəniyyəti, dəfn adətləri beynəlxalq əlaqələri tarixinin öyrənilməsinə böyük töhfələr vermişdir. Naxçıvan abidələrində aparılan arxeoloji tədqiqatlar burada həyatın minilliklər ərində fasiləsiz davam etdiyini və bu ərazinin özünəməxsus ənənələri ilə tarixən formalaşan bir bölgə olduğunu göstərmişdir. Məhz bu baxımdan Naxçıvan abidələri Azərbaycan xalqını etnogenezinin avtoxtonluğunu və tarixi varisliyini inkaredilməz faktlarla sübut edən müstəsna əhəmiyyətə malik mənbələrdir.

## ƏDƏBIYYAT


3. Azərbaycan folklor antologiyası. I cild. Naxçıvan folkloru. Bakı, 1994.
4. Baxşəliyev V. Gəmiqaya təsvirləri. Bakı, 2003.
5. Əliyev B.H. Gəmiqaya abidələri. Bakı, 1993.
6. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı, 1959.

5. Müseyibli N., Aşurov S. 2002-ci ildə Şərur və Sədərək rayonlarında aparılan arxeoloji tədqiqatların hesabatı.
7. Müseyibli N. Gəmiqaya. Bakı, 2004.
8. Müseyibli N. Gəmiqaya rəsmləri. Bakı, 2002.
9. Müseyibli N.Ə. Qədim Sədərək. Bakı, 2003.
10. Seyidov A. Gəmiqaya. Bakı, 2003.
11. Seyidov A., Baxşəliyev V. Nəhəcirdə arxeoloji araşdırmalar. Bakı, 2002.
12. Ristvet L., Çopnik И., Baxşəliyev V.B., Aşurov S.H. Oğlanqalada Azərbaycan – Amerika birgə arxeoloji qazıntıları // Azərbaycanın arxeoloji tədqiqatları – 2011. Bakı, 2012.
13. Zeynalov A.Ə. Naxçıvan Muxtar Respublikasında paleolitin tədqiqatı // Azərbaycanda arxeoloji tədqiqatlar – 2011. Bakı, 2012.
14. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, 1982.
15. Агаев Г. Шахтахты в эпоху поздней бронзы и раннего железа. Москва, 2002.
16. Алекперов А.К. Исследования по археологии и этнографии Азербайджана. Баку, 1960.
17. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991.
18. Асланов Г., Ибрагимов В., Кашкай С. Древние некрополи Хараба-Гилана. Баку, 2002.
19. Ибрагимов Б.И. Средневековый город Киран. Баку – Москва, 2000.
20. Керимов В. Гямигая. Баку, 2005.
21. Керимов В. Оборонительные сооружения Азербайджана. Баку, 1998.



**VƏLI BAXŞƏLIYEV**

AMEA Naxçıvan Bölməsi

Email: velibahshaliyev@mail.ru

## NAXÇIVAN QƏDİM MƏDƏNİYYƏTLƏRİN MƏRKƏZİDİR

Naxçıvan Muxtar Respublikası ərazisində 2006-cı ildən başlayaraq beynəlxalq Azərbaycan-Fransa və Azərbaycan-ABŞ arxeoloji ekspedisiyası fəaliyyət göstərməktədir. Azərbaycan-Fransa ekspedisiyasının əsas tədqiqat obyekti Ovçulartəpəsi və Duzdağ olmuşdur. Qafqaz arxeologiyasının mühüm problemlərindən biri olan Eneolit mədəniyyəti ilə Kür-Araz mədəniyyətinin əlaqələrini, həmçinin Kür-Araz mədəniyyətinin mənşəyini öyrənmək baxımından da olduqca əhəmiyyətli olan Ovçulartəpəsi Şərur rayonunun Dizə kəndindən şimal-qərbdə Arpaçayın sol sahilində uzunsov konusvari təpənin üzərində yerləşir. Sahəsi 10 hektara yaxındır. 2006-2013-cü illərdə beynəlxalq Azərbaycan-fransız ekspedisiyası tərəfindən bu yaşayış yerində Vəli Baxşəliyev, Katerine Morro və Səfər Aşurovun rəhbərliyi ilə 2300 kv.m sahədə tədqiqat aparılmış Eneolit və Erkən Tunc dövrünə aid dairəvi və dördkünc formalı tikintilər, keramika, tunc və sümükdən hazırlanmış əşyalar tapılmışdır (7, s. 53-100).

Ovçulartəpəsində aparılan araşdırmalar burada insanların e.ə.V minilliyin ortalarından başlayaraq məskunlaşdığını göstərir. Arxeoloji qazıntılar zamanı Eneolit dövrünə aid bir-birindən tamamilə fərqlənən iki tikinti dövrü aşkar edilmişdir. Birinci dövr üçün yarımqazma tipli evlər, ikinci dövr üçün isə dördkünc formalı təkotaqlı və çoxotaqh evlər xarakterikdir. Birinci dövrə aid evlər təpənin yamacı düzəldilərək yer səviyyəsindən 20-40 cm dərinlikdə dördkünc formada inşa edilmişdir. Onlar tam qalmadığından yerüstü hissələri ilə bağlı müəyyən fikir demək çətindir. Radiokarbon

analizin (C 14) nəticələrinə görə Ovçulartəpəsinin erkən Eneolit təbəqəsi e.ə. 4350-4200-cü illərə aiddir[1] (4, s. 87). Bu həmçinin Ovçulartəpəsinin keramika məmulatının Fəratın yuxarısında yerləşən abidələrin (Korucutəpə, Norşuntəpə və Tülintəpə) keramikası arasında özünə paralellər tapması ilə də təsdiq olunur.

Ovçulartəpəsində e.ə. V minilliyin sonuna, təqribən e.ə. 4200-4000-ci illərə aid edilən ikinci dövrə aid evlər daş təməl üzərində inşa edilmiş kərpic evlərdən ibarət olmuşdur. Onların bəzisi təpənin yamacında inşa edildiyi üçün dəstək divarlar inşa edilmişdir. Ümimiyyətlə, bu dövrə aid binalar təpənin yamacında axmanın qarşısını almaq üçün dəstək divarlara birləşik şəkildə inşa edilmişdir. Evlərin dördkünc formalı olması və dəstək divarların inşası hər iki dövr üçün xarakterikdir. 2011-ci ilin araşdırmaları göstərir ki, bu dövrün evləri geniş həyətlərin ətrafında toplanan məişət-təsərrüfat komplekslərindən ibarət olmuşdur. Həyətlərdə anbarlar, ocaqlar, iş yerləri və təsərrüfatla bağlı digər maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. İkinci dövrün evləri mükəmməl arxitekturası ilə birincidən fərqlənir. Ovçulartəpəsinin dördkünc arxitekturası Cənubi Qafqazın, o cümlədən Naxçıvanın Eneolit dövrünün erkən mərhələsinə aid dairəvi evlərdən tamamilə fərqlənir. Ovçulartəpəsindəki evlərin arxitekturası Azərbaycanın və Şərqi Anadolunun həmdövr abidələrindən aşkar olunan evlərlə uyğundur. Ovçulartəpəsinin Son Eneolit evləri ilə yaxın paralellik göstərən yaşayış yeri Leylatəpədir. Ovçulartəpəsi yaşayış yerində həm texnoloji, həm də morfoloji baxımdan fasiləsizliyin olduğu keramika məmulatında izlənilir. Ovçulartəpəsinin saman qarışıq sarı, ya da qırmızı rəngli keramikası Cənubi Qafqaz və Naxçıvanda Neolit və Eneolit dövrünün erkən mərhələsindən mövcud olmuşdur. Son illər Sirab yaxınlığında aşkar olunan mövsümi yaşayış yerləri Eneolit dövründə bu tip keramikanın istehsalında fasiləsizliyin olduğunu göstərir.

[1] Ovçulartəpəsində 2013-cü ildə götürülən kömür analizinin nəticələri e.ə. 4600-cü ili göstərmişdir.



Ovçulartəpəsindəki gil qabların əksəriyyəti sarı rəngli, saman qarışıqlıdır. Keramika məmulatı başlıca olaraq sadə qabarıq kasalar, çölməklər və küpələrdən ibarət olub çiyin hissədə daraq və barmaq basqısı ilə naxışlanmış, halqavari relyef çənbərlə əhatə edilmişdir. Bu dövrə aid olan üzəri qabarıq keçi təsvirləri ilə naxışlanmış küpələr sənətkarlıq baxımından olduqca diqqətəlayiqdir. Onların regional paralelləri hələlik məlum deyil.

Ümumiyyətlə Naxçıvanın Eneolit keramikası başlıca olaraq qırmızı rəngdə bişirilməsi ilə fərqlənir. Qırmızı rəngli keramika Cənubi Azərbaycan və Naxçıvan abidələrinin, o cümlədən Yanıq Təpə, Göy Təpə, I Kültəpə və digərlərinin xarakterik xüsusiyyətidir. Qırmızı rəngli, cilalı keramika həmçinin Urmiya hövzəsinin şərq rayonlarında da yayılmışdır. İ.H.Nərimanovun fikrinə görə qırmızı rəngli keramika yerli istehsalın məhsulu olmuşdur (7, c. 163-164). Abidələrin araşdırması göstərir ki, saman qarışıq keramika Naxçıvanda Neolit dövründən istehsal edilmişdir

Ovçulartəpəsində az miqdarda olsa da boyalı keramika məmulatı aşkar olunmuşdur. Ehtimal ki, bu tip keramika yaşayış yerinin Cənubla, xüsusilə Ubeyd mədəniyyəti ilə əlaqələrini göstərir. Son illər Xalac, Şortəpə və Sirabdan aşkar edilən Eneolit dövrünə aid keramika məmulatı da belə əlaqələrin olduğunu sübut edir. 2011-ci ildə Ovçulartəpəsindən aşkar olunan Ubeyd mədəniyyətinə aid idxal olunmuş keramika parçası isə bunu bir daha təsdiq edir. Cənubi Azərbaycanın qədim abidələrini tədqiq edən C.Krollun fikrinə görə, Azərbaycanın Neolit və Eneolit dövründə özünəməxsus ənənələri olsa da, Son Eneolit dövründə Urmiya hövzəsi Ubeyd ənənələrinin buraya daxil olması ilə xarakterizə olunur (14, p. 71). Son illər (2006-2013) Naxçıvanda Ovçulartəpəsi abidəsinin tədqiqi insanların bu dövrə aid iqtisadiyyatı və mədəniyyəti haqqında dolğun təsəvvür əldə etməyə imkan verir.

Azərbaycan abidələrində boyalı keramikanın meydana çıxmasını tədqiqatçılar Mesopotamiya mədəniyyətləri ilə

əlaqələndirirlər. Bəzi tədqiqatçılar bunu əhalinin Mesopotamiyadan şimala, Azərbaycana doğru miqrasiyasi ilə bağlayırlar (2, p. 95-121; 9, c. 82). Ola bilsin ki, bu tip keramika müəyyən əhali qrupunun cənubdan miqrasiyası ilə bağlı olmuşdur. Amma bu heç də qədim əkinçilik mədəniyyətlərinin digər regionlardan gətirildiyini təsdiq etmir. Ovçulartəpəsindən aşkar olunan heyvan qalıqlarının araşdırılması göstərir ki, onlar müəyyən dəyişikliyə uğrayaraq yerli şəraitə uyğunlaşmış və İkiçayarasında yaşayan əcdadlarından bir qədər fərqlənmişlər. Araşdırmalar bu heyvanların təqribən e.ə. VIII-VII minilliklərdə qədim əkinçilik mədəniyyətlərini təqib edərək bu əraziyə gəldiyini göstərir (7, p. 80). Ümumiyyətlə, son illər artan faktlar İkiçayarasının qədim əkinçilik mədəniyyətlərinin Cənubi Qafqaz, o cümlədən Naxçıvan ərazisində formalaşan mədəniyyətlərə müəyyən təsir etdiyini təsdiq edir. Bu təsir müəyyən istehsal sahələrinin inkişafını stimullaşdırmışdır. Belə nəticəyə gəlmək olar ki, Naxçıvan abidələrində yayılan boyalı keramikanın meydana gəlməsində cənub mədəniyyətlərinin, xüsusilə Ubeyd mədəniyyətinin müəyyən təsiri olmuşdur. Araşdırmalar göstərir ki, İkiçayarası tayfalarının Naxçıvanla iqtisadi-mədəni əlaqələrini gücləndirən əsas faktorlardan biri bu ərazinin təbii sərvətləri, xüsusilə mis yataqları olmuşdur. Sirab ətrafında qeydə alınan Zirincli, Uçan Ağıl və digər yaşayış yerlərində mis filizinin minerallarına rastlanması, Zirincli yaşayış yerində isə mis baltalar tökmək üçün qəlibin aşkar olunması bunu bir daha təsdiq edir. Demək olar ki, Eneolit mədəniyyətinin Naxçıvanda yayılmasında və İkiçayarası ilə iqtisadi-mədəni əlaqələrin güclənməsində xammal ehtiyatlarına tələbatın artması da müəyyən rol oynamışdır.

Ovçulartəpəsinin Erkən Tunc dövrünə aid təbəqəsi olduqca incədir. Yalnız birinci və altıncı kvadratlarda dairəvi formalı binaların qalıqları aşkar edilmişdir. Ovçulartəpəsindəki araşdırmalar Eneolit dövründə qədim sakinlərin dairəvi arxitektura ilə tanış olduqlarını göstərsə də lakin indiyədək Cənubi Qafqazda Erkən Tunc dövrünün erkən mərhələsinə aid düzbucaqlı evlər hələlik məlum



deyil. Əgər arxitekturada Eneolitdən Erkən Tunca keçid müəyyən dəyişikliklə əlamətdardırsa, lakin gil qabların texnoloji xüsusiyyətlərində müəyyən fasiləsizlik var. Cənubi Qafqazda və Şərqi Anadoluda Kür-Araz keramikasının xüsusiyyətləri artıq məlumdur. Bu tip keramika «Erkən Transkavkaz» yaxud «Karaz» adı ilə də tanınır. Keramika nümunələri qum qarışıq qara, tünd boz rəngli cilalanmış nümunələrlə xarakterizə olunur. Morfoloji olaraq formaların əksəriyyəti qabarıq olub müəyyən xüsusiyyətlərlə, xüsusən relsşəkilli ağız kənarı və «Naxçıvan qulpları» ilə fərqlənirlər. Ornamentlər qabarıq, batıq və cızma həndəsi mötivlərdən ibarətdir. Bununla belə, Ovçulartəpəsində gil qabların müəyyən qrupu Eneolit və Erkən Tunc dövrü üçün xarakterik olan texnoloji və morfoloji əlamətləri özündə birləşdirir. Bir neçə halda tərkibində qaba qarışıq olan qablar Eneolit və Erkən Tunc dövrünün əlamətlərinin qarışdığını göstərir. Digər tərəfdən formaların açıq-aydın Erkən Tunca aid olmasına baxmayaraq onların səthində saman izlərinə, bəzən daraq izləri ilə birlikdə rastlanması Eneolit dövrünün sonuna aid texnologiyanı xatırladır. Digər tərəfdən ağız kənarlarına qırmızı, ya da narıncı rəng çəkilməsi də Son Eneolitin tipik xüsusiyyəti kimi, qaba, saman qarışıq, boyanmış gil qablarda rastlanmışdır. Bu tip keramika «Proto Kür-Araz keramikası» adlandırıla bilər. Bu tip keramika Naxçıvanda Sədərək, Xalac, Şortəpə, Doğubəyazit rayonunda Ziyarəttəpə yaşayış yerindən də aşkar olunmuşdur. Gil qabların bu «hibrid» kateqoriyasının mahiyyəti 2009-2013-ci illərdə aparılan araşdırmalar zamanı aydınlaşdırılmışdır. Demək olar ki, gil qabların bu qrupu Son Eneolitdən Erkən Tunca keçid dövründə meydana gəlmişdir. Lakin Erkən Tunc dövrünə aid mədəni təbəqə zəifliyi və bir çox hallarda isə Eneolit təbəqəsi ilə qarışması tədqiqat üçün çətinlik yaradır. Bununla belə araşdırmalar zamanı bu mədəniyyətlərin qarşılıqlı münasibətlərinin bəzi cəhətlərini müəyyən etmək mümkün olmuşdur. 2010-2013-cü illərdə aparılan araşdırmalar zamanı müəyyən edilmişdir ki, Eneolit və Erkən Tunc dövrü mədəniyyətləri müəyyən zaman kəsiyində eyni dövrdə mövcud olmuşdur. Son Eneolit və Kür-



Araz mədəniyyəti tayfalarının eyni dövrdə yaşaması, şübhəsiz ki, onlar arasında qarşılıqlı münasibətlərin formalaşmasına müəyyən texnoloji üsulların mənimsənilməsinə səbəb olmuşdur. Etimal ki, Tunc dövrü keramikası əvvəlki dövrün yerli inkişafının nəticəsidir. Ovçulartəpəsinin Erkən Tunc dövrünə aid layları hazırda e.ə. 4200-4000-ci illərə aiddir (7, s. 62). Bu Cənubi Qafqaz və Yaxın Şərqdə ilk nəticədir və Kür-Araz mədəniyyətinin e.ə V minilliyin sonundan başladığını göstərir.

Şəkil 1. Proto Kür-Araz keramikası (Ovçulartəpəsi).

Ovçulartəpəsindəki botaniki qalıqlarının ilkin analizi George Willcox tərəfindən aparılmışdır (4, s. 19). Tapıntıların əksəriyyəti çölnoxudu və noxuddan ibarətdir. Taxıl dənləri arpa (Hordeum) və az miqdarda buğda (Triticum) ilə təmsil olunmuşdur. Yaxın illərdə daha çox nümunə götürülməsi daha dolğun məlumat verməyə imkan verəcəkdir. Tapıntılar arasında *Aegilops, panicoid grasses və Cyperaceae* tipli alaq otları da vardır. G. Willcoxa görə bu taxıl bitkilərinin yerli istehsala məxsus olduğunu göstərir. Əgər taxıl ixrac edilmiş olsaydı o zaman alaq otları olmazdı.

Ağac kömürünün qalıqlarının analizi bu ərazinin qədim bitki örtüyü haqqında maraqlı məlumat verir. Kömürləşmiş ağac





Şəkil 2. Proto Kür-Araz keramikası (Şortəpə).

nümunələri çox analiz edilməsə də araşdırma göstərir ki, *Salix/Populus* və *Tamarix* çay kənarlarında bitən əsas bitkilər olmuşdur. Bitkilərin müəyyən hissəsi *Pistacia* taksonları ilə eyniləşdirilmişdir, bu ola bilsin ki, onlar *Pistacia atlantica* yaxud *Pistacia khinjuk* tipinə aiddir. Həmin ağaclar su basmış vadidə bitmişdir. Bu iki müxtəlif növ bu gün Yaxın Şərqin və Orta Asiyanın böyük ərazilərində geniş yayılmışdır. Lakin keçmişdə daha tez-tez rastlanmışlar. *Hackberry* (Celtis) meyvələrinin tapılması onun həmin dövrdə bu ərazidə bitdiyini göstərir. İlkin araşdırmalar göstərir ki, indi bu ərazidə olmayan ağaclar qədim dövrdə mövcud olmuşdur.

Əmək alətlərinin böyük qismi obsidian və çaxmaqdaşından hazırlanmış oraq dişlərindən ibarətdir. Bunlar arasında obsidiandan hazırlananlar üstünlük təşkil edir. Nukleusların az aşkar olunmasına baxmayaraq obsidian alətlərin olduqca müxtəlif tiplərinə rastlanmışdır. Onlar oraq dişi, bıçaq və qaşovlardan ibarətdir.

Naxçıvan ərazisində və onun yaxınlığında obsidian yataqlarının olmasına baxmayaraq əmək alətlərinin hazırlanması üçün obsidian bir qədər uzaq məsafədən, xüsusilə Göyçə hövzəsindən gətirilmişdir. Obsidian alətlərin analizi onlardan əksəriyyətinin Göyəm dağlarından gətirildiyini göstərir. Göyəm və onun ətrafındakı dağlar Naxçıvanda yaşayan əhalinin yaylaqları kimi son zamanlaradək istifadə olunmaqda idi. Odur ki, yarımköçəri həyat keçirən Ovçular sakinlərinin Göyəm obsidianından istifadə etməsi tamamilə təbiidir. Amma olduqca maraqlıdır ki, obsidianlar arasında Nemrud dağından gətirilmiş obsidian da vardır. Şübhəsiz ki, bu, Ovçular sakinlərinin uzaq ərazilərlə iqtisadi-mədəni əlaqələrini göstərir.

Ovçulartəpəsində qazıntılar zamanı xeyli miqdarda tunc iynələrin parçaları və metal alətlər də aşkar olunmuşdur. Bütöv şəkildə aşkar olunan alətlər əsasən baltalardan ibarətdir. Onların üçü yastı, biri isə deşikli baltadır. Formaca bənzər yastı baltalar Naxçıvanın və Cənubi Qafqazın Erkən Tunc dövrü abidələrindən bəllidir. Lakin deşikli baltanın bənzəri hələlik Eneolit abidələrindən bəlli deyil. I Kültəpənin alt qatlarından aşkar olunan mis-arsen qarışıqlı metal əşyalar Naxçıvan ərazisində metallurgiyanın erkən meydana gəldiyini təsdiq edir. 2010-cu ildə aparılan araşdırmalar zamanı Zirincli Eneolit yaşayış yerində yastı baltalar tökmək üçün qəliblər, mis filizinin qalıqları ( ehtimal ki, azurit), Ovçulartəpəsində isə körük ucluğu aşkar olunmuşdur. Naxçıvanda Misdağı adlı yatağın olması, metalın yaxınlıqdakı mədənlərdən əldə edildiyini və yerli istehsala aid olduğunu deməyə imkan verir.

Qədim mədənlərin öyrənilməsində Duzdağdakı araşdırmaların mühüm əhəmiyyəti olmuşdur. Duzdağda 2007-ci ildə Fransız-Azərbaycan ekspedisiyasının qısamüddətli araşdırmaları zamanı yatağın cənub ətəklərindən Eneolit və Kür-Araz keramikasının aşkar olunması mədənin istismarının daha erkən başladığını ehtimal etməyə imkan vermişdir.



Bu yaşayış yerində aparılan araşdırmaların əsas məqsədlərindən biri Son Eneolit və Erkən Tunc dövrü cəmiyyətlərinin iqtisadi və yaşayış strategiyasının müəyyənləşdirilməsindən ibarət idi.

Duzdağında aparılan araşdırmaların əsas məqsədlərindən biri duz mədənlərində erkən istismar izlərini aşkar etmək, tarixəqədərki dövrün son mərhələsində duzun çıxarılması üsullarını müəyyən etməkdən ibarətdir. Tədqiqatlar istehsal infrastrukturları üzərində cəmləşdirilmiş, onların korrelyasiyası gil qab parçaları, makro və mikro daş alətlər əsasında aparılmışdır.

Duzdağında dörd mövsümdə aparılan sistematik araşdırmalardan sonra onun tarixəqədərki dövrün son mərhələsində mühüm əhəmiyyət kəsb etdiyi göz önünə çıxarılmışdır. Duzdağının istismarının miqyasından da göründüyü kimi duzun funksiyası "İkinci ərzaq inqilabı" zamanı e. ə. V - IV minilliklərdə Mesopotamiyanın böyük hissəsində və Qafqazda meydana gələn struktur dəyişiklikləri anlamaq üçün əsas açarlardan biridir. Bununla bağlı olaraq aşağıdakı əsas nəticələri çıxarmaq mümkündür:

Birincisi, aşkar olunan saman qarışıqlı keramikaya əsasən aydın olur ki, mədənin istismarı e. ə. V minilliyin ikinci yarısında başlamışdır. Bu onu göstərir ki, İspaniyadakı Kardona [La Müntania del Sal] ilə birlikdə Duzdağı dünyanın ən qədim mədənlərindən biridir. Kardonada duz yataqlarının ətrafında insan fəaliyyətinin ən qədim izləri e. ə. 4200 və 3600-cü illərə aid edilmişdir. Duzdağında duzun erkən çıxarılması ilə bağlı məsələlər Kardonadakı faktlardan daha tutarlıdır. Belə ki, duz mədənində müxtəlif xronoloji dövrlərə aid keramika məmulatı ilə birlikdə yüzlərlə daş əmək aləti aşkar olunmuşdur. Aydındır ki, Duzdağında aşkar olunan arxeoloji materiallar, xüsusilə xeyli informasiya verən keramika məmulatı tarixəqədərki dövrün son mərhələsindən başlayaraq müasir dövrədək duz sənayesinin inkişafının müxtəlif cəhətlərini öyrənmək əhəmiyyətlidir.

Naxçıvanın İnкişaf etmiş Dəmir dövrünə aid abidələri Tunc dövrü abidələrinə nisbətən olduqca az öyrənilmişdir. Arxeoloji araşdırmalar zamanı Çalxan, Qarasu, Qız qalası, Külüs qalası, Qazançıqala və digər yaşayış yerlərindən inкişaf etmiş Dəmir dövrünə aid кeramiкa məmulatı toplansa da, bu abidələrdə arxeoloji qazıntılar aparılmamışdır. Laкin Naxçıvanda aparılan arxeoloji araşdırmalar, o cümlədən bizim tədqiqatlarımız inкişaf etmiş Dəmir dövrü mədəniyyətinin varlığını ortaya qoymuşdur (5, s. 152).

Dəmir dövrünün bəzi abidələri son dövrlərin tiкintiləri ilə dağıdılmadığından onların ümumi planını qazıntı aparmadan da müəyyən etməк mümкündür. Belə abidələrdən biri də Oğlanqala yaşayış yeridir. Şərur rayonunun Oğlanqala кəndi yaxınlığında Qaratəpə dağının üzərində yerləşən Oğlanqala yaşayış yeri Dəmir dövründə Cənubi Qafqazın və Naxçıvanın ən böyük qalalardan biri olmuşdur. Abidənin yerləşdiyi ərazi Arpaçay vadisini və məhsuldar Şərur düzənliyini nəzarətdə saxlamaq baxımından olduqca əhəmiyyətlidir. Oğlanqalada hələ 1988-1989-ci illərdə V.B. Baxşəliyevin apardığı qazıntılar zamanı qalanın Erkən və Orta Dəmir dövründə bu ərazidə mühüm siyasi mərkəz olması ilə bağlı inkaredilməz dəlillər aşkar olunmuşdu (6, s. 106-120). Tədqiqatlar zamanı sitadeldə (Şəkil 3) qədim dövrə aid sarayın olduğu, mühüm inzibati-siyasi mərkəz olduğu müəyyən edilmişdi. Yaşayış yerində həyatın Son Orta əsrlərədəк davam etməsinə baxmayaraq, indiyədəк saxlanmış müdafiə divarının qalıqları inкişaf etmiş Dəmir dövrünə aiddir. 2008-2011-ci illərdə birləşmiş Azərbaycan-Amerikan ekspedisiyasının Vəli Baxşəliyev, Lauren Ristvet və Səfər Aşurovun rəhbərliyi ilə dörd il ərzində apardığı qazıntılar nəinki bu ilk mülahizələri təsdiq etdi, həmçinin göstərdi ki, Oğlanqala Erkən Dəmir dövründə müstəqil dövlətin paytaxtı olmuşdur. Oğlanqalanın müdafiə divarları yerli hökmdarın siyasi qüdrətindən xəbər verirdi. O, qonşu Urartu dövləti ilə iqtisadi və mədəni əlaqələr saxlamış, Əhəməni imperiyasının dağılmasından sonrakı yüzilliklərdə güclü müdafiə sistemi ilə əhatə olunmuş şəhər dövlətin paytaxtı olmuşdu.



Oğlanqaladakı qazıntılar zamanı biri müasir, dördü qədim dövrə aid olmaqla beş tikinti qatı müəyyən edilmişdir. Oğlanqala Erkən Dəmir dövründə, bizim dövrləşdirməyə görə V dövrdə-e. ə. 1200-800-cü illər ərzində məskunlaşdırılmışdı. Lakin sitadelin arxitekturası Orta Dəmir dövrü ilə tarixləndirilir. Araşdırmalar zamanı sitadeldə yerin relyefindən asılı olaraq 2, 5- 5 m arasında mədəni təbəqənin toplandığı müəyyən edildi. IV dövr e. ə. 800-600 – cü illərlə, yaxud Dəmir dövrünün sonuna aiddir. III dövr e. ə. 400 – 250 – ci illərə aid edilir. Qala bu dövrdə yenidən bərpa olunmuş, Midiya-Atropatena dövlətinin əyalət mərkəzinə çevrilmişdir. E. ə. 200 və bizim eranın 100 – cü ilində (II Dövr) dağın böyük hissəsi müdafiə divarları ilə möhkəmləndirilmiş şəhərə çevrilmişdir. Ehtimal ki, bu dövrdə şəhər "Olane" adı ilə tanınmış və Strabonun "Coğrafiya" əsərində xatırlanmışdır (14, s. 124-140).

2011-ci ildə birləşmiş ekspedisiyanın əsas məqsədlərindən biri Oğlanqalanın yaxınlığında yerləşən kurqanda tədqiqat aparmaq idi. Bu abidənin ilkin tədqiqi zamanı Erkən Dəmir Dövrünə- Xocalı-Gədəbəy mədəniyyətinə aid tapıntılar aşkar edihmişdi. Oğlanqala sitadeli və Şimal bürcün yaxınlığından Erkən Dəmir dövrünə aid keramika parçalarının aşkar edilməsi belə bir fikir yaratmışdı ki, bu kurqanda Oğlanqalanı inşa edən liderlərdən biri dəfn edilmişdir. Qazıntılar zamanı Erkən Dəmir dövrünə aid xeyli keramika aşkar edilsə də kurqanın qazıntısı başa çatdırılmamışdır. Araşdırmalar deməyə imkan verir ki, bu qalanın əsası Erkən Dəmir dövründə Xocalı-Gədəbəy mədəniyyəti tayfaları tərəfindən qoyulmuşdu. Xocalı-Gədəbəy mədəniyyətinin yayıldığı ərazinin Uti tayfalarının yaşadığı, qədim mənbələrin Otena adlandırdığı ərazi ilə üst-üstə düşməsi diqqəti çəkir. Mənbələrin verdiyi məlumata görə bu tayfalar Araz çayı ilə Göyçə gölü ərazisində yaşamışlar. Urartu mənbələrində bu tayfalar Etiunu adı ilə xatırlanmışdır.




Şəkil 3. Oğlanqala sitadelinin planı

Oğlanqalanın olduqca mürəkkəb və özünəməxsus xüsusiyyətləri olan müdafiə sisteminə Naxçıvan abidələrinin heç birində rastlanmamışdır (Şəkil 4). Oğlanqala cənub-qərb tərəfdə səkkiz sıra, şimal-şərq tərəfdə isə dörd sıra müdafiə divarı ilə əhatə olunmuşdur. Müdafiə divarları bir-birinə paralel olaraq çəkilmiş və qalanın gərəkli hissələrinin müdafiəsi möhkəmləndirilmişdir. Qalanın



cənub-qərb ətəyi boyunca uzanan müdafiə divarı üç yerdə yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir. Yonulmuş iri qaya parçalarından inşa edilən Şimal qala bürcü daha yaxşı saxlanmışdır. Qala bürcünün inşasında ağırlığı 2-3 ton olan daşlardan istifadə edilmişdir. Şimal qala bürcü digər bürclərdən tikinti texnikasının özünəməxsusluğu ilə fərqlənir. Qala bürcü iki sıra yarımdairəvi divardan ibarətdir. Öndəki divar arxadakına nisbətən bir qədər yüksəkdədir. Araşdırıcıların fikrinə görə, divarlar arasındakı boşluq əsgərlərin hərəkəti üçün istifadə edilmiş, öndəki divar isə onların müdafiəsini təmin etmişdir (3, s. 189).




Şəkil 4. Oğlanqalanın şimal və qərb müdafiə istehkamları

2011-ci il mövsümündə bizim əsas məqsədlərimizdən biri Oğlanqalanın şimal bürcü yaxınlığındakı istehkamları açmaqdan ibarət idi. 2010-cu ildə şimal-qərbdəki dairəvi bürcün şimal divarının

təməlindən götürülən kömür analizi göstərdi ki, bu müdafiə istehkamları təqribən e. ə. 800-cü ildə inşa olunmuşdur. Bu o demək idi ki, Oğlanqalanın istehkamları Urartu imperiyasının Türkiyədə möhkəmləndiyi (təqribən e. ə. 850-600-cü il), Qafqazda və Şimal-Qərbi İranda hərbi əməliyyatlar apardığı dövrdə tikilmişdir (16, s. 171-180). Biz tapıntılardan daha çox müdafiə istehkamları ilə maraqlanırdıq. Oğlanqalanın mühəndisləri qalanı tikərkən Erkən Dəmir dövrü texnikasından, yoxsa öz nüfuzlu qonşuları olan urartuların tikinti texnikası və üsullarından istifadə etmişdilər? Urartu istehkamları fövqəladə dərəcədə standartlaşdırılmışdır, onlar müntəzəm möhkəmləndirmə, yonulmuş daşlardan və standart ölçülü kərpiclərdən ibarət tikinti ilə xarakterizə olunur. Oğlanqalanın istehkamları Dəmir dövrünün erkən mərhələsinin tikintilərini xatırladır, lakin ola bilsin ki, Urartunun bəzi xüsusiyyətləri də təqlid edilmişdir. Urartu divarlarının düz və dördkünc, topoqrafiyaya uymayan xüsusiyyətlərindən fərqli olaraq Oğlanqala istehkamları Qaratəpə dağının topoqrafiyasına uyğun olaraq inşa edilmişdir. Möhkəmləndirilmiş divarların Urartu xüsusiyyəti olmasına baxmayaraq, onların bənzərləri Cənubi Qafqazın Dəmir dövrü arxitekturasından da məlumdur. Bəzən böyük blokların altı kiçik həcmli daşlarla düzəldilir, bəzən isə daş bloklar birbaşa qayanın üzərinə qoyulurdu. Urartu qalalarında olduğu kimi təməl üçün birbaşa qayanın düzəldilməsinə heç vaxt rastlanmamışdır. Böyük sahənin terraslaşdırılmasına, karxana işərinə, böyük əhəngdaşı bloklarının və milyonlarla kərpicin daşınmasına xeyli işçi qüvvəsi cəlb edilmişdir. Bu təqribən milyonlarla işçidən ibarət böyük işçi qüvvəsi tələb edirdi. Bu tikinti layihəsinin monumentallığı IV Dövr Oğlanqala liderlərinin böyük qüvvəsindən xəbər verir. Tikintinin möhtəşəmliyi özlüyündə siyasi hakimiyyətin qüdrətini göstərir. Lakin hələ də məlum deyil ki, bu qalanı tikmək və qorumaq üçün işçi qüvvəsini necə əldə etmişlər.

Qərb divarı boyunca aparılan təmizləmə işləri zamanı biz Oğlanqalanın II Dövrünə aid küp qəbirlərlə rastlaşdıq. Burada



qəbirlərin olması təsdiq edir ki, tikinti və bərpa işlərindən sonra onlar öz funksiyasını itirmişdir. Bu qəbirlərdə cinsi məlum olmayan və pis saxlanmış yaşlı adama aid skelet qalıqlarının bir hissəsi aşkar edilmişdir. Lakin küp qəbirin qərb tərəfində aşkar olunan iki qulplu küpə bilavasitə Oğlanqalanın yerli insanlarına aid idi. Bu adam Roma imperiyasından gətirildiyi zənn edilən olduqca zəngin avadanlıqla dəfn edilmişdi. Əvvəlcə qəbirdən imperator Avqustun portretini göstərən dörd gümüş sikkə tapıldı. Lakin sikkələr paslanmış və bir qədər aşınmışdı. Buna baxmayaraq onların eyni tipli olduğu və üzərində iki kitabə olduğu aydın seçilirdi. Sikkələrin üz tərəfində dəfnə yarpağından tac qoyan Avqustun sağ tərəfdən şəkili var idi. Onun kənarında "CAESAR AVGVSTVS DIVI F PATER PATRIAE" sözləri yazılmışdı. Sikkənin arxa tərəfində Sezarın Qayus və Lusiusunun iki təsviri verilmişdir. Şəkil üz tərəfdən arxasında nizələr olan qalxana söykənmiş vəziyyətə təsvir edilmişdir. Kənarda isə "VGVSTI F COS DESIG PRINC IVVENT, C L CAESARES" kitabəsi həkk olunmuşdu. Sikkələrin üçü numizmatik araşdırmalardan yaxşı məlumdur və ehtimal ki, e.ə. 2-ci il və bizim eranın 12-ci ilində kəsilmişdir. Digər sikkələr isə daha kiçik diapozona malik olub e. ə. 2-ci il, bizim eranın 4-cü ili ilə tarixlənir (12). Bundan başqa dəfn edilənin bir tunc və dörd qaşlı üzüyü var idi. Onların üzərində inək və medalyon təsviri var idi. Bundan başqa qəbir inventarına yuvarlaq şəkilli şüşə flakon və bu tip flakona aid parçalar da daxil idi. Bunlarla bərabər Finikiya mənşəli şirli muncuq da aşkar edilmişdir.

Abidənin ən hündür yerində Narınqala yerləşir. Araşdırmalar Narınqalanın ikiqat müdafiə divarı ilə əhatə olunduğunu göstərir. Divarlar iri daş bloklardan bərkidici məhlul olmadan inşa edilmişdir. Narınqalanın təhlükəsizliyinin təmin edilməsi üçün o əlavə müdafiə divarları ilə möhkəmləndirilmişdir. Olduqca mürəkkəb və özünəməxsus xüsusiyyətləri olan bu tip müdafiə sisteminə Naxçıvan abidələrinin heç birində rastlanmamışdır. 1988-1989 və 2008-2011-ci illərdə sütunlu salonun əsas hissəsi aşkar olunmuşdur.

Radiokarbon analizlər göstərir ki, sütunlu salon təqribən e.ə. 800-cü ildə, Oğlanqala IV dövründə tikilmişdir. Bu bürclərin və müdafiə istehkamlarının yaradılması ilə üst-üstə düşür (8). İstehkamların inşasında istifadə edilən tikinti üsulları həmçinin sitadeldə iatifadə olunmuşdur. Tikintidə istifadə olunan əhəngdahı blokların ölçüləri 35 və 90 $sm^2$ – dir. Bu divarların əksəriyyəti əvvəlkilər kimi ya ana qaya üzərində tikilərək gillə düzəldilmiş, yaxud kərpic tikinti ilə tamamlanmışdır. Müdafiə istehkamlarında olduğu kimi, siadeldə də bərkidici inşaat materialı kimi daş ovuğu, yaxud çınqıldan istifadə edilmişdir. Onların eni 1, 7 - 2, 5 m arasında idi. Oğlanqalanm IV Dövrünə aid binaları ölçüləri 33 x 34 m, yaxud 1122 $m^2$ olan böyük daxili həyətin ətrafında inşa olunmuşdur. Bu demək olar ki, Türkiyədəki Altıntəpə məbədini əhatə edən daxili həyətlə eyni ölçüdədir.

Araşdırmalar zamam daxili həyətdə IV Dövrə aid, qalanın inzibati funksiyaları ilə bağlı olan böyük küplərin qalığına və Azərbaycanda ən qədim mixi yazı olan keramika üzərindəki kitabələrə rast gəldik. Lakin heç bir təsərrüfat küpü bütövlükdə aşkar edilmədi. Təsərrüfat küplərinin parçaları bədii cəhətdən olduqca yüksək səviyyəli hazırlanmışdı. Üzərində mixi yazı olan parçalar isə demək olar ki, bu sahənin bütün kontekstlərindən aşkar olunurdu. Küplərin üzərindəki fraqment halındakı yazılar, şübhəsiz ki, onların tutumunu göstərirdi. Biz rəqəmlərə aid *a-q [ar] və ru* kimi bəzi işarələri bərpa edə bildik. Ehtimal ki, onlar *aqarqi u terusi* işarələrini və həcm ölçüsünü bildirmişdir. Müəyyən edilmişdir ki, şəhər sakinləri yazı və hesab sistemini Urartulardan mənimsəmiş və öz yazılarını yaratmışlar. Bunlar Azərbaycanda aşkar olunan ən qədim mixi yazıdır (11, s.181-215) .

Oğlanqala yaşayış yerinin memarlıq xüsusiyyətlərindən biri istər Narınqalanın, istərsə də müdafiə divarlarının rizalitlərlə möhкəmləndirilməsidir. Rizalitlərin ölçüləri 2-4 m arasındadır. Onların qurulmasında yonulmuş daşlardan da istifadə edilmişdir.



Müdafiə divarının rizalitlərlə möhкəmləndirilməsi Dəmir dövrü abidələri üçün xaraкteriк olmuşdur. Naxçıvanda bu tip tiкintilərlə Çalxan yaşayış yerində (10, s. 97-99), Qazançıqalada və Fərhad кanalının tiкintisində rastlanmışdır.

Arxeoloji araşdırmalar inкişaf etmiş Dəmir dövründə Naxçıvan abidələri üçün rizalitlərlə möhкəmləndirilmiş dördкünc planlı sitadellərin xaraкteriк olduğunu göstərir. Laкin yaşayış yerlərinin heç biri geniş qazıntılarla öyrənilmədiyindən onların daxili quruluşu haqqında müəyyən bir fiкir söyləməк çətindir. Tədqiqatlarla müəyyən olunmuşdur кi, Oğlanqalanm narınqalası iкi sıra divarla əhatə olunmuşdur. Narınqaladan кənarda olan yaşayış binalarım əhatə edən müdafiə divarları relyefə uyğun olaraq tiкilmişdir. Bu xüsusiyyətinə görə Naxçıvanın Dəmir dövrü abidələri qonşu Urartu abidələrindən tamamilə fərqlənir.

Araşdırmalar müdafiə divarının xeyli yüкsəк olduğunu göstərir. Tədqiqatçılar divarların yuxarı qisminin çiy кərpiclə hörüləraк tamamlandığını qeyd etmişlər (1, s. 41). Oğlanqalanın müdafiə divarlarının bəzi qismlərdə 3 m yüкsəкliyədəк saxlandığını nəzərə aldıqda кərpic hörgü ilə birliкdə divarların hündürlüyünün 4-5 m-dəк olduğunu söyləməк olar.

Arxeoloji abidələrin tədqiqi Dəmir dövründə Naxçıvanın güclü müdafiə sisteminə maliк olduğunu göstərir. Müdafiə tiкintiləri başlıca olaraq Naxçıvan ərazisinə qərbdən və şimaldan daxil olan yollar üzərində qurulmuşdur. Qalaların tiкilmə istiqaməti eyni zamanda yadelli basqınlarının istiqamətlərini də göstərir. Naxçıvanm cənub sərhədləri gursulu Araz çayı ilə qorunduğundan ehtimal кi, bu istiqamətdə hücumlar az olmuşdur. Şərur rayonunda Fərhad кanalı boyunca salınan qala tipli yaşayış yerləri onlardan suvarma sistemlərinin və su mənbələrinin qorunması üçün istifadə olunduğunu göstərir. Fərhad кanalı ətrafında aparılan araşdırmalar zamam onun yaxınlığından кeçən qədim yolun qahqları da aşкar olunmuşdur. Yol qalıqlarına həmçinin Oğlanqalanm şimal

yamacında rastlanmışdır. Aşkar olunan faktlar Dəmir dövründə Naxçıvanda məskunlaşan tayfaların inkişaf etmiş əlaqələndirmə sisteminin olduğunu göstərir. Dəmir dövrü yaşayış yerlərinin möhtəşəm müdafiə sistemi bu ərazidə məskunlaşan tayfaların böyük iqtisadi qüdrətə sahib olduğunu göstərir. Strateji cəhətdən əlverişli mövqelərdə salınan qalalar hərbi-inzibati və siyasi mərkəz rolunu oynamışdır.

Aparılan araşdırmalar göstərir ki, müxtəlif dövrlərdə, hətta Əhəmənilər və Roma kimi qüdrətli imperiyaların dövründə Oğlanqala müstəqil siyasət yürütmüşdür. Bizim müvəffəqiyyətlərimiz Naxçıvan Muxtar Respublikasının rəhbərliyi, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi və ABŞ Milli Elm Fondunun köməkliyi sayəsində mümkün olmuşdur. Biz onlara öz minnətdarlığımızı bildirir və güman edirik ki, Azərbaycan-Amerika qazıntıları gələcək illərdə də davam etdiriləcəkdir.

## ƏDƏBİYYAT


1. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256

2. Akhundov T. Sites de migrants venus du Proche-Orient en Transcaucasie // *Les cultures du Caushape (VI^e-III^e millenaires avant notre ere)*: *Leurs Relations avec le Proche-Orient*, Bertille Lyonnet (ed.). Paris : CNRS Edutions, Editions Recherche sur le Civilisation, 2007, 95-121.

3. Ахундов Д.А. Архитектура древнего и средневекового Азербайджана. Баку: Азернешр, 1986, 311 с.

4. Bakhchaliyev V., Ashurov S., Marro C. Ovçulartəpəsi. Bakı: Elm, 2010, 156 s.

5. Baxşəliyev V. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti(e.ə. VI-I minilliklərə aid arxeoloji abidələr əsasında). Bakı: Elm, 2004, 320 s.

6. Бахталиев В.Б. Археологические раскопки на поселении Огланкала // Российская археология, 1994 № 4, с. 106-120.

7. Marro C., Bakhshaliyev V., Ashyrov S. Excavation at Ovçulartepesi (Nakhchivan, Azerbaijan). Second Preliminary Report: The 2009-2010 Seasons // Anatolia Antiqua, XIX, 2011, s. 53-100.

8. Нариманов И.Г. Культура древнейшего земледелъческого - скотоведческого населения Азербайджана. Ваку: Элм, 1987.

9. Гулуев Ф. Урукская керамика Южного Кавказа // Археология, этнология, фольклористика Кавказа. Баку: Нурлан, 2005, с. 82.

10. Керимов В.И. Исследования укрепленного поселення на территории Нахичеванской АССР / Тезисы докл. конфер Великий Октябрь и развитие археол. и этнограф. науки в Азербайджане. Баку: Элм, 1988, с. 97-99.

11. Kleiss, Wolfram. "Aspekte Urartäischer Architektur." *Iranica Antiqua* 23, 1988, p. 181-215.

12. Расулова, М.М. Торгово-экономические и культурные связи Кавказкой Албании с Античным и Эллинистическим миром: IV век до н.э.- III век н.э. Бакы: Mütərcim, 2008.

13. Ristvet, Lauren, Hilary Gopnik, V. Baxşəliyev, and S. Aşurov. "On the Edge of Empire: 2008-2009 Excavations at Oğlanqala, Azerbaijan." *American Journal of Archaeology* 116, no. 2 (2012).

14. Potts, Daniel. "Some Problems in the Historical Geography of Nakhchivan." *Ancient West and East* 1, (2002): 124-40.

15. Stephan K. Der Kultepe bei Marand eine Chalkolithische siedlung in İranisch-Azarbaidjan // *AMI*, band 23, 1990, p. 59-71.

16. Zimansky, Paul. "The Problem of the Urartian Frontier." In *Neo-Assyrian Geography*, edited by Mario Liverani, Roma: Università di Roma, 1995, p. 171-80.



**Abbas Seyidov**
***tarix elmləri doktoru, professor***

## NAXÇIVANIN KÜR-ARAZ MƏDƏNIYYƏTIABIDƏLƏRI SON TƏDQIQATLARDA

Naxçıvan əzəli Azərbaycan-türk yurdu, qədim sivilizasiyaların qovuşduğu məkan, qədim mədəniyyətlərin mərkəzində dayanan diyardır. Azərbaycan Respublikasının müstəqillik qazandığı ilk vaxtlarda mövcud olan iqtisadi çətinliklər arxeoloji abidələrimizin öyrənilməsi sahəsində də müəyyən problemlərin meydana cıxmasına səbəb olmuşdu. Lakin, bu cətinliklərə baxmayaraq, ümummilli liderimiz Heydər Əliyev,Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbov Naxçıvan abidələrini həmişə diqqət mərkəzində saxlamış, onların öyrənilməsinə böyük önəm vermişlər. Beləliklə, dövlət qayğısının artırılması tədqiqatların genişləndirilməsinə və yeni abidələrin aşkara çıxarılıb öyrənilməsinəsəbəb olmuşdur.

Son illərin araşdırması göstərir ki, Naxçıvan Muxtar Respublukanın ərazisi müxtəlif dövrlərə aid maddi-mədəniyyət abidələri ilə çox zəngin olub, bəşəriyyətin əsas sivilizasiya mərkəzlərindən biridir. Ərazinin bol sulu çayları, münbit torpaqları, əlverişli coğrafi mövqeyi, metal və qeyri-metal yataqları qədim əkinçi-maldar tayfaların burada erkən məskunlaşmasım təmin etmişdir. Tədqiqatlar göstərir ki, metalın, xüsusilə də tuncun kəşfi ilə yaşayış yerlərinin sayı çoxalmış, əhalinin sayı artmışdır.

E.ə. IV minillikdən başlayaraq Naxçıvan ərazisində yaşayan qədim tayfaların həyatında əsaslı dəyişikliklər baş verir. Bu dövrdə İlk Tunc dövrü Kür-Araz mədəniyyəti formalaşır.Əkinçilik, maldarlıq, sənətkarlıq və təsərrüfatın digər sahələrində nəzərə çarpacaq irəliləyişlər baş verir.Xüsusilə metalişləmə sahəsində daha təkmil əmək alətləri meydana çıxır.Yaşayış yerlərinin sahəsi ərazi cəhətdən genişlənir. İqtisadiyyatın inkişafı nəticəsində ayrı-ayrı

abidələrdəbu mədəniyyətinfərqli xüsusiyyətləri formalaşır. Kür-Araz mədəniyyətinin lokal xüsusiyyətləri keramika məmulatında özünü aydın büruzə verir. Naxçıvanın bu dövrə aid abidələri çoxtəbəqəli olması və mədəni təbəqələrinin qalınlığına görə seçilir.

Bu dövrün abidələrinə muxtar respublikanın hər yerində rast gəlmək mümkün olsa da,Şərur rayonunun çoxtəbəqəli yaşayış yerləri müəyyən xüsusiyyətləri ilə fərqlənir. Şərur ərazisindəbu mədəniyyətə aid Ovçular təpəsi, I Maxta (Maxta Kültəpəsi), II Maxta, Şortəpə, Xələc, Ərəbyengicə, Aşağı Daşarx kimi qədim yaşayış yerləri aşkarlanaraq tədqiqolunmuşdur. Şərur abidələri Kür-Araz mədəniyyətinin mənşəyi və genezisi ilə bağlı məsələlərin öyrənilməsi üçün mühüm əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, Cənubi Qafqazda "Proto-Kür-Araz" keramikasına ilk dəfə geniş şəkildə Şərur abidələrində, xüsusilə Ovçulartəpəsi, Xələc, I Maxta Kültəpəsi,Şortəpəvə s. yaşayış yerlərində rast gəlinmişdir. Dövrün qəbir abidələrinə isə hələlik Dizə və Qarabulaq nekropolunda rast gəlinmişdir.

1980-ci ildə Ovçulartəpəsiyaşayış yerinin şimal-şərq qurtaracağında 6,25 kv.m. sahədə V.H.Əliyevlə birlikdə apardığımız kəşfiyyat xarakterli tədqiqatlar zamanı Eneolit və Erkən Tunc dövrünə aid tikinti qalığı, gil qab hissələri, daş alətlər və osteoloji materiallar aşkar etmişdik.2006-2011-ci illərdə isə yaşayış yerində V.B.Baxşəliyev, K.Marro və S.H.Aşurov1800 kv.m sahədə arxeoloji qazıntılar aparmış, Eneolit və Erkən Tunc dövrünə aid dairəvi və dördkünc formalı tikintilər, keramika (şəkil 1), tunc və sümükdən hazırlanmış əşyalar əldə etmişlər.

Bu yaşayış yeri Eneolit və Erkən Tunc dövrünə aid tapıntılarla zəngin olduğu üçün həmin dövrlərin maddi-mədəniyyətini öyrənmək və bu mədəniyyətlərin qarşılıqlı münasibətlərini araşdırmaq baxımından əhəmiyyətlidir. Lakin abidənin Erkən Tunc dövrü təbəqəsi çox zəif olub, bir çox hallarda Eneolit təbəqəsi ilə qarışır. Bununla belə, araşdırmalar zamanı bu mədəniyyətlərin qarşılıqlı münasibətlərinin bəzi cəhətlərini müəyyən etmək mümkün olmuşdur.



Ovçulartəpəsindəngötürülən kömür analizlərindən biri e.ə.2900-2800-cü illəri, digəri e.ə. 3320-ci ili göstərmişdir. 2010-cu ildəki tapıntılar və C 14 analizlərinin nəticələri Kür-Araz mədəniyyətinə aid maddi mədəniyyət nümunələrinin e.ə. V minilliyin sonuna (e.ə. 4200) aid olduğunu göstərir. Radiokarbon analizin (C 14) nəticələrinə görə Ovçulartəpəsinin Eneolit təbəqəsi isə e.ə. 4350-4200-cü illəri əhatə edir[Bakhchaliyev V., Ashurov S. and Marro 2010].Tədqiqatçıların fikrincə, 2010-2011-ci illərin araşdırmaları Eneolit və Erkən Tunc dövrü mədəniyyətlərinin müəyyən zaman kəsiyində eyni dövrdə mövcud olduğundan xəbər verir. Qeyd edək ki,I Maxtanın üst təbəqələrindən götürülmüş kömürün analizi e.ə. 3316-2931 illəri göstərmişdir [Bakhchaliyev V., Ristvet L., Ashurov S.,2009, s.82-87].

2008-ci ildə Ərəbyengicə yaşayış yerində apardığımız araşdırmalar Eneolit mədəniyyətinin Kür-Araz mədəniyyəti ilə genetik bağlılığına dair yeni materiallar vermişdir. Qədim yaşayış yeri Şərur rayonunun eyni adlı kəndindən cənubda yerləşir. Ərəbyengicə yaşayış yerinin tədqiqi göstərdi ki, Eneolit mədəniyyəti yalnız bir-iki abidə ilə məhdudlaşmır. Yaşayış yerinin əhəmiyyəti ondan ibarətdir ki, bu abidə Eneolit dövründən Kür-Araz mədəniyyətinə keçidi izləməyə imkan verir. İstər Kür-Araz mədəniyyətinə aid keramika nümunələrində, istərsə də Eneolit keramikasında bu keçidin izləri özünü aydın şəkildə büruzə verir. Ərəbyengicə yaşayış yerinin tədqiqi zamanı müəyyən olunmuşdur ki, son mərhələdə evlər düzbucaqlı, erkən mərhələdə isə oval olmuşdur. Yaşayış yerindən aşkar olunan memarlıq qalıqları və keramika nümunələri digər yaşayış yerləri ilə bənzərdir. Ərəbyengicə yaşayış yerinin keramika məmulatında Eneolit mədəniyyətindən Kür-Araz mədəniyyətinə keçid qabların formasında, qulp tiplərində, oturacaqların formasında aydın şəkildə izlənilmişdir. Tədqiqatlara əsaslanaraq demək olar ki, bu keçid həm çəhrayı rəngli keramikada, həm də qara rəngli keramikada izlənilir. Ərəbyengicə yaşayış yerinin tədqiqi Kür-Araz mədəniyyətinin qara cilalı qablarının birdən-birə

meydana çıxmadığını, onun müəyyən təkamülün nəticəsi olduğunu deməyə əsas verir [Seyidov A.Q., Baxşəliyev V.B.2009]

2009-cu ildə Şərur rayonununXələc kəndi ərazisində yerləşən eyniadlı qədim yaşayışyerində apardığımız qazıntılar zamanı son Eneolit (şəkil 2) keramikası ilə yanaşı Kür-Araz mədəniyyətinin erkən mərhələsinə aid maddi-mədəniyyət nümunələri əldə etdik. Bu keramika parçaları narın qum qarışığı olan gildən hazırlanaraq, boz rəngdə bişirilmişdir. Onların bəzisi incə saman qarışığından, bir qismi isəqum qarışıq gildən hazırlanaraq, qara və boz rəngdə bişirilmişdir. Xaricdən cilalanmış, içəridən isə daraqvari alətlə naxışlanmış bəzi qabların üzərində qəhvəyi rəng izləri qalmışdır. Proto Kür-Araz keramikası adlanan bu tip keramikaya Naxçıvanda II Kültəpə[Алиев В, 1997], I Maxta Kültəpəsi, Ovçulartəpəsi, Şortəpə, Püsyan yaşayış yerlərində rast gəlinmişdir [Seyidov A.Q., Baxşəliyev V.B., Mahmudov V.Ə., 2010].

Aşağı Daşarx (şəkil 3) qədim yaşayış yerində 2011-ci ildə apardığımız qazıntılar zamanı da "Proto-Kür-Araz" keramikası aşkar olunmuşdur. Bu keramika nümunələri Naxçıvanın həmdövrabidələrindən tapılmış maddi-mədəniyyət qalıqları ilə analogiya təşkil edir [Baxşəliyev V., Seyidov A., 2012].

Kür-Araz mədəniyyətini özündə əks etdirən abidələrdən biri də Şərur rayonunun İbadulla kəndi ərazisində yerləşən Şortəpə qədim yaşayış yeridir. Abidə 2012-2013-cü illərdə tərəfimizdən tədqiq olumuşdur (şəkil 4). Aparılmış arxeoloji qazıntılar nəticəsində buradan 3,8 metr qalınlığında mədəni təbəqə aşkar edilmişdir [Seyidov A.Q., Baxşəliyev V.B.,2013].

Bu tip keramikaya Azərbaycanda Muğan-Qarabağ abidələrində, o cümlədən Qarahacı və Cüttəpə Erkən Tunc dövrü yaşayış yerlərində də rast gəlinib. Bu abidələr e.ə. IV minilliyə aid edilir.

İlk Tunc dövrünə aid möhtəşəm abidələrdən biri də Sədərək qədim yaşayış yeridir. Abidətərəfimizdən 2010-cu ildə arxeoloji tədqiqatlarla yenidən öyrənilmişdir. Qədim yaşayış yeri Sədərək rayonunun Qaraağac kəndindən şərqdə, düzənlik ərazidə yerləşir.



Yaşayış yeri vaxtilə dağıntıya uğramışdır. Bu zaman aşkar edilən arxeoloji materialların bir qismi Sədərək Rayon Tarix-Diyarşünaslıq muzeyinə verilmişdir (Şəkil 5). Arxeoloji materiallarla tanışlıq onların Eneolitdən başlayaraq Son Dəmir və Orta əsrlərədək uzun bir dövrü əhatə etdiyini göstərdi. Bura xalq arasında "Kültəpə", "Şəhər yeri" adları ilə də məhşurdur. Abidənin böyük bir qisminin əkin sahəsinə çevrilməsinə baxmayaraq onun toxunulmayan hissəsi 4-5 hektar ərazisini əhatə edir. Araşdırmalar zamanı Sədərək Tarıx-Diyarşünaslıq muzeyində iki daş balta ilə rastlaşdıq (Şəkil 6). Onların biri qara rəngli daşdan hazırlanmış, üçbucaq formalıdır.Yuxarı hissəsində dairəvi deşik açılmışdır. Qəhvəyi rəngli daşdan hazırlanmış oval formalı ikinci alətin yuxarı hissəsində dairəvi deşik açılmışdır. Qaraağac sakinləri tərəfindən bizə verilmiş üçüncü alət isə daş toxadır. Bu daş alətlərin yaxın bənzərləri Türkiyənin Neolit və Erkən Eneolit abidələrindən məlumdur [Seyidov A.Q., Baxşəliyev V.B. 2011].

Xronologiya məsələsinə gəldikdə deyə bilərik ki, Cənubi Qafqazın Son Eneolit abidələrində meydana çıxan boyalı keramika e.ə. IV minilliyin birinci yarısı ilə tarixləndirilir. Bu baxımdan, Göytəpənin M təbəqəsi üçün müəyyən edilən e.ə. 3200-3150-ci ilin nə dərəcədə doğru olduğu bəlli deyil. Bu abidənin Kür-Araz təbəqəsi üçün də olduqca aşağı tarix müəyyən edilmişdir (e.ə.2400). Halbuki, II Kültəpədən götürülən kömür analizlərinin nəticələri e.ə. 3335-ci ili göstərmişdir [Bakhchaliyev V., Lauren R. and Ashurov S. 2009, c. 84]. Bizcə, II Kültəpənin alt layları daha qədim dövrə, daha doğrusu e.ə. IV minilliyin ortalarına aiddir [Сеидов А.Г., 2002, с.135]. Bu,Kültəpənin alt laylarından saman qarışıq keramikanın aşkar olunması ilə də təsdiq olunur. Arxeoloji araşdırmalar Azərbaycanda Kür-Araz mədəniyyətinin qədim tarixə malik olduğunu göstərir.Araşdırmalar Naxçıvan ərazisinin Kür-Araz mədəniyyətinin formalaşdığı əsas rayonlardan biri olduğunu sübut edir.

Ümumiyyətlə, Qafqaz arxeologiyasında Eneolit abidələrindəki boyalı qablar Xalaf-Ubeydmədəyiyyəti ilə əlaqələndirilmişdir. Belə hesab edirik ki, Naxçıvanın Son Eneolit

abidələrindəki boyalı keramika Ubeyd mədəniyyəti ilə əlaqələrin olduğunu göstərir. Xələc keramikasında Uruk mədəniyyətinin izlərinə də rast gəlinir. Xələcin Son Eneolit keramikasını müqayisəli araşdırmalara əsasən, e.ə. 4300-3800-cü illərə aid etmək olar.

Erkən Tunc dövrü mədəniyyətinin dövrləşməsi məsələsində müəyyən fikir ayrılığı mövcuddur. Uzun müddət belə bir konsepsiya ortalığa atılmışdı ki, İlk Tunc və Eneolit dövrləri arasında heç bir genetik bağlılıq yoxdur, Kür-Araz mədəniyyəti Cənubi Qafqaz ərazisinə «gətirilmədi». Azərbaycan ərazisində tədqiq edilmiş abidələr (I Kültəpə, Babadərviş, Qaraköpəktəpə, Şomutəpə, Töyrətəpə, Urmiya sahilində Göytəpə, Yanıqtəpə və s.) xronoloji ardıcıllığına, mədəni təbəqələrinin qalınlığına və zənginliyinə görə fərqləndiyindən, bəzi tədqiqatçılar Azərbaycan ərazisini bu mədəniyyətin beşiyi kimi görmək istəmirdilər. Lakin son illər keçid mərhələsini əks etdirən və Azərbaycan abidələrinə bənzər abidələrin Cənubi Dağıstanda (Qinçi), Şərqi Gürcüstanda (Sioni, Tetriskaro, Aruxlo VI), Qərbi Azərbaycanda - müasir Ermənistan Respublikası ərazisində (Texut, Tərtəri-dzor) tədqiq edilməsi düşün-cələrdə dəyişiklik yaratmış, hər regionun tədqiqatçısı öz ərazisini bu mədəniyyətin yaranma ocağı kimi təqdim etməyə meyl göstərmişdir. Azərbaycanda Leylatəpə, Qarahacı, Cüttəpə, Üçoğlan, Dəyirman yeri (Qarabağ), Ovçular Təpəsi, Xələc kimi Son Eneolit abidələrindən Kür-Araz keramikasına bənzər gil məmulatı aşkar edilmişdir. İ.H.Nərimanov bildirir ki, qara və boz cilalı, çəhrayı astarlı, səthi daraqvari əşya ilə işlənmiş [Нариманов И.Г. 1987,с.64-65], bəzilərində şabalıdı anqoblama yaxud kobud suvaq çəkilmiş keramika Eneolit və İlk Tunc dövrləri arasında irsi bağlılığın tutulmasına kömək edir.

Naxçıvan ərazisində qeydə alınan abidələrin tədqiqi bu mədəniyyətin dövrləşdirilməsi üçün yeni faktlar ortaya çıxarır. Bu faktlar Kür-Araz mədəniyyətinin Naxçıvan ərazisində daha qədim tarixə malik olduğunu göstərir. Bu fikir vaxtilə O.H.Həbibullayev [Абибуллаев О.А. 1982,с.196] tərəfindən söylənmişdir. Son illərin araşdırmaları zamanı II Kültəpənin alt qatlarında Kür-Araz



keramikasına Eneolit dövrünün final mərhələsinin xüsusiyyətlərini əks etdirən keramika ilə birlikdə rast gəlinməsi [Сеидов А.Г. 1993,с.107-108] bu mədəniyyətin ilk mərhələsini xarakterizə etməyə imkan verir.

Naxçıvan ərazisində yerləşən I Kültəpə, II Kültəpə(Şəkil 7), I Maxta, Ovçular Təpəsi, Xələc və s. abidələrin stratiqrafiyasına və arxeoloji materialın təhlilinə əsasən belə nəticəyə gəlirik ki, İlk Tunc dövrü bu ərazidə dörd inkişaf mərhələsi keçmişdir:

I mərhələ (formalaşma dövrü)—e.ə.V minilliyin sonundan e.ə.3500-cü ilədək olan dövr (Ovçular Təpəsi, Xələc , Şortəpə, I Maxta);

II mərhələ (ilk dövr)—e.ə.3500-3150-ci illər (II Kültəpə, Xələc, Ərəbyengicə, Ovçular təpəsi);

III mərhələ (orta dövr)—e.ə.3150-2700-cü illər (I Kültəpə, II Kültəpə, I Maxta, II Maxta, Ərəbyengicə, Aşağı Daşarx, Şortəpə, Plovdağ nekropolu (şəkil 8);

IV mərhələ (son dövr)—e.ə.2700—2400-2300-cü illər (I Kültəpə, II Kültəpə, I Maxta, Ərəbyengicə, Aşağı Daşarx və s.).

Burada I Kültəpə və II Kültəpədən götürülmüş kömür analizinə diqqət yetirmək də yerinə düşər. I Kültəpənin Eneolit təbəqəsindən—18,2 metr dərinlikdən götürülmüş kömür analizi e.ə.3807±90-cı ili [Абибуллаев О.А. 1982,с.191], II Kültəpədə 11,6 metr dərinlikdən tapılmış kömür analizi isə 7110±100 = e.ə.5160-cı ili [Seyidov A.,BaxşəliyevV.,Məmmədov S., Aşurov S. 2012, s.189] göstərmişdir. Analiz 6 mart 1987-ci ildə SSRİ EA Arxeologiya İnstitutunun Leninqrad Bölməsindəki elmi laboratoriyada Y.İ.Markov tərəfindən olunmuşdur. 1988-ci ildə təkrar olaraq həmin tarix təsdiq edilmişdir.

Son olaraq belə nəticəyə gəlmək olar ki, Naxçıvanın Erkən Tunc dövrü abidələrinin Azərbaycan arxeologiyasının öyrənilməsi üçün mühüm əhəmiyyəti vardır. Bu ərazi Ön Asiya ölkələri ilə yaxın olduğundan qədim sivilizasiyaların əldə etdiyi nailiyyətlərin şimala ötürülməsində, qarşılıqlı iqdisadi-mədəni əlaqələrdə mühüm rol oynamışdır. Aparılan araşdırmalar göstərir ki, Erkən Tunc dövründə

qədim Naxçıvan sakinlərinin tarixində əsaslı ictimai-iqtisadi dəyişikliklər olmuş, Eneolit dövründə əsası qoyulan «metallurgiya» sonrakı mərhələlərdə daha da genişlənmiş, maldarlıq əkinçilikdən ayrılmış, xış əkinçiliyi meydana gəlmiş, yaylaq maldarlığı inkişaf etmiş, ilkin tayfa ittifaqları yaranmışdır. İqtisadiyyatın inkişafı və əhalinin artması yeni yaşayış yerlərinin salınmasına səbəb olmuşdur.

Naxçıvanın Erkən Tunc dövrü yaşayış yerləri coğrafi yerləşməsinə görə dörd qrupa bölünür. Birinci qrupa strateji cəhətdən əlverişli mövqedə yerləşən Ovçulartəpəsi yaşayış yeri, ikinci qrupa əkinçilik və maldarlıq üçün əlverişli olan Naxçıvançay vadisində yerləşən I Kültəpə və II Kültəpələr, üçüncü qrupa Arazboyu ovalıqda və onun dağ ətəklərinə doğru uzantılarında yerləşən I Maxta Kültəpəsi, II Maxta Kültəpəsi, Xələc, Ərəbyengicə, Şortəpə, Sədərək, Plovdağ[BaxşəliyevV.,Seyidov A.,QədirzadəQ.,İbrahimli B., 2014] və s. yaşayış yerləri, Dizə, Qarabulaq, Plovdağ nekropolları, dördüncü qrupa isə yüksək dağlıq ərazidə yerləşən Hovuzlu və Xornu abidələri daxildir.

Kür-Araz mədəniyyətinin mənşəyi ilə bağlı tədqiqatçılar arasında müxtəlif fikirlər olmasına baxmayaraq, bu mədəniyyətin Cənubi Qafqazda formalaşdığı qəbul edilmişdir. Bəzi alimlərin fikrinə görə, bu mədəniyyət Qafqazda və Şimali İranda, digərlərinə görə isə Şərqi Anadoluda və Arazın orta axarlarında formalaşmışdır. Son illərin araşdırmaları göstərir ki, bu mədəniyyətin formalaşdığı əsas bölgələrdən biri Naxçıvan ərazisi olmuşdur. Azərbaycan, o cümlədən Naxçıvan abidələrinin tədqiqi təsdiq edir ki, Kür-Araz mədəniyyəti Eneolit mədəniyyəti əsasında inkişaf etmişdir. Kür-Araz mədəniyyətinin Eneolit mədəniyyəti ilə bağlılığı, xüsusilə, Urmiya hövzəsi və Naxçıvan abidələrində aydın izlənilir. Eneolit mədəniyyətindən Kür-Araz mədəniyyətinə keçid Göytəpə, Yanıqtəpə, Ovçulartəpəsi, Xələc, II Kültəpənin keramika məmulatında özünü büruzə verir.

Ümumiyyətlə, Urmiya hövzəsi və Naxçıvanda yerləşən İlk Tunc dövrü abidələrində mədəni təbəqənin qalınlığı, Kür-Araz mədəniyyətinin bütün mərhələlərinin aydın izlənilməsi, Kür-Araz mədəniyyətinə aid təbəqənin Eneolit təbəqəsini örtməsi təsdiq edir ki, bu ərazi Kür-Araz mədəniyyətinin formalaşdığı əsas ocaqlardan biri olmuşdur. Son illərin araşdırmaları təsdiq edir ki, Azərbaycanın şimal və cənub rayonları Kür-Araz mədəniyyətinin formalaşdığı və qonşu ərazilərə yayıldığı əsas mərkəzlərdəndir.

Urmiya hövzəsi ilə bağlı olan Naxçıvanın Kür-Araz keramikası bir sıra lokal xüsusiyyətlərinə görə digər regionların keramikasından fərqlənir. Bu fərqlər ocaq qurğuları və metal əşyalarda da özünü aydın göstərir. Şimalda Şimali Qafqaz və Dağıstan, cənubda Urmiya hövzəsi, cənub qərbdə Suriya və Fələstinədək yayılan Kür-Araz mədəniyyəti müəyyən lokal xüsusiyyətləri ilə fərqlənmişdir.

Son olaraq qeyd edək ki, araıdırmalarbir daha İlk Tunc dövrü Kür-Araz mədəniyyətinin ilkin yaranma ocaqlarından birinin məhz Naxçıvan olduğunu təsdiq edir.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энеолит и бронзанатерриторииНахичеванской АССР. Баку: Эльм, 1982, 314 с.
2. Алиев В.Г. Поселеcинякуро-араксскойкультурыНахичеваиского края. Тезисыдокладовмеждународнойнаучнойсессии, Тбилиси, 1997, с. 56-58.
3. Baxşəliyev V.,Marro C., Aşurov S. Ovçulartəpəsi., Bakı, "Elm", 2010.
4. BaxşəliyevV.,Seyidov A.,QədirzadəQ.,İbrahimli B., Qədim Ordubad, Naxçıvan, 2014.
5. Baxşəliyev V., Seyidov A., Aşağı Daşarx., Bakı, 2012.
6. Bakhshaliyev V., Ristvet L., Ashurov S. TheChronologyKura-AraksesSites: 2006 Excavations at Kultepe II and Maxta I. Azerbaijan-LandbetweenEast and West. Transfer of knowledge and technologyduringthe

«FirstGlobalization» of theVIIth-IVthmillennium B.C. Berlin-Baku, 2009, p. 82-87.
7. Нариманов И.Г. Культурадревнейшегоземледельческоскотоводческогонаселения Азербайджана. – Баку, 1987.
8. Seyidov A.Q., Baxşəliyev V.B. Ərəbyengicə. Bakı: Nurlan, 2009, 160 s.
9. Seyidov A.Q., Baxşəliyev V.B., Mahmudov V.Ə. Xələc. Bakı "Elm", 2010, 220 s.
10. Seyidov A.Q., Baxşəliyev V.B. Sədərək. Bakı, "Elm", 2011, 184 s.
11. Seyidov A.Q., Baxşəliyev V.B.,Şortəpə (İbadulla), Bakı, 2013.
12. Сеидов А.Г. РаннебронзоваякультураНахчывана., Воронеж, 2002.
13. Сеидов А.Г.Памятникикуро-араксскойкультурыНахичевани. Баку: Билик, 1993, 164 с.
14. Seyidov A.,BaxşəliyevV.,Məmmədov S., Aşurov S. Qədim Şərur., Bakı, "Nurlan", 2012.



**Nəcəf Müseyibli**
**necef_museibli@mail.ru**
**(AMEA Arxeoligiya və Etnoqrafiya İnstitutu)**

## QƏDİM SƏDƏRƏK ABİDƏLƏRİ

**Sədərək eneolit - ilk tunc dövrü yaşayış yeri (2;8).** Sədərək düzən- liyinin təbii-coğrafi mövqeyi, münbit torpaqları ən qədim əkinçi-maldar əhalinin bu ərazilərdə məskunlaşması üçün əlverişli şərait yaratmışdır. Erkən əkinçi-maldar tayfaların Sədərək rayonu ərazisindəki ən qədim yaşayış yeri eneolit və ilk tunc dövrünə aiddir. Bu abidə eyni zamanda, Sədərək rayonu ərazisində bu vaxta qədər aşkar edilmiş ən qədim insan məskənidir. Bölgənin təbii-coğrafi şəraiti gələcəkdə bu ərazidə daha qədim dövrlərə aid abidələrin aşkar ediləcəyinə ümidləri artırır (8, 17).

Sədərək eneolit-ilk tunc dövrü yaşayış yeri 1978-ci ildə V.H.Əliyev tərəfindən qeydə alınmışdır. Həmin ildə o, burada kəşfiyyat xarakterli tədqiqat işləri aparmışdır. Təsərrüfat işləri zamanı abidənin bütün sahəsi dağı- dılmış və maddi mədəniyyət nümunələri ətrafa səpələnmişdir. Bu ərazi əkin sahəsinə çevrildiyindən hazırda abidədən əsər-əlamət qalmamışdır. Abidədən toplanan maddi mədəniyyət nümunələrinin bir qismi hal-hazırda Sədərək rayon Tarix Diyarşünaslıq Muzeyində saxlanılır. Sədərək düzənliyinin cənubunda mövcud olmuş bu qədim yaşayış yerindən eneolit və ilk tunc dövrlərinə aid daş alətlər və saxsı qab qalıqları aşkar edilmişdir (2).

Daş məmulatı dən daşları, sürtgəclər, həvənglər (1 tablo) və müxtəlif formalı kəsici alətlərdən ibarətdir. Dən daşları alt və üst dən daşlarından ibarət olub, əsasən bazaltdan və tufdan hazırlanmışdır. Boz rəngli bazaltdan hazırlanmış alt dən daşları iri ölçülüdür. Onlar uzunsov-oval formada olub, bəzisinin ucları nisbətən enli və hündürdür. Hər iki üzü dişənərək hamarlan- mış, oturacağı yastıdır. Üzəri işlənmə nəticəsində orta hissədə bir qədər çi- çəklənmişdir. Üst dən daşları - sürtgəclər boz rəngli, uzunsov formalı, yastı məsaməli

tufdan daha diqqətlə dişənib hazırlanmışdır. Onların üst hissəsi azca qabarıq, işlək üzü yastıdır. Həvənglər bərk, bazalt cinsli daşdan və tufdan hazırlanmışdır. Bu alətlərin bir qrupu üzərində əlavə dişənmə, hamarlanma işi aparılmamışdır. Tufdan hazırlanmış boz rəngli, dairəvi formalı həvənglərin üzəri və oturacağı dişənərək hamarlanmışdır. Onların içərisi dərin olub, səliqə ilə oyulmuş, ağız hissəsi geniş, dibə doğru getdikcə daralır (2).

Abidədən əldə edilmiş eneolit dövrünə aid daş əmək alətlərinin böyük bir hissəsi obsidian (dəvəgözü) lövhələrindən hazırlanmışdır (II tablo). Bıçaqvari obsidian lövhələrin bir qrupu qəhvəyi, qara və qonur rəngdədir. Onlar dördkünc, uzunsov, trapesiya, üçbucaq formalara malikdirlər. Bəzilərinin qırıqları əldə edilmişdir. Bütün alətlərdən kəsmək, deşmək məqsədilə və qaşov kimi istifadə olunmuşdur. Bu abidədən tapılmış daş əmək alətləri Babək rayonu ərazisindəki I Kültəpə abidəsinin daş məmulatı ilə eyniyyət təşkil edir. Obsidian alətlər isə həm də Şərur rayonunun Dizə kəndi ərazisindəki Ovçular təpəsi eneolit dövrü abidəsinin analoji materialları ilə yaxınlıq təşkil edir.

Sədərək qədim yaşayış yerinin daş əmək alətləri bölgənin eneolit dövrü sakinlərinin təsərrüfat həyatı barədə zəruri məlumatlara malik olmağa imkan verir. Dən daşları eneolit dövründə Sədərək düzənliyində əkinçilik mə- dəniyyətinin yüksək inkişaf səviyyəsində olduğunu, əkinçilikdə taxılın geniş yer tutduğunu sübut edən maddi dəlillərdir. Biçin zamanı obsidiandan kəsici dişləri olan oraqlardan istifadə edir, əldə etdikləri taxılı dən daşlarında üyü- dərək una çevirirdilər. Obsidiandan hazırlanmış alətlər məişətdə geniş tətbiq edilir, onlardan heyvanların dərilərinin təmizlənməsində, ağacdan və sü- mükdən müxtəlif alətlərin düzəldilməsində istifadə edilirdi. Bütün bunlar həm də heyvandarlığın və sənətkarlığın qədim sədərəklilərin həyatında mühüm yer tutduğunu söyləməyə imkan verir.

Abidədən aşkar edilmiş eneolit dövrünə aid saxsı məmulatı hələ 6000 il bundan əvvəl burada dulusçuluq sənətinin inkişaf etdiyini göstərir. Həmin saxsı məmulatı badya, çölmək, küpə tipli qabların



ağız, gövdə və oturacaq hissələridir. Qədim yaşayış yerinin keramika məmulatının (III və IV tablolar) əksəriyyəti qalın, bir qismi isə nazik divarlı olub, gilinin tərkibinə saman qatılmışdır. Bəzi qab qırıqlarının gilində isə qum və tuf daşı ovuntusu var. Qablar əldə hazırlanmış, divarları kələ-kötür olsa da, hər iki üzdən ha- marlanmış, yaxşı bişirilmişdir. Onlar bəzən bir tərəfdən, bəzi hallarda isə hər iki tərəfdən anqobla örtülmüşdür. Yaşayış yerindən dairəvi formalı man- qalların qırıqları da tapılmışdır. Belə ocaq qurğularından birinin divarı qalın, ağız kənarı qablarda olduğu kimi nazikdir. Açıq çəhrayı rəngli gilinə saman qatılmış və yaxşı yoğrulmuşdur. Divarının orta layı qara və boz rəngdə olub tam bişməmişdir. Hər iki üzdən sığallanmış, açıq rəngli anqobla örtülmüşdür. Sədərək abidəsinin eneolit dövrü keramika məmulatı Naxçıvanın həmdövr abidələrinin analoji materialları ilə eyniyyət təşkil edir.

Eneolitdən sonrakı tunc dövrü (e.ə. IV minilliyin ikinci yarısı - II minillik) cəmiyyətin, məhsuldar qüvvələrin intensiv inkişafı ilə səciyyələnir. Bu dövrdə qədim Sədərəkdə əkinçilik, heyvandarlıq, müxtəlif sənətkarlıq sahələri yüksək inkişaf səviyyəsinə çatmışdı. Sədərək qədim yaşayış yerin- dən əldə edilmiş tunc dövrünə aid arxeoloji tapıntılar əsasən saxsı və daş məmulatı ilə təmsil olunurlar. Saxsı məmulatı məişətdə ən müxtəlif məqsədlərdə istifadə olunan qab qalıqlarından ibarətdir. Bu qablar əvvəlki eneolit dövrü dulusçuluq məmulatından gilinin daha yaxşı bişirilməsi, daha mükəmməl formaları, zəngin ornamenti və başqa keyfiyyətləri ilə seçilirlər. Sədərək qədim yaşayış yerinin ilk tunc dövrü - Kür-Araz mədəniyyəti (e.ə. IV minilliyin ikinci yarısı - III minillik) keramikası Naxçıvan MR ərazisindəki digər həmdövr abidələrin - I və II Kültəpələrin, Aşağı Daşarxın, I və II Maxta, Ərəbyengicə, Şortəpə və başqa abidələrin saxsı məmulatı ilə eyniyyət təşkil edir (8, 21).

Sədərək qədim yaşayış yerindən əldə edilən ilk tunc dövrü daş əmək alətləri alt və üst dən daşlarından ibarətdir. Abidənin aşkar edilmiş ilk tunc dövrünə aid daş baltalar və asmalar rayon muzeyində saxlanılır. Abidənin əhatə etdiyi sahədə bu dövrə aid maddi mədəniyyət nümunələrinə daha çox rast gəlinir. Burada eneolit

dövründə başlanan həyat ilk tunc dövründə inkişaf edərək daha böyük əraziyə yayılmış, əkinçilik, maldarlıq, sənətkarlıq, ətraf ərazilərin sakinləri ilə əlaqələr genişlənmişdir.

İki ədəd baltanın biri qara rəngli mərmərdən, digəri isə bərk cinsli bazalt daşından hazırlanmışdır. Mərmər balta zəif cilalanmışdır. Onun yuxarısında açılmış ikitərəfli deşikdən arxaya olan hissəsi sınmışdır (V tablo №1). İkinci balta bütövdür. Uzunluğu 14 sm. yuxarı hissəsində açılmış ikitərəfli deşiyin diametri 3.5 sm-dir (V tablo №2).

Qara rəngli mərmərdən olduqca nəfis hazırlanmış əşya asma bəzək xarakteri daşımışdır. 4,2 sm uzunluğa malik asmanın ucda eni 2 sm, arxada isə 1,3 sm-dir. Arxa hissədə açılmış ikitərəfli deşiyin diametri 0,6 sm-dir (V tablo №3).

İkinci asmadan toxuculuqda istifadə olunduğunu söyləmək mümkün- dür. Diametri 6,5 sm olan şarşəkilli asmanın ortasında ikitərəfli deşik açılmışdır (V tablo №4).

**Çapacaq kurqanı (7; 8).**Bu abidə Sədərək qalasına şərq istiqamətdən ensiz vadi şəklində uzanan yolun sağında Vəlidağ silsiləsinin kiçik bir təpə- sinin üzərində, müasir suvarma kanalının yaxınlığında qeydə alınmışdır. Maraqlıdır ki, ətraf təpələr və yamaclar diqqətlə nəzərdən keçirilsə də digər dəfn abidələrini qeydə almaq mümkün olmadı. Sədərək qalasından aydın görünən kurqan iki alçaq təpənin arasında qurulmuşdur. Diametri 5.40 m olan kurqanın 0,5 m-lik konusvari yerüstü hissəsi 15-30 sm diametirli daşlardan qurulmuşdur. Bəzən bu daşların arasında yaranan boşluqlar daha kiçik daşlarla doldurulmuşdur. Daş qutudan ibarət dəfn kamerası kurqanın şərqində tam cənub-şimal istiqamətdə qurulmuşdur. Kameranın divarları nisbətən yastı və uzunsov daşlardan 3-4 cərgə, heç bir bərkidici məhluldan istifadə olunmadan qurulmuşdur. Kameranın üzəri eyni ölçülü daşlarla bir cərgə örtülmüşdür. Dəfn kamerasının uzunluğu 1,85 sm, eni 1,50 sm, dərinliyi 0,6 sm-dir (V tablo). Üst daşların kiçikliyi və kurqanın üzərinə düzülmüş daşların ağırlığı nəticəsində dəfn kamerasının ortası çökmüş və bu səbəbdən qəbrin saxsı məmulatı əzilmişdir (8, 27). Çapacaq kurqanında insan



skeletinə və kül izlərinə rast gəlinmədi (7; 8; 9; 11). Sınmış saxsı qabların daxili və ətrafında heç bir sümük və ya kül qalığı müəyyən olunmadı. Skeletsiz qəbirlərə Xocalı-Gədəbəy mədəniyyətinin bir sıra nekropollarında da rast gəlinmişdir (1, 163-166; 4; 6, 59-60; 13).

Kurqanın arxeoloji materialları obsidian lövhə, daş kasa və üç ədəd saxsı qabdan ibarətdir.

Uzunluğu 7 sm, eni 5 sm olan açıq rəngli obsidian parçasının bir tərə- findən müxtəlif istiqamətlərdə qəlpələr qoparılmışdır. Lakin onun heç bir tərəfində dişənmə izləri və ya işlənmə əlamətləri yoxdur (VI tablo №2). Ob- sidianın parça halında hər hansı qəbirdən əldə edilməsinin özü maraqlı hadisədir. Lakin bu obsidian parçası dəfn kamerasına təsadüfən düşə bil- məzdi. Onun kurqanın digər arxeoloji materialları ilə bir səviyyədən və eyni istiqamətdən əldə edilməsi bunu bir daha təsdiq edir (8, 28).

Azərbaycanın son tunc-ilk dəmir dövrü qəbir abidələrinin bir çoxunda obsidian lövhələri aşkar edilmişdir. Bir qayda olaraq,onların heç birində iş- lənmə izləri yoxdur. Dağlıq Qarabağın, Gəncəçay hövzəsinin, Naxçıvanın, Şəmkir rayonundakı Zəyəmçay nekropolunun bir sıra qəbir abidələrində obsidian parçalarına rast gəlinmişdir. Maraqlıdır ki, bu daşlar daha çox skeletsiz qəbirlərə qoyulmuşdur. Qədim zamanlarda geniş yayılmış inamlardan biri müxtəlif daşlara sitayiş olmuşdur. Çox güman ki, qədim inamlara görə ölənlərin ruhu məhz bu daşlara köçürmüş (1).

Kurqandan əldə olunmuş daş kasa qara rəngli tuf daşından hazırlan- mışdır. O həm daxildən, həm də xaricdən yaxşı cilalanmışdır. Ağız kənarı azacıq daxilə gövsşəkilli əyilən kasanın gövdəsindən oturacağına keçid hiss olunmur. Kasanın ağız kənarında diametri 10 sm, hündürlüyü 3,8 sm-dir (VI tablo №4).

Saxsı məmulatının hər üçü qonur rəngli, narın qum qatışıqlı gildən yoğrulmuşdur. Şargovdəli küpələrdən birinin oturacağından gövdəyə keçid hissəsi azca dabanlıdır. Ağız kənarı xaricə qatlanan küpənin boğazı alçaqdır və oradan gövdəyə keçid hiss olunmur. Qabın gövdəsini, bir-birindən tam bərabər məsafədə olan məməcik şəkilli dörd şiş yapma çıxıntı bəzəyir. Bu çıxıntılar və qabın üzərinin

cilalanması e.ə. IV-III minilliklərə aid edilən Kür-Araz mədəniyyəti dulusçuluq ənənələrini xatırladır. Qabın çiyin hissəsinə onun bütün ətrafım əhatələyən iki cızma xətt çəkilmişdir. Səliqəsiz çəkildiyindən onlar arasındakı məsafə hər yerdə eyni deyildir. Bu iki xəttin arası soldan-sağa və sağdan-sola çəkilmiş çarpaz xətlərlə doldurulmuşdur. Bu xətlərin kəsişməsindən əmələ gəlmiş naxış toru xatırladır. Küpənin hündürlüyü 15 sm, diametri oturucaqda 10,2 sm, gövdədə 20 sm, ağız kənarında 13,6 sm-dir (VI tablo №1).

İkinci küpə yastı oturacaqlı, tam şar gövdəlidir. Alçaq silindrik boğa- zının aşağısını yapma zolaq haşiyələyir. Ağız kənarı xaricə azca köbəlidir. Ağız hissəsini daxildən ensiz basma xətt haşiyələyir. Küp xaricdən qara boyanaraq cilalanmışdır. Boğaz hissəsi isə daxildən qırmızı rənglə boyanaraq cilalanmışdır. Küpün gövdəsini cızma naxışlar bəzəyir. Gövdənin yuxarısını səliqəsiz iki üfüqi cızma xətt haşiyələyir. Bu xətlərin arası yaş mala üzərinə çəkilmiş konnelyurla bəzədilib. Eyni ilə bu formalı digər naxış gövdənin aşağısını əhatələyir. Bu iki kəmərşəkilli naxışın arasına cızma üsulu ilə qarşı tərəfləri sağda olan bucaqlar çəkilmişdir. Bu bucaqların arası fasilələrlə kon- nelyur formalı naxışlarla bəzədilmişdir. Qeyd etmək lazımdır ki, bu tip naxışlar da öz başlanğıcını ilk tunc dövründən alır. Bu küpün hündürlüyü 15 sm, diametri oturacaqda 8,5 sm, gövdədə 17 sm, ağız kənarında 8,5 sm-dir (VI tablo №3).

Sadə kasa tipli oturacağı saxlanmışdır. Gövdəsi azca qabarıq, ağız kə- narı daxilə mailidir. Ağız kənarında diametri 20 sm olmuşdur (VI tablo №5).

Çapacaq kurqanı özünün forma və quruluşuna eləcə də dəfn adətinə görə Şərur düzünün son tunc - ilk dəmir dövrü dəfn abidələrindən seçilmir. Lakin saxsı qabların bəzi fərqləndirici cəhətləri, xüsusilə, qırmızı boya, konelyur naxış və şişvari yapmalar kurqanın Qarabulaq kurqanlarına nisbətən qədim olduğunu sübut edir. Bütün analoji materiallardan çıxış edərək Çapacaq kurqanını e.ə. XIV-XIII əsrlərə aid edə bilərik.

Çapacaq kurqanı Sədərək rayonu ərazisində aşkar edilmiş kurqan tipli ilk və hələlik yeganə dəfn abidəsidir (8).



2001-2003-cü illərdə Sədərəkdə apardığımız araşdırmalar zamanı çox- saylı kurqanlar aşkar edilmişdir. Onlardan yalnız birində qazıntı aparılmış və həmin kurqanın kenotaf olduğu müəyyən edilmişdir. Həmin kurqanda heç bir arxeoloji material aşkar edilməmişdir.

**Kültəpə - «şəhər yeri».** Sədərək kəndindən cənubi-şərqdə, düzənlik sahədə, eneolit-ilk tunc dövrü yaşayış yerinin bilavasitə yaxınlığında yerləşən, kənd sakinləri tərəfindən Kültəpə adlandırılan qədim yaşayış məskəni çoxtəbəqəli abidə olmuşdur. Burada həyat e.ə. II minilliyin sonu - I minilliyin əvvəlindən (son tunc ilk dəmir dövründən) başlayaraq XVII-XVIII əsrlərədək, təqribən 3 min il ərzində ardıcıl davam etmiş, genişlənərək orta əsrlərdə şəhər tipli yaşayış məskəninə çevrilmişdir. Buna görə də yerli əhali bu abidəni həm də «Şəhər yeri» adlandırırlar. Abidənin ümumi sahəsi 7 hektardan artıqdır. Lakin təəssüflə qeyd etməliyik ki, mədəni təbəqələrin artması ilə əlaqədar olaraq çox da hündür olmayan təpəcik şəklində mövcud olmuş abidə sovet hakimiyyəti illərində texnikanın köməyi ilə düzənlənərək dağıdılmış və əkin sahəsinə çevrilmişdir. Buna görə də hazırda müxtəlif dövrlərə aid arxeoloji materiallar abidənin ərazisində səpələnmiş vəziyyətdədir, abidənin üst qatları, əksər hallarda isə bütün mədəni təbəqələri tamamilə dağı- dılmışdır.

Abidənin sahəsində keramika məmulatı ilə yanaşı, son tunc-ilk dəmir dövrünə aid çoxlu dən daşları qalıqları vardır. Ensiz, uzunsov formalı bu dən daşları qara rəngli tuf daşından hazırlanmışdır.

Görkəmli Azərbaycan arxeoloqu Osman Həbibullayev Sədərək Kültə- pəsi ərazisində arxeoloji kəşfiyyat işləri aparmış və əldə etdiyi yerüstü mate- riallar əsasında burada yaşayışın e.ə. I minilliyin ortalarından başlandığını, abidənin yerli əhali tərəfindən «Şəhər yeri» adlandırıldığını qeyd etmişdir (10,15).

Sədərək Kültəpəsində sonrakı - antik dövrdə də (e.ə. IV əsr - b.e. III əsri) yaşayış ardıcıl şəkildə davam etmişdir. Həmin dövrə aid Kültəpədən əldə edilmiş arxeoloji materiallar məişətdə istifadə edilən kasa, küpə və s. tipli saxsı qabların qalıqlarından ibarətdir.

Orta əsrlər dövründə (IV-XVIII əsrlər) Sədərək Kültəpəsində əvvəlki mərhələlərdən başlanmış ardıcıl inkişafın məntiqi nəticəsi olaraq yaşayış məskəni daha da genişlənmiş və şəhər tipli yaşayış məntəqəsinə çevrilmiş- dir. Orta əsr Sədərək şəhəri iri daşlardan hörülmüş qalın divarla əhatələnmişdir. 2002-ci ildə abidədə apardığımız arxeoloji qazıntı zamanı iri həcmli - 60 sm x 100 sm, 70 sm x 90 sm və s. ölçülü daşlardan hörülmüş 2 m enində tikili qalığının aşkar olunması da orta əsrlərdə bu şəhərdə möhtəşəm binaların, möhkəmləndirilmiş qala divarının mövcudluğunu göstərir.

Abidədən toplanmış orta əsrlərə aid bəzi gil məmulatı Sədərək muze- yində saxlanılır. Bunlar bir ədəd kiçik həcmli küpə, bir ədəd səhəng, iki ədəd çıraq, şirli qab hissələri, bir ədəd saxsı boru qalığıdır.

Küpə sarımtıl rəngli gildən yoğrulmuş və zəif bişirilmişdir. Kiçik oturacaqlı, qısa boğazlı və yastı şar gövdəlidir (IX tablo №1).

Səhəng sarı rəngli gildən yoğrulmuşdur. Kiçik oturacaqlı, uzunsov- ellipsvari gövdəli, hündür silindrik boğazlıdır. Boğazın ortasından çiyin his- səyə bitişdirilmiş ilgəkvari qulpu sınmışdır. Çiyin hissəyə və gövdənin orta- sına cızma üsulu ilə naxışlar çəkilmişdir. Bir-birinə çarpaz çəkilmiş xətlər qarşı tərəfləri yuxarıda və aşağıda olan bucaqlar əmələ gətirmişdir. Hər bir bucağın daxilində bir-birinin əksinə olmaqla insan sifəti təsvir edilmişdir. Gözlər dairəvi deşiklərlə, qaş və ağız isə cızma xətlərlə verilmişdir. Çiyin və gövdəyə çəkilmiş naxışlar bir-biri ilə tam eyniyyət təşkil edir (IX tablo №2).

Çıraqlar yalnız ölçülərinə görə bir-birindən fərqlənirlər. Onlar orta əsrlərdə geniş istifadədə olmuş durna çıraqları formasındadır. Hər ikisinin ağız kənarı ilə gövdəsinin yuxarısını birləşdirən ilgəkvari qulpu vardır. Birinin boğazla gövdəsinin birləşdiyi hissəsinə iki basma xətt çəkilmişdir. Quş dimdiyinə bənzəyən çıxıntıları sınmışdır (IX tablo №3, 4).

Bir ədəd boru tipli saxsı məmulatı iri qum qatışıqlı gildən yoğrul- muşdur. Bir tərəfi sınmışdır, digər tərəfi sonluğa doğru azacıq genişlənir. Üzərinə konsentrik dairəvi cızma xətlər çəkilmişdir.



Şirli qab hissələri daha narın gildən yoğrulmuşdur. Açıq və tünd mavi rəngli fonun üzərində fırça ilə tünd mavi və qəhvəyi rənglə olduqca səliqə ilə nəbati naxışlar çəkilmişdir. Bu hissələrin hamısı çox güman ki, geniş ağızlı kasa tipli qabların oturacaqlarının qalıqlarıdır(IX tablo №5).

Kültəpə adlı qədim yaşayış yerinin yerüstü təbəqələrinin tamamilə dağıdılmasına baxmayaraq onun əhatə etdiyi sahəni təqribən izləmək müm- kündür. Yaşayış yerinin arxeoloji materialları son tunc - ilk dəmir dövründən başlayaraq son orta əsrlərədək tarixi mərhələni əhatə edir. Çox güman ki, burada mədəni təbəqə daha qalın olmuşdur. Təəssüflər olsun ki, vaxtilə üç hündür təpədən ibarət olan kültəpələr indi ətraf ərazilərdən seçilmir. Lakin arxeoloji materialların çoxluğu və çeşidlərinin müxtəlifliyi bu abidənin möhtəşəm bir yaşayış yeri olduğunu sübut edir (8, 36).

Burada orta əsrlər dövründə şəhər tipli yaşayış məskəninin yüzilliklər boyu mövcud olması yazılı mənbələrlə yanaşı, abidənin ərazisindən tapılan maddi mədəniyyət qalıqları ilə də sübut olunur. Buna görə də müasir dövrdə Sədərək qəsəbə sakinlərinin Kültəpə ərazisini «Şəhər yeri» adlandırması heç də təsadüfi deyildir. Abidənin əhatə etdiyi sahədə tikintidə istifadə olunmuş iri ölçülü çay daşları müşahidə edilir. Buradakı qədim tikinti qalıqları orta əsrlər dövründə Sədərəyin möhkəmləndirilmiş qala divarlarına malik bir şə- hər olduğunu söyləməyə imkan verir. Bu dövrdə Yaxın Şərq ölkələrini Ana- dolu və Avropa ilə birləşdirən ən böyük ticarət-karvan yollarından biri məhz Sədərəkdən keçmişdir. Bu isə öz növbəsində, orta əsr Sədərək şəhərinin iqti- sadi-mədəni cəhətdən inkişafına böyük təsir göstərmişdir. Şəhərin xaraba- lığından əldə edilmiş arxeoloji materiallar da burada orta əsrlərdə iqtisadi baxımdan inkişaf etmiş şəhər mədəniyyətinin mövcudluğunu göstərir. Abi- dədə aşkar edilmiş şirli və şirsiz saxsı qabların, daş məmulatının, şüşə qabla- rın və metal əşyaların qalıqları Sədərək şəhərinin sənətkarlıq mərkəzlərindən biri olmasına dəlalət edir. Beynəlxalq əhəmiyyətli ticarət yolunun üzərində yerləşməsi Sədərəkdə müxtəlif sənət sahələrinin inkişafına təkan vermişdir.

Şəhər yerindən əldə edilmiş keramika məmulatı qazan, çölmək, səhəng, dolça, küp, küpə və s. saxsı qabların oturacaq, gövdə, qulp, boğaz hissələrin- dən ibarətdir. Şirli saxsı qablar nəbati (bitki) və zoomorf (heyvan, quş) təsvirlərilə, romb, kvadrat üçbucaq və s. həndəsi fıqurlarla bəzədilmişdir. Bu ornamentlərdə orta əsr Sədərək sənətkarlarının zəngin bədii zövqü, dünya- görüşü obrazlı şəkildə öz əksini tapmışdır (8, 38).

Araz və Çapan çayları, bərəkətli və məhsuldar torpaqlar Sədərək düzənliyində əkinçiliyin inkişafı üçün əlverişli şəraitin olmasını şərtləndir- mişdir. Düzənlikdəki əkin sahələri əsasən Çapan çayı vasitəsilə suvarılmışdır. XIX əsr rus müəllifi İ.Şopen Çapan çayının Sədərək düzənliyindəki əkinləri suvarması haqqında məlumat vermişdir. Araz çayının yatağı isə Sədərək düzənliyinin səviyyəsindən aşağıda yerləşdiyindən bu çaydan oradakı əkin sahələrinə su qaldırmaq böyük çətinliklər törətmişdir (14).

Əkinçilikdə üzümçülük başlıca sahə olmuşdur. XVII əsr türk coğrafi- yaşünası və səyyahı Övliya Çələbi də Sədərəkdə «saysız-hesabsız bağların və üzümlüklərin» olması barədə məlumat vermişdir (15).

«Şəhər yerindən diametri 12 sm olan saxsı borular aşkar edilmişdir. Bu borular vasitəsilə şəhərə müasir Sədərək kəndindəki Qarasu bulağından su çəkilmişdir. Sədərək şəhəri məhz bu su xətti ilə içməli su ilə təchiz edilirdi.

Yuxarıda qeyd edildiyi kimi «Şəhər yeri»nin ərazisi sovet hakimiyyəti illərində əkin sahəsinə çevrilmişdi. Burada aparılan təsərrüfat işləri zamanı torpağın alt qatlarından üzərində epiqrafik yazı olan qəbrüstü daş aşkar edil- mişdir. Daşın üstündə burada dəfn olunmuş şəxsin adı - «Murad ibn Qutluq bəy» sözləri yazılmışdır. Tarix elmləri namizədi V.Məmmədovun mülahizə- lərinə görə buradakı «Qutluq» adı və bu məzarın özü XII əsrin ikinci yarı- sında Azərbaycan Atabəylər dövlətinin hökmdarı olmuş Məhəmməd Cahan Pəhləvanın oğlu Qutluq İnancla və ya onun varislərindən biri ilə əlaqədardır (5).



«Şəhər yeri»ndən əldə edilən maddi mədəniyyət nümunələrinin təhlili və yazılı mənbələrin məlumatları əsasında burada həyatın XVIII əsrədək davam etdiyini söyləmək mümkündür. Buradan əhali tədricən hələ qədimlərdən məskunlaşmış indiki Sədərək kəndinə köçmüşlər (8, 39).

Əhalinin Sədərək şəhərini həmişəlik tərk etməsinin səbəbləri bu günə qədər dəqiqləşdirilməmişdir. Bununla belə şəhərin yerləşdiyi coğrafi mövqe və orta əsrlər dövründə regionda baş verən tarixi hadisələr fonunda bu məsələ ilə bağlı mülahizə irəli sürmək mümkündür. Abidədən toplanmış arxeoloji materiallar Sədərək şəhərinin X-XVIII əsrlərdə mövcud olduğunu göstərir. Bu müddət ərzində Sədərək şəhərinin yerləşdiyi ərazi Sacilər, Salarilər, Atabəylər, Hülakilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Naxçıvan və İrəvan xanlıqları kimi dövlətlərin tərkibinə daxil olmuşdur. Əhalinin Sədərək şəhərini tərk etməsi çox güman ki, ərazinin XVII əsrin sonu-XVIII əsrin əvvəllərində Səfəvi-Osmanlı müharibələrinin döyüş meydanına çevrilməsi, əldən-ələ keçərək dağıdılması və qarət olunması səbəb olmuşdur. Abidədə apardığımız qazıntılar zamanı geniş sahədə 20-25 sm qalınlığında kül qatı- nın qeydə alınması da burada orta əsrlərdə dəhşətli yanğının baş verməsini sübut edir (8, 40).

Orta əsrlərdə heyvandarlıqla məşğul olan Sədərək əhalisi düzənlikdəki geniş otlaqlardan istifadə etmiş, burada mövsümi yaşayış məskənləri salmış- lar. 2001-ci ildə rayon ərazisində apardığımız axtarışlar zamanı Vəli dağının şimal ətəklərində bir neçə yerdə heyvandarlara məxsus mövsümi xarakterli belə yaşayış yerləri aşkar edilmişdir.

Ümumiyyətlə, yazılı mənbələrin və arxeoloji materialların təhlili əsasında belə bir nəticəyə gəlmək olar ki, Sədərək orta əsrlərdə Azərbaycanın orta həcmli şəhərlərindən biri olmuşdur (8, 40).

**Sədərək qalası (7; 8).**Naxçıvan ərazisində yerləşən qədim qalaların tədqiqi Azərbaycan xalqının qədim tarixini, onun memarlıq və hərb sənəti barədə bilgilərini və həmçinin Şərqin digər qüdrətli dövlətləri ilə əlaqələrini bərpa etməyə imkan verir. Regionda aşkar

olunmuş Oğlanqala, Govurqala, Çalxanqala, Qızqalası, Qazançı qalası və s. tikililərin hər biri Şərqin eyni tipli abidələri ilə müqayisə edilə biləcək möhtəşəm abidələrdir.

2001-ci ilin avqust ayında Naxçıvan arxeoloji ekspedisiyasının Muxtar Respublika ərazisində apardığı tədqiqatlar zamanı bu tip abidələr sırasına yeni bir ad əlavə olunmuşdur. V.H. Əliyev və S.H.Aşurov Sədərək rayonunda eyni adlı qala qeydə almış və orada ilkin tədqiqatlar aparmışlar.

«Sədərək qalası» (VII-VIII tablolar) eyni adlı kəndin cənub-şərq qurtaracağında, Şərur rayonunun Dəmirçi kəndi ilə sərhəddə, Vəlidağın şiş zirvələrindən birinin üzərində yerləşir. Sədərək kəndinin cənub-şərqini, Də- mirçi kəndinin isə şimal-qərbini əhatə edən Vəlidağın ən hündür zirvəsi dəniz səviyyəsindən 1242,2 m yüksəkdə yerləşir. Bu iki kəndin sərhədində Vəlidağdan kiçik bir silsilə ayrılaraq Araz çayına doğru uzanır və sanki Sədərək və Şərur düzənliklərini bir-birindən ayırır. Bu hissədə dağın zirvəsi dəniz səviyyəsindən 955,2 yüksəklikdə yerləşir və qalanın narınqalası məhz bu zirvədə yerləşir. Zirvənin cənub ətəkləri çapılaraq magistral yol salınmış və beləliklə, dağın kiçik bir təpəşəkilli hissəsi Araz çayı istiqamətdə əsas silsilədən ayrı düşmüşdür. Bu hissə xalq arasında «Çapacaq» və ya «Dəhnə qapısı» adlandırılır. Başlanğıcını Türkiyədən alan Araz çayı Vəlidağdan 1,52 km, cənubda labirintlər şəklində burularaq Şərur düzü istiqamətində axımını davam etdirir. Dağın aşağı ətəklərini şərq, cənub və qərb istiqamətdə bir cərgə qala divarları əhatə edir. Divarlar adətən iri sal daşlardan qurulmuşdur. Tikinti zamanı bərkidici məhluldan istifadə olunmamışdır. Əksər hissəsi dağıdılmış birinci qala divarının hündürlüyü dağın relyefindən asılı olaraq müxtəlif istiqamətlərdə dəyişir. Daha çox təhlükənin gözləndiyi dağ yamaclarında divarlar nisbətən hündür və əzəmətlidirlər (8, 40-41).

Sədərək qalasının aşkar olunmasına qədər bu qalanın birinci divarının elmi ədəbiyyatda qədim suvarma sistemi olması fikri möhkəmlənmişdi. Bu abidəni qədim suvarma arxı hesab edən müəlliflərin fikrincə guya başlanğıcını Arpaçaydan götürən və



təqribən 30 km uzunluğunda olan «Fərhad arxı» e.ə. I minilliyin əvvəllərində Sədərək düzənliyindəki əkin sahələrinin suvarılması üçün çəkilmişdir.

Lakin Sədərək qalasında aparılan ilkin elmi araşdırmalar «Fərhad ar- xı» barədə fikirlərin yanlış olduğunu, «Fərhad arxı» adlandırılan qədim abidənin Sədərək qalasının məhz birinci divarı olduğunu sübut etmişdir (8, s. 43).

Narınqala hissə birinci qala divarlarından fərqli olaraq dağın bütün zirvəsini əhatələyir. Narınqalaya çıxış iki istiqamətdə, şimal (Sədərək kəndi tərəfdən) və cənub (Dəmirçi kəndi tərəfdən) olmuşdur.

Sədərək istiqamətdə dağı bir cərgə qala divarı əhatələyir və ölçülərinə görə nisbətən böyük qala qapısı məhz bu istiqamətdə yerləşir. Giriş qapısının eni 6 m-dir. Qapının yanları bir növ bürcləri əvəz edən daxilə doğru düz bucaq formalı hörgülərdən ibarətdir. Bucaqların qərb tərəfi sağa və sola doğru dağ boyunca uzanır.

Bu hissədə qala divarları iri, qismən yonulmuş sal daşları üst-üstə qoymaq yolu ilə hörülmüşdür. Dağıdılmış qala divarlarının qismən salamat qalmış hissələrinin bəzi yerlərdə hündürlükləri 1-1,5 m-dir.

Giriş qapısından sağ tərəfdə, dağın bu hissədəki ən hündür zirvəsində dördkünc bürc qurulmuşdur. Bu bürc çox güman ki, əsas nəzarətçi məntəqəsi olmuşdur. Dəniz səviyyəsindən 955,2 m yüksəklikdə yerləşən bu məntəqədən cənuba doğru daha iki dördkünc planlı gözətçi məntəqəsi yerləşir. Bu məntəqələrdən qərbə doğru dağın sıldırım olduğu nəzərə alınaraq qala divarları qurulmamışdır. Maraqlıdır ki, bürclərin hamısı Şərur düzünün digər möhtəşəm qalası Oğlanqaladan fərqli olaraq dördküncdürlər Oğlanqalada bürclər dairəvi və qövsvaridirlər.

Narınqalanın cənub-şərq hissəsinin quruluşu daha maraqlıdır. Bu his- sədə qala divarları terraslara uyğun olaraq pillələdir. Qalaya Şərur düzü isti- qamətindən olan girişin qarşısını kəsən birinci pillədə divarlar qala qapısı və onun hər iki tərəfində qurulmuş dördkünc bürclərlə tamamlanır. Lakin bu bürclər ölçülərinə görə kiçik olmuşdur (1,5x1,5 m). Çox güman ki, bu bürc- lərin hər birində bir

döyüşçü keşik çəkmişdir. Bu qala qapılarından yuxarya doğru olan terraslarda bəzən bir-birinin yanında, bəzən isə bir-birindən azca aralı geniş sahəli (20-30 $m^2$) düzbucaq formalı yaşayış binalarının qalıqları qalmışdır.

Şərur istiqamətindən qalaya giriş iki dağ yamacları arasında qalmış vadi boyuncadır. Bu keçidin sol tərəfində Sədərək qalasının narınqalası yerləşir. Lakin sağ tərəfdən gözlənilən təhlükənin qarşısını almaq üçün Vəlidağın zirvəsinə doğru uzanan şərq hissəsində qala divarları qurulmuşdur.

Sədərək qalası özünün möhtəşəmliyi, memarlıq üslubu, tikinti texni- kasına görə Naxçıvan bölgəsinin digər qədim qalalarından fərqlənir. Qalanın tikilməsi zamam relyefə uyğun olaraq tətbiq edilmiş memarlıq üsulu Hett memarlığına daha yaxındır. Sədərək qalasınm quruluşu ilə b.e. ə. XVIII-XIII əsrlərdə mərkəzi və şərqi Anadoluda mövcud olmuş, qədim dünyanın ən qüdrətli dövlətlərindən biri - Hett dövlətinin paytaxtı Hattuşa şəhərinin e.ə. XIII əsrə aid qala divarlarının qalıqlarının ümumi quruluşu arasında uyğunluq nəzərə çarpır. Şübhəsiz, Sədərək qalasında gələcəkdə aparılacaq arxeoloji qazıntılar bu mülahizələri tam dəqiqləşdirməyə imkan verəcəkdir (8, 45).

Qalanın tikinti xüsusiyyətini və mədəni təbəqəsinin xüsusiyyətini öyrənmək üçün uc yerdə kəşfiyyat şurfu qazıldı. Şurflardan biri dağın ətə- yindəki birinci qala divarında, ikisi isə narınqalada qazıldı. Dağıdılmış aşağı qala divarının 2 m-lik hissəsi daxildən təmizləndi. Müəyyən edildi ki, qala divarları iki cərgə iri qaya parçalarından qurulmuş, onların arası isə kiçik daşlarla doldurulmuşdur. Bu sahədə aparılmış qazıntılar bir daha sübut edir ki, dağın ətəyini kəmər şəklində əhatələyən bu «Fərhad arxı» adlandırılan hörgü heç də qədim suvarma sistemi olmayıb Sədərək qalasının aşağı mü- dafiə istehkamıdır.

İkinci şurf qalanın narınqala hissəsində bir-birinə bitişik qurulmuş dördkünc tikililərdən birinin daxilində qazıldı. Maraqlıdır ki, qazıntı sahə- sində arxeoloji materiala rast gəlinmədi.



Üçüncü şurf narınqalanın şimal və cənub bürclərinin arasında yerləşən gözətçi məntəqəsində qazıldı. Çox zaman bu məntəqə 1 və ya 2 gözətçi üçün olmuşdur və o bürc xarakteri daşımamışdır. Burada da arxeoloji materiala rast gəlinmədi.

Arxeoloji materiallar əsasən qalanın cənub ətəklərində, şosse yola tərəf hissədən əldə olunur. Onlar müxtəlif daş alətlərdən, saxsı məmulatından və muncuqlardan ibarətdir.

Qara-qonur rəngli obsidian nukleusun bir tərəfindən qəlpələr qoparılıb. Şarşəkilli nukleusun diametri 8,5 sm-dir.

Dən daşlarının hamısı məsaməli tuf daşından hazırlanmışdır. Onların hamısının bir səthi yaxşı cilalanmışdır.

Təsərrüfat küplərinin hamısının gilində narın qum qatışığı vardır. Qara, qonur və boz rəngli küplərin ağız kənarları xaricə doğru enli kəmərşəkilli çıxıntılıdır. Bir neçə təsərrüfat küpünün gövdəsini enli kəmər haşiyələyir və əksər hallarda bu enli kəmərin səthi cızma üsulu ilə dalğavari naxışlanmışdır.

Küpələr nisbətən zərif hazırlanmışdır. Onların əksəriyyəti qısa boğazlı şargövdəlidirlər. Ağız kənarları geriyə qatlanır. Əksəriyyətində dulus çarxında hazırlanma izləri aydın bilinir. Əksər hallarda gövdələri yapma və cızma üsulları ilə həndəsi motivlə naxışlanmışdır. Bəzən lentvari yapma kəmərin üzərinə maili çərtmələr vurulmuşdur. Bir ədəd kiçik həcmli küpün ağız kənarı geriyə qatlanmış, alçaq boğazının aşağısını basma xətt haşiyələyir. Gövdəsi- nin yuxarısmda ilgəkvari qulpu vardır. Qulpun üzərindəki üfüqi deşik xüsusi çubuqla açılmışdır.

Kasa tipli qablar adətən geniş diametrlidirlər. Onların əksəriyyətində ağız kənarından gövdəyə oradan isə oturacağa keçid hiss olunmur. Kasaların əksəriyyəti daxildən cızma və basma üsulu ilə naxışlanmışdır. Kiçik həcmli kasalar adətən qulpsuzdurlar. İri həcmli kasaların ağız kənarına birləşdiril- miş qulplar şaquli və ya üfiqidirlər. Onların kiçik deşikləri xüsusi alətlə açılmışdır.

Abidənin aşağı divarınm yaxınlığında yerüstü aşkar edilmiş muncuqlar 4 ədəddir. Onların üçü əqiqdən doğranma üsulu ilə hazırlanmış və kiçik diametrlidirlər. Bir ədəd mavi rəngli pasta

muncuğun top hissəsi hər iki tərəfə qabarıqdır. Onun kənarları kəsmə üsulu ilə naxışlanmışdır.

Sədərək qalasının arxeoloji materialları Naxçıvanın son tunc-ilk dəmir dövrü abidələri üçün səciyyəvidir. Onların analoqlarma II Kültəpə, Şortəpə, Şahtaxtı yaşayış yerlərinin və həmçinin, Qalacıq, Qarabulaq, Zeyvə nek- ropollarının arxeoloji materialları içərisində tez-tez rast gəlinir.

2002-ci ildə aparılmış tədqiqatlar zamanı Sədərək qalasının qədim sakinlərinin nekropolunu da müəyyənləşdirmək mümkün olmuşdur.

Sədərək qalasının narınqala hissəsindən cənuba doğru uzanan Vəlidağın iki nisbətən alçaq zirvəsi arasında ensiz yamac yerləşir. Yamacın Araz çayına doğru uzanan hissəsi Naxçıvan-Sədərək avtomobil yolunun çəkilişi zamanı dağıdılmış və çox güman ki, burada yerləşən qədim qəbirlərə məxsus saxsı məmulatlarımn sınıqları ətrafa səpələnmişdir. Burada yerləşən qəbirlərin yerüstü hissələri tamamilə dağıdılmışdır. Sahənin bəzi yerlərində yan-yana bir neçə daş düzümünün daş qutu qəbirlərinin qalıqları olduğu ehtimal olunur. Sədərək qalasının aşağı divarlarının və həmçinin onun ətəyində yerləşən nekropoldakı daş qutu qəbirlərin üst daşları yerli əhali tərəfindən tamamilə dağıdıldığında onların formasını müəyyənləşdirmək olduqca çətindir. Bununla belə buradakı qəbirlərin hələlik biri qazılaraq tədqiq edilmişdir (8, 47-49).

Bu qəbrin şimal-şərq divarına (qalanın zirvəsinə doğru hissəyə) iri sal daşlar qoyulmuşdur. Dəfn kamerasının digər divarları kiçik daşlardan qurul- muşdur. Zaman keçdikcə bu daşlar kiçik ölçülü dəfn kamerasının daxilinə tökülmüş və nəticədə qəbir avadanlığı - keramika məmulatı güclü dağılmışdır. İnsan skeletinə rast gəlinməyən bu qəbirdə avadanlıqlar cənub-şərq divarı boyunca düzülmüşdür. Qəbrin daxilində kremasiya adətinin izlərinə rast gəlinmir.

Kiçik küpənin gövdəsi şarşəkillirdir. Oturacağı və ağzı genişdir. Qısa boğazlıdır. Hündürlüyü 12 sm, ağız kənarının diametri 9 sm, oturacağının diametri 7 sm-dir (IX tablo №1).



Hündürlüyü 24 sm olan ikinci küpənin gövdəsi basma üsulu ilə naxış- lanmışdır. Gövdəsinin ortasını və çiyin hissəsini hər birində üç olmaqla basma üfüqi xətlər, bu xətlərin arasını isə hər birində 4 xətt olmaqla 4 yerdə şaquli basma xətlər bəzəyir (IX tablo №2).

Çiyin hissəsi qabarıq küpənin gövdəsini iki, çiyin hissəsini isə üç basma xətt haşiyələyir. Gövdəsində bir yerdə çox güman ki, dəfn prosesi zamam deşik açılmışdır. Hündürlüyü 27 sm, diametri ağız kənarında 13 sm, gövdədə 36 sm, oturacaqda isə 12 sm-dir (IX tablo №3).

Formaca əvvəlki küpəni təkrar edən dördüncü küpə qonur rənglidir. Çiyin hissəsini iki basma xətt haşiyələyir. Bu xətlərin aşağısının dörd yerdə çartmə xətlər və onların aşağısından gövdənin mərkəzinə çəkilmiş basma xətlər bəzəyir. Hündürlüyü 28 sm, diametri ağız kənarında 15 sm, gövdədə 33 sm, oturacaqda 15 sm-dir (IX tablo №5).

Daş qutu qəbrin saxsı məmulatı sırasına bir ədəd badya tipli qab da daxildir. Oturacağı şarşəkilli, ağız kənarı genişdir. Hündürlüyü 19 sm, diametri ağız kənarında 24 sm, gövdədə 28 sm-dir (IX tablo №5).

Muncuqlar 40 ədəd olub əqiq və pastadan doğrama üsulu ilə hazırlan- mışlar (IX tablo №6).

Sədərək daş qutu qəbrindən əldə olunmuş keramika məmulatı Naxçı- vanın II Kültəpə, Şahtaxtı, Qarabağlar, Zeyvə, Qarabulaq abidələrinin mate- rialları ilə eyniyyət təşkil edir. Bütün bu abidələrlə birlikdə Sədərək daş qutu qəbrini e.ə. II min. sonu - I min. əvvəlinə aid etmək olar.

Sədərək daş qutu qəbrində insan skeletinə rast gəlinməməsi faktı ma- raqlıdır. Bu tip qəbrlərin Naxçıvan ərazisindən tapılması yeganə hal deyil. Uzun illərdən bəri tədqiq edilən Şahtaxtı, Qarabağlar, Zeyvə, Qarabulaq qə- birlərinin heç birində, o cümlədən Çapacaq kurqanında insan skeletinə rast gəlinmir.

Fikrimizcə, ölənlərin cəsədlərinin qəbrə qoyulmaması adəti Naxçıvan ərazisində yaşamış qədim tayfaların dini-ideoloji dünyagörüşləri ilə bağlıdır. Bu məsələyə aydınlıq gətirmək

baxımından Sədərək nekropolunun şima- lında təmizlənmiş bir daş bina qalığı olduqca maraqlıdır.

Bina tam qazma formasında olmuşdur. Onu inşa etmək üçün qədim insanlar tikiləcək binanın hündürlüyünə uyğun olaraq yerdə xüsusi xəndək qazmışlar. Sonra binanın divarları cərgə-cərgə daşlardan gil məhluldan isti- fadə edilməklə hörülmüşdür. Daşlar yerli material olub üzərlərində heç bir işlənmə izləri bilinmir. Onlar kiçik ölçülüdürlər (20x25x22 sm). Hər bir cərgə hörüldükdən sonra arxa tərəfi torpaqla doldurulmuş və sonra növbəti cərgə hörülmüşdür. Divarların qalınlığı 20-25 sm-dən artıq deyildir. Binanın küncləri qövsvari formada olub olduqca dəqiqliklə qurulmuşdur. Şimal-şərq divarlarının kəsişdiyi hissədə binanın daha hündür hissəsi qorunub saxlanılmışdır. Burada onun hündürlüyü 1,70 m-dir. Binanın inşası qurtardıqdan sonra xüsusi hazırlanmış palçıq məhlulu ilə içəri tərəfdə daşlar arasında qalan boşluqlar suvanmışdır. Binanın döşəməsi də eyni palçıqla nazik qatla suvanmışdır. Binanın memarlıq quruluşunda daha çox diqqəti cəlb edən element onun daxilində yerdən qurulmuş və bir tərəfdən şərq divarına bitişdirilmiş səki formalı daş hörgüdür. Bir cərgə kiçik ölçülü daşlardan qurul- muş hörgünün eni 1,3 m, uzunluğu 1,5 m, hündürlüyü 15-20 sm-dir. Binanın şimal divarı ilə hörgü arasındakı məsafə 80 sm, cənub divardan olan məsafəsi isə 50 sm-dir. Qərb tərəfdə hörgü binanın divarından aralı olmuşdur. Binanın qərb divarı dağıldığından bu hissənin quruluşunu bərpa etmək mümkün deyildir. Eyni zamanda binanın daxilinə giriş qapısının olub- olmamasını söyləmək çətindir. Çünki binanın digər üç divarının salamat qalmış hissələri bu istiqamətlərdən giriş qapısı olmadığını söyləmək imkanı verir. Binanın yalnız üst hissələri dağıdılmış şərq divarının uzunluğu 2,4 m, qərb qurtaracaqları dağıdılmış şimal və cənub divarlarının uzunluqları mü- vafiq olaraq 2 və 1,7 m-dir (X tablo). Maraqlı haldır ki, binanın daxili bütövlükdə kül qatı ilə doludur. Binanın daxilində qurulmuş səki tipli qurğunun üzərində isə yanma izləri daha çox bilinir. Binanın daxilindəki kül qatı təmizləndikcə onun daxilindən müxtəlif tipli saxsı qabların hissələri əldə olundu. Bundan başqa bir neçə kiçik obsidian qəlpəsi



əldə olundu ki, onların heç birində işlənmə izləri hiss olunmur. Bütün bunlardan əlavə az miqdarda yanmış sümük qalıqları aşkar olundu. Sümüklərin insan və heyvana məxsus olmasını təyin etmək mümkün deyildir.

Əldə olunmuş arxeoloji materialların bir qismini küpə tipli qabların sınıqları təşkil edir. Bu tip qablar rənglərindən asılı olmayaraq (boz, qonur, qara) hamısı narın qum qatışıqlı gildən yoğrulmuş və yaxşı bişirilmişlər. Onlardan biri daxildən əlavə gil qatı ilə suvanıb. Ağız kənarları bir qismində xaricə azca mailidir. Başqa bir qismində isə köbəlidir. Boğaz hissələri alçaq və dardır. Bəzilərində gövdə hissə birbaşa ağız kənarından başlayır. Əksəriyyətinin gövdəsi tam şar formalıdır.

Arxeoloji materialların tədqiqi onların son tunc - ilk dəmir dövrünə aid olduğunu göstərir. Bu materialların analoqlarına Naxçıvanın demək olar ki, bütün həmdövr abidələrində rast gəlinir.

Tikintinin hansı məqsədlə inşa edilməsinə gəlincə, onun quruluşu və həmçinin, daxilindən müxtəlif sümüklərin və külün aşkar edilməsi binanın xüsusi məqsədlərə xidmət etdiyini söyləməyə imkan verir. Nekropolun bir tərəfində yerləşməsi ondan krematori (ölən insanları cəsədlərinin yandırılması üçün istifadə olunan otaq) və ya qurbangah kimi istifadə olunması ehtimalını irəli sürməyə imkan verir.

**Cırdatəpə qədim yaşayış yeri (7; 8).**Abidə 2001-ci ildə müəllif tərəfindən qeydə alınmışdır.

Bu qədim yaşayış yeri Sədərək kəndinin cənub-qərbində, Araz çayının yaxınlığında yerləşir. XX əsrin başlanğıcında İrəvan-Naxçıvan dəmir yolunun çəkilişi ilə əlaqədar olaraq abidənin şərq hissəsi tamamilə dağıdılmış, Araz çayına tərəf hissəsi kiçik təpəcik formasında salamat qalmışdır. Yaşayış yerinin hazırda tədqiqat üçün yararlı sahəsi 1 ha yaxındır.

Cırdatəpə yaşayış yerindən toplanmış yerüstü materiallar daş əmək alətlərindən və saxsı məmulatından ibarətdir. Dən daşları qara rəngli tufdan hazırlanmış və yaxşı cilalanmışdır.

Saxsı məmulatı qara, qonur və boz rəngli gildən yoğrulmuş və əksəriyyəti yaxşı bişirilmişdir. Təsərrüfat küpləri qalın divarlı, nisbətən hündür boğazlı və şargövdəlidirlər (XI tablo №1, 4, 5, 6).

Onlardan bir qisminin ağız kənarı daxilə və xaricə doğru çıxıntılıdır. Boğazın yuxarısını iki basma novşəkilli xətt haşiyələyir (XI tablo №1, 4).

Küpə tipli qablar nisbətən zərif hazırlanmışlar. Qonur rəngli küpə kiçik diametrli olub səthi parıldayanadək cilalanmışdır. Alçaq, silindrik boğazlı, gövdəsi qabarıqdır. Ağız kənarı azca xaricə qatlanır (XII tablo №3).

Çölmək tipli qablar alçaq boğazlı olub, odun təsirindən yanmışlar. Birinin boğaz hissəsi ağız kənarına doğru daralır. Ağız səthi kənara doğru çıxıntılıdır. Boğaz hissəsinin aşağısında aypara formalı yapma naxış vardır (XI tablo №7). Keramika üzərindəki belə aypara motivi qədim Cırdatəpə sakinlərinin dini təsəvvürlərində Aya inamın müəyyən yer tutduğunu göstərir.

Abidənin saxsı məmulatı içərisində kasa tipli qablar çoxluq təşkil edir. Onların hamısı nazik divarlı olub yaxşı bişirilmişlər. Ağız hissələri düz, bəzən isə xaricə doğru ensiz köbəlidirlər (XII tablo №4). Bəzilərinin ağız kənarı gövdəyə doğru qatlanaraq xaricdən enli kəməri xatırladır (XII tablo №5, 6).

Saxsı məmulatının bir qismi təsərrüfat və məişətdə istifadə olunan qablann qulp hissəsindən ibarətdir (XII tablo №1).

Bir ədəd mineral daşdan hazırlanmış nəfis miniatür qab diqqəti cəlb edir. Bir tərəfində enli qulaqcıq tipli çıxıntısı vardır. Çıxıntı hər iki tərəfdən oyma zolaqlarla naxışlanıb. Kasayabənzər hissəsi daxildən yaxşı cilalanıb. Oturacağı isə gövdədən başlayaraq oturacağın mərkəzinə doğru oyma zolaqlarla bəzədilmişdir (XII tablo №2).

Keramika məmulatınm bir qismi isə orta əsrlərə aid şirli qablara məxsusdur. Onların bir neçəsi hər iki tərəfdən sadəcə olaraq mavi rəngli şirlə örtülmüşdür. Kasa tipli qabın daxili mavi rəngli şirlə boyanaraq üzəri tünd mavi və qəhvəyi rənglə həndəsi və nəbati formada naxışlanmışdır (XI tablo №1, 2, 8).



Yaşayış yerinin yerüstü materiallarına əsaslanaraq abidənin dövrü haqqında ilkin mülahizələr söyləmək mümkündür. Saxsı məmulatının əksəriyyəti son tunc-ilk dəmir dövrünə (e.ə. II min sonu - I min başlanğıcı) aiddir. Şərur və Sədərək düzündə qeydə alınmış Aşağı Daşarx, Zeyvə, Qara- bulaq kurqanlarının, Dəmirçi qədim yaşayış yerinin və Sədərək qalasınm arxeoloji materialları Cırdatəpə qədim yaşayış yerinin materialları ilə tam eyniyyət təşkil edir.

Yerüstü materialların bir qisminin orta əsrlərə aid olması göstərir ki, yaşayış yerində həyat uzun müddət davam etmişdir.

Yaşayış yerinin sakinləri əkinçilik, maldarlıqla məşğul olmaqla yanaşı, müxtəlif sənət sahələrinin, o cümlədən dulusçuluq və hərb sənətinin sirlərinə dərindən bələd olmuşlar. Abidədən 1,5-2 km məsafədə yerləşən Sədərək qalası zaman-zaman qədim sədərəklilərin istehkamına çevrilmiş və bura sığınaraq onlar özlərini müxtəlif təcavüzlərdən qoruya bilmişlər.

Abidə hələlik, geniş tədqiq edilməsə də burada kəşfiyyat xarakterli qazıntı işlərini apara bildik.

Təpənin ətrafı ilbəil müxtəlif məqsədlərlə qazıldığından cənub tərəfdə alçaq yarğan əmələ gəlmişdir. Yarğanın kənarında 2x2,7 m ölçülü sahədə kəşfiyyat şurfu qazıldı. Torpaq kül ilə qanşıq olduğundan asan qazılır, lakin maraqhdır ki, bu sahədə ancaq kül layları izlənilir. Təpənin üzərindəki «o» nöqtəsindən 1,05 m dərinliyə çatdıqda bütün qazıntı sahəsini örtən 15 sm-lik kül və kömür qatı təmizləndi. Bəzi ağac və qamışlar kömürləşərək qalmışdır. Bu təbəqədən aşağıya doğru qazıntı yenə 80 sm davam etdirildi. Təbəqə yenə asan qazılmasına baxmayaraq maddi mədəniyyət nümunələrinə rast gəlinmir. Lakin qazıntılar 2 m dərinliyə çatdırıldıqda təpənin mərkəzinə doğru oyuqlar açılmağa başlandı. Bu boşluq tamam yanmamış bina tavanının altında qalan sahə ola bilər. Lakin yenə arxeoloji material əldə olunmadığından qazıntıları dayandırmaq qərara alındı.

Yaşayış yerinin qərbində sütun altlığı əldə olundu. Ağ rəngli əhəng daşından yonulmuş çoxüzlü prizma formalı sütun altlığınm yarısı sınmışdır. Salamat qalmış tərəfinin uzunluğu 23 sm,

hündürlüyü 32 sm-dir. Üzərində heç bir naxış elementinə rast gəlinmir.

Yaşayış yerindən əldə olunmuş sürtgəc məsaməli tuf daşından hazır- lanmışdır. Qalınlığı 4 sm olan bu ovalvari sürtgəcin bir tərəfi sınmışdır. Salamat qalmış hissəsinin eni 17 sm, uzunluğu 16 sm-dir.

Cırdatəpə qədim yaşayış yerinin arxeoloji materiallan burada həyatın e.ə. II minilliyin sonlarından başlandığını, əkinçiliyin, maldarlığın və sənətkarlığın bu abidənin qədim sakinlərinin başlıca məşğuliyyəti olmasını, zəngin mədə- niyyətə əsaslanan oturaq həyatın orta əsrlərədək, təqribən 2000 ildən artıq bir müddətdə davam etdiyini söyləməyə imkan verir.

**Qırmızı təpə orta əsr yaşayış yeri.** Sədərək rayonu ərazisində orta əsrlərə aid abidələrdən biri də Qırmızı təpə yaşayış yeridir. Abidə Sədərək kəndinin şimali-qərbində Qarasu bulağının yaxınlığında qırmızı gil qatışıqlı torpaqdan ibarət təpənin üstündə yerləşir. Torpağın rənginə görə əhali buranı Qırmızı təpə adlandırır. Bu ərazidə orta əsrlərdən başlanan həyat bu günə qədər davam etməkdədir. Məhz buna görə də qədim dövrlərə aid yaşayış yerinin böyük bir hissəsi hal-hazırda yaşayış evlərinin və onlara məxsus həyətyanı sahələrinin ərazisindədir. Qədim yaşayış yerinin Qırmızı təpənin üstündəki hissəsinin üst qatı dağılsa da alt qatlardakı arxeoloji materiallar əsasında abidə haqqında müəyyən fikir söyləmək mümkündür.

Hündürlüyü 8-10 m olan təpənin diametri 80-100 m-dir. Təpənin cənub tərəfi qismən dağıdılaraq həyətyanı sahələrə qatılmışdır. Dağıdılmış sahədə orta əsrlərə aid maddi mədəniyyət qalıqları ətrafa səpələnmişdir. Təpənin dağıdılmış cənub tərəfində şərq-qərb istiqamətində qurulmuş daş hörgünün qalıqları izlənilir. Hörgüdən şimala doğru gövdədən yuxarı his- sələri dağıdılmış 4 ədəd təsərrüfat küpünün qalığı təmizləndi. Divara daha yaxın yerə basdırılmış təsərrüfat küpünün gövdə hissəsinin diametri 1,15 m, salamat qalmış hissəsinin hündürlüyü 1 m-dir. Ondan şərqə doğru 6 m məsafədə yerləşən ikinci küpün gövdəsinin diametri 85 sm, gövdəyədək olan hündürlüyü 80 sm-dir. Üçüncü küp birincidən 0,5 m qərbdə, dördüncü isə 2 m şimalda yerləşir. Onların hamısının badının qalınlığı 3 sm-dir. Göv- dələrindən yuxarı hissələri dağıldığından onların yuxarı hissələrini bərpa etmək mümkün deyildir. Lakin, toplanmış maddi mədəniyyət qalıqlarına əsaslanaraq təpənin bu sahəsində təsərrüfat binasımn qalığının yerləşdiyini söyləyə bilərik. Çox güman ki, orta əsrlərdə Sədərək kəndinin məhəllələrin- dən biri məhz bu təpənin üzərində yerləşmişdir. Abidə haqqında müfəssəl məlumat yalnız onun geniş arxeoloji tədqiqindən sonra söylənə bilər.

Lakin bir faktı tam əminliklə qeyd etmək mümkündür ki, orta əsr Sədərək şəhəri (Kültəpə) mövcud olduğu dövrlərdə indiki Sədərək kəndində Qarasu bulağı ətrafında da həyat inkişaf edirdi. Sədərək şəhəri də məhz bu bulaqdan saxsı borulardan çəkilmiş xətt vasitəsilə içməli su ilə təmin edilrdi.

Qırmızı təpədən toplanmış maddi mədəniyyət qalıqları əsasında burada yaşayışın ilk orta əsrlər dövründən (IV-VIII əsrlər) mövcudluğunu söyləmək mümkündür. Lakin abidədə gələcəkdə apanlacaq əsaslı arxeoloji qazıntılar burada daha qədim dövrlərə aid materialların aşkarlanması ilə nəticələnə bilər (18, 65-66).

## ƏDƏBİYYAT:


1. Abbasov A.A., Müseyibli N.Ə. Zəyəmçay nekropolunun bəzi dəfn adətləri. «Azərbaycan arxeologiyası və etnoqrafiyası». Bakı, 2003, № 2.
2. Əliyev V. Sədərək eneolityaşayış yeri. Azərbaycan SSR EA-nın xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. Bakı, 1985, №2.
3. Əliyev V.H. 1977-ci ildə Şərur ərazisində aparılan arxeoloji kəşfiyyat haqqında hesabat. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun ÇTŞ-nin Elmi Arxivi. H-222.
4. Nagel B., Ştrommenger Y. Qalakənd. Bakı, 1999.
5. Məmmədov V.C. Sədərək qədim yaşayış yeri. Şərur qədim diyardır. İliç şəhəri - 1988.
6. Müseyibli N., Zəyəmçay nekropolunda arxeoloji qazıntılar. «Azərbaycan arxeologiyası və etnoqrafiyası». Bakı,2004, № 2.

7. Müseyibli N.Ə., Aşurov S.H. Sədərək və Şərur rayonlarında 2002-ci ildə aparılmış arxeoloji işlərin hesabatı. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun ÇTŞ-nin Elmi Arxivi.
8. Müseyibli N.Ə. Qədim Sədərək. Bakı, 2003.
9. Müseyibli N.Ə. Gəmiqaya. Bakı, 2004.
10. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, 1982.
11. Агаев Г. Шахтахты в эпоху поздней бронзы и раннего железа. Баку- Москва, 2002.
12. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991.
13. Кесаманлы Г.П. Археологические памятники эпохи бронзы и раннего железа Дашкесанского района. Баку, 1999.
14. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб, 1852.
15. Эвлия Ч. Книга путешествий. Москва, 1983.



III tablo



## V tablo

Sədərək rayonu Çapacaq kurqanı

Plan




Kəsik






## VI tablo



VII tablo

NAXÇIVAN MR SƏDƏRƏK QALASININ ÜMUMİ GÖRÜNÜŞÜE.Ə. II min. SONU - I min. ƏVVƏLİ





VIII tablo

Sədərək qalasının girişinin qapısı (qrafik bərpa)



PLAN



KƏSİK I-I








# IX tablo






# X tablo



XI tablo






XII tablo










SƏDƏRƏK RAYONU




HEYDƏRABAD









## KƏRKİ ABİDƏLƏRİ

Sədərək rayonunun hal-hazırda erməni işğalı altında olan Kərki kəndi qədim abidələrlə zəngindir. 70-ci illərdə V.H.Əliyev tərəfindən Kərki kəndinin ətrafında e.ə. II minilliyə aid yaşayış yeri və nekropol (qədim qəbristanlıq) aşkar edilmişdir. Lakin təəssüflə qeyd etməliyik ki, kəşfiyyat xarakterli arxeoloji qazıntılar istisna olmaqla həmin abidələrdə geniş miqyaslı tədqiqatlar aparılmamışdır. Bu abidələr Kərki kəndindən cənub-qərb istiqamətdə yerləşir (1; 2).

Yaşayış yeri 3 ha-dan artıq ərazini əhatə edir. Bu ərazidə bir qədər yanmış torpaqdan əmələ gəlmiş kiçik ölçülü təpələr müşahidə edilir. Abidənin mədəni təbəqəsi kül qarışıq gilli torpaqdan ibarətdir. Yaşayış yerinin bəzi sahələri kül təbəqəsi ilə örtülmüşdür. Kül qatı həm də tikinti qalıqlarının altında müşahidə edilir. Evlərin tikintisi zamanı onların döşəməsi səliqə ilə doldurularaq yaxşı bərkidilmişdir.

Evlərin divarlarının özülü və aşağı hissəsi kobud yonulmuş iri qaya parçalarından və orta həcmli çay daşlarından tikilmişdir. Divarların yuxarı hissələri isə çiy kərpicdən hörülmüşdür. Yaşayış yerində həmin çiy kərpiclərin qalıqlarına rast gəlmək mümkündür. Abidənin mədəni təbəqəsindən daşdan hazırlanmış əmək alətləri və saxsı qab qalıqları aşkar edilmişdir. Daş əmək alətləri qayıqvari formalı dən daşlarından və sürtgəclərdən ibarətdir. Saxsı məmulatı boz və qırmızı gildən bişirilmiş çölmək, kasa, küpə və s. tipli qabların qalıqlarıdır. Boyalı saxsı qab qalıqları xüsusilə maraqlıdır. Bu qablar narın qum qatışığı olan və yaxşı bişirilmiş gildən hazırlanmışdır. Onların qırmızı rəngli səthi qara rənglə bəzədilmişdir. Kərki qədim yaşayış yerindən əldə edilmiş boyalı qab qalıqları Azərbaycanın orta tunc dövrü (e.ə. III minilliyin sonları - II minilliyin I yarısı) boyalı qablar mədəniyə- tinin ən dəyərli nümunələrindəndir (1; 2).

Yaşayış yeri ilə yanaşı, qədim qəbristanlıq (nekropol) aşkar edilmişdir. Qədim yaşayış yerinin sakinləri ölüləri məhz bu qəbristanlıqda dəfn etmişlər. Daş qutu qəbirlərdən ibarət olan nekropolun ümumi sahəsi təqribən 2 ha-dır. Qəbirlər düzbucaqlı formaya malikdirlər. Ölülər müxtəlif istiqamətlərdə dəfn edilmişlər. Belə ki, onların bir qismi qərb-şərq istiqamətində, digərləri isə şimal-cənub istiqamətində dəfn edilmişlər. Qəbirlərin divarları iri ölçülü, yastı, yonulmamış daş lövhələrdən qurulmuş, üstü isə iri sal daşlarla örtülmüşdür. Nekropoldan əldə edilmiş arxeoloji materiallar gil qab nümunələrindən ibarətdir. Onlar yaşayış yerindən tapılmış qablarla eyniyyət təşkil edirlər. Bu qabların da qırmızı rəngdə boyanmış səthi qara boya ilə dalğalı xətlərdən, yarımdairələrdən və digər komponentlərdən ibarət ornamentlərlə bəzədilmişdir (1; 2).

Kərki kəndinin qərbindəki qədim qəbristanlıqdan təsadüfi aşkar olunmuş monoxrom boyalı küpələrdən birini əldə etmək mümkün olmuşdur. Naxçıvan mədəniyyətinin ilk mərhələsi üçün səciyyəvi sayılan bu monoxrom boyalı küpə qırmızı rəngdə olub gilinə qum qatılmışdır. Formaca çox simmetrikdir. Gövdəsi qabarıq, ağzı dar, boğazı qısa, bir qədər silindrik, oturacağı yastıdır. Üzəri və boğazının içəri tərəfində tünd qırmızı rəng çəkilmişdir. Ağzının kənarı geri əyilmişdir. Qara rənglə ağzının kənarına qısa xətlər, boğazına şaquli, düz və üfüqi dalğavari xətlər çəkilmişdir. Çiyin hissəsinə zəncirvari qaydada bir-birilə bağlanan romb rəsmləri çəkilmişdir. Rombların daxili dalğavari xətlərlə doldurulmuşdur. Romblardan aşağıda iki cərgə qoşa sınıq xətlər verilmişdir Kərki nekropolundan əldə edilmiş digər bir saxsı qab badya tiplidir. Bu qab hazırda Sədərək rayon muzeyində sax- lanılır. Qırmızı rəngli gildən tam simmetrik hazırlanmış badyanın oturacağı yastı, gövdəsi şarşəkilli, ağzı genişdir. Ağız kənarını xaricə doğru ensiz köbə haşiyələyir. Badyanın üzəri qırmızı boyandıqdan sonra qara rənglə həndəsi formada naxışlanmışdır. Ağız kənarının aşağısına enli fırça ilə üç dalğavari xətt çəkilmişdir. Çiyin hissənin yuxarısına bir-birinin daxilində olan üç ziqzaqvari xətt çəkilmişdir. Müəyyən fasilədən sonra eyni naxış qabın çiyin və gövdə hissələrinin birləşdiyi hissəyə də çəkilmişdir. Kərki boyalı qabları Naxçıvan abidələri üçün səciyyəvi olub I və II Kültəpə, Nəhəcir, Yaycı, Şortəpə, Qıvraq və digər həmdövr abidələrin analoji materialları ilə eyniyyət təşkil edir (3, s. 25).

Kərkinin qədim əhalisi əkinçilik və maldarlıqla yanaşı, müxtəlif sənətkarlıq sahələri ilə də məşğul olmuşlar. Sənətkarlıq emalatxanalarmdan birinin qalıqları bu günə qədər saxlanmışdır. Kərki kəndindən 2 km şimal-qərbdə yerləşən bu emalatxananı yerli əhali Bəzirxana adlandırırdı. Həmin emalatxanada müxtəlif bitki yağları istehsal edilirdi. Bəzirxanada böyük həcmli, yaxşı yonulmuş yastı dairəvi daş tapılmışdır. Daşın mərkəzində dördkünc şaquli deşik açılmışdır. Eynilə belə bir bəzir daşı Sədərək kəndində aşkar edilmişdir. Onun hündürlüyü 70 sm, diametri 1,8 m, mərkəzində qazılmış kvadratın tərəflərinin uzunluğu 55 sm, həmin kvadratın mərkəzindən açılmış şaquli deşiyin diametri 30 sm-dir. Hal-hazırda bu daş Şərur rayon Tarix Diyarşünaslıq muzeyinin qarşısındadır. Çox güman ki, bu daşlar bitki yağlarının alınması prosesində istifadə edilərkən qoşqu qüvvələri vasitəsilə öz oxu ətrafında hərəkət etdirilirmiş (3, s. 26).

ƏDƏBIYYAT:

1. Əliyev V.H. 1977-ci ildə Şərur ərazisində aparılan arxeoloji kəşfiyyat haqqın- da hesabat. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun ÇTŞ-nin Elmi arxivi. H-222.
2. Алиев В. Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991.
3. Müseyibli N.Ə. Qədim Sədərək. Bakı, 2003.



***Bəhlul İbrahimli***
ibrahimlib@mail.ru
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu

## GILAN ÇAY VADISININ ARXEOLOJI ABIDƏLƏRI

Kiçik Qafqazın Zəngəzur silsiləsinin cənub ətəklərini əhatə edən Naxçıvan bölgəsi arxeoloji abidələrlə zəngindir. Arxeoloji abidələr ən çox, suyunu Kiçik Qafqaz dağlarının daim qarla örtülü zirvələrindən alan və Araza tokülən dağ çayları vadilərində, xüsusən də dağətəyi və düzənlik ərazilərdə aşkar edilir. Naxçıvan ərazisində aşkar edilmiş ilk və orta tunc dövrlərinə aid yaşayış yerlərinin böyük əksəriyyəti çaylara yaxın dağ ətəklərində və ya çox da hündür olmayan təpələrin

**Birinci Plovdağ nekropolu.** Birinci Plovdağ nekropolueyniadlı dağın cənub ətəklərində, yaşayış yerindən şərq tərəfdə 1,5 ha-yaqədərəraziniəhatəedir. Nekropolu kurqan tipli qəbirlərdən ibarətdir. Onların çoxu bir neçə dəfə dağıntıya məruz qalmışdır. Xüsusən nekropolun cənub tərəfi həm təbii qüvvələrin təsirindən, həm də təsərrüfat işləri nəticəsində demək olar ki, tamamilə dağıdılmışdır. Plovdağın zirvəsinə tərəf bir neçə toxunulmamış və bir neçə qismən salamat qalmış kurqan tədqiq edilmişdir (1, s. 154-163).

Birinci Plovdağ nekropolunda rast gəlinən dəfn adətində bircəhət diqqəti cəlb edir.

Alttəbəqəyəməxsusbirnеçəqəbirdədəfnolunanlarınsağəlinə piyalə və ya kiçik həcmli çanaq qoyulmuşdur. Qeyd etmək lazımdır ki, dəfn adətinin bu mühüm xüsusiyyətinə hələlik yalnız alt təbəqəyə məxsus kurqanaltı torpaq qəbirlərdə rast gəlinmişdir. Mesopotamiya, Altay və Qazağıstanda yayılmış bu dəfn adətinin Naxçıvan bölgəsində qədim kökləri vardır. Belə ki, analoji dəfn adətinə I Kültəpə abidəsinin eneolit təbəqəsində də rast gəlinmişdir (2, s. 48, N24).

Ümumiyyətlə, Birinci Plov dağ nekropol undakı III minilliyin sonundan II minilliyin sonunadək olan dövrdəki dəfn adətinin diqqət

çəkən xarakterik cəhətləri vardır. Qəbirlərin tipi – kurqanaltı daşqutu və torpaq qəbirlərdir, bəzilərinin şərqtərəfdən qurbangahı vardırki, burada yalnız 2-3 ədəd gil qab aşkarolunur. Ölülər solyanı üstdə, bükülü vəziyyətdə dəfn olunmuşlar, bəzi qəbirlərdə ölülərin yanına bir neçə gil qab və bəzi hallarda xırda buynuzlu heyvanın kəlləsi və ayaqları qoyulmuşdur. İstisna olaraq bir qəbirdə iri buynuzlu heyvanın birneçə qabırğası və onurğasının bir hissəsinə rast gəlinmişdir. Yuxarıda qeyd olunanlardan belə aydın olurki, Birinci Plov dağ nekropolunda uzunmüddət sabit davamedən dəfnadəti mövcud olmuşdur.

**İkinci Plovdağ nekropolu.** Ikinci Plovdağ nekropolu çoxtəbəqəli abidədir. Burada üst qatda Son və Orta tunc dövrlərinin qəbir abidələri, alt qatda isə İlk tunc dövrünün yaşayış yerinin mədəni təbəqəsi aşkar edilmişdir. Orta tunc dövrünün kurqanları nisbətən daha geniş tədqiq edilmişdir (3, s. 86-89).

İkinci Plovdağ kurqanlarında cəmi iki ağ inkrustasiyalı qab tapılmışdır ki, onlardan da biri 16N-li kurqanda aşkar edilmişdir (4, s. 251-252).

Qabınaşağıhissəsisınmışdırvəqazıntızamanıqəbriniçərisindəntapıl madı. Boğazhissəsindəngövdəsinədoğruikivəyaüçparallelxətlərboyuncayerl əşənnöqtəformalıbasmanaxışlarıniçərisiağpastailədoldurulmuşdur(in krustasiya). Ağ inkrustasiyalı qablar Cənubi Qafqazda geniş yayılmışdı və bu haqda arxeoloji ədəbiyyatda kifayət qədər məlumat vardır (5, s. 64-76).

Plovdağ kurqanlarında əldə edilmiş muncuqlar içərisində əqiq və ağ pastadan hazırlanmış muncuqlar çoxluq təşkil edir. Pastadan hazırlanmış muncuqlara qəbirlərin demək olar ki, hamısında rast gəlinir. Pasta muncuqların təsnifatı və mənşəyi məsələsi arxeoloji ədəbiyyatda kifayət qədər araşdırılmışdır (6, s. 49-55).

Plovdağ kurqanlarında dəfn adətinin diqqət çəkən bir cəhəti də xırda buynuzlu heyvanların qəbrə qoyulmasıdır. Məsələ ondadır ki. onlar qəbrə müxtəlif vəziyyətdə qoyulmuşdur. Bəzi qəbirlərə qoyun bütünlüklə, bəzi qəbirlərə isə yalnız başı və ətraf sümükləri qoyulmuşdur. Bir çox hallarda bu ölünün sosial vəziyyətindən asılı olmuşdur. 16N-li kurqanaltı daş qutu qəbirdə qoyunun qanun-qayda ilə yanıüstə yarımbükülü vəziyyətdə insanla üzbəüz dəfnolunması onun təkçə qidaəhəmiyyətli olduğunu deyil, daha mühüm əhəmiyyət kəsb etdiyini göstərir. Əgər ilktunc dövrünün gilqabları üzərində rastgəlinən qoç simvollarını, gil qoyun və qoç fiqurlarını da nəzərə alsaq qoyunun təkcə mühüm təsərrüfat əhəmiyyətli bir heyvan deyil, həmdə kultolduğunu görərik (7, s. 90-96).

Plovdağ kurqanlarında silah çox az əldə edilmişdir. Əldə edilən silshlar isə dəvəgözü və çaxmaq daşlarından hazırlanmış 30-a qədər ox ucundan, bir tunc xəncərdən və bir ədəd tuncdan hazırlanmış ox ucundan ibarətdir. 18N-li qəbirdə ölünün üzünə yaxın, dəstəyi qəbrin cənub-şərq, tiyəsi isə şimal-qərb küncü istiqamətində qoyulmuş bir xəncər aşkar edildi. Xəncər tuncdan bütövtökmə üsulu ilə hazırlanmışdır. Dəstəyi boru formasında olub üçbucaq kəsmələrlə şəbəkələnmişdir, ortasında deşiyi vardır. Baş tərəfi üstəgəl işarəsi formasındadır, içərisində bu qəbirdən çıxan toppuzun deşiyində rast gəldiyimiz yumşaq ağac çürüntüsünə bənzəyən qalıqlar vardır. Xəncərin dəstəyindən tiyəsinə keçid 0,7-0,8 mm enində düz relyefik formadadır. Tiyəsi orta hissədə qalınlaşır. Bu tip xəncərlərə Kolanı nekropolunda (8, s. şək. 20, 2;) və Gədəbəy kurqanlarında rast gəlinir (9, şək. 59,60,66).

Ümumiyyətlə, Plovdağ nekropolu üçün o qədər də xarakterik olmayan göbələkvari qulpu və ya bəzəyi olan qab da 18N-li qəbirdə aşkar edilmişdir. Cənubi Qafqazın digər abidələrindən (10, s. 65) fərqli olaraq 18N-li qəbirdəki qabın göbələyə oxşar bəzəyi qabın birbaşa ağız hissəsinə yapışdırılmışdır.

Plovdağda olduğu kimi qabların ağzına yaxın yerləşmiş göbələkvari qulplara ən çox Gəncə çay rayonunda yerləşən Kilikdağ kurqanlarında rast gəlinir (5, s. 30). Bu tip qulpları və ya bəzəkləri olan tutumlu qablar Şərqi Gürcüstan materiallarına əsasən e. ə. XIV-XIII əsrlərə aid edilir.

Orta tunc dövrünün əvvəllərinə aid kurqanlardan əldə edilən qara rəngli, cilalanmış gil qablar ilk tunc dövrü keramikasının ənənələrinin (11, s. 43-63) həm forma, həm naxışlanma, həm də bişirilmə keyfiyyətinə görə qoruyub saxlandığım göstərir. Beləliklə, ilk tunc dövrü gil qablarının əksər xüsusiyyətlərinin orta tunc dövründə də davam etdiyi aydın görünür.

Arxeoloji ədəbiyyatda üstü daş plitələrlə örtülmüş qəbir kameralarınm dəfn zamanı torpaqla doldurulması haqda fikirlərə rast gəlinir ki, bu da bir sıra faktların nəzərə alınmadığını göstərir (12, s. 67). Plovdağ kurqanlarında üstü örtülən qəbir kameralarmın torpaqla doldurulmasına rast gəlinməmişdir.

Plovdağ kurqanlarında dromosların qurulması texnikası olduqca maraqlıdır. Qəbirlərin şimal və cənub divarları kurqanın kromlexinə qədər davam edir. Mərhum qadın olarsa cənub divarına, kişi olarsa şimal divarına bitişik sal daş dikinə qoyulmaqla qəbrə giriş yolu qoyulur, qalan hissə isə dromos kimi saxlanılır. Analoji quruluşa malik kurqanaltı sərdabə Gəmi qaya yaylağında da aşkar edilmişdir (13, s. 38-41). Kurqan kompleksində dromosun olması dəfn prosesinin iki çox mühüm elementi haqqında qəti fikir söyləməyə imkan verir.

Birinci, ölünün və avadanlığın qəbrə şərq tərəfdən, "qapı" yerindən qoyulması artıq heç bir şübhə doğurmur. Qeyd etmək lazımdır ki, Cənubi Qafqaz ərazisində kurqanların "qapısı" həmişə şərq tərəfdən olmuşdur (14, s. 37-38).

İkinci, kurqanın dəfnə əvvəlcədən hazırlandığı(kromlexin, qəbrin kamerasının, qurbangahın qurulması və qəbrin üstunun sal daşlarla örtülməsi və s.) və dəfn prosesinin çox da uzun sürmədiyi(bu fikir dəfndən sonra qəbrin ətrafında keçirilən mərasim və rituallara aid deyil) aydın olur.

Ölünün dəfnə hazırlanması və dəfndən sonrakı mərasim və rituallar haqqında yalnız müəyyən ehtimallar irəli sürmək olar. Bu ehtimallar faktiki arxeoloji tapıntılara əsaslansa da həmin prosesləri tam əhatə etmir.



Tunc dövrü kurqanlarının əsas elementlərindən biri də qurbangahlardır (15, s. 104-105). Bu tikililər arxeoloji ədəbiyyatda "əlavə qəbir kamerası", "ehsan kamerası", "çista", "ritual kamera" və s. adlarla adlansa da geniş şərh edilməmiş, onların təyinatı və funksional əhəmiyyəti aydınlaşdırılmamışdır. Qurbangahların təyinatı İ.Nərimanov tərəfindən araşdırılsa da tədqiqatçı, əsasən Ya.İ.Qummelin bu haqda olan "şüa sistemi" nəzəriyyəsini tənqid etmiş və bu nəzəriyyənin çöl-tədqiqat işlərində tətbiq olunmasını məsləhət görməmişdir (16, s. 65-73). Bizim işlətdiyimiz "Qurbangah" termini də bu tikililərin təyinatını tam əks etdirmir (17, s. 12-13) və onları "ehtiyat ərzaq kamerası" adlandırmaq daha düzgün olardı. Kurqan tipli qəbirlərin yaranması neolit dövrünün sonlarından başlasa da, qubangahlı kurqanlar e.ə. IV minilliyin sonlarından məlumdur (18, s. 36).

Plovdağ kurqanlarının qurbangahları bir qayda olaraq şərq tərəfdən kurqanın kromlexinə bitişik işlənmişdir. Ölçüləri müxtəlifdir və heç də kurqanın böyüklüyündən-kiçikliyindən asılı deyildir. Belə ki, 17N-li kurqanın qurbangahı (17A) ondan iki dəfə böyük olan 18N-li kurqanın qurbangahından bir neçə dəfə böyukdür və gil qabların sayı da ondan artıqdır. Orta tunc dövrü kurqanlarınm qurbangahları dördbucaqlı və beşbucaqlı planda qurulmuş, içərisinə yalnız müxtəlif təyinatlı gil qablar qoyulmuşdur (19, s. 75-81)

Qurbangahlarda insan skeletinin aşkar edilməməsi bəzi tədqiqatçılara burada kremasiya dəfn adətinin olması fikrini irəli sürməyə əsas vermişdir. Beləliklə, orta tunc dövrü kurqanlarında inqumasiya ilə yanaşı kremasiya adətinin də olduğu tədqiqatçılar tərəfindən qəbul edilmişdir. Kurqan qəbirlərində kremasiya dəfn adətindən istifadə olunması arxeoloji ədəbiyyatda sübut olunmuş fakt kimi təsbit olunmuşdur (20, s. 130). Lakin bunu Kiçik Qafqaz kurqanlarına aid etmək olaz.

Naxçıvan ərazisində Şahtaxtı və Qarabağlar nekropollarında aşkar edilmiş skeletsiz qəbirlərdə urnalar və ya yanmış skelet qalıqları tapılmadığından burada da kremasiyanın olub-olmadığı hələlik sübut edilməmişdir (21, s. 42-51).

Plovdağın orta tunc dövrü kurqanlarının kompleks tədqiqi və yaxınlıqdakı son tunc və ilk dəmir dövrü nekropollarının (22, s. 7-47) öyrənilməsi nəticəsində qurbangahların təyinatını dəqiqləşdirmək mümkün olmuş və onların kremasiya ilə heç bir əlaqəsinin olmadığı sübut edilmişdir. Lakin qurbangahların dəfn prosesində yeri, onların qəbir kamerası ilə qarşılıqlı əlaqəsi, kurqanlarla eyni vaxtda və ya bir müddət sonra-başqa bir mərasim zamanı qurulduğu hələlik tam dəqiqləşdirilməmişdir. Əsas məsələ nə üçün dəfn üçün nəzərdə tutulan gil qabların hamısının ölünün yanına deyil, çox hissəsinin ayrıca kamera qurularaq oraya yığılmasıdır. E.ə. II minilliyin əvvəllərinə aid olan kuranların qurbangahlarına yalnız süfrə qabları qoyulurdusa, həmin minilliyin sonlarına aid kurqanların qurbangahlarına artıq mətbəx qabları da qoyulurdu (15, s. 104 ).

Böyük kurqanlarda qurbangahların qəbrin qarşısında deyil, nisbətən cənuba və şimala tərəf yerləşməsi onların dəfndən bir müddət sonra qurulması ehtimalını irəli sürməyə əsas verir. Lakin bəzi kurqanlarda qəbrin kamerasının, dromosun və qurbangahın bir xətt üzrə yerləşməsi, dromosdan qəbrə və qurbangaha yol qoyulması onların eyni vaxtda qurulmasını göstərir. Hələlik bu ehtimalların heç birindən imtina etmək olmaz. Belə ki, bu ehtimalların hər birinin təsdiqi üçün kifayət qədər dəlil-sübut vardır. Ola bilər ki, qurbangahı olan torpaq qəbirli kurqanların ətraflı tədqiqi bu məsələyə aydınlıq gətirsin.

Qeyd etmək lazımdir ki, Plovdağ nekropollarında Naxçıvanın başqa abidələrində (23, s.42). olduğu kimi kollektiv dəfn adətinə hələlik rast gəlinməmişdir. Gilan çay vadisində bu adət e.ə. I minilliyin əvvəllərindən yayılmağa başlayır.

Keramikanın müqayisəli təhlili, bəzi gil qab formalarının və bəzək motivlərinin yayılma arealı mədəni təsirin Urmiya gölü hövzəsi və ona yaxın Araz çayı ətrafından başlandığını ehtimal etməyə əsas verir.

Dini kitablarda və bəzi tədqiqatçıların əsərlərində Nuhdan sonrakı sivilizasiyanın məhz Cənubi Azərbaycan ərazisindən yayıldığı



göstərilir və bunun sübutu üçün arxeoloji faktlara da istinad olunur (24, s. 445-463).

Göy-təpənin K-2, K-3 mərhələlərində geniş yayılmış və Plovdağda da tez-tez rast gəlinən gil qabların üzərindəki dairəvi və oval formalı batıqlara Trialeti və Ağrı dağı vadisi abidələrində nadir hallarda təsadüf olunur. Plovdağ kurqanlarının qurbangahlarında bir qayda olaraq kameranın cənub-qərb küncünə qoyulan, lentvari ağzı qatlanaraq gövdəsinə yapışdırılmış, şar gövdəli küplərə də həmin abidələrdə az təsadüf olunur. Halbuki bu ənənəyə Gilan çay vadisinin İlk dəmir dövrü nekropollarında da past gəlinir.

Qəbirlərdə aşkar edilmiş maddi-mədəniyyət nümunələri, eləcə də qəbrin forma və ölçüləri mərhumun sosial vəziyyətini və cəmiyyətin iqtisadi inkişaf səviyyəsini xarakterizə etməyə imkan verir (25, s. 6).

Qeyd etmək lazımdır ki, Plovdağın orta tunc dövrü kurqanlarında qəbrə boyalı və lüləli qab qoymaq adəti olmamışdır. 25N-li kurqan bu cəhətdən istisnalıq təşkil edir. Bəzi tədqiqatçılar lüləli qabların Naxçıvan ərazisinə cənubdan gəldiyi fikrini irəli sürürlər (26, s. 52).

Plovdağ nekropolunda əldə edilən boyalı qabların ornamentləri Naxçıvanın həmdövr abidələrinin boyalı qablarındakı ornamentlərdən qismən fərqlənirlər. Belə ki, əgər Plovdağ boyalı qablarında üçbucaq təsvirlərinin iti ucu bir qayda olaraq qabın boğazına tərəf istiqamətlənibsə, Əznəbürd kurqanlarından əldə edilən boyalı qablarda üçbucaqların iti ucu qabın oturacağına tərəf istiqamətləndirilmişdir (12, s. 72). Maraqlıdır ki, Plovdağ nekropolunun kurqanaıtı qəbirlərində boyalı qablara çox az təsadüf olunduğu halda (aşkar edilən qabların da üzərindəki boya qaşınaraq pozulmuşdur), plitəli qəbirlərdə onlar gil qabların əksəriyyətini təşkil edirlər. Naxçıvan ərazisində boyalı qab istehsalının ilk dəmir dövrünü əvvəllərində tənəzzülə uğradığı haqda, boyalı qablar mədəniyyətinin genezisi, yayılma arealı və dövrləşməsi məsələləri ilə uzun illər məşğul olan V.Əliyevin fikri Mərdan gölü və Muncuqlutəpə nekropollarının materiallarında da öz təsdiqini tapır.

Qeyd edək ki, Van, Urmiya və Göycə gölü hövzələri və ətraf abidələrində yayılmış boyalı qabları A.Özfirat "Araz boyalıları" qrupuna aid edir (27, s.2).

Qəbirdən tapılmış gil qablar formasına və keyfiyyətinə görə də fərqlənirlər. Bu qabların üzərində metal parlaqlığı və qabın boğaz hissəsi ilə gövdəsi arasında kəskin keçid vardır. Göstərilən əlamətlər ilk tunc dövrü keramikası üçün xarakterikdir. Eyni ilə bu cür üç qab Kveçxelebinin B təbəqəsindən(ilk tunc dövrü) aşkar edilmişdir (28, s. 146-148). Avropadan Altaylara qədər, Cənubi Qafqazda və Aralıq dənizi sahillərində yayılmış kurqanlarda dəfn adəti təqribən eyni olmuşdur (29, s. 204-211).

Plovdağ kurqanlarınm tədqiqi orta tunc dövrü kurqan qəbirlər mədəniyyətinin bəzi müddəalarına yenidən baxmağı zəruri edir.

Dəfn adətinin oxşarlığı baxımından Plovdağ kurqanlarını Trialetinin tək dəfnli erkən kurqanları ilə və Ağrı vadisindəki bəzi kurqanlarla müqayisə etmək olar. Lakin Plovdağ kurqanlarında olduqca ciddi qaydalar əsasında yerinə yetirilən və uzun müddət stabil qalan dəfn adətini nə Trialetidə, nə də Ağrı vadisi abidələrində görə bilmirik. Eyni zamanda dəfn adətinin bəzi vacib elementləri (baş daşı qoyulması, qurbangahların içərisinin mütləq dasdan qurulması və s.) həmin abidələrdə qeydə alınmamışdır. Naxçıvanın eneolit, ilk və orta tunc dövrü dəfn adətinin bəzi elementlərinə (əlində cam dəfn olunma adəti) Trialeti və Ağrı vadisi abidələrində rast gəlinməmişdir.

Kurqan mədəniyyətinin olduqca mübahisəli olan genezisi məsələsi də hələlik həll edilməmişdir. Onların Mərkəzi və Şərqi Avropadan, Misirdən (30, s. 62) gəldiyi qeyd olunur və həmişə də kurqan mədəniyyəti hind-avropa tayfalarının yayılması (31, s.107) və onların mifologiyasındakı "tısbağa" kultu ilə əlaqələndirilir (29, s. 207-211). Bu tezislə qətiyyən razılaşmaq olmaz. Ona görə ki, hələlik kurqanların nə genezisi, nə də etnik mənsubiyyət məsələsi həll edilməmişdir. Bizə elə gəlir ki, kurqan mədəniyyətinin yaranmasının köçəriliklə bağlı olduğunu ehtimal etmək daha düzgün olardı. Köçəri həyat tərzi keçirmiş hər hansı bir xalq özünü kurqan mədəniyyətinin



varisi hesab edə bilər. Əvvəllər köçəri həyat tərzi keçirməmiş xalq isə yoxdur.

Naxçıvanin əlverişli təbii-coğrafi şəraiti və geosiyasi mövqeyi bölgədə iqtisadi münasibətlərin erkən inkişafına və sosial differensasiyaya şərait yaratmışdır. Artıq İlk tunc dövründə yaşayış məskənləri genişlənmiş, onların plan quruluşunda müəyyən qanunauyğunluqlar əmələ gəlmişdir. Əlverişli təbii hündürlükdə yerləşən dini mərkəzin – məbədin ətrafında nisbətən varlı yaşayış evləri və sənətkar emalatxanaları yerləşmişdir. Protoşəhər və ya ilkin şəhər sənətkarlığının əsasını metal alətlər və silahlar, daş alətlər, bəzək əşyaları və toxuculuq məhsulları təşkil etmişdir. Bu zaman iqtisadi-mədəni əlaqələrin kifayət qədər inkişaf etdiyini, arxeoloji qazıntılar zamanı tapılan, Yaxın Şərq ölkələrində istehsal olunmuş bəzək əşyaları və keramika nümunələri sübut edir.

Plovdağ yaşayış yerləri və nekropollarının tədqiqinin Azərbaycan arxeologiyası üçün mühüm əhəmiyyəti vardır. Bu abidələr Yaxın Şərqi Şimali Qafqaz və Cənubi Şərqi Avropa ilə birləşdirən zəncirin çatışmayan həlqəsidir. Plovdağ yaşayış yeri və nekropollarından əldə edilən arxeoloji materiallarda sinkretiklik qabarıq şəkildə nəzərə çarpır. Əlbəttə, bir və ya bir neçə abidənin hərtərəfli tədqiqi tunc dövrünün öyrənilməsində olan problemləri tam həll edə bilməz (32, s.18) Lakin Plovdağın qəbir abidələri I və II Kültəpə yaşayış yerləri, Ovçular təpəsi və başqa sinxron abidələrlə birlikdə Naxçıvanın tunc dövrünün kompleks tədqiqinə imkan verəcəkdir.

Arazın orta axarında yerləşən yaşayış yerlərinin quruluşunda əsaslı dəyişikliklər e.ə. II minilliyin sonlarında əmələ gəlir. Güclü müdafiə qabliyyətinə malik möhtəşəm qalalar tikilir, köhnə şəhərlərin ətrafına müdafiə divarları çəkilir. Bu proses Manna və Midiya ərazilərində bir neçə əsr davam etmişdir. Bu dəyişikliklərin səbəbi təcavüzkar Assuriya dövlətinin işğalçı hücumları olmuşdur. Çox ehtimal ki, möhtəşəm qalalara malik, döyüş qabliyyəti gücləndirilmiş qədim Naxçıvan qəbilələrinin də ətraf regionlara yürüşləri olmuşdur.

**Sumbatan-Dizə Yaşayış Yeri.**Sumbatan Dizə yaşayış yeri Naxçıvan MR Ordubad rayonu ərazisində , Araz çayının qolu olan Gilan çayın sağ sahilində, Sumbatan dağının üzərində və ətəklərində yerləşir. Şərq tərəfindən Gilan çay, qərb tərəfindən isə Yaycı arxı keçdiyindən Sumbatan dağının ətrafı yaşıllıqdır. Dağın şimal və cənub ətəklərindəki bulaqlar və təbii müdafiə sistemi qədim zamanlardan insanların burada məskən salmasına şərait yaratmışdır. Sumbatan dağının üzərində və ətəklərində abidələrin tutduğu ərazi 6-7 ha-ya qədədir və onların çoxu orta əsrlərdə və sonrakı dövrlərdə güclü dağıntıya məruz qalmışdır. Xüsusən, XIV-XV əsrlərdə dağın şimal-qərb tərəfində kənd salınarkən antik dövrə aid qalanın müdafiə divarları və digər tikililəri dağıdılmışdır. Arxeoloji tədqiqatlar göstərir ki, Sumbatan yaşayış yeri e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində Sumbatan dağının zirvəsini və yamaclarım əhatə edən kiçik şəhər olmuşdur. Azərbaycan ərazisində bu tip, relyefə uyğunlaşdırılmış şəhərlər çox olmuşdur. Qəbilə birləşmələrinin mərkəzi olan bu yaşayış yerləri, tədricən müdafiə divarları ilə möhkəmləndirilərək şəhərlərə çevrilmişlər.

Sumbatan - Dizə yaşayış yerində arxeoloji tədqiqat işləri 2008-ci ildə dağın şimal-şərq tərrəfində aparılmış və abidənin çoxtəbəqəli olduğu, yaşayış yerinin yaxınlığında kurqanların və plitəli qəbirlərin yerləşdiyi müəyyən edilmişdir. Qazıntının dağın şimal-şərq tərrəfində aparılmasına səbəb çökəkliyin Gilançaya tərəf olan hissəsində siklopik divar qalıqlarının izlənməsi oldu. Siklopik divarın tikintisində istifadə olunan irihəcmli dağ daşları elə burada, dağıntəkindən qazılıb çıxarılmışdır. Hörgü zamanı əniri daşlar özülə qoyulmuşdur. Divarınözülü (himi) dərində deyildir. Burada dağın yamacı 3,5 m enində və divarın zunluğu böyunda üfüqi vəziyətdə 30 sm dərinlikdə qazılmış və divar işlənmişdir. Divarın eni 3,5 m, salamat qalmış hissəsinin uzunluğu isə 23, 5 m-dir. Müdafiə divarının xarici tərəfinin tikintisində irihəcmli dağ daşlarından istifadə olunmuşdur. Bəzi daşların çəkisi 1,5-2 tona yaxındır. Buna baxmayaraq müdafiə divarının bu tərəfi dağın yamacına tərəf olduğunda ndağıntıya daha çox məruz qalmışdır. Divardan uçub



tökülən irihəcmli daşlar aşağıdakı divarların da birhissəsini uçurub dağıtmışdır.

Müdafiə divarınm cənub hissəsinin içəri tərəfində 50x50 sm ölçülərində taxça olmuş, sonuncu bərpa dövründə daşla işlənərək tutulmuşdur. Taxçaya işlənmiş daşların üstündə uzunmüddət odyandığından onlar qəhvəyi rəng alaraq çat-çat olmuşdur.

Divarın şimal tərəfində 1,3 m enində giriş yolu olmuş, sonuncu bərpa dövründə daşla işlənərək tutulmuşdur. Həm taxça yerinin, həm qapı yerinin bərpa zamanı işlənərək tutulması, kompleksin təyinatının dəyişdiyini göstərir.

2010-cu ildə dağın zirvəsində, 480 kv.m. sahədə aparılan arxeoloji qazıntılar burada dini-inzibati təyinatlı tikili kompleksinin olduğunu gostərdi. Kompleks, antik dövrdə, orta əsrlərdə və müasir dövrdə dəfələrlə dağıntıya məruz qalmışdır. Hər dəfə dağıntıya məruz qaldıqdan sonra bərpa olunmuşdur ki, bərpa izləri, xüsusilə kompleksin şərq tərəfində daha aydın izlənir. Kompleksin yaşayış yerinə tərəf olan hissəsinə nisbətən, sıldırım qayalığa tərəf olan hissəsindəki divarlarının özülü o dövrdəki yer səthindən 1,8-2,0 m hündürlüyündə (6-8 daş hündürlükdə) salamat qalmışdır. Axırıncı dağıntidan sonra – təqribən eramızın III əsrində tikintinin təyinatı dəyişdirilmişdir.

Tikilinin əsas divarı şimal-cənub istiqamətində olub, eni cənub tərəfdə 3,0 m, şimal tərəfdə isə 2,8 m-dir. Kontforslarla təchiz olunmuş bu divarı həm tikilinin, həm də şəhərin müdafiə divarı hesab etmək olar. Bu siklopik divarın mərkəzi hissəsində çəkisi 5-8 tona qədər olan qaya parçaları vardır. Qazıntı zamam müəyyən edildi ki, müdafiə divarı işlənərkən dağın zirvəsindəki qaya parçalarından səmərəli şəkildə istifadə olunmuşdur. Kompleksin divarları da nəhəng qaya parçalarının üzərində işlənmiş, onların tikintisində bərkidici maddə kimi palçıq məhlulundan istifadə olunmuşdur. 2-3 metrlik divarların hər iki tərəfinə işlənmiş iri daşların arası müxtəlif həcmli daşlarla və palçıqla doldurulmuşdur. Bu zaman ən iri həcmli daşlar yaşayış yerinə tərəf deyil, divarın əks tərəfinə düzülmüşdür. Müdafiə divarının şərq tərəfdən dörd kontrforsu (eni 1,5 m, uzunluğu

isə 3 m-ə qədər olduğundan onları rizalit də adlandırmaq olar) qismən salamat qalmışdır. Bu kontrforslar şimal divarındakı kontrforslardan fərqlənirlər, belə ki, şimal divarındakı kontrforslar divardan 50 sm qabağa çıxdığı halda bu kontrforslar 2,5-3,0 m qabağa çıxmış və eyni zamanda rizalit funksiyasını daşımışdır. Kontrforsların (rizalitlərin) arası 1,5 m hündürlüyü olan əlavə divarlarla bağlanmışdır ki, bu da kompleksin müdafiə qabliyyətini əhəmiyyətli dərəcədə artırmışdır. Əgər nəzərə alsaq ki, Sumbatan dağımn bu tərəfi 50 m-ə qədər hündürlüyü olan sərt yamac və yamacın da zirvəyə tərəf olan hissəsi 9-10 m hündürlüyündə sıldırım qayalıqdır, onda kompleksin necə güclü müdafiə qabliyyətinə malik olduğu aydın olar. Müdafiə divarları dağın ətəyində, dağın ortasında və zirvəsinə yaxın yerləşmişdir. Sumbatan dağının quruluşu elədir ki, onun aşağısından zirvəsinə qədər, 15-20 m-dən bir, 2-3 m qalınlığında təbii daş qatı keçir. Müdafiə divarları da bu daş qatlarına uyğun işlənmiş, eyni zamanda tikinti zamanı bu qaya parçalarından istifadə olunmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi dağın bir çox yerində bu daşların qabağı işlənərək ona divar görkəmi verilmişdir. Maraqlıdır ki, bu bir tərəfli divarların da kontrforsları vardır. Qazıntı zamanı, təqribən e.ə. I minilliyin ortalarına yaxın baş vermiş dağıntıdan sonra müdafiə divarlarmın daha da möhkəmləndirildiyi nəzərə çarpır. Belə ki, bərpa zamanı dağın zirvəsindəki axırıncı müdafiə divarmın kontrforslarının arası işlənmiş, ehtimal ki, bu zaman divarların hündürlüyü də bir qədər artırılmışdır. Əks-təqdirdə kontforsların arasının işlənməsi müdafiə qabiliyyətini azaltmış olardı.

Kontrforsların quruluşuna və dağın ətəyindəki bir tərəfli müdafiə divarlarının tikilişinə əsaslanaraq ehtimal etmək olar ki, qayalıqların arasındakı boşluqlar və çıxıntıların ətrafı daşla işlənərək möhkəmləndirilmişdi. Umumiyyətlə, Sumbatan qalası memarlıq üslubu və tkinti texnikasına görə e.ə. I minilliyin birinci yarısına aid Midiya qalalarını xatırladır.

**Dəlmə Qalası.** Dəlmə qalası Gilan çayın sol sahilində, Dəlmə nekropolundan 700-750 mqərbdə, şimal tərəfindən başqa hər tərəfi



sıldırım qayalıq olan dağın zirvəsində yerləşir. Qalanın şimal, şərq və qərb müdafiə divarlarının yanları açılmış, şimal divarına bitişik otaqların divarlarının konturları müəyyən edilmişdir. Əldə olunan arxeoloji materiallar su daşımaq və saxlamaq üçün istifadə olunan səhəng, küzə, piyalə və bəzi süfrə qablarından, metal əşya qırıqlarından, bir mis kasanın divarından fraqment və çoxlu şüşə qab qırıqlarından ibarət idi. Bu tapıntılar qalanın təyinatı haqqında heç bir ehtimal irəli sürməyə imkan vermirdi. Ona görə ki, müdafiə divarının ətrafı tamamilə təmizlənsə də nə bir ox ucuna, nə bir nizə qırığına, nə bir xəncərə, nə də bir bıçağa rast gəlinməmişdi. Divarlarının eni 2,5 m olan bir qalada heç bir müdafiə və hücum silahının qalığına rast gəlinməməsi bir qədər qəribə görünürdü. 2013-cü ildəki arxeoloji qazıntılarda əldə edilən tapıntıların demək olar ki hamısının ancaq qadınlara məxsus olması vəziyyəti daha da mürəkkəbləşdirmişdir.

Mədəni təbəqənin tərkibi qazıntı sahəsinin hər yerində demək olar ki, eyni olub daş qarışıq torpaqdan ibarətdir. Keramika və başqa tapıntılar bu təbəqədən altda, döşəməyə yaxın aşkar edilir. Otaqlarda iki döşəmə səviyyəsi aşkar edilir. Qədim bərpadan sonrakı döşəmə 80-120 sm dərinlikdə, otaqların ilk döşəməsi isə qalanın şərq tərəfində 75-80 sm dərindədir. Qalanın orta hissəsində yerləşən otaqlarda döşəmələrin səviyyələri bir-birinə yaxın olub, bəzi yerlərdə 25-30 sm-ə qədərdir.

Mədəni təbəqənin tərkibində kömür qırıntılarına və çürüntüyə rast gəlinmir. Ehtimal ki, qala ilk orta əsrlərdə güclü dağıntıya məruz qalmış, lakin qaladan sonrakı əsrlərdə bir neçə dəfə sığınacaq kimi istifadə olunmuşdur. XX əsrin 60-70-ci illərində qala divarları texnikanın köməyi ilə sökülmüş və nəticədə qala tikintilərinə ciddi zərər dəymişdir. Ən çox qalanın giriş yolu dağıdılmışdır. Ümumiyyətlə, traktor işləyən yerlərdə mədəni təbəqədən əsər-əlamət qalmamışdır. Qalanın içərisindəki otaqlarda da yalnız, döşəməyə yaxın bəzi yerlərdə mədəni təbəqəni izləmək mümkün olmuşdur.

Dəlmə qalasının daxili tikililəri qalanın müdafiə divarlarına bitişik işlənmişdir. Tikililərin 90%-i şimal divarınm cənub tərəfində

yerləşir. Bu otaqlar qala divarı ilə dağın zirvəsi arasında qaldığından çökəklikdə yerləşirlər. Otaqlarda bir dənə də olsun pəncərə yeri aşkar edilməmişdir. Otaqlarda heç bir istilik sisteminin olmadığını da nəzərə alsaq bunların yaşayış üçün nəzərdə tutulmadığı aydın görünür.

Qalanın sahəsinin kiçik olması da sual doğurur, belə ki, burada çoxsaylı qarnizon yerləşdirmək mümkün deyil. Digər tərəfdən, ətrafda üzəri daha geniş, təbii müdafiə imkanlarına malik çoxlu dağlar vardır. Ona görə də qalanın nə üçün məhz burada tikilməsinin səbəbləri aydınlaşdırılmalıdır. Diqqəti cəlb edən yeganə səbəb Dəlmə qalası yerləşən dağın su mənbəyinə yaxın olmasıdır. Bu da qala sakinlərinin su təchizatı üçün deyil, daha çox qalanın müdafiə divarlarının tikintisi zamanı suya olan ehtiyacla bağlı olmuşdur.

### ƏDƏBİYYAT:


1. B. İbrahimov. I Plovdağ nekropolu dəfn adətinin bəzi xüsusiyyətləri haqqında. AAE, 2005, N1,
2. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, «Элм», 1982.
3. Б.И.Ибрагимов. Изучение памятников Пловдага. АЭФК. Махачкала, 2007.
4. B. İbrahimov. 2006-cı ildə Plovdağda arxeoloji tədqiqatlar. AAE, 2006, N2.
5. М.А. Гусейнова. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа в XIV-IX вв. до н. э. Баку, 1989.
6. Г.Ф.Джафаров. Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа. Баку, 1984.
7. İbrahimli B.İ., Aşurov S.H. Azərbaycan arxeoloji abidələrində qoç simvolu. AAE, 2007, N1.
8. Vəli Baxşəliyev. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı, 2004.
9. Avşarova İradə. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarımn bədii tunc məmulatı(e.ə. XIV-VII əsrlər). Bakı, 2007.
10. Г. П. Кесаманлы. Хачбулагский курган с массовым захоронением. МКА, VIII. Баку, 1976.
11. Səfər Aşurov. Naxçıvanın ilk tunc dövrü keramikası. Bakı, 2002.
12. В.Г.Алиев. Культура эпохи Средней бронзы Азербайджана . Баку, «Элм», 1991.
13. Nəcəf Müseyibli. Gəmiqaya. Bakı, 2004.
14. Ахундов Т.И. Древнейшие курганы Южного Кавказа. Баку, 1999.
15. Ибрагимов Б. Кашкай С. О погребальных «жертвенниках». АЭФК. Баку, 2005.
16. İ.Nərimanov. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı, 1958.
17. Aslanov Q.M. İbrahimov B.İ. Xaraba-Gilan arxeoloji ekspedisiyasının 1986-cı il hesabatı.
18. Bəhlul Ibrahimli. Naxçıvan bölgəsinin tunc dövrü qəbir abidələrində ənənəvilik. AA, 2007, N3-4.
19. Solmaz Qaşqay, Bəhlul İbrahimli. Orta tunc dövrü qəbirləri haqqında. Naxçıvan bu gün:İslahatlar,perspektivlər. Naxçıvan, 2008.
20. У. Брей, Д. Трамп. Археологический словарь. Москва, 1990.
21. Гахраман Агаев. Шахтахты в эпоху поздней бронзы и раннего железа. Баку-Москва, 2002.
22. Г.Асланов, Б.Ибрагимов, С.Кашкай. Древние некрополи Хараба-Гилана. Баку, 2002.
23. Vəli Əliyev. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı, 1977.
24. Девид Рол. Генезис цивилизации. Москва, 2005.
25. В.А.Алёкшин. Социальная структура и погребальный обряд древнеземледельческих обществ. Ленинград, 1986.

26. Бахшалиев В. Раскопки могильника Сарыдере. ААЕ. 2006, N2.
27. Aynur.Özfirat. Doğu Anadolu yayla kültürlerı. Arkeoloji ve sanat yayınları, İstanbul, 2001.
28. А. И. Джвахашвили, Л. И. Глонти. Археологические раскопки, проведенные в 1954-1961 гг. на селище Квацхелеби(Твлепиа-кохи). Тбилиси, 1962.
29. В.Л.Ростуиов. Опыт реконструкции сакрального пространства ранних кургаиов Европы и Северного Кавказа. Владикавказ. 2006
30. Годердзи Нариманишвили. Триалети во II сысячелетии до н. э. (по данным археологии). Авт. реф. на соискаиие уч. степ. д. и. н. Тбилиси. 2006
31. Э. М. Гогадзе. Периодизация и генезис курганиой культуры Триалети. Тбилиси. 1972.
32. Qüdrət İsmayılov. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, 1981.



**Qəhrəman Ağayev**
**AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu**

## ŞAHTAXTI ABIDLƏRININ ÖYRƏNILMƏSI TARIXI

Naxçıvanın qədim tarixinin öyrənilməsi baxımından Şahtaxtı arxeoloji abidələr kompleksində aparılan arxeoloji tədqiqatlar böyük əhəmiyyət kəsb edir.

Şahtaxtı abidələrinə maraq, 2 noyabr 1923-cü ildə «Azərbaycanı Tədqiq və Tətəböö Cəmiyyətinin» yaradılması ilə başlanmışdır. Cəmiyyətin fəaliyyəti dövründə respublikanın müxtəlif rayon və kəndlərinə elmi ezamiyyətlərin təşkilinə xüsusi diqqət yetirilmişdir.

1927-ci ilin temmuz ayının 24-də Cəmiyyətin iclasında Qıvraq dairəsinin Şahtaxtı kəndində tapılmış maddi-mədəniyyət nümunələrini tədqiq etmək üçün göndərilmiş M.Mirheydərzadənin məruzəsi dinlənildi. Bu iclasda qərara alındı ki, Şahtaxtı Govurqalasından və Qıvraq kəndində Şirdaman adlı məhəllədən tapılmış saxsı çölmək və iki ədəd qədimi şüşə qab haqqında məlumat verilmiş və Govurqaladan tapılmış maddi-mədəniyyət nümunələrinin tədqiqinə həsr olunmuş hesabat dinlənilmişdir. Sonda qərara alınmışdır ki, ərazini daha dərindən tədqiq etmək üçün ora xüsusi komisiya göndərilsin. Şahtaxtı ərazisinin xalqın tarixi ilə bağlı, orada zəngin arxeoloji materialların olmasını qəbul edərək, Şahtaxtı İcrayə Komitəsi qarşısında ərazidə icazəsiz qazıntılara qadağaların qoyulması haqqında məsələ qaldırılmışdır. İlk dəfə olaraq, bu barədə Azərbaycanı Tədqiq və Tətəböö Cəmiyyətinə və arxeoloji Komitəsinə məlumat verilmişdir.

V.M.Sısoyev 1926-27-ci illərdə Naxçıvan Respublikasına səyahətinə dair hesabatında qeyd edir ki, «1927-ci ilin yayında Azərbaycan Arxeologiya Komitəsi, təkcə Naxçıvanda yox, onun bütün ucqar zonalarında araşdırmalar aparmaq üçün Naxçıvan Muxtar Respublikasına yenə öz ekspedisiyalarını göndərdi. Məndən başqa bu səfərdə bir çox mühüm rəsm və fotolar çəkən I.P.Şeblikin

də iştirak edirdi».[2] O, Ordubaddan başqa Qarabağlar, Əznəbürd, Şahtaxtı kimi yerlərə də getməsindən, olduğu yerlərdəki maddi-mədəniyyət abidələri, adət-ənənələri, tayfalar, məhəllələr haqqında da məlumat vermişdir.

1928-ci il may ayının 13-də cəmiyyətin Naxçıvan Bölməsinin keçirdiyi iclasın 40 nömrəli protokolunda M.Mirheydərzadənin səfəri ilə bağlı məruzəsində Şahtaxtı haqqında yazılır: «Asari-ətiqədən (keçmişdən qalan maddi-mədəniyyət abidəsi) olaraq Şahtaxtının şimal-şərq tərəfində məşhur Govurqalası vardır. Buranın çox qədim və mühüm bir yer olduğu anlaşılır. Buradan cürbəcür şəkildə saxsı qablar, müxtəlif əsrlərə aid cürbəcür sikkələr tapılmışdır. Bu sikkələrdən ikisini görmək mümkün oldu. Birisində Şiri-Xurşud olub, yaxın əsrlərə aiddir. Digərində ərəbcə yazılmış ki: «bu sikkə zərb edildi Bərdə şəhərində». Guşələrində Əbu-Bəkr, Ömər, Osman və Əli xəlifələrin adları yazılıb. Buradan tapılmış saxsı qablardan çaynik formasında birisinin keçən il gətirib Naxçıvan muzeyinə vermişəm. Bu dəfə genə bir-iki cür saxsı tikəsi buradan tapıb gətirmişəm. KƏNDIN ŞƏRQ TƏRƏFINDƏ VAR Iydəli pir və şah bağı. Iydəli pirin üstündə böyük qəbirlər vardır.

Şahtaxtı kəndinin kövşənləri bu cür ablanır: I Şah bağı, II Ağ bulaq, III Qala yeri, IV Şah arxı. Bu arx asari-ətiqədən (keçmişdən qalan maddi-mədəniyyət abidəsi) olub, Arpa çayından ayrılaraq gedilib Şahtaxtı kəndi civarından keçirilib Böyükdüz təpəsinə aparılmışdır. Görünür bu arx ilə Böyükdüzü suvarmaq istəyirmişlər. Arx hal-hazırda doldurulsa da, yenə də asarı məlumdur».

Hesabatda Şahtaxtının coğrafi mövqeyi, əhalisinin etnik kökü, kövşənlərinin adı göstərilmiş, Şahtaxtı və ona yaxın olan Qarabağlar, Xıncab, Xanlıqlar, Yurdçu və başqa kəndlərdən tapılmış tarixi

[2] Drevnosti Naxiçevanskoy SSR. NaxiçevanДревности ,Ordubad, Ordubadskiy uyezd. Xaraba-Qilan. Ottelnıy ottisk iz 4-qo vıpuska İzvestiii Azkomstaris»a. Baku 1928Ю s.87- 125



abidələr, maddi-mədəniyyət nümunələri haqqında 11 səhifəlik məlumat verilmişdir.

Materiallar içərisində diqqət çəkən maraqlı faktlardan biri də kəndin etnik tərkibi haqqındadır. Qeyd olunur ki, Yurtçu, Qarabağlar və Şahtaxtı kəndlərinin ortalığının, xüsusən Govurqalanın ətrafının Araz çayı kənarına kimi keçmiş əsrlərə aid böyük bir şəhər və abadanlıq olduğu xarabalıqlardan açıqcasına bəllidir. Ehtimal etmək olar ki, bu orta əsrlər dövrünə aid «Iydəli pir» adlanan yaşayış yerinə işarədir. Bu yer Govurqala ilə müasir kənd arasında əhalinin müəyyən zaman kəsiyində yaşadığı yerdir. Kənddəki tayfalar tunbullu, hərzənli və kəngərli adlanır.

Protokollarda qeyd olunub ki, Şərur dairəsinin xalqı əsasən bayat, kəngərlilər və yəftənilərdən (?) ibarətdir.

Bunların ortalığında çalışmaq adəti müxtəlifdir. Bayatlar yalnız günortaya qədər çalışıb, bundan sonra işləməzlər. Yəftənilər isə, sübh tezdən işə başlayıb axşama kimi işləyərlər. Bunların bir fərqi də ondan ibarətdir ki, yəftənilər hər gün tezdən çörəklərini yapıb, işdə təzə çörək yeyərlər. Bayatlar təzə çörək yeməz, çörəyi axşam günbatanda yapar, səhərisi yeyərlər. Baş Noraşen dairəsində Alışar, Xələc, Keştaz, Ərəb Yengicə, Qarahəsənli kimi bir neçə kəndin əhalisi bayatlar, qalmışları yəftənidir. Qarabağlar, Yurtçu, Qıvraq, Xıncab, Şahtaxtı və bu kimi bir neçə kəndin əhalisi k ə n g ə r l i adlanır.[3]

Şahtaxtı abidələr kompleksinin öyrənilməsi XX əsrin 30-cu illərindən tədqiqatçıların diqqətini çəkmişdir. Ilk dəfə 1934-cü ildə SSRI EA-nın Azərbaycan filialının əməkdaşı Ə.Ələkbərovu Şahtaxtı Govurqalasının və ətraf ərazilərin arxeoloji tədqiqi üçün Naxçıvana ezam edilmişdir. 1936-cı ildə «Azərbaycanı öyrənən və tədqiq edən cəmiyyət» tərəfindən burada kəşviyyat xarakterli arxeoloji tədqiqat işləri aparılmışdır.

Bu tədqiqat işlərinə tanınmış arxeoloq və etnoqraf Ə.K.Ələkbərov rəhbərlik etmişdir. O, indiki Şahtaxtı kəndinin şimal və şimal-şərq

[3] F.X.Xəlilov.Naxçıvanı öyrənən elmi cəmiyyət.. Bakı, Nurlan,2005, s. 69-70.

hissələrini əhatə edən qədim qalada - Govurqalada və onun ətrafındakı qədim nekropolda qazıntı işləri aparmış və bu nəticəyə gəlmişdir ki, Şahtaxtı ərazisində hələ e. ə. II minilliyin ikinci yarısından məskunlaşmış qədim tayfalar şəhərsalma mədəniyyətini mənimsəmiş və qala ərazisində şəhər tipli yaşayış məskəni yaratmışlar.

Tanınmış arxeoloq, eyni zamanda qədim qalanın şimal-şərq hissəsindəki nekropolda bir neçə daş qutu qəbirləri tədqiq edərək, maraqlı elmi nəticələrə nail olmuşdur. Bu qəbirlərdən qədim şəhərsalma mədəniyyətinə məxsus polixrom boyalı qablar, yüksək sənətkarlıqla hazırlanmış boz qara rəngli inkrustasiyalı keramika nümunələri və xeyli sayda tunc əşyalar əldə etmişdir. Onun qəbirdən əldə etdiyi iri həcmli polixrom boyalı küpə tipli keramika məmulatı sənətkarlıq baxımından, kompozisiyasına və hazırlanma texnologiyasına görə unikal tapıntıdır. Qabın üzəri sarı və qırmızı rənglərlə örtülmüş, zoomorf təsvirlərlə bəzədilmişdir. Qabın üzərindəki qara və qırmızı rənglərlə işlənmiş quş, at, keçi şəkilləri ərazidə nəqqaşlıq və təsviri sənətin yüksək səviyyədə inkişaf etməsindən xəbər verir. Qeyd edək ki, qabın üzərindəki geometrik omamentasiya bu zoomorf təsvirləri əhatələyərək, qabın ümumi kompozisiyasını tamamlayır. Hazırda, Azərbaycan Tarix Muzeyində saxlanılan bu maddi-mədəniyyət nümunəsi qədim Şahtaxtı sələflərimizin ərazidə yüksək mədəniyyətindən xəbər verir.

Bu cür maddi-mədəniyyət nümunələri göstərir ki, artıq e.ə. II minillikdə ərazidə məskunlaşmış qədim tayfalar arasında sənətkarlıq adi ev kustarlığı səviyyəsində olmamış, sənətkarlıq müstəqil bir sahə kimi fəaliyyət göstərmiş, qədim tayfaların məişət və təsərrüfat həyatlarında olan tələbatı ödəyəcək bir sahə olmuşdur. Istehsal olunan qablar qonşu tayfalarla iqtisadi, mədəni və ticarət əlaqələrində böyük rol oynamışdır. Sonradan, bu əlaqələr dil qohumluğu olan tayfalar arasında dini-ideoloji dünyagörüşlərinin vahid platformada formalaşmasına təkan vermiş, cinsi xarakter daşıyan əlaqələr ekzoqam nigahın yaranmasına və vahid etnosun formalaşmasına təkan vermişdir.



Bütün bunlar, Şahtaxtı keramikasının qısa müddətdə qonşu tayfalar vasitəsi ilə uzaq ərazilərə daşınmasına təkan vermiş və Şahtaxtı sənətkarlarının yaratdığı keramika nümunələri Yaxın Şərq ərazilərinə yayılmışdır. Şahtaxtı sənətkarlığının yüksək inkişafı şəhərsalma mədəniyyətinin tərəqqisinə səbəb olmuşdur. Qarşılıqlı iqtisadi-mədəni əlaqələr, digər sənətkarlıq sahələrinin inkişafına da zəmin yaratmaqla, ərazidə tayfa ittfaqlarının formalaşmasına təkan vermişdir

Məlum məsələdir ki, Şahtaxtı ərazizində II minillikdə yaranmış,maddi-mədəni inkişaf birdən-birə yaranmamışdır. Onun kökü lap qədimlərdən qoyulmuş, uzun tarixi dövrlər keçəndən sonra, son tunc-erkən dəmir dövründə yüksək şəhər mədəniyyəti yaratmışlar. Şahtaxtı abidələr kompleksində son dövrlərdən geniş şəkildə aparılan arxeoloji qazıntılarla ərazinin daha qədim dövrlərə aid olmasının təsdiqlənməsi, qeyd etdiklərimizi əyani şəkildə əsaslandırır. Son vaxtlar, xüsusilə də 2009-cu ildə aparılan qazıntılarından sonra, tam aydın oldu ki, qədim Şahtaxtılılar, ərazidə eneolit dövründən yaşamağa başlamış və bu gün də həmin ərazidə yaşayırlar. Ərazidə insanların yaşamaları üçün hər cür lazımi şəraitin olması, sənətkarlığın inkişafına lazım olan xammal ehtiyatının zənginliyi, qədim tayfaların heç bir çətinliyə və təbii fəlakətə baxmayaraq burada yaşamalarına səbəb olmuşdur. Tarixi eranın bütün dövrlərində ərazidə intensiv yaşayış bütün bu söylənən fikirləri təsdiqləyir.

Şahtaxtı abidələri haqqında yeni məlumatlar və tarixi materiallara 1968-71-ci illərdə aparılmış arxeoloji qazıntılarla davam etdirilmişdir. Bu dövrdə aparılan arxeoloji qazıntılarla bir daha sübut olundu ki, Şahtaxtı ərazisində qədim dövrlərə aid qala və böyük bir ərazini əhatə edən nekropol vardır. Ancaq, bütün bu tədqiqatlar zamanı ərazidə mükəmməl qazıntılar aparılmamış və ərazidəki yaşayış yerinin stratoqrafiyası müəyyən edilməmişdir. Bu da bu günkü tədqiqatlardan fərqli olaraq, abidənin uzun müddət son tunc və dəmir dövrü abidəsi kimi tanınmasına şərait yaratmış və qədim sələflərimiz olan Şahtaxtı tayalarının məişət və təsərrüfat

həyatlarının, dini-ideolji dünyagörüşlərinin, dəfn adətlərinin öyrənilməsində çətinlik yaratmışdır.

Şahtaxtı yaşayış yeri Şahtaxtı kəndinin şimalında hündür təpə üzərində yerləşməklə, şərqdən quru çay vadisinin mənsəbi ilə Araz çayına, mənbəyi isə Qarabağlar kəndi yaxınlığında Kiçik Qafqaz dağlarının Dərələyəz silsiləsindən başlayan Asnı çayına birləşir. Ehtimal etmək olar ki, lap qədimlərdə məhz burada, qalanın qərb hissəsində Asnı çayı Araz çayına qovuşaraq böyük bir vadi yaratmışdır. İnsanların yaşaması üçün hər cür şəraiti olan belə bir ərazi insanların marağına səbəb olmuş və bu səbəbdən də ərazidə məskunlaşmışlar. Ərazidə son zamanlar aparılan arxeoloji tədqiqatlar, kəşviyyat işləri və araşdırmalar bu fikirlərimizin gerçəkləşməsinə əsas verir.

Şahtaxtı yaşayış yeri 3 hektardan artıq bir ərazini əhatə etməklə, qala divarları və bürclərlə əhatələnmişdir. Narınqala adlanan mərkəzi hissəsi bir hektardan artıq olub, ikinci bir müdafiə divarı ilə əhatələnmişdir. Tunc və dəmir dövrlərində Naxçıvan ərazisində çox təsadüf olunan bu tip siklopik tikililəri şəhərsalma mədəniyyətinin ilkin formaları hesab etmək olar. Doğrudur, həmin dövr üçün vahid arxitektura və memarlıq üslubunun olmamasına baxmayaraq salınmış bu tip şəhərsalma mədəniyatində ərazinin relyefi ön planda olmuşdur. Qalaların quruluşlarında yerli tayfaların xüsusi rahatlığı da nəzərə alınırdı.

Müdafiə istehkamı hesab olunan qalanın divarı və mədəni təbəqəsi min illər keçdikcə güclü dağıntılara məruz qalmışdır. Belə möhməşəm tikililərin dağılmasında ərazidə baş vermiş bir sıra təbii fəlakətlərində böyük təsiri olmuşdur. Digər tərəfdən yerli əhalidə uzun illər abidəyə laqeyd münasibət bəsləmiş, qala divarlarını tikinti materialı kimi söküb aparmüş, xalqın qan yaddaşını özündə saxlayan abidəyə sağalmaz və bərpaolunmaz ziyan vurmuşlar. 15 ha çox bir ərazini əhatə edən qədim nekropollar da bu baxımsızlığın, biganəliyin qurbanı çlaraq tamamilə dağıdılmışdır.

Ərazidəki nekropollardakı qəbir abidələrinin əksəriyyəti daş qutu qəbirlərdir. Bu abidələr 4 künc formalı olub, divarları şaquli istiqamətdə iri sal daşlarla əhatələnmiş, üzərləri sal daşlarla örtülmüşdür. Qəbirlər müxtəlif ölçülü olub, uzunluğu 2-3 metr, eni 0,7-1 metr arası dəyişir. Bəzi qəbirlərin ətrafı konsentrik formalı daşlarla əhatələnmiş, qəbirlərin ətrafında kromlexlər yaradılmışdır. Bu tip kromlexlərin diametrləri 10 metrdən 30-metrə qədər olub, təqribən tam dairəvi formadadır.

Şahtaxtı nekropolunda fərqli dəfn adətləri ilə yanaşı diqqət çəkən digər faktlar da vaprdır. Belə ki, bəzi daş qutu qəbirlər bir xətt üzrə salınmışdır. Bu cür qəbir quruluşuna, Şahtaxtıdan başqa digər abidələrdə rast gəlinmiəmişdir. Qeyd edək ki, Şahtaxtı nekropollarının ümumi sahəsi 15 hektardan artıq ərazini əhatə edir.

Şahtaxtı ərazisində fundamental qazıntı işlərinə 1979-cu ildən başlanmışdır. yaşayış yerində yenidən davam etdirilmişdir. Bu qazıntılar zamam Şahtaxtı qalasının 22 metr uzunluğunda, 2m. enində,1,8m hündürlüyündə aşkar edilən şimal divarının qalıqları, sonralar yerli əhali tərəfindən dağıdılmışdır. Halbuki bu divar qalıqlarım izləməklə qalanın arxitektura baxımından tamamilə bərpa etmək mümkin idi.

Baş vermiş siyasi hadisələrlə bağlı Azərbaycanın digər abidələri kimi, Şahtaxtı arxeoloji abidələr kompleksində də qazıntılara uzun müddət ara verilmiş, bunun nəticəsində, baxımsızlıq və laqeydsizlik üzündən qədim yaşayış yeri qismən, nekropollar isə, demək olar ki,tamamilə dağıdılmışdır.

Ərazidə 2007-ci ildən etibarən yenidən başlanan geniş və fundamental qazıntı işlərinin nəticəsi olaraq, qədim Şaxtaxtı haqqında çox böyük tarixi əhəmiyyətli yeniliklər ortaya çıxdı. Belə ki, son zamanlara qədər son tunc-ilk dəmir dövrü abidəsi kimi tanınan Şahtaxtı arxeoloji kompleksinin daha qədm dövrlərə aid olması müəyyənləşdirildi. Müəyyən səbəblər üzündən qədim yaşayış yerinin stratiqrafiyasının sonadək izlənilməsinin mümkün olmamasına baxmayaraq, insanların eneolit dövründən məskunlaşaraq, bu günə kimi ərazidə intensiv həyat tərzi yaşamaları sübuta yetirilmişdir. Bu cəhətdən, Şahtaxtı arxeoloji abidələr kompleksini nəinki Azərbaycanın,

Yaxın Şərq və Cənubi Qafqazın ən unikal, ən möhtəşəm abidələrindən biri və bəlkə də birincisi hesab etmək olar.



*Əkbər Bədəlov*
**(əbədəlov59@mail.ru)**
**AMEA Arxeologiya və Etnoqrafiya Institutu**
**Antik dövr arxeologiyası şöbəsi**

## MEYDANTƏPƏDƏ ARXEOLOJI TƏDQIQATLAR

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Antik Naxçıvan arxeoloji ekspedisiyasının Meydantəpə yaşayış yerində apardığı tədqiqatlar Azərbaycanın qədim dövlətlərindən olan Atropatenanın tarixini, iqtisadiyyatını və mədəniyyətini öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir. Eyni zamanda Naxçıvanın antik tarixinin, hələlik, öyrənilməmiş problemləri çoxdur və əldə olunan arxeoloji tapıntılar bu problemlərin bir çoxunun həllinə kömək edəcəkdir. Meydantəpə olduqca əlverişli coğrafi mövqedə - Naxçıvan çayın sol sahilində, "Cin dərəsinin" Naxçıvançayla birləşdiyi yerdə, hündürlüyü 8-10 m olan (Naxçıvançayın səviyyəsindən) yastı təpənin üzərində yerləşmişdir. Yaşayış yerinin ərazisi 2 ha-dan artıqdır, mədəni təbəqənin qalınlığı 2,0-2,5 m-dir. Arxeoloji qazıntılar zamanı yaşayış yerinin şimal tərəfində uzunluğu 31 m. Eni 1,5 m olan müdafiə divarı aşkar edildi. Müdafiə divarı kontforslarla təmin olunmuşdur. Kontrforsların uzunluğu 2m. Eni isə 60 sm-dir. Müdafiə divarı yaşayış yerini hər tərəfdən əhatə etmişdir.

2013-cü ildə aparılan arxeoloji qazıntılar nəticəsində yaşayış yerində ilk dəfə olaraq sənətkarlıq emalatxanası aşkar edildi. Əvvəlki illərdə Meydantəpədə aparılmış arxeoloji qazıntı işləri nəticəsində qala divarı ilə paralel bir neçə yaşayış evinin divar qalıqları aşkar edilmişdi. Həmin yaşayış evlərinin əsas tikililəri narınqalanın içərisinə doğru davam edirdi. Ona görə də antik dövrə aid yaşayış evi kompleksini tam tədqiq etmək, tikililərin memarlıq üslubunu və təyinatını müəyyən etmək üçün qazıntı sahəsini şimal müdafiə divarmdan cənuba tərəf davam etdirməyi qərara aldıq. Yeni götürülən qazıntı sahəsinin eni 11 m, uzunluğöu 21,2 m-dir. Qazıntı sahəsinin ölçülərinin standart olmaması abidənin üstündə, keçən

əsrdə müxtəlif obyektlərin salınması ilə bağlıdır. Yuxarıda Meydantəpə yaşayış yerinin düz ortasından salınan Naxçıvan-Şahbuz avtomobil yolunun abidənin mərkəzi hissəsinin dağıdılmasına səbəb olduğunu qeyd etmişdik. Bundan başqa abidənin müxtəlif yerlərində bəzi obyektlər də salınmışdır ki, onlar da abidənin qismən dağılmasına səbəb olmuşdur. Bu obyektlərdən biri yüksək gərginlikli elektrik dirəyi, digəri isə meteroloqların qurduğu ötürücü aparatıdır. Yuxarıda qeyd olunan obyektlər 2013-cü il qazıntılarının düzgün kvadratlar üzrə aparılmasına mane olduğundan sahə daha çox cənub-şərqə tərəf genişləndirildi.

Qazıntı sahəsinin cənub tərəfində, 40 sm dərinlikdə eni 1,5 m olan divar aşkar edildi. Divar çay daşları və palçıqla (gil məhlulu ilə) işlənmişdir. Uzunluğu 16,4 m-dir. Bu divar şimal müdafiə divarına paralel yerləşir və onları bir-birilə eni 50 sm olan arkəsmə divarlar birləşdirir (Şəkil 1). Keçən ilki qazıntı mövsümündə aşkar etdiyimiz otaqlar da bu arakəsmələrin arasındadır. Otaqların divarları 1,3-1,5 m hündürlüyündə salamat qalmışdır. Otaqları bir-birilə 80 sm enində qapı yerləri birləşdirir. Qərbdən birinci otağın eni 3,0 m, ikinci otağın eni 3,5 m, üçüncü otağın eni isə 5,1 m-dir. Qazıntının cənub tərəfində aşkar edilmiş, eni 1,5 m olan divar qədim bərpadan əvvəlki mədəni təbəqəyə aiddir (Şəkil 2). Qazıntı sahəsi genişləndikcə və dərinə salındıqca müxtəlif dövrlərə aid tikili qalıqlarının necə yerləşdiyini aydın şəkildə izləmək olur. Qeyd etmək lazımdır ki, qədim bərpadan əvvəlki dövrə aid tikililər daha keyfiyyətlə işlənmişdir (Şəkil 3). Qədim bərpa vaxtı əvvəlki divarlardan istifadə olunsa da onların təyinatı dəyişdirilmişdir. Analoji vəziyyət əvvəlki illərin qazıntısı zamanı da izlənmişdi. Belə ki, şimal müdafiə divarına bitişik işlənmiş tikililər aşkar olunsa da onların təyinatını müəyyən etmək mümkün olmamışdı. Bəzi tikililərin yaşayış yerinin müdafiə sistemi ilə heç bir əlaqəsi yox idi və əksinə, bu sistemi pozurdu. Belə tikililərə müdafiə divarına bitişik işlənmiş pilləkəni, maili işlənmiş kanalı və kiçik sahəli otaqları göstərmək olar.



Bu ilki qazıntılar vəziyyətə nisbətən aydınlıq gətirdi və qədim bərpadan sonrakı dövrə aid tikililərin bir-birilə əlaqədar olduğunu göstərdi.

Yuxarıda təsvir etdiyimiz, eni 1,5 m olan divarın şimal tərəfi daha çox dağıntıya məruz qalmışdır. Dağıntıuya qədim bərpadan sonrakı dövrün tikililəri səbəb olmuşdur. Burada 2,8 m uzunluğu, 1,8 m eni olan bir sahədə əhəg aşkar edildi (Şəkil 4). Əhəng qat-qat (11 qat) tökülmüş vəziyyətdədir. Əhəng qatlarının arasında 3-5 sm qalınlığında torpaq qatları vardır ki, bu da qatların eyni vaxtda deyil, müəyyən zaman keçdikdən sonra əmələ gəldiyini göstərir (Şəlik 5). Əgər, əhəng buraya saxlanmaq üçün tökülsəydi, ətrafı və üstü bağlı, yəni balaca otaq kimi bir yer olmalıydı. Lakin, əhəng qatlarının dağınıq şəkildə aşkar edilməsi, burada vaxtilə istehsalla bağlı hansısa bir prosesin getdiyini söyləməyə əsas verir. Əhəng qatlarından 1,2 m cənub tərəfdə, 50-55 sm dərinlikdə, 30X40 sm ölçülərində bir tunel aşkar edildi. Tunel, cənub-şərqə tərəf 3m uzanır və qazıntı sahəsindən kənara çıxır. Bu tuneldə əhəng qalıqları aşkar edilmədiyindən onun, yuxarıda təsvir etdiyimiz əhəng qatları ilə əlaqəsinin olub-olmadığını söyləmək çətindir. Lakin, onların eyni mədəni təbəqədə yerləşdiklərini və eyni dövrə aid olmaları faktını da nəzərə almaq lazımdır.

Əhəng qatlarından 1,3 m cənub-qərb tərəfdə divar qalığı aşkar edildi. Bu divar şərqə tərəf 2,5 m uzunluğunda davam edir və kəsilir. Keçən əsrdə texnika vasitəsilə dağıdıldığ aydın görünür. Divarın eni 1,1 m-dir. Qərb tərəfi şimala tərəf 112 sm uzunluğunda və 105 sm enində, cənub tərəfi isə 40 sm uzunluğunda və 60 sm enində salamat qalmışdır. Bu divar əhəng qatları və tunellə əlaqəsi olmayan hansısa bir tikilinin qalığıdır.

Qazıntı cənuba tərəf davam etdirilərkən qala divarına paralel üçüncü bir divar aşkar edildi. Bu divar da əvvəl təsvir etdiyimiz divarlar kimi çay daşı və palçıqla işlənmişdir. Uzunluğu 8,1 m-dir, eni hər yerdə eyni deyil. Belə ki, qərb tərəfdə eni 70 sm, şərq tərəfdə isə 120 sm-dir. Orta hissəsindən yuxarıda təsvir etdiyimiz tunel keçir və bu hissə dağıdılmışdır. Tunelin keçdiyi yerdə divarın enində

kəskin dəyişiklik (70 – 120 sm) vardır. Ehtimal ki, burada qapı yeri omuşdur və qapının sağ və sol tərəflərində divar tələbata uyğun olaraq müxtəlif endə işlənmişdir. Divar şimal tərəfdə uzunluğu 70 sm, eni 80 sm olan başqa bir divarla birləşir. Bu divar qalığı da əhəng qatları və tuneldən əvvəlki dövrə aiddir, lakin, həmin divardan təkrar istifadə olunmuşdur.

Qazıntı sahəsinin şərq tərəfi təmizlənərkən yuxarıda təsvir etdiyimiz divarların arasında maraqlı tapıntılar aşkar olundu. Burada 18 kv. m sahəsi olan otağın içərisində, 50-60 sm dərinlikdə qalın divarlı, çəhrayı rəngli gil qab frqmentləri tapıldı. Fraqmentlərlə birlikdə əhəng parçaları da aşkar olunurdu. Gil qab fraqmentləri iri həcmli təsərrüfat küplərinə aiddir. Otağın içərisi təmizlənərkən 70 sm dərinlikdə cərgə ilə düzülmüş təsərrüfat küplərinin oturacağı və oturcağa yaxın gövdəsinin 20-25 sm hündürlükdə salamat qalmış hissələri aşkar olundu. Təsərrüfat küplərinin boğaz və ağız hissələri aşkar olunmadı. Çox güman ki, Meydantəpənin üstü sovet dönəmində buldozerlə götürülən vaxt təsərrüfat küplərinin boğaz və ağız hissələri də dağıdılmış və buldozerlə kənara kürünmüşdür. Əvvəlki qazıntılar zamanı Meydantəpənin hər yerindən təsərrüfat küplərinin qalıqları aşkar edilmişdir ki, onların da bəziləri bərpa olunmuşdur. Bu küplərin hündürlüyü 150-170 sm-dir. Maraqlıdır ki, cərgə ilə aşkar edilmiş təsərrüfat küplərinin hamısının oturacaq hissələri sındıqdan sonra əhənglə təmir olunmuşdur. Otaqda bir-birindən eyni məsafədə 6 təsərrüfat küpü düzülmüşdür. Maraqlıdır ki, təsərrüfat küplərindən bəziləri nə vaxtsa buradan çıxarılıb aparılmışdır ki, onların da oturacaqlarının yeri aydın izlənir. Hündürlüyü 1,5-1,7 m olan təsərrüfat küplərindən antik dövrdə, əsasən taxıl saxlamaq üçün istifadə olunmuşdur. Onların əhənglə təmir olunması bu fikri bir daha təsdiq edir. Təsərrüfat küplərinin bir otaqda cərgə ilə düzülməsi bu otağın anbar olmasını ehtimal etməyə əsas verir. Lakin, bu küplərin çoxlu əhənglə bir yerdə aşkar olunması kompleksin bu hissəsində, bir neçə otaqdan ibarət, təsərrüfat küplərinin, ümumiyyətlə, keramikanın təmiri ilə məşğul olan emalatxananın olmasını söyləməyə əsas verir.



Təsərrüfat küpləri, yuxarıda təsvirini verdiyimiz əhəng qatları ilə eyni səviyyədə aşkar olunmuşdur. Əhəng qatları ilə təsərrüfat küpləri olan otağı cənub tərəfdən 70 sm enində dar bir dəhliz birləşdirir. Çox güman ki, təsərrüfat küpləri ilə əhəng qatları arasında bir əlaqə olmuşdur, bəlkə də, küplərin təmirində elə həmin əhəngdən istifadə olunmuşdur.

Əvvəlki, illərin hesabatlarında dəfələrlə qeyd etdiyimiz kimiMeydantəpə dağıntıya məruz qaldıqdan sonra birdəfəlik tərk olunmamış, əhali bərpa işləri apararaq bir müddət burada yaşamaqda davcam etmişdir. Həmin dövrə aid mis məftillə tmir edilmiş çoxlu süfrə qabları, əhənglə təmir edilmiş təsərrüfat küpləri aşkar olunmuşdur. Tikintidə isə bərpa edilən və yeni tikilən divarlar əvvəlki dövrün divarlarından xeyli zəif olmuşdur. Bütün bu səbəblərdən təsərrüfat küplərinin buraya təmir məqsədilə gətirildiyini söyləmək olar. Əks təqdirdə, əgər bura taxıl anbarı olsaydı təsərrüfat küplərindən heç olmazsa biri və ya ikisi salamt qalmış olardı və az da olsa taxıl qalıqları tapılardı.

Əvvəlki illərin arxeoloji qazıntıları zamanı Meydantəpə yaşayış yerinin şimal müdafiə divarında maraqlı quruluşa malik bir tikilinin aşkar olunduğunu və onun müdafiə sistemi ilə heç bir əlaqəsinin olmadığını qeyd etmişdik. Həmin tikili əhəng qatları ilə eyni dövrə aiddir. Tikili qala divarının yanında və içərisində yerləşdiyindən, divar dağılmasın deyə içərisini təmizləməmişdik. 2013-cü ildə tikilinin içərisi və ətrafı təmizlənərkən onun maraqlı bir plan quruluşuna malik olduğu müəyyən edildi. Əvvəlcə elə görünürdü ki, daş döşənmiş kanal müdafiə divarının arxasında – cənub tərəfdə yerləşən otağın içərisinə davam edir. Lakin otağın içərisi təmizlənərkən tikilinin bu otağın içərisinə keçmədiyi və müdafiə divarının düz ortası ilə şaquli vəziyyətdə yuxarı qalxdığı aydın oldu. 30-40 sm yuxarı qalxdıqdan sonra ikiyə ayrılır. Bu tikilinin quruluşu aşağıdakı kimidir. Tikilinin quruluşu aşağıdakı kimidir: Şimal tərəfi 30 sm eni olan daş döşənmiş. Sağ və sol tərəfi 50 sm hündürlüyündə divar olan kanal kimidir. Kanal madafiə divarına yaxınlaşdıqca tədricən genişlənir və divara birləşən yerdə eni 90 sm-ə çatır,

hündürlüyü 60 sm-dir. Müdafiə divarının içərisinə daxil olduqdan sonra şaquli sürətdə yuxarı qalxır və divarın üstündə iki deşik şəklində görünür. Deşiklər bir-birindən 50 sm aralıdır, onların arasında eni 30 sm olan divar vardır. Simmetrik şəkildə yerləşən deşiklərin ölçülərində az fərq vardır. Belə ki, qərb tərəfdəki deşiyin ölçüləri 70X55 sm, şərq tərəfdəki deşiyin ölçüləri isə 60X50 sm-dir (Şəkil 8). Hər iki deşik 90 sm dərinlikdən sonra yuxarıda təsvir etdiyimiz kanalla birləşir. Bu deşikləri və ya quyuların ağızları əvvəldə qeyd etdiyimiz əhəng qatları ilə eyni səviyyədədir. Lakin, qeyd etmək lazımdır ki, deşiklərin içərisində və yanında əhəng qalıqları aşkar edilmədi. İki şaquli vəziyyətdə yerləşmiş quyunun maili vəziyyətdə, uzunluğu 2,8 m olan maili bir kanalla birləşməsi vaxtilə burada hansısa bir istehsal ocağının olduğunu söyləməyə əsas verir. Lakin, əldə edilən tapıntılarla, hələlik, elə bir dəqiq nəticəyə gəlmək mümkün deyil.

Arxeoloji qazıntılarda qazıntılarda aşkar etdiyimiz əhəng qatı da, təsərrüfat küplərinin qalıqları da, təsvir etdiyimiz tikili də antik dövrün son mərhələsinə - b. e. Ilk əsirlərinə aiddir. Bu mədəni təbəqənin qalınlığı qazıntının mərkəzi hissəsində 1,0 m, ətraflarda isə 50-70 sm-dir. Qeyd etmək lazımdır ki, mədəni təbəqənin özü bütünlüklə dağıntıya məruz qalmışdır. Belə ki, Meydantəpənin üst qatı nə vaxtsa buldozerlə götürüldüyündən son antik dövrə aid mədəni təbəqənin ilkin qalınlığını müəyyən etmək mümkün deyil. Yalnız, yuxarıda təsvir etdiyimiz basdırılmış təsərrüfat küplərinə görə bu mədəni təbəqənin qalınlığının 2m-ə yaxın olduğunu ehtimal etmək olar. Küplərin qalınlığı 1,5-1,7 m olmuşdur. Qazıntı zamanı onların çiyindən aşağı hissəsi – 1,1-1,2 m hündürlüyündə aşkar edilmişdir. Bu təqribi hesablamadan mədəni təbəqənin üst hissəsinin 50 sm qalınlığında buldozerlə götürüldüyü aydın olur. Təəssüf ki, bu səbəbdəndə nə yuxarıda təsvir etdiyimiz iki deşikli tikilinin yuxarı (ağız) hissəsinin, nə də əhəng qatları tökülmüş yerin yuxarı hissəsinin necə tamamlandığını müəyyən etmək mümkün olmadı. Əldə olunan tapıntılar və digər məlumatlar Meydantəpənin bu



hissəsində hansısa bir istehsal sahəsinin bə ya emalatxananın olduğunu söyləməyə əsas verir.

Meydantəpə yaşayış yerində aparılmış Arxeoloji qazıntıların əsas nəticələrindən biri də dulusçuluq emalatxanasının və istehsal sahəsinə aid tikilinin aşkar edilməsi oldu. Müəyyən edildi ki, emalatxanada iri həcmli təsərrüfat küplərinin təmiri ilə məşğul olmuşlar. Eyni zamanda müəyyən edildi ki, Meydantəpənin son dövründə əvvəlki dövrə aid bəzi tikililərin divarlarından istifadə olunmuş, lakin onların təyinatı dəyişdirilmişdir. Bu ilk növbədə yaşayış yerinin şimal müdafiə divarına aiddir. Meydantəpədə hər il aparılan arxeoloji qazıntılar Naxçıvamn antik dövr mədəniyyətinə və təsərrüfat həyatına aid yeni faktların aşkar edilməsi ilə nəticələnir.

Aparılan arxeoloji qazıntılar Meydantəpənin Oğlanqala və Naxçıvanın digər dəmir dövrü abidələrinin memarlıq ənənələrini qoruyub saxladığını göstərdi. Abidədə bir neçə tikinti dövrünün aşkar edilməsi, qədim bərpa izləri və mədəni təbəqələrin stratiqrafiyası, antik dövrdə yaşayış yerlərinin dağıdılması ilə nəticələnən vaxtaşırı müharibələrin olduğunu söyləməyə əsas verir.

Müasir tikililər Naxçıvan şəhərinin qədim dövrlərini, xüsusən antik dövrünü öyrənməyə imkan vermir. Bu baxımdan şəhərdən çox da uzaqda yerləşməyən Meydantəpə yaşayış yerinin arxeoloji tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Meydantəpə anti naxçıvanın forpostlarından biri olmuşdur. Ona görə də bu tip abidələrin tədqiqi Naxçıvan şəhərinin tarixi və mədəniyyəti, təsərrüfat həyatı və sənətkarlığı haqqında müəyyən fikirlər söyləməyə imkan verir.

**Dos.Tofiq Nəcəfli AMEA-nın**
**A.A.Bakıxanov adına**
**Tarix İnstitutunun elmi işlər üzrə**
**direktor müavini**

## NAXÇIVAN DİYARI XV-XVII ƏSRLƏRDƏ

Naxçıvan XIV əsrin sonunda Cəlairi və Qaraqoyunlu əmirləri arasındakı dağıdıcı müharibələrdən zərər çəkmiş, Qızıl Orda xanı Toxtamışın və Əmir Teymurun yürüşlərinin ağır təsirinə məruz qalmışdı. Naxçıvan bölgəsi Teymur ordusu tərəfindən tutulsa da, yalnız Cəlairi sultanı Əhmədin xəzinəsinin mühafizə olunduğu Əlincə qalası düşmənə ciddi müqavimət göstərmişdi. XIV əsrin sonu, XV əsrin başlanğıcında Əlincə qalasımn alınmaz istehkama çevrilib uzun müddət Teymura qarşı müqavimət göstərməsi onun Azərbaycan xalqının qəhrəmanlıq tarixindəki mövqeyinin parlaq səhifəsidir. Əlincə qalası 1401-ci ildə 14 il ciddi müdafiə olunduqdan sonra daxili feodal çəkişmələri nəticəsində Teymur ordusu tərəfindən ələ keçirildi [15, 33; 20,174]. Qalanın hakimi Seydi Əhməd Oğulşəni Bağdadda Teymurun əmri ilə edam olundu. Əmir Teymur Naxçıvana gəlib Əlincə qalasının başına qalxaraq onu seyr etmişdi. Mənbənin verdiyi məlumata görə, qalanın əzəməti Teymuru heyrətə salmışdı [24, 66; 20,124].

XV əsrin başlanğıcında Əmir Teymur Azərbaycanı tərk etdi və orada zəbt etdiyi ərazilərin idarəsini nəvəsi əmirzadə Ömərə tapşırdı. Teymurun 1405-ci ildə ölümü onun varisləri arasında hakimiyyət uğrunda mübarizəyə təkan verdi. Bu mübarizəyə Cəlairi Sultan Əhmədin, Şirvanşah İbrahimin, Qaraqoyunlu Qara Yusifin və digər yerli hakimlərin qoşulması siyasi vəziyyəti daha da gərginləşdirdi. Həsən bəy Rumlu yazır ki, «Əmir Teymurun vəfatı ilə əlaqədar olaraq Teymurilərin nüfuz dairəsinə daxil olan yerlərdə, o cümlədən Azərbaycanda da qarışıqlıq yarandı. Mirzə Miranşaha xəbər verdilər ki, gürcülər Naxçıvana gəlib həmin diyarı qarət etmişlər» [8,37]. Bu fakt bir daha göstərir ki, Naxçıvan bölgəsi Teymuri şahzadələri arasında hakimiyyət uğrunda ciddi mübarizə nəticəsində yadelli hücumlarından müdafiəsiz qalmış və qarət olunmuşdur. Bu dövrdə Əlincə qalası Qazi İmadəddin tərəfindən idarə olunmuşdu. 1406-cı ilin yayında Sultan Əhməd Cəlairi tərəfindən Təbriz səhəri Sultan Əhməd Cəlairi tərəfindən tutulan zaman Qazi İmadəddin Əlincə qalasından onun xidmətinə gəlmişdi. «Sultan ondan soruşmuşdu: Sən nəyə görə Mirzə Ömərin sözü ilə Əlincə qalasını viran etdin? Qazi cavabında demişdi: Müxaliflər (düşmənlər-T.N.) Azərbaycan şəhərlərini ələ keçirmişdilər. Əlincə də möhkəm bir qala idi, istəmədim ki, onlar həmin qalaya gəlib oranı özlərinə sığınacaq etsinlər və Əlincə onların pənah yeri olsun. Bir halda ki, məmləkət yenidən sultanın (Əhməd Cəlairinin – Ş.F.) əlinə keçmişdir, əgər fərman etsəniz gedib Əlincəni iki gün ərzində abadlaşdıraram». Bu sözlər sultanın xoşuna gəldi və o, qazini qalanın təmirinə göndərdi» [8,37-38] Mənbənin verdiyi məlumatdan aydın olur ki, 1406-cı ilin yayında Əlincə qalası və ətrafı Qazi İmadəddinin ixtiyarında olmuşdu. Mövcud siyasi vəziyyət onun bu bölgədə möhkəmlənməsinə şərait yaratdı.

Bu dövrdə Azərbaycandakı siyasi mübarizəyə Qaraqoyunlu Qara Yusif də qatıldı. O, Teymurilərə qarşı mübarizəyə başlayaraq Naxçıvanın qərbində möhkəmləndi. 1406-cı ilin 14 oktyabrında Naxçıvanın qərbində Araz çayı sahilində Qaraqoyunlu və Teymuri qoşunları qarşı-qarşıya gəldi. Qara Yusiflə Əbu Bəkr arasındakı döyüşün birinci günü tərəflərin bir-birinə ox atması ilə başa çatdı. Döyüşün ikinci günü Əbu Bəkr Araz çayını keçərək Qaraqoyunlular üzərinə hücum etsə də, geri qovuldu. Bu zaman Qara Yusif: «bizim şəxsi düşmənçiliyimiz üzündən bu qədər adam tələf olur, igidlik və bahadırlıq ikimizin qarşı-qarşıya gələrək vuruşmasındadır»-deyərək Əbu Bəkri açıq döyüşə çağırmışdı. Lakin o, bu döyüşdən imtina etmişdi. Döyüşün sonunda Teymuri ordusu məğlub olmuş və Əbu Bəkr döyüş meydanından qaçmışdı [22,73; 1,79]. Qara Yusif qazandığı bu qələbədən külli miqdarda qənimətə sahib olduğu üçün Əbu Bəkri təqib etməmiş və öz qüvvələri ilə Naxçıvana gəlmişdi. Bu zaman Təbrizdən Xoca Seyid Məhəmməd Keçəçi onun hüzuruna

gələrək Əbu Bəkrin Təbrizdəki talanları ilə bağlı məlumat vermiş və ondan Təbriz üzərinə yürüş etməyi xahiş etmişdi. Qara Yusif bu xahişə müsbət cavab vermiş, Təbrizə gəlmiş, 1408-ci il aprelin 21-də Təbriz yaxınlığında Sərdrud döyüşündə Teymuri Əbu Bəkri ikinci dəfə ağır şəkildə məğlub edərək onun atası Miranşahı öldürmüşdü. Qara Yusifin qazandığı bu zəfərin mühüm tarixi əhəmiyyəti vardı, çünki bununla da teymurilərin Azərbaycandakı ağalığına son qoyulmuş, Azərbaycandakı real hakimiyyət tamamilə qaraqoyunluların əlinə keçmişdi. 1410-cü ilin 30 avqustunda Təbriz yaxınlığında Şənbi-Qazan döyüşündə Cəlairi Sultan Əhmədi məğlub edən Qara Yusif Cəlairilər dövlətinə son qoymuş və Azərbaycan Qaraqoyunlu dövlətini yaratmışdı [18,56].

Bu dövrdə Əlincə qalası və ətrafı Qazi İmadəddinin nəzarəti altında idi. Yaranmış vəziyyətdən istifadə edən qazi qalanı möhkəmləndirərək «istila bayrağını» qaldırmışdı. Qara Yusif Əlincə qalasının ələ keçirilməsinin heç vəclə mümkün olmayacağını bilirdi. O, buna görə də, qala və ona yaxın olan yerlərin Qaziyə verilməsi barədə sənəd (nişan) yazmışdı. O, Əlincə qalasından uzaqda yerləşən bəzi yerləri isə öz oğlu İsgəndərə vermişdi [8,47].

Qazi İmadəddin Naxçıvan əyanlarından idi, ağil və bacarığına görə başqalarından seçilirdi. Onun işi yüksəlişə doğru getmiş və bütün Naxçıvan tümənini ona vermişdilər. Onun yazıb göndərdiyi hər bir barat məmnuniyyətlə yerinə yetirilirdi. O, az vaxt ərzində çoxlu sərvət toplamışdı və onun ətrafına toplaşanların sayı hər gün artırdı [8,48]. Olduqca qabiliyyətli bir insan olan Qazi əmirlik arzusuna düşmüş, bununla bağlı qardaşları ilə söhbətində «bu ətrafda yaşayan türk və türkmanları yanına toplayacağını söyləyərək» Hacı Qorçi, Cəmaləddin və Şəhriyar kimi əmirləri onların tabeliyindəki adamlarla bərabər çağıraraq qalanın bir tərəfinin mühafizəsini onlara tapşırmışdı. Bir müddət sonra onlar qazinin ən yaxın adamlarının mühüm vəzifə tutduqlarını görüb onu ortadan qaldırmağa qərar verdilər. Qazi İmadəddinin bundan xəbər tutmasına baxmayaraq o, qardaşları ilə bərabər öldürülmüş, qala ələ keçirilmiş, oranın Qaraqoyunlu İsgəndər Mirzəyə təslim edilməsinə qərar verilmişdi. Bu



məqsədlə Şəhriyar onun yanına göndərildi. Qalanı təslim alan İsgəndər Mirzə Hacı Qorçini özünə qorucu, Şəhriyarı isə divanbəyi təyin etdi və digərlərinə də yaxın adamları arasında yer verdi. «İsgəndər Mirzə Əlincə qalasının fəthi xəbərini atası Qara Yusifə bildirdi, o da oğlunun bu qala üzərindəki hakimiyyətini təsdiq etdi» [8,49; 22,77-78].

Beləliklə, Əlincə qalası və Naxçıvan bölgəsi Azərbaycan Qaraqoyunlu dövlətinin tam nəzarətinə keçdi. Cəlairilər dövlətində olduğu kimi, Qaraqoyunlular dövlətində də başlıca xəzinənin Əlincə qalasında mühafizə olunması bu bölgəyə xüsusi diqqət yetirildiyini göstərir. 1412-ci ilin dekabrında Kür çayı sahilində Qara Yusifin Şirvanşah İbrahim və müttəfiqləri ilə əsaslı döyüşündə Naxçıvan tumanından olan süvari dəstə yaxından iştirak etmiş və qələbənin əldə olunmasında mühüm rol oynamışdı [33,160; 14,97; 2,86]. Bu bir daha sübut edir ki, Naxçıvan feodalları bu dövrdə əsasən, Qaraqoyunlu dövlətinin tərəfində idilər. 1420-ci ilin 13 noyabrında Qara Yusif Teymuri hökmdarı Sultan Şahruxla döyüşə gedən zaman Ucanda ölmüş, Əmir Qaraman və Qara Yusifin xatunu Qədəm Paşa xəzinənin yerləşdiyi möhtəşəm Əlincə qalasına getmək üçün ordugahdan ayrılmışdılar [22,111]. Qaraqoyunlu İsgəndər Mirzənin Osmanlı sultanı Çələbi Mehmedə yazdığı məktubda Qara Yusifin oğlanları Şah Məhəmmədin və İspəndin atalarının ölümü ilə bağlı olaraq Naxçıvan dağlarına sığındıqları barədə məlumat verilir [6,162]. Bu zaman İspənd Mirzə Naxçıvan bölgəsini öz nəzarətində saxlayan Qaraqoyunluların ən qüvvətli tayfalarından biri olan Sə'dli tayfa əmirlərinə arxalanaraq özünü Qaraqoyunlu taxt-tacının varisi elan etmiş və Bayazid qalasındakı xəzinəni ələ keçirərək Çuxur-Səd qışlağına getmişdi [22,116-117].

1421-ci ilin martında Sultan Şahrux Qarabağdan ayrılaraq Təbrizə hərəkət edən zaman Beyləqanda xəbər tutur ki, Mirzə Ömər Şeyxin adamlarından olan Ata Bahadır türkmanlar tərəfindən tutularaq İspəndin hüzuruna aparılmışdır. Buna görə də, Fars valisi İbrahim Sultan ilə Əmir Şah Məlik qədimdən bəzi Naxçıvan və Sürməli bölgəsində yaşayan Sədli tayfasına qarşı göndərildi [22,117-118].

Həsən bəy Rumlu yazır: «İbrahim Sultan və Əmir Şahməlik 20 min suvari ilə Naxçıvan tərəfə getdilər. Bu vaxt Mirzə İsfahanın (Qara Yusifin oğlu – İspənd. müəlliflər) mülazimi fələk əzəmətli orduya gəlib ona öz isti münasibətini bildirdi. O, həzrət (yəni-Sultan Şahrux) onu mehribanlıqla yola saldı» [8,124]. Bu faktlar bir daha göstərir ki, Naxçıvan bölgəsi Sultan Şahruxun 1420-ci ildə Azərbaycana yürüşü zamanı hələ də Qaraqoyunlu əmirlərinin nəzarətində idi. Əbu Bəkr Tehranı yazır ki, «bu zaman İsgəndər Mirzə İsfahan bəyin Azərbaycanda şöhrətinin günbəgün artdığını görəndə üzünü Təbrizə tutdu və Təbrizi, Əlincə qalasını İsfahanın əlindən alıb onu Azərbaycandan çıxarmaq istədi. İsfahan bəy qaçıb Avnikə və Ərzruma getdi» [25,73] Naxçıvan bölgəsi İsgəndər Mirzənin nəzarətinə keçdi. Teymuri ordusunun Azərbaycanı tərk etməsindən sonra İsgəndər Mirzə Qaraqoyunlu taxt-tacında möhkəmləndi. Lakin, 1429-cu ilin sentyabrında Səlmas döyüşündə Sultan Şahrux İsgəndər Mirzəni məğlub etdikdən sonra Naxçıvan istiqamətində irəliləyərək Əlincə qalasına gəlmişdi. Qalada olan İsgəndərin arvadları və oğlanları o zaman Şahruxa böyük hədiyyələr göndərdikləri üçün Əlincə qalası mühasirəyə alınmamışdı [22,130; 14,97]. Buna baxmayaraq 1429-cu ilin oktyabrında Naxçıvan və Əlincə qalası Teymurilərin əlinə keçmişdi. Lakin, 1431-ci ildə həmin ərazilər yenidən İsgəndərin nəzarəti altına düşmüşdü.

Dövrün mənbəyinin verdiyi məlumata görə, «1435-ci ildə qış qurtarıb soyuqlar çəkiləndə Şahrux cənub qışlaqlarından köçüb Azərbaycana gəldi, Sultaniyyə yolu ilə köç edə-edə Təbrizə daxil oldu, bütün Azərbaycan şəhərlərini öz ixtiyarına aldı, vilayətlərə öz darğa və hakimlərini təyin etdi, İsgəndərin adamlarının mühafizə etdiyi Əlincə qalasını mühasirəyə aldı» [25,79].

1436-cı ilin yazında Teymuri Şahrux Azərbaycanı tərk etdiyi zaman Əlincə qalası İsgəndərin oğlu Şah Qubadın ixtiyarına keçdi. Şahrux Azərbaycanda Qaraqoyunluların hakimiyyətini aradan qaldırmağa daha qadir olmadığını anlamışdı. Buna görə də o, Qara Yusifin oğulları arasında gedən rəqabət və düşmənçilikdən istifadə etməyi münasib bildi. Qeyd etmək lazımdır ki, Şahrux Qarabağı tərk



edən zaman Azərbaycan hökmdarlığını Cahanşaha tapşırmışdı. Bununla da İsgəndərlə qardaşı Cahanşah arasında kəskin mübarizə başladı. Əbu Bəkr Tehrani yazır ki, «İsgəndərin orduya və əhaliyə etdiyi zülm nəticəsində ona nifrət edən Azərbaycan qalalarının başçıları Əlincə qalasından başqa bütün digər qalaları Cahanşah Mirzəyə verdilər» [25,93]. Amma o zaman Əlincə qalası və Naxçıvan İsgəndərə sadiq qüvvələrin nəzarətində qalmışdı. 1438-cı il baharın əvvəllərində «İsgəndər əzəmətli əmirləri ilə Çuxur-Səd və Sürməli qışlaqlarından çıxıb Təbriz istiqamətində hərəkət etdi. Onun qardaşı Cahanşah da Qızılağac qışlaqlarından ayrılıb Ərdəbilə yollandı. O, Əmir Bayazid Bəstami və bəzi Şirvan əmirlərilə birlikdə Təbrizə yollandı, Mərənd yaxınlığında dayandı. Mirzə İsgəndər də onunla döyüşmək üçün hərəkət edib. Sufiyanın Həft Çeşmə adlı yerində dayandı». Döyüş ərəfəsində «İsgəndərin yolunda çox zəhmətlər çəkən və heç bir mükafat görməyən nökərlər ondan naümüd oldular. Onun dövlətinin ulduzunu sönmüş, Cahanşah Mirzənin cah-cəlalını artmış gördülər. Döyüş səfləri bir-birilə qarşılaşanda İsgəndərin qoşunu Cahanşaha qoşulmağı qərara aldı. Onun əyanlarından Piri bəy Qaramanlı bu vaxt ondan üz döndərib Cahanşahın dərgahına üz tutdu. İsgəndər bundan çox həyəcanlandı və bu zaman ona necə bədbəxtlik üz verdiyini anladı, atını minib Əlincə qalasına gəldi. Xəzinəsi, arvadları, övladlarından bəziləri bu qalada idilər. Qardaşı Cahanşah Mirzənin qoşunu isə səmanın qəzavü-qədəri və amansız bəla kimi o qalanı mühasirəyə aldı» [25,90-91; 8,228-229]. İsgəndər Əlincə qalasında olduğu vaxt oğlu Şah Qubad atasını öldürmək fikrinə düşüb qırx nəfərlə birlikdə İsgəndərin yataq otağına soxuldu və onu qətlə yetirdi, xəzinəni ələ keçirərək bir qismini qoşuna payladı və əhvalatı əmisi Cahanşaha bildirdi. Xəzinənin yarısı, Avnik qalası və Pasin vilayəti Cahanşah tərəfindən ona verildi [25,94; 8,230]. Beləliklə Əlincə qalası Cahanşahın ixtiyarına keçdi. Qalada baş verənləri öyrəndikdən sonra Cahanşah ata qatili olan Şah Qubadı və bu işdə əli olan bəzi əmirləri öldürdü.

1467-ci ilin noyabrında Cahanşahın Ağqoyunlu Uzun Həsənlə döyüşdə öldürülməsindən sonra Maku qalasında zindanda saxlanılan

oğlu Həsən Əli qaladan çıxaraq ətrafına topladığı 2-3- minlik qüvvə ilə Təbrizə daxil oldu. Bu zaman «Əlincə qalasının sahibi Yaqub Çöhrə onun hüzuruna gəldi və atasının illərlə topladığı, onun sağlığında məmləkətin zəruri işlərini həll etmək, yeni torpaqlar tutmaq kimi məqsədlərə sərf olunan xəzinəsini Həsən Əliyə çatdırdı» [25,234]. Əbu bəkr Tehraninin verdiyi bu məlumatdan aydın olur ki, XV əsrin 60-cı illərində Əlincə qalası Qaraqoyunlu dövlətinin nəzarətində olmuş və Yaqub Çöhrə tərəfindən idarə olunmuşdur. Dövlətin ən vacib işlərinin həlli üçün ayrılan xəzinənin məhz Əlincədə mühafizə olunması bu qalaya diqqəti daha da artırmışdı. Bu zamandan başlayaraq Əlincə qalası Qaraqoyunlularla Ağqoyunlular arasında gedən mübarizə meydanına çevrildi. Uzun Həsən Cahanşah üzərindəki qələbədən sonra Naxçıvan vilayətinə gəlmiş, Naxçıvana çatanda Ağqoyunlu dəstələrinin Avnik, Bayazid və Gərni qalalarını ələ keçirdiyi haqda xəbər tutmuşdu. O zaman Həsən Əlinin rəhbərliyi altında Qaraqoyunlu ordusunu darmadağın etdikdən sonra Sultan Xəlil Təbrizə gəlmiş və Şahəli bəy Pornakı müzəffər əsgərlərdən bir dəstə ilə birlikdə Əlincə qalasına göndərmişdi [25,250]. Əbu Bəkr Tehrani Əlincə qalasının ağqoyunlular tərəfindən tutulması haqda maraqlı məlumat verir. O, yazır: «Huri adlı yerdə xəbər gəldi ki Şahəli bəy Əlincəni tutub. Qısa müddətdə belə bir qala əziyyət çəkmədən bütün xəzinələri ilə birlikdə ələ keçdi. Bu hadisə Turan şahlarının dilində bir misal oldu ki, əvvəlki sahibqran Əmir Teymur o cür qüdrətlə təqribən on yeddi il (on dörd olmalıdır-T.N.) Əlincəni mühasirədə saxladı; elələri oldu ki, mühasirə dövründə doğulub böyüdü və mühasirədəkilərlə döyüşdü; böyük əzab və itkilərdən sonra qala fəth olundu. Lakin bu əbədi dövlətdə ilahinin hökmü ilə qala xəzinəsilə birlikdə qısa zamanda ələ keçdi və sakinlərə heç bir ziyan dəymədi» [25,251]. Beləliklə, Qaraqoyunlu dövlətinin süqutundan sonra Naxçıvan və eləcə də Əlincə qalası Azərbaycan Ağqoyunlu dövlətinin nəzarəti altına keçdi. Ağqoyunlu Sultan Yaqubun ölümündən sonra taxt-tac uğrunda şahzadələr və əmirlər arasında qanlı toqquşmalar başladı. Sultan Yaqubun oğlu Baysunqur lələsi Sufi Xəlil Mosullunun



köməyi ilə rəqiblərinə qalib gəldikdən sonra əmirlər tərəfindən padşahlığa namizəd göstərilən Rüstəm Mirzəni Əlincə qalasında zindana saldırdı [33,176; 14,98]. Həsən bəy Rumlunun məlumatına görə, 1492-ci ildə Eybə Sultan Bayandur ordusu ilə Qarabağdan Əlincəyə yollandı, qalanın hakimi olan Qazaq Seyid Əlini özünə müttəfiq etdi və həbsdəki Rüstəm bəyi azad edərək Təbrizə yollandı [8,632-633]. Baysunqur qaçdığı üçün Rüstəm Mirzə taxt-taca yiyələndi. 1497-ci ilin yazında Uzun Həsənin nəvəsi Gödək Əhməd Naxçıvan yaxınlığında Rüstəm padşahın qüvvələrini ağır məqlubiyyətə uğratmış və hakimiyyəti ələ almışdı. Naxçıvan ölkəsi XV əsrin əvvəllərində Ağqoyunlu dövlətinin hakimiyyəti altında olan əraziyə daxil oldu.

XV əsrdə Naxçıvanın Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmasını bu bölgədə həmin sülalə ilə bağlı çox qiymətli qoç daş heykəllər və qəbirüstü sənədlərin tapılması da sübut edir. Naxçıvan qəbristanlıqlarında belə qoç daş heykəllər və sənduqələrvardır. Bu qoç heykəllərin və sənduqələrin bir qisminin üzərinə ərəb əlifbası ilə, kufi xətlə yazılmış kitabələr və tarix verilmişdir. Qəbirüstü sənədlərin bəziləri ağ mərmərdən ustalıqla yonulub hazırlanmış və üzərləri nəbati ornamentlə böyük zövqlə bəzədilmişdir [4,86].

Qaraqoyunlu Cahanşah dövründə Culfa rayonunun Xanağa kəndində tikilmiş məscid və türbə dövrümüzə kimi gəlib çatmışdır. Türbəni vəzir vəzifəsində işləyən Hacı Məhəmmədin tikdirdiyi məlumdur [17,22-23].

Azərbaycan Səfəvilər dövlətinin yaranması vətənimizin orta çağlar tarixində ümdə əhəmiyyətə malik olan hadisələrdən biridir. Bu dövlətin yaranması Azərbaycan və həmhüdud ölkələrdə feodal münasibətlərinin daha da inkişafının labüd yekunu idi. Səfəvilərin yürütmüş olduqları mərkəzləşdirmə siyasəti iqtisadi inkişaf üçün imkanlar yaratdı. Azərbaycan şəhərləri arasında mövcud olan əlaqələr xeyli genişləndi. Yadelli işğalçıların basqınları zamanı dağıdılmış bir sıra şəhərlər yenidən dirçəlməyə başladı. Yenidən dirçələn belə şəhərlərdən biri də Naxçıvan idi. Naxçıvan 1501-ci ildə

Səfəvilər dövlətinin təşəkkülü zamanı həmin dövlətin tərkibinə daxil oldu [35,92]. Bu zaman Naxçıvanda Şərur adlı yerdə qızılbaş qoşunları ilə ağqoyunlu əsgərləri arasında baş verən şiddətli döyüş şəhərin səfəvilər tərəfindən ələ keçirilməsi üçün əsas amil olmuşdu. Qızılbaş ordusunun Naxçıvandakı bu qələbəsinin səbəbi yerli əhalinin ağqoyunlulara rəğbət bəsləməməsi, qızılbaş qoşununun və bilavasitə İsmayılın şəxsi döyüş qabiliyyəti ilə izah edilir. Naxçıvan şəhərinin əhalisi qızılbaşlara heç bir müqavimət göstərmir, yaxud da açıqcasına onların tərəfinə keçirdilər [2,96; 14,124]. Naxçıvan bölgəsinin Səfəvilər dövlətinə birləşdirilməsi qızılbaşların qüvvəsini daha da gücləndirdi.

Səfəvilərin qərbə tərəf irəliləməsi onları Yaxın Şərqdə ilhaqçılıq siyasəti yeridən qüdrətli Osmanlı imperiyası ilə toqquşdurdu. Lakin 1514-cü il Çaldıran döyüşündə Şah İsmayılın məqlubiyyəti Azərbaycanın mərkəzi şəhəri Təbrizlə yanaşı, Naxçıvanın da osmanlıların əlinə keçməsilə nəticələndi. Osmanlı qoşunlarının Naxçıvanda ağalığı beş gündən artıq davam etmədi və Osmanlı ordusu Naxçıvan şəhərini tərk edərək İrəvana çəkilməyə məcbur oldu. Osmanlı ordusunun Naxçıvana daxil olması və geri çəkilməsi «Çaldıran Rüznaməsində» təfsilatı ilə öz əksini tapmışdır: «1514-cü ilin 20 sentyabrı çərşənbə günü Araz çayını keçib Əlincə qalasının yuxarı hissəsindəki Kəsikkünbəzdə dayanıldı. Növbəti gün Naxçıvan şəhərinə daxil olub, qızılbaş olduqlarına görə xalqı yağma edildi. Sentyabrın 22-də cümə günü Qarabağ şəhərinin yanında düşərgə salındı. Ertəsi gün Naxçıvanın Əhmədbəy Zaviyyəsi, sonra isə Sədərək və Hacı-Lələli yanından keçilərək Böyük Vedi və Kiçik Vedi kəndləri arasında dayanıldı. Sentyabrın 26-da Zəngi çayından keçərək İrəvan şəhərinə daxil olundu» [3,291; 11,226-227].

XVI əsrin 30-cu illərində Osmanlı-Səfəvi münasibətlərinin gərginləşməsi nəticəsində yenidən hər iki dövlət arasında hərbi əməliyyatlar təzələndi. 1534-cü ildə İbrahim paşanın rəhbərliyi altında Osmanlı ordusunun Azərbaycana yürüşü başlandı və İbrahim paşa tərəfindən Xosrov paşa Əlincə qalasını tutmağa göndərildi [8,247]. Sultan Süleymanın Azərbaycana yürüşləri zamanı əsas



döyüş meydanlarından birinə çevrilən Naxçıvan gah Osmanlı, gah da Səfəvi qoşunları tərəfindən əldən-ələ keçmişdi. 1554-cü ilin ortalarında Sultan Süleyman dördüncü dəfə böyük qoşunla Azərbaycan ərazisinə daxil olaraq Naxçıvan şəhəri üzərinə hərəkətə başladı. Bu onun «Naxçıvan səfəri», yaxud «12-ci səfəri» adlanır [6,159; 11,108]. Şah Təhmasib 1554-cü ilin 8 iyununda Naxçıvanı tərk edərək Bazarçay yaylağına tərəf çəkildi. Öz taktikasına sadiq qalan Şah Təhmasib düşmənin başlıca qüvvələri ilə toqquşmadan çəkinərək, sultan qoşunlarının hərəkət edəcəyi gözlənilən yollara viranedici həmlələr edirdi. İsgəndər bəy Münşinin yazdığına görə, sultanın Naxçıvana hərəkəti zamanı qızılbaşlar yollarda osmanlılara qəfil basqınlar edir, ayrı-ayrı dəstələri qılıncdan keçirir və əsir alırdılar [9,179-180]. Buna baxmayaraq, Osmanlı ordusu iyulun 28-də Naxçıvana daxil olmuş, şəhərdə qalan əhalinin mallarını və gizlədilmiş dəfinələri qarət etmiş, yerli əmirlərin saraylarını və iqamətgahlarını yandırmış, üç gün ərzində «daş üstə daş qoymamışdılar» [3,291; 11,227]. Osmanlı ordusunun törətdiyi dağıntıları, hətta Osmanlı tarixçiləri də etiraf edirlər. XVI əsrin sonları – XVII əsrin I yarısında yaşamış tarixçilərdən İ.Pəçəvi yazırdı: «Aydınlıq gündüz qaranlıq gecəyə çevrildi. 27-ci gün Naxçıvan düzənliyinə çatdılar... Bütün şəhər və kəndlər, qəsəbələr və evləri o qədər amansızlıqla talan edirdilər ki, onlardan bir əsər belə qalmırdı» [31,22; 14,125]. Mənbələrin verdiyi məlumatlara görə Sultan Süleyman Naxçıvanda çox qalmadı. Bunun əsas səbəblərindən biri qoşun üçün yaşayış vəsaiti, ərzaq və hərbi sursatın çatışmaması olmuşdu [16,85; 5,82]. Buna görə də, sultan üç gündən sonra 1554-cü ilin 30 iyulunda şəhəri tərk etməli olmuşdu. Osmanlı əsgərləri şəhəri tərk edən zaman Sultan Süleymanın əmrinə əsasən şəhər yandırıldı [8,378; 14,126]. Kəskin ərzaq çatışmazlığı ilə üzləşən sultan qabaqcadan od vurub yandırdığı Naxçıvanı tərk edərək Ərzuruma qayıtdı. Qızılbaş qoşunları geri çəkilən osmanlıların ardınca Osmanlı ərazisinə qədəm qoydular. Osmanlı mənbələrində «Naxçıvan səfəri» adı ilə məşhur olan Sultan Süleymanın bu hərbi yürüşündən Osmanlı dövləti bir şey qazanmasa da, həmin yürüş Səfəvi ordusunun möhkəm müdafiə mövqelərini

dağıtmaq, sərhəddəki mühüm hərbi məntəqələri tutmaq və ölkənin ən zəngin sahələrindən hesab olunan Naxçıvanı iqtisadi cəhətdən zəiflətmək və əzməklə nəticələnmişdi [14,126; 16,85].

Beləliklə, XVI əsrin birinci yarısında bir tərəfdən Osmanlı- Səfəvi müharibələrinin vurduğu ağır zərbə, digər tərəfdən Şah Təhmasibin «Viran edilmiş ərazi» taktikasından istifadə etməsi Naxçıvanın xarabazara çevrilməsinə səbəb olmuş, onun gələcək iqtisadi və mədəni inkişafına mənfi təsir göstərmişdi. 1555-ci ilin iyununda Amasyada Səfəvi- Osmanlı sülhünün imzalanmasından sonra Naxçıvan bölgəsi Səfəvi dövlətinin tərkibində qaldı.

XVI əsrin son rübündə Osmanlı sultanı III Muradın Amasya sülhünü pozaraq Səfəvilərə qarşı yeni müharibəyə başlaması nəinki Naxçıvana vurulan ağır zərbəni aradan qaldırmağa imkan verməmiş, hətta onu yenidən müharibə meydanına çevirmişdir. 1578-1590-cı illər osmanlı-səfəvi müharibəsinin gedişində Naxçıvan bölgəsinin osmanlılar tərəfindən tutulması ilə bağlı dövrün mənbələrində geniş məlumatlar azdır. Oruc bəy Bayat Fərhad paşanın 1583-cü ildə İrəvana yürüşü zamanı Naxçıvanı ələ keçirdiyi haqda məlumat verir [29,104]. Türk tarixçisi Bəkir Kütükoğlu Oruc bəy Bayatın bu məlumatının digər mənbələrdə öz əksini tapmadığını əsas götürərək, Naxçıvanın alınmasına şübhə ilə yanaşmış, onun fəthinin Özdəmiroğlunun Təbriz yürüşünə kimi mümkünsüz olduğunu qeyd etmişdir [12,136; 19,65]. İsgəndər bəy Münşinin göstərdiyi kimi, Çuxur-Səd bəylərbəyi Məhəmməd xan Toxmaq düşmən hücumu qarşısında dayana bilməyərək İrəvanı tərk edərək Naxçıvana çəkildi, qazilərin ailəsini və uşaqlarım Əlincə qalasında mühafizə etdi [9,88]. Bu faktlar göstərir ki, Naxçıvan şəhəri həmin dövrdə osmanlıların nəzarəti altında olmamışdı. Görünür osmanlı ordusu şəhəri talan edərək onu tərk etmişdi. B.Kütükoğlunun məlumatına görə, səfəvi şahının Azərbaycana gəlməsi Toxmaq xanın İrəvandan sonra sığındığı Naxçıvan üzərinə yürüş edərək qala tikdirmək arzusundan osmanlı qüvvələrini çəkindirmiş və sərdarın Gürcüstana yürüşə qərar verməsi ilə nəticələnmişdir [12,139; 19,65]. B.KütükoğLunun istifadə etdiyi hökmlərdən birində, 1583-cü ilin mayında osmanlıların Naxçıvana yürüş edərkən möhtəşəm bir qala inşa edilməsi tələbi öz əksini tapmışsa, da Naxçıvanın keçmiş hakimi olan Şərəf xan Bidlisiyə göndərilən hökmdə, Naxçıvanın fəth olunmasından sonra onun oğlu Əhməd bəyə sancaqlıq kimi veriləcəyinə aid məlumat verilmişdir [12,139; 19,65]. Bu bir daha göstərir ki, həmin dövrdə Naxçıvan şəhəri səfəvilərin nəzarətində qalmışdı. Naxçıvan bölgəsinin hərbi strateci mövqeyi Osmanlı dövlətini müharibənin gedişində daim maraqlandırırdı. Oruc bəy Bayatın fikrincə, Sultan Murad Osman paşanı iranlılara qarşı gələcək kampaniya üçün baş komandan təyin edərək əsas məqsədin Naxçıvanın alınması olduğunu ona bildirmişdi. Lakin 1585-ci ilin 11 avqustunda Osman paşa Ərzurumdan yürüşə başlayan zaman əsgərlər qarşısında rəsmi şəkildə bildirmişdi ki, Naxçıvana hərəkət edəcəklər. Ancaq tezliklə aydın oldu ki, həqiqi məqsəd Təbrizi tutmaqdır. Buna görə də yürüş Naxçıvana deyil, Təbrizə yönəldildi [29,109-110]. Bu faktlar bir daha göstərir ki, Osmanlı dövləti Naxçıvana hərbi strateci cəhətdən xüsusi diqqət yetirmişdi.

B.Kütükoğlunun istifadə etdiyi Osmanlı «Mühimmə» sənədlərində göstərildiyi kimi, 1588-ci ilin yazında sərdara göndərilən hökmdə bildirilirdi ki, Qəzvinə göndərilmiş casuslar və çaşnigir Vəli Ağadan hələlik bir xəbər alınmasa da, İrəvan bəylərbəyinin kətxudası vasitəsilə göndərdiyi məktubda şahın Naxçıvan valiliyinə təyin etdiyi Şahqulunun Ordubad və Culfanı zəbt etdiyi, ətrafdakı bəylərbəilərin Naxçıvana gəlməsi əmr olunmuşdu [12,191-192; 19,66]. Bu məlumatları Mustafa Selaniki də təsdiq edir. Onun məlumatına görə, çəkilməyə məcbur edilmiş Şahqulu Sultan İrəvanı mühasirəyə almış, ancaq geri çəkilməyə məcbur edilmiş, həmçinin bununla bərabər qızılbaşlar Naxçıvan bəyini məqlub edib öldürmüşdülər [21,30-31].

Naxçıvan bölgəsinin osmanlılar tərəfindən işğal edilməsi ilə bağlı nə osmanlı, nə də fars dilli mənbələrdə məlumat yoxdur. F.Kırzıoğlunun fikrincə, Təbrizin fəthindən sonra, 1586-cı ilin yayında Qaracadağ hakimi Şahverdi xan ilə birlikdə Təbriz mühafizi Səfər paşaya adam göndərən Ordubad, Qarqar, Culfa, Qapan

bölgələrinin bəyləri ilə yanaşı Naxçıvan hakimi də ölkəsini Osmanlılara birləşdirmişdi [11,323; 19,66]. Bununla yanaşı, qeyd etdiyimiz kimi Şah Abbasın Naxçıvan bəylərbəyi təyin etdiyi Zülqədərli Şahqulu Sultan 1587-1588-ci illərin qışında Naxçıvan bəyini məqlub edərək bu bölgəni nəzarət altına almışdı.

Osmanlılar tərəfindən son dəfə Naxçıvanın ələ keçirilməsi haqqında məlumat vaxtilə (1576-1577-ci illər) Naxçıvan hakimi olmuş Şərəf xan Bidlisinin əsərində verilmişdir. Şərəf xan yazır: «h. 992-ci ildə (20 noyabr 1588-9 noyabr 1589-cu il) Sərdar Fərhad paşa xalqın etdiyi xahiş və müraciətlərə əsasən İrəvan bəylərbəyi Xızır paşanı Naxçıvanı zəbt etməyə göndərdi. Xızır paşa ora çatan zaman bütün əhali itaət göstərdi. Vilayət ələ keçirildi. Balaban köşkündə möhtəşəm bir qala tikdirildi» [23,260; 11,373]. Beləliklə, 1589-cu ildə Naxçıvan bölgəsi osmanlılar tərəfindən işğal olundu. Naxçıvan əyaləti 1590-cı ilin noyabrında tərtib edilən Rəvan Əyalət dəftərinə əsasən İrəvan bəylərbəyliyinin tərkibinə qatılmışdı. İrəvan Əyalət dəftərində buraya bağlı olan Naxçıvan bölgəsinin nahiyyələri belə göstərilmişdir: «Naxçıvan bölgəsi»: 1. Naxçıvan, 2. «Məvazıi xatun», 3. Arslanlı-mülkü, 4. Qarabağ, 5. Dərəşam, 6. Dərəşahbuz, 7. Bazarçayı nahiyyələri; II. Şərur bölgəsi: 1. Şərur, 2. Zar, 3. Zəbil, 4. Əlincə, 5. Sisyan nahiyyələri; III. Ordubad bölgəsi; 1. Ordubad, 2. Culfa, 3. Azad- Siçan, 4. Şorlut. 5. Norküt nahiyyələri» [11,178; 19,67]. Bu sənəd XVI əsrin sonunda Naxçıvan əyalətinin sərhədlərini dəqiqləşdirməyə imkan yaradır. 1590-cı ilin 21 martında İstanbulda imzalanan Səfəvi- Osmanlı sülh müqaviləsinə əsasən Azərbaycanın əksər bölgələri kimi Naxçıvan da Osmanlı imperiiyasının hakimiyyəti altında qaldı. Osmanlı hərbi komandanlığı Naxçıvan şəhərini öz hərbi düşərgələrindən birinə çevirdi. Şəhərin strateci əhəmiyyətini nəzərə alan osmanlı hərbi komandanlığı onun möhkəmləndirilməsi üçün xüsusi səy göstərdi. Naxçıvanın idarə olunması bu vaxt Osmanlı sultanı tərəfindən Xızır paşaya həvalə olunmuşdu [14,128; 24,67]. Lakin Şah Abbas daxili siyasətdə və hərbi sahədə bir sıra islahatlar həyata keçirərək mərkəzi hakimiyyəti gücləndirdi, Türkiyədə baş verən qarışıqlıqdan istifadə edərək, 1603-cü ilin sentyabrında Osmanlılara qarşı müharibəyə başladı [34,65]. Səfəvi şahı 21 oktyabrda Təbriz şəhərini Osmanlı işğalından azad edərək, Osmanlılara qarşı hücumu daha da gücləndirdi. İsgəndər bəy Münşi bununla bağlı yazır: «Şah Təbriz qalasını alıb oranın işlərini nizamladığdan sonra öz himmət kəməndini bütün irsi Azərbaycan vilayətini almağa ataraq öz cahangirlik bayrağını qaldırdı, şahanə yürüş yüyənini Naxçıvan və İrəvan şəhərinə yönəltdi» [10,446]. Əsas hücum hədəfinin Naxçıvan seçilməsi təsadüfi deyildi. Bu zaman Naxçıvan özünün hərbi və iqtisadi əhəmiyyətinə görə diqqət mərkəzində idi. Məhz buna görə də, qızılbaş qoşunları Culfa şəhərini və Əlincə qalasını aldıqdan sonra, 1603-cü ilin sonlarında Naxçıvan şəhərinə doğru hərəkət etdi. Bu zaman Sufiyan döyüşündə şücaət göstərmiş Ərdəbil valisi Zülfüqar xan Qaramanlı qızılbaş ordusuna komandan təyin olunmuşdu [19,68].

Bu zaman Naxçıvan və İrəvan bəylərbəyi Şərif paşa idi. Əli paşanın əsir düşməsini və Təbriz qalasımn tutulması xəbərini alan osmanlılar pərişan oldular və Naxçıvan qalasında qalmaqdan qorxub olduqca möhkəm olan İrəvan qalasına getdilər. Şərif paşa burada 150 nəfərlik döyüşçü saxlayıb, əsas qüvvələri İrəvana apardı. Osmanlı qoşununun İrəvana çəkilməsinin səbəblərindən biri də Naxçıvan qalasının bu vaxt zəifliyi, qala divarlarının alçaq olması hərbi sursat və ərzaq ehtiyatlarının azlığı olmuşdu. Təbrizli Arakel Osmanlı qoşunlarının Naxçıvan şəhərini tərk etməsindən bəhs edərək göstərir ki, Təbrizin əldən getməsi və qızılbaşların Naxçıvana yaxınlaşması xəbərindən sonra «dəhşətə düşmüş», «qanadları sınmış», «ürəkləri zəifləmiş» və «başlarını itirmiş» Osmanlı qoşunlarının İrəvana qaçmaqdan başqa çarələri qalmamışdı [26,50; 14,129]. Digər tərəfdən, osmanlı qoşunları qızılbaşlara rəğmət bəsləyən şəhər əhalisinə mühasirə zamanı bel bağlaya bilmirdi. İsgəndər bəy münşinin verdiyi məlumata görə, Culfa və Naxçıvan döyüşsüz ələ keçirildi, yerli əhali və əyanlar Zülfüqar xanı qarşılamağa çıxaraq şah ordusunu təntənə ilə qəbul etmiş, osmanlı qarnizonu və şəhər təslim olmuşdu [10, 447]. Beləliklə də, «Azərbaycan vilayətinin əzəmətli yerlərindən biri olan Naxçıvan qalası da qalib dövlət övladlarının

ixtiyarına keçdi. Şah Abbas Naxçıvan ülkasını Çıraq Sultan Ustaclıya verdi» [10,447].

Naxçıvan şəhəri qızılbaş qoşunları tərəfindən tutulduqdan üç gün sonra Şah Abbas Naxçıvana gəldi. Onunla birlikdə Naxçıvan şəhərinə gəlmiş Alman imperatoru II Rudolfun səfiri Tektander göstərir ki, Naxçıvan da Mərənd və Culfa şəhərləri kimi qızılbaş qoşunlarına heç bir müqavimət göstərməmişdi [28,33; 14,130].

Bu zaman qızılbaş ordusunun gəlişini gözləməyən Ordubad şəhər əhalisi osmanlılara qarşı üsyan qaldırdı. Qəssab Hacının rəhbərliyi altında şəhər əhalisi Osmanlı qarnizonunu tərksilah edərək Ordubad qalasını ələ keçirdi. Yaranmış vəziyyəti düzgün qiymətləndirən Maku vilayətinin hakimi Mustafa bəy Naxçıvana Şah Abbasın hüzuruna gələrək ona tabe olduğunu bildirmişdi. 1604-cü ilin iyulunda qızılbaş ordusu ciddi müqavimətdən sonra İrəvan qalasını osmanlılardan azad etdi. İrəvan qalasının fəthindən sonra o vilayətin idarəsi Əmirgünə xana tapşırıldı. Naxçıvan ölkəsi isə Maqsud Sultan Kəngərliyə verildi [10,455].

Təbrizin, Naxçıvanın və İrəvan bölgəsinin səfəvilərin hakimiyyəti altına qayıtması osmanlıların şərqdəki nüfuzunu xeyli sarsıtmış oldu. Osmanlı dövləti ərazilərin itirilməsi ilə hesablaşmayaraq 1605-ci ildə Osmanlı sərdarı Cığaloğlu Sinan paşanın komandanlığı altında Azərbaycana yeni ordu göndərdi. İsgəndər bəy Münşi bununla bağlı yazır: «O vaxtlarda müzəffər qızılbaş döyüşçülərinin müqaviməti və bir neçə şəhər və qalanın alınması baş vermişdi. Cığaloğlu özünün şücaət, igidlik və hüsn-tədbirinə görə başqalarından üstün olduğu üçün Əhməd xan onu vəzire-əzəm və ləşkər sərdarı təyin etmişdi. O zaman diqqət Azərbaycandakı qızılbaşlara yönəldiyindən Cığaloğlunun yürüşü qoşun toplanması səbəbindən bir neçə dəfə ləngidildi» [10,466].

Osmanlı ordusunun Qarsdan yürüşə başlaması nəticəsində Səfəvi qüvləri Ağcaqalada dayanaraq düşmənin yürüş istiqamətini müəyyənləşdirməyə çalışdırlar. Cıqaloğlunun Naxçıvan və İrəvan səmtinə üz tutduğu və köç-köç hərəkət etdiyi məlum oldu. Şah Abbas Osmanlı qoşunlarının çoxluğundan təşvişə düşərək azad etdiyi şəhər və qalalardan əhalini təcili şəkildə köçürməyə və həmin şəhərlərin dağıdılması haqqında əmr verdi. Bununla bağlı İsgəndər bəy Münşi yazır: «Rəiyyətin pərişanlığına yol verilməməsin deyə belə bir hökm verildi: Bu yerlərin rəiyyəti köçürülsün və uzaq bir yerə göndərilsin ki, müxalif ləşkər hücumundan kənar və dövran hadisələrindən arxayın olsunlar. Qızılbaş ləşkərinin özləri ilə apara biləcəyi qədər azuqə götürüb, yerdə qalan hər şeyi oda yaxıb yox etsinlər ki, rumilərin əlinə heç nə düşməsin. Humayun ordu isə öz ləşkərləri ilə rumilərin olduqları yerin həndəvərində dayanıb gözləsinlər ki, rum ləşkəri özü üçün azuqədən və atları üçün yemdən məhrum olaraq əskərləri pis vəziyyətə salınsın və belə olan halda fəth nişanlı əskərlər harada məsləhət bilinsə orada da onların dəf olunmalarına başlasınlar» [10,466]. O zamankı şəraitdə dövlət üçün münasib olan düzgün müəyyən və ləyaqətli əzm ilə fikirləşdikləri kimi də hərəkət edərək ailə üzvlərini özlərindən ayırıb Əlincə tərəfə göndərdilər. Əmirgünə xanı isə İrəvan camaatını köçürməyə yolladılar. O da, əmrə əməl edib rəiyyəti Qaracadaq tərəfə köçürdü. Meşələrdə və əlçatmaz yerlərdə qalanlardan başqa bir nəfər də olsa üstündə qalmadı. Ordu Ağcaqaladan çıxıb Üçkilsədə dayandı» [10,466].

Osmanlı ordusu İrəvana çatan vaxt qızılbaş qoşunu Vedi çayının kənarında dayanmışdı. Şah Abbas orada Naxçıvan hakimi Maqsud Sultan Kəngərlini o mülkün əhalisini, qulamı Təhmasibqulu bəyi isə Culfa camaatını köçürməyə göndərdi. Naxçıvan şəhərinin əhalisi köçüb Dizmara və Qaracadağa getdi, amma öz qədim məskənlərindən əl çəkmək istəməyən Culfa camaatını isə, onların can və mallarının qorunması üçün zorla köçürüb İsfahan yaxınlığında Zayəndərud çayı kənarında yerləşdirdilər [10,466]. Görünür Osmanlı ordusunun hücumu qarşısında şahın fərmanı qısa müddətdə həyata keçirilmişdi. Əhalini köçürtmək, əkin sahələrini yandırmaq, məhsulu osmanlı əsgərlərinin əlinə verməmək üçün qızılbaşlar tərəfindən Naxçıvan bölgəsi dağıdılıb viran qoyulmuşdu. Şah ordusu bütün tikililəri, istehkamları xarabazara çevirmişdi. Düşməni yaşayış vəsaitlərindən məhrum etmək məqsədilə onlar ağaclara od vurur, mal-qaranı aparır və su çeşmələrini zəhərləyirdilər. Onlar keçmişin

yadigarı olan gözəl sənət əsərlərini- abidələri belə məhv etməkdən çəkinmirdilər. O, dövrün xatirə yazılarından birində açıq şəkildə deyilir: «Culfadan başlayaraq Naxçıvana və Vana qədər bir bina da olsun qalmamışdı» [34,68].

İsgəndər bəy Münşi yazır ki, «Səfəvi ordusu Naxçıvanda bir gün qaldı, taxıl və başqa azuqə toplanmasından ötrü ətrafa adam göndərildi. Asimanın qəzavü-qədəri nəticəsində yaşamalı olan kiçik bir yer belə qalmamışdı.... Ertəsi gün oradan çıxıb Culfa keçidi vasitəsilə Araz çayını keçib münasib bir yerdə dayandılar [10,466].

Şah Abbas tərəfindən Naxçıvan və Culfa əhalisinin köçürülməsi barədə İsgəndər bəy Münşinin verdiyi məlumatları Arakel Təbrizlinin məlumatları da təsdiq edir. Onun yazdığına görə, qızılbaşlar Naxçıvanı dağıtmaqla köçürülən əhalidə geri qayıtmaq ümüdini tamamilə söndürmək istəyirdilər. Naxçıvanla birlikdə Culfa da Şah Abbas tərəfindən dağıdılmış və əhalisi zorla İsfahan şəhərinə sürgün edilmişdi [26,63-64; 14,133]. Nəzərə almaq lazımdır ki, Şah Abbas tərəfindən Culfanın dağıdılmasında məqsəd bir tərəfdən İsfahanda mühüm ticarət mərkəzinin yaradılması idisə, digər tərəfdən Naxçıvanın dirçəldilməsinə yol verməmək olmuşdu, Naxçıvanın yenidən dirçəlməsinə həmin şəhərdələrdəki ticarət əlaqələri müsbət təsir göstərə bilərdi.

Şah Abbasın hərbi və siyasi zərurətdən həyata keçirdiyi «böyük sürgün» siyasəti nəticə etibarı ilə Naxçıvan bölgəsinin xarabazara çevrilməsinə gətirib çıxardı. İsgəndər bəy Münşinin yazdığı kimi, Osmanlı ordusunun gəldikləri hər bir yerdə abadlıqdan əsər əlamət yox idi. Ehtiyat azuqənin olmaması və başqa çətinliklər vəziyyəti olduqca pis hala salmışdı. Yeniçərilər sərdara demişdilər ki, belə bir vəziyyətdə nə müqavimətə taqətimiz, nə də burada qalmağa qüvvətimiz vardır. Bunu nəzərə alan Cığaloğlu məsləhətləşmələrdən sonra Vana qayıdıb orada qışlamağa qərar vermişdi [10,462]. Həmin ilin qışını İrəvan hakimi Əmirgünə xan Naxçıvan hakimi Maqsud Sultan Kəngərli və tabeliyində olanlarla birlikdə Əlincədə keçirdilər. Şahin göstərişi ilə baharın əvvəlində gəlib orduya birləşmək şərtilə başqa əmirlər qışı keçirmək üçün öz ülkalarına çıxıb getdilər [10,471]. İsgəndər bəy Münşinin verdiyi məlumatdan aydın olur ki, 1606-cı ilin baharında osmanlı qoşunu Qacar paşa və Mustafa paşanın rəhbərliyi altında Vandakı kürd əmirlərilə birlikdə Naxçıvan üzərinə hərəkət etmişdi. Əlincə qalasında olan Əmirgünə xan Qacar qazilərdən ibarət bir dəstə və tabeliyindəki əmirlərlə Araz çayı kənarına kimi irəliləmişdi. Onun qorxmazlığını və cəsarətli addımını görən osmanlı paşaları ehtiyat edib irəli çıxmağa cürət etməmiş və geri dönmüşdülər [10,471].

Mənbələrin verdiyi məlumatdan aydın olur ki, Şah Abbasın göstərişi ilə qızılbaş ordusunun Van və Ərzurum arasında yerləşən və Osmanlı ordusunun keçid yeri olan Naxçıvana gedib Araz çayı kənarında dayanması qərara alındı ki, əgər bu il osmanlı sərdarı öz ordusu ilə Azərbaycana hücum etsə, qızılbaşlar hər iki yol arasında mövqe tutub özlərini müdafiə etməyə hazır olsunlar. Yox, əgər sərdar bu il gəlməsə, qızılbaş ordusu qışlaq Qarabağda olsun və Gəncə qalası ilə Şirvan ölkəsini azad etsin. Səfəvi qoşunu Naxçıvanda Araz çayının Yəzdabad keçidindən keçib, çay kənarında dayandılar. Şah Əmirgünə xana bir dəstə adam verib onu İrəvan şəhərinin təmirinə göndərdi [10,481]. Bir müddət sonra Şah Abbas Ordubada gələrək bu gözəl şəhəri seyr etməyə başladı. İsgəndər bəy Münşi bu hadisələrdən bəhs edərək yazır: «Ordubad olduqca ürəkaçan və ürəyəyatan bir qəsəbədir... Ordubad Qapan dağının ətəyində yerləşmişdir. Suyunun təmizliyi, bağ-bağatının meyvəsi və çeşmələrinin gözəlliyi ilə bütün ölkədə məşhurdur. Dünyada elə bir yer və ölkə yoxdur ki, bu lətafətdə və sərinlikdə su çeşmələrinə malik ola bilsin. Oranın camaatı qatı şiədirlər, kəramətlə səfəviyyə xanədanına sadiq olmaları ilə məşhurdurlar. Məhz buna görə də, Osmanlı ağalığı vaxtı bir neçə dəfə qətliam olunmuşdular. O zaman həmin cənnətməkan yer tamamilə dağıdıldı, əhalisinə, xüsusilə Xacə Tusinin ali nəsriyyə Tusiyyə təbəqəsinə böyük sədəmə dəydi. Həmin pərişanlığın iqbal qüvvəsi ilə aradan qaldırıldığı bu vaxtlarda Ordubad şahanə inayətə layiq görüldü, bütün divan vergilərindən azad olundu. Azərbaycan vilayətində ona bənzər başqa bir yerə bu imtiyazlar verilmədi» [10,507].

«Şah Abbas Ordubadın görməli yerlərini, o, cümlədən mötəbər və lətif yerlərindən olan Vənənddə oldu. Vənənd bir dağın ətəyindədir. Burada nəsiriyyə təbəqəsindən olan adamlar yaşayırdılar və oranın ən gözəl sahələri onlara məxsusdur. Orada da Ordubadda olduğu kimi, şahın şərəfinə ziyafət məclisləri quruldu. Oradan əhalisinin əksəriyyəti məsihi, bir hissəsi isə müsəlman olan Kəlis (Əylis-T.N.) qəsəbəsini seyr etdikdən sonra Ordubada qayıdıldı. Şahın fikri Qarabağa getmək və Şirvana yürüş etmək idi. Ordubaddan Qarabağa gedən «Əli dərəsi» adlanan yolun dar olmasının çətinliyini nəzərə alan Şah Abbas daha 10 gün Ordubadda qalmalı oldu» [10,512].

Beləliklə, 1603-1607-ci illər Səfəvi-Osmanlı müharibəsinin gedişində Naxçıvan bölgəsi digər Azərbaycan torpaqları kimi Osmanlı işğalından azad edilmiş və Səfəvilər dövlətinin tərkibində qalmışdır. XVII əsrin I yarısına kimi Naxçıvan ölkəsi Azərbaycan bəylərbəyliyinə daxil olmuşdu. İ.P. Petruşevski yazır: "Zəngin Naxçıvan ölkəsi qızılbaş ustaclu tayfasının bir qolu olan Kəngərli tayfasının irsi ölkəsi idi" [32,132; 7,81]. Şah Abbasın hakimiyyəti zamanı Kəngərli tayfasının başçısı və Naxçıvan hakimi Maqsud Sultan Kəngərli olmuşdur. İsgəndər bəy Münşinin adlarını verdiyi əmirlər siyahısmda Maqsud Sultan, təkcə Naxçıvan və Xorasan kəngərlilərinin deyil, bütün Kəngərlilərin başçısı olmuş və buna görə də eyni zamanda həm Xorasanın Nisa şəhərinin, həm də Naxçıvanın hakimi vəzifəsinə təyin olunmuşdu [32,132-133]. Şah Abbasın xələfləri dövründə Naxçıvanda Nadir bəy Rzaəddin xan (1647), Əliqulu xan (1668), Murad xan (1668-1669), Şərəf xan (1669-1678), Məhəmməd Rza xan (1678-1691) Kəngərlilər hakimlik etmişdilər [30,136].

XVII əsrin 30-cu illərində səfəvi-osmanlı müharibəsinin gedişində Naxçıvan şəhəri hələ tamamilə bərpa olunmamış və öz əvvəlki ehtişamını geri qaytarmamışkən qızılbaşlar yenidən osmanlıların hücumuna məruz qaldılar. Osmanlı sultanı IV Murad Naxçıvan qalasını tutmaq məqsədilə 1635-ci ildə Məhəmməd paşanın sərkərdəliyi altında bura xüsusi ordu göndərmişdi [14,136]. Naxçıvan şəhəri osmanlılar tərəfindən tutuldu. Onsuz da dağınıq halda olan



Naxçıvan yenidən Osmanlı əsgərləri tərəfindən dağıdıldı. XVII əsr fransız səyyahı J.B.Tavernye bu hadisədən bəhs edərkən yazırdı: "Naxçıvan çox böyük şəhərlərdən biri olmuşdur. O, Sultan Murad tərəfindən tamamilə dağıdılmışdır. Orada çoxlu miqdarda gözəl məscidlərin xarabalığları görünür. Bu məscidlər osmanlılar tərəfindən darmadağın edilmişdi" [14,137].

Osmanlılarla səfəvilər arasında uzun illər davam edən döyüşlər Azərbaycan şəhərlərində, o cümlədən Osmanlı-Səfəvi sərhəddində yerləşən Naxçıvanda məhsuldar qüvvələrin dağıdılmasına, mədəniyyət abidələrinin məhvinə və əhalinin vəziyyətinin pisləşməsinə səbəb olmuşdu. Bu dövrdə osmanlı sultanları və səfəvi şahları tərəfindən Naxçıvanı idarə etmək üçün təyin olunan hakimlər şəhərin bərpa edilməsindən daha çox əhalinin qarət və talan edilməsinə səy göstərmişdilər.

XVII əsrin 70-ci illərində Naxçıvan vilayətində baş verən quraqlıq əhalinin vəziyyətini daha da pisləşdirdi. Vilayəti güclü aclıq bürüdü. 1673-cü ildə taxıl çatışmadığı üçün Naxçıvan hakimi digər Azərbaycan hakimləri kimi taxıl ixracını qadağan etdi. Bu dözülməz vəziyyət Naxçıvan vilayətində güclü xalq narazılığına səbəb oldu. Şah hakimlərinin qəti şəkildə qadağan etmələrinə baxmayaraq, ac kəndlilər böyük dəstələrlə şəhərlərə doğru axışırdılar. Onlar taxıl anbarlarını ələ keçirir, taxılı öz aralarında bölüşdürür və feodalların malikanələrini dağıdırdılar [14,137].

XVII əsrin II yarısında Naxçıvan vilayəti inzibati cəhətdən Çuxur-Səd bəylərbəyiliyinə daxil olmuş və Ustaclı tayfasının bir qolu olan Kəngərlilər tərəfindən idarə olunmuşdur. Yazılı mənbələrdə Naxçıvanın XVII əsrin sonlarındakı siyasi tarixinə aid məlumatlar nisbətən azdır. Bunun səbəblərindən biri bu dövrdə Naxçıvanın vaxtı ilə Osmanlı- Səfəvi müharibələri zamanı dağıdılması nəticəsində iqtisadi, siyasi və mədəni mərkəz kimi əvvəlki əhəmiyyətini itirməsidir. Çünki, XVII əsrin sonlarında Səfəvilər dövlətini bürümüş ümumi iqtisadi tənəzzülü şəraitində Naxçıvanın yenidən bərpa olunması və müharibələrin vurduğu ağır zərbənin nəticələrinin aradan qaldırılması üçün uzun illər tələb olunmuşdu. XVII əsrin 70-

ci illərində (1673-cü ildə) Naxçıvanda olan İ.Şarden şəhərdəki vəziyyətlə bağlı yazırdı: «Naxçıvan səksən faiz dağıdılmış böyük bir şəhərdir. Bu şəhər yavaş-yavaş məskunlaşır və bərpa olunur. Şəhərin mərkəzi hal-hazırda yenidən qurulmuş və əhali ilə məskunlaşmışdır. Orada böyük bazarlar deyilən və hər tərəfində hər cür mal və yeyinti məhsulları satılan dükanlarla dolu örtülü küçələrdən ibarətdir. Naxçıvanda beş karvansara, hamamlar, bazar meydanları, tütün və qəhvə verən iri mehmanxanalar və təxminən iki min ev vardır.... Şəhərə kənardan baxdıqda, onları qorumağa gücü çatmadığını hiss edən I Şah Abbas tərəfindən dağıdılan çoxlu istehkamlar və böyük bir qalanın viranələri görünür. Həqiqətən, bu şəhər hazırkı vəziyyətinə görə ürək ağrıdan bir obyektdir» [27,94; 14,138].

Müvəqqəti yüksəlişə baxmayaraq Naxçıvan öz sabiq əzəməti və ehtişamını bir daha geri qaytara bilmədi. Təkcə şəhərdəki evlərin və əhalinin miqdarındakı mühüm fərq fikrimizi sübut etmək üçün kifayətdir. Əgər hələ erkən orta əsrlər dövründə şəhərdə 30 min ev var idisə, XVII əsrin sonlarında bu evlərin sayı 2 mindən artıq deyildi. Bunun əsas səbəblərindən biri əhalinin zorla başqa yerlərə köçürülməsi ilə yanaşı, eyni zamanda başlıca olaraq feodal təsərrüfatımn ümumi iqtisadi tənəzzülü olmuşdu.

Qeyd etmək lazımdır ki, Səfəvi şahlarının köçürmə siyasəti onların şəxsi istəklərinin deyil, zamanın obyektiv tələbinin, rəqib qarşısında əyilməmək əzminin nəticəsi idi. Diqqəti cəlb edən cəhət ondan ibarətdir ki, Səfəvi hökmdarları (xüsusilə Şah Abbas) insan amilinə xüsusi əhəmiyyət vermiş, dövlət ərazisində yaşayan dinc əhalinin yeni yaşayış yerlərinə köçürülməsi qayğısına qalmışlar. Şübhəsizdir ki, həmin tədbirlər nəticəsində Naxçıvanm əhalisi xeyli azalmış, şəhər əski mövqeyini itirmişdi. Lakin, Səfəvi hökmdarlarının həyata keçirdiyi bu tədbirlər osmanlıların Naxçıvan diyarında möhkəmlənməsinə imkan vermədi.

Tarixi qaynaqlar sübut edir ki, XVII əsrin sonlarına doğru Naxçıvan mühüm iqtisadi və siyasi səbəblər üzündən əski əzəmətini, Azərbaycanın iqtisadi-siyasi və mədəni həyatındakı aparıcı rolunu və mövqeyini itirmişdir [13,75-76].



**Mənbə və ədəbiyyat.**

1.Azərbaycan tarixi. Yeddi cilddə. Üçüncü cild. Bakı, 1999.
2. Bakıxanov A. Gülüstani- İrəm. Bakı, 1951.
3. Danişmend İ.H. İzahlı Osmanlı tarihi xronolojisi, II cilt. İstanbul, 1948.
4. Əliyev V. Naxçıvan - Azərbaycanın tarixi diyarıdır. B., 2002.
5. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993.
6. Ferudin bey. Münşeat us- selatın. I c, İstanbul, 1274.
7. Fərzəlibəyli Ş.F. Naxçıvanın XVII-XIX əsrlər tarixinə dair qiymətli sənədlər. //Naxçıvan. Bakı, 1999.
8. Həsən bəy Rumlu. Əhsən-ət təvarix, ehtimame Əvdülhüseyn Nəvayi. Tehran, h. ş. 1349.
9. İsgəndər bəy Münşi, «Tarix-i aləmara-yi Abbasi». Farscadan tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyev, t.e.n. Namiq Musalı. Bakı, Təhsil, 2009.
10. İsgəndər bəy Müniş. «Tarix-i aləmara-yi Abbasi», c. II. Tehran, 1350.
11. Kırzıoğlu F. Osmanlıların Qafqaz ellərini fethi (1451-159[illegible] Ankara, 1976.
12. Kütükoğlu B. Osmanlı-İran siyasi münasibetleri. İsta[illegible]ul, 1993.
13. Qasımov X.S. Naxçıvan Azərbaycan məd[illegible]iyyəti ocaqlarından biri kimi (Səfəvilər dövrü). //Naxçıva[illegible] Bakı, 1999.
14. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Ba[illegible], 1976.
15. Məmmədov R, Piriyev V. Teymurun Əlincə səfər[illegible] «Elm və həyat», 1977. № 9.
16. Məmmədova Ş. «Xülasət ət təvarix» Azərba[illegible]can tarixinin mənbəyi kimi. Bakı, 1991.
17. Nemətova M. Əsrlərin daş yaddaşı. Bakı,198[illegible]
18. Nəcəfli T.N. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı, 2000.

19. Nəcəfli T. Səfəvi-Osmanlı müharibələri və Naxçıvan (XVI əsr - XVII əsrin əvvəlləri).- «Naxçıvan». Bakı, 1999.
20. Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə, Bakı, 2003.
21. Selaniki M.Ə. Tarixi Selaniki. 1563-1600. Osmanlı türk dilindən tərcümə edəni akad. Z.M.Bünyadov. Bakı, 1992.
22. Sümer F. Kara-Kayunlular, I cild, Ankara, 1967
23. Шараф-ханБидлиси. Шараф-наме. t. 2. M., 1976.
24. Şərəfəddin Əli Yəzdi. Zəfərnamə (Azərbaycan tarixinə dair seçmələr) Fars dilindən tərcümə, ön söz və izahlar V.Z.Piriyevindir. Bakı, 1998
25. Tehrani Əbü Bəkr. Kitabi-Diyarbəkriyyə-Fars dilindən tərcümə edən, on söz, şərhlər və göstəricilərin müəllifi Rəhilə Şükürova. Bakı,1998.
26. Аракел Даврижеци. Книга истории. Пер. с. арм..., предис, и коммент. Л.А.Ханларяна, М., 1973.
27. Дневник Закария Акулисского. Ереван, 1939.
28. Какашн Тектандер. Путешествие в Персию через Московию (1602-1603 г). Пер. с иемсц А.Станкевич., М., 1886.
29. Книга Оруджу - Бека Байата. Дон-Жуана «Персидского. Перевод с английского, введение и комментарии д.и.н. О.Эфендиева, к.и.н. А.Фарзалиева. Б., 1988.
30. Нахчыванскне рукопнсные документы XVII-XIX вв. Тбилиси, 1936.
31. Печеви И.Э. История. Перевод тюркского языка и примечания академика АН Азерб. ССР З.М.Буниятова, Баку, 1988.
32. Петрушевскн И.П. Очерки ио истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале – XIX вв. Л., 1949.
33. Петрушевский И.П. Государства Азербайджана в XV в. //Сборник статей по истории Азербайджана, Вып.I, Б. 1949.
34. Рахмани А.А. Азербайджан в конце XVI и в. XVII векс, Баку, 1981.



35. Эфендиев О. Образование Азербайджаиского государства Сефевндов в начале XVI века. Баку, 1961.

**Tofiq Mustafazadə**
**tar. e.d., professor**
**AMEA A.Bakıxanov adına Tarix İnstitutu**

## NAXÇIVAN XANLIĞININ TARIXINDƏN

Xanlıq yaranması ərəfəsində Naxçıvan digər Azərbaycan torpaqları kimi Nadir şah əfşar dövlətinin tərkibinə daxil idi.

1736-cı ildə Muğan qurultayında özünü şah elan etdikdən sonra Nadir Azərbaycanın inzibati ərazi bölgüsünü dəyişdirdi, bəylərbəyilikləri ləğv edib, Azərbaycanın bütün ərazisini vahid Azərbaycan vilayətində (Mərkəzi Təbriz şəhəri olmaqla) birləşdirdi və vilayətin idarəsini qardaşı İbrahim xana həvalə etdi. Naxçıvan, bölgəsində yaşayan Kəngərli tayfası Nadir şaha itaətsizlik göstərdiyinə görə bu tayfanın bəzi üzvləri Əfqanıstana köçürüldülər. Nadir şah Naxçıvan əyalətinə eyni zamanda iki hakim təyin etdi. Bunlardan biri hakim-e ölke-ye Naxçıvan digəri hakim-e tümen-e Naxçıvan adlanırdı. Hakim-e tümen-e Naxçıvan şah tərəfindən təyin olunmuş, iqtisadi və idarə işlərinə rəhbərlik edirdi. Hakim-e ölke-ye Naxçıvan tayfa vəkili və əyalətdən toplanan qoşunun rəisi idi [3, 18]. Hakim-e tümen-e Naxçıvan Mirzə Rza yerli əhalini çox incitdiyindən və öz tamahı ucundan müəyyən olunmuş məbləğdən xeyli çox vergi topladığından ona qarşı əhalidə böyük qəzəb yaranmışdı. Buna görə də 1736-cı il Muğan qurultayından dərhal sonra Nadir şah onu bu vəzifədən kənarlaşdırıb Ağa Həsəni Naxçıvana hakim təyin etdi [3, 18].

Lakin Ağa Həsən də yerli əhali ilə amansızcasına rəftar edirdi. 1747-ci ilin iyununda Nadir şah Əfşar əyanlarının sui-qəsdi nəticəsində öldürüldükdən sonra Kəngərli tayfa başçısı Heydərqulu xan Ağa Həsəni hakimiyyətdən salıb özünü Naxçıvanın müstəqil xanı elan etdi. Naxçıvan xanlığı Zəngəzur dağlarından başlayaraq Araz çayı vadisinə qədər olan ərazini əhatə edirdi. Naxçıvan şəhəri xanlığın mərkəzi oldu. Xanlıq inzibati cəhətdən mahallara bölünmüşdü. (Əlincə, Xok, Dərələyəz, Ordubad, Əylis, Dəstə Çalanapek, Bəllə) [3, 23].

S.Budaqovanın yazdığına görə 1797-ci ildən etibarən Naxçıvan xanlığına daxil olan Mehri və Qafan mahalları qarabağlı İbrahimxəlil xan tərəfindən zəbt olunmuşdur. 1813-1888-ci illərdə Naxçıvan, Əlincə, Xek və Dərələyəz mahalları Naxçıvan tumənini, Ordubad, Əylis, Dəstə, Cənnab və Bilev mahalları isə Ordubad tümənini təşkil edirdi [2, 26].

Mahalları mirzəbəyi adlı məmurlar idarə edirdi. Mahallara daxil olan kəndlər kəndxudalar tərəfindən idarə olunurdu.

Xanlığın şəhərlərində polis funksiyasını darğa və əsəsbaşı yerinə yetirirdi. Darğaların sərəncamında yüzbaşılar və onbaşılar olurdu. Darğalar asayişə və bazarlara nəzarət edirdilər. Darğalara maaş verilmirdi, əvəzində hər dükandan ayda 15 qəpik gümüş pul almalı idilər. Darğalar bazara nəzarətlə yanaşı, həm də şəriət qanun-qaydalarının yerinə yetirilməsinə nəzarət edirdilər. Əsəsbaşı şəhəri və bazarı gecə vaxtı qoruyurdu. O da maaş əvəzinə hər dükandan ayda 15 qəpik almaq hüququna malik idi [3, 24]. Xanın ən yaxın köməkçisi eşikağası idi. Bu və ya başqa məsələ ilə əlaqədar xanın yanına gələnlər əvvəlcə eşikağası tərəfindən qəbul olunurdular. Mirablar həm şəhərdə, həm də kənddə suyun bölüşdürülməsinə nəzarət edirdilər. Onlar maaş əvəzinə sudan istifadə edənlərdən 15 batman taxıl və yarım batman pambıq alırdılar [3, 24-25].

Naxçıvan xanlığında natural təsərrüfat hökm sürürdü. Əsas istehsal sahələri əvvəlkitək heyvandarlıq və əkinçilik idi. Digər xanlıqlarda olduğu kimi Naxçıvan xanlığında da beş torpaq mülkiyyəti forması mövcud idi: 1) Dövlət (xəzinə torpaqları). Dövlət torpaqları əvvəlki məzmununu itirərək bir növ xanın xüsusi mülkiyyətinə çevrilmişdi. Əksər hallarda divan torpaqları xanın razılığı ilə hər hansı şəxsə bu və ya digər xidmətinə görə «tiyul» hüququnda istifadəyə verilirdi. Torpaqdan tiyul hüququnda istifadə edən şəxs tiyuldar adlanırdı. Tiyulun irsən keçməsi üçün varislik hüququ xan tərəfindən təsdiq olunmalı idi. Tiyuldar əldə edilən məhsulun müəyyən hissəsini xəzinəyə verməli idi. Naxçıvan

xanlığında torpaqdan istifadəyə görə verilən vergi «bəhrə» adlanırdı [3, 25-26]. 2) Xan ailəsinə məxsus olan xalisə torpaqları. 3) Şəxsi mülkiyyət olan mülk torpaqları. 4) Dini müəssisələrin sərəncamında olan vəqf torpaqları. 5) Kənd icmasına məxsus olan camaat torpaqları [4, 38-39].

Dağ kəndlərində yaşayan əhalinin əsas məşğuliyyəti maldarlıq idi. Kəndlilər rəiyyətlərə, rəncbərlərə və elatlara bölünürdülər. Rəiyyətlər pay torpağını becərir və əldə etdikləri məhsulun onda birindən beşdə birinə qədərini vergi verməli olurdular. Nə torpağı, nə də əmək aləti olmayan rəncbərlər xanın və bəylərin torpaqlarında işləyir və götürülən məhsulun təqribən üçdən bir hissəsini alırdılar. Yaylaq-qışlaq köçmə maldarlığı ilə məşğul olan kəndlilər elat adlanırdılar.

Naxçıvan xanlığında bütün təbəələrdən (15 yaşına çatmış kişilər) ildə gümüş pulla 1 man 20 qəpik baş pulu, hər evdən 20 manat ev pulu (tüstü pulu) alınırdı [3, 29-30; 4, 48].

Xəzinə torpaqlarından toplanmış məhsulun hər on hissəsindən 3,5 hissəsi xana, qalanı isə torpağı becərənlərə çatırdı. Mülkədar torpaqlarından toplanmış məhsulun 1/5 hissəsi xəzinənin, qalan hissəsi isə mülkədarın payına düşürdü [3, 30].

Maldarlar heyvanlarını xana məxsus çəmənliklərdə otardıqları üçün «çöpbaşı» yaxud «çobanbəyi» adlı vergi ödəyirdilər. Kəndlilər daha bir sıra başqa vergi və mükələfiyyətlər: bağpulu, dəyirmanpulu və s. ödəyirdilər. Sənətkarlardan mancanaq pulu, toxucu pulu, ticarətlə məşğul olanlardan gömrük, rəhdar, qapan pulu və s. vergilər və rüsumlar alımrdı.

Xanlığın ərazisində iki şəhər mövcud idi: Naxçıvan və Ordubad. Naxçıvan şəhəri dörd məhəlləyə bölünmüşdü: Əlixan, Şahab, Qurdlar və Sarbanlar. Şəhərin mərkəzində dördkünc bazar var idi. Bazarda üç karvansara yerləşirdi. Dükanların demək olar hamısı bazarda cəmləşmişdi. Naxçıvan şəhəri xanlığın başlıca ticarət mərkəzi idi. Ordubad şəhəri iki dağın arasında, Ordubad çayının vadisində yerləşirdi. Ordubad şəhəri inzibati cəhətdən beş məhəlləyə bölünürdü: Anbaras, Kürdüstan, Minqis, Sərşəhər və Üç düdəncə. O dövrdə Ordubad Naxçıvandan kiçik olsa da daha abad və gözəl idi.



Bu, birincinin daha çox basqınlara məruz qalması ilə bağlı idi. Naxçıvan şəhərində beş min nəfərə yaxın əhali yaşayırdı.

Kəngərli tafasının üzvləri Qızıllı, Sarbanlar, Ağabəyli, Qaradolaq, Əlixanlı, Qaraxanbəyli və Qarabağlar kəndlərində yaşayırdılar [3, 48].

Naxçıvan xanlığının hərbi qüdrəti az olduğuna görə Heydərqulu xan daha qüdrətli xanlara arxalanmağa çalışırdı. Heydərqulu xan Qarabağlı Pənahəli xanla müttəfiq oldu, onunla və gürcü çarları ilə birlikdə 1752-ci ildə Şəki xanı Hacı Çələbiyə qarşı yürüşdə iştirak etdi. Uğursuz qurtaran bu yürüşdən qayıdandan sonra Heydərqulu xan xanlığın iqtisadiyyatını tənzimləməklə məşğul oldu. Heydərqulu xanın ölümündən sonra (1763/64) Naxçıvan xanlığı nisbətən zəiflədi. Taxta çıxmış Hacı xan Kəngərli Kərim xan Zənddən asılılığı qəbul etmişdi [3, 49]. Sonralar Kərim xan Hacı xanı Şiraza dəvət edib kiçik bir günah üstündə əsir aldı. 1770-ci ildə Kərim xan Zəndin köməyilə taxta çıxmış Rəhim xan da üç ildən sonra Vəliqulu xan Kəngərli tərəfindən devrildi [3, 49].

XVIII əsrin 80-ci illərinin əvvəllərində İrəvanlı Hüseynəli xanın, Qarabağlı İbrahimxəlil xanın və Kartli-Kaxeti çarı II İraklinin yardımı ilə Kəngərlilərdən olan Abbasqulu Naxçıvanın xanlıq taxtına çıxarıldı. Lakin Abbasqulunun əmisi oğlu Cəfərqulunu hakimiyyətə gətirmək istəyən xoylu Əhməd xan bundan narazılığını bildirib əvəz kimi Nazik və Şükürlü kəndlərinin ona verilməsini tələb etdi. Abbasqulu xandan rədd cavabı alan Əhməd xan öz qoşunu ilə Naxçıvana tərəf hərəkət etdi. Müqavimət göstərmək iqtidarında olmayan Abbasqulu xan Naxçıvanı tərk edib Sisyana getdi. Ancaq irəvanlı Hüseynəli xan xoylu Əhməd xandan Naxçıvan xanlığının ərazisini tərk etməyi tələb etdi və sonuncu Naxçıvandan uzaqlaşmalı oldu. Abbasqulu xan yenidən Naxçıvana qayıtdı [3, 50].

Çox keçməmiş Əhməd xan yenidən Naxçıvan xanlığının daxili işlərinə müdaxilə etdi. O, Cəfərqulu xanı Naxçıvanda hakimiyyətə gətirmək üçün Kərim xan Zəndin ölümündən sonra Mərkəzi İranda hakimiyyəti ələ keçirmiş Əli Murad xana kömək üçün müraciət etdi. Əli Murad xan həvəslə bu müraciətə cavab verdi və Gülşirəli xanı bir

dəstə döyüşçü ilə Naxçıvana göndərdi. Gülşirəli xanın və Əhməd xanın qüvvələri qarşısında duruş gətirə bilməyən Abbasqulu xan Naxçıvanı tərk edib Tiflisə II İraklinin yanına qaçdı. Cəfərqulu xan Naxçıvan taxtına yiyələndi [3, 50-51].

Abbasqulu xanın bir çox tərəfdarı da Naxçıvanı tərk edib Gürcüstana pənah apardılar. II İrakli Abbasqulu xanın hakimiyyətini bərpa etmək adı altında Naxçıvanda möhkəmlətmək qərarına gəldi. Onun himayəçisi Rusiyamn hakim dairələri də gürcü çarının niyyətini müdafiə etdilər. Q.A.Potyomkin bu məsələ ilə bağlı Rusiyanın Gürcüstandakı nümayəndəsi D.S.Burnaşevə yazırdı ki, o, Abbasqulu xanın Naxçıvanda hakimiyyətə gətirilməsinə etiraz etmir. Potyomkin daha sonra yazırdı: «...Mənim adımdan Kartli-Kaxeti həzrətlərinə elan edin ki, mən bu hadisələrdə ona mane olmaq istəmirəm» [7, v. 80].

II İrakli hər ehtimala qarşı Naxçıvana yürüşə qarabağlı İbrahimxəlil xanı da cəlb etməyi qərara aldı [3, 55].

Lakin Türkiyə II İraklinin Azərbaycan xanlıqlarına qarşı yürüşü cəhdinə kəskin müqavimət göstərdi. Osmanlı nümayəndələri İbrahimxəlil xanla II İrakli arasında ittifaqı sarsıtmağa nail oldular. Kür çayı sahilində azərbaycanlılardan ibarət ordu yaratmağa və rus ordusunun qarşısını almağa cəhd etdilər [8, v. 20].

Naxçıvanın daxilində və ətrafında mübarizənin kəskinləşdiyi bir vaxtda Naxçıvan feodallarından biri olan Şükürəli bəyin oğlu Qara bəy Naxçıvandan 10 verst aralı olan Hacı Dəmir və Cari qalalarını ələ keçirdi. Qara bəy bu barədə Abbasqulu xana xəbər göndərdi və o, Naxçıvana gəlməyə tələsdi [8, v. 15].

Abbasqulu xanın yaxınlaşdığını eşidən Cəfərqulu xan Naxçıvanı tərk edərək Xoy xanlığına qaçdı. Lakin Abbasqulu xan öz hakimiyyətini bərpa etməyə nail olmadı. Şükürəli bəy fürəstdən istifadə edib Naxçıvanda hakimiyyəti öz əlinə aldı. Lakin o, xanlıq taxtında cəmi 2 il qaldı. Cəfərqulu xan yenidən Naxçıvanda hakimiyyəti ələ ala bildi [3, 56-57].

Abbasqulu xan da yenidən hakimiyyətə qayıtmaq fikrindən dönmürdü. Yardım üçün o, gah İbrahimxəlil xana, gah II İrakliyə,



gah da Rusiyanın Qafqazdakı hərbi dairələrinə müraciət edirdi. Azərbaycan xanlıqları ilə münasibətləri vaxtından əvvəl kəskinləşdirmək istəməyən II İrakli Naxçıvan xanlığını Xoy hakimi Əhməd xanın vasitəçiliyi ilə Abbasqulu xanla Cəfərqulu xan arasında bölüşdürməyi təklif etdi [3, 56-57].

İbrahimxəlil xan Abbasqulu xanı Naxçıvanda hakimiyyətə gətirmək üçün yürüşə hazırlaşdığı bir vaxtda xoylu Əhməd xan ona Naxçıvanda birgə hərəkət etməyi, xanlığı öz aralarında bölüşdürməyi təklif etdi [3, 57-58].

Qarabağlı İbrahimxəlil xanla xoylu Əhməd xan arasında əldə edilmiş razılaşmaya görə «...Təbrizi tutmaq və əldə edilmiş qəniməti bölmək, daha sonra Naxçıvanı ələ keçirmək və Naxçıvanda 1783-cü ildə isfahanlı Əlimurad xan tərəfindən devrilmiş və İbrahimxəlil xana arxalanan Abbasqulu xanı hakimiyyətə gətirmək» qərara alındı [10, 176].

Əldə olunmuş razılaşma əsasında İbrahimxəlil xan qoşunla Naxçıvana tərəf hərəkət etdi. İbrahimxəlil xanın güclənməsini istəməyən Rusiyanın Gürcüstandakı nümayəndəsi D.S.Burnaşev Xoy və Urmiya xanlarına məktub yazıb onlardan İbrahimxəlil xanın yürüşünə mane olmağı tələb etdi. Lakin İbrahimxəlil xanın qoşunları Naxçıvan xanlığının ərazisinə daxil oldular və Cəfərqulu xan Şərur çayı sahilindəki bir qalada gizləndi [9, 20]. 1785-ci il mayın əvvəllərində İbrahimxəlil xanın qoşunu Naxçıvan qalasını ələ keçirib, Abbasqulu xanın hakimiyyətini bərpa etdi [9, 323]. Lakin Cəfərqulu xanı tutmaq mümkün olmadı.

İbrahimxəlil xan vaxtı itirmədən Təbrizə tərəf hərəkət etməyi qərara aldı. Lakin xoylu Əhməd xan İbrahimxəlil xanla razılaşmanı pozaraq Qarabağ xanı hələ yolda ikən Təbrizi tutmuşdu. Əhməd xan İbrahimxəlil xana Təbrizdə ələ keçirilmiş qənimətdən heç nə vermədi. Əhməd xan bildirdi ki, o, Təbrizdə yalnız hakimiyyəti dəyişdirmişdir. Buna qohum kimi hüquq vardır. Bunu da bildirdi ki, onun Naxçıvan xan Cəfərqulu xanı öz himayəsinə götürüb onun işlərinə qarşımağa ixtiyarı yoxdur. Çünki Naxçıvana sahib olmaq

üçün İsfahanın hakimi tərəfindən fərman Cəfərqulu xana verilmişdir» [3, 60].

İbrahimxəlil xan Naxçıvanı tərk etdikdən bir müddət sonra Cəfərqulu xanın qardaşı (F.Əliyev, ayrı yerdə onun əmisi oğlu adlandırır. Bax: səh. 62). Kəlbəli xan Abbasqulu xanı hakimiyyətdən kənarlaşdırıb özünü 1787-ci ildə xan elan etdi. Bu zaman II İrakli İbrahimxəlil xanın Naxçıvanı tutması xəbərini eşidib knyaz İvan Baqrationu qoşunla İbrahimxəlil xanın Naxçıvanda möhkəmlənməsinə yol verməmək üçün Naxçıvana göndərmişdi. Lakin artıq Naxçıvanı ələ keçirmiş Kəlbəli xan gürcü qoşunlarını qalaya buraxmadı [9, 324].

Knyaz Baqration Naxçıvan qalasını mühasirəyə alıb İbrahimxəlil xanın dalınca bir dəstə göndərdi. Həmin dəstə Sisyan ətrafında az saylı Qarabağ qoşunları ilə qarşılaşdı. Hər iki tərəf arasında baş verən döyüşdə Qarabağ qoşunları geri çəkildilər. İbrahimxəlil xanla II İrakli arasında ixtilaf olduğundan xəbər tutan Cəfərqulu xan Baqrationun köməyilə Naxçıvanda hakimiyyətini qaytarmağa cəhb etdi. Lakin Baqrationun Naxçıvanı tutmaq səyi puça çıxdı və gürcü dəstələri ətraf kəndləri qarət edib, çoxlu mal-qara ələ keçirərək geri döndülər [3, 61].

Beləliklə, Naxçıvanda Kəlbəli xan hakimiyyətə gəldi və onun hakimiyyət dövrü 1787-ci ildən fasilələrlə 1820-ci ilə kimi davam etdi. Kəlbəli xan qardaşı oğlu Abbasqulu xanı sakitləşdirmək üçün onu Naxçıvana dəvət etdi və böyük imtiyazlar verdi.

Bu dövrdə Azərbaycan xanlıqları üçün İran tərəfindən təhlükə artmışdı. Kəlbəli xan Naxçıvanı İran qəsbkarlığından qorumaq üçün özünü riyakarcasına «dost» kimi qələmə verən Rusiyaya arxalanmağa çalışırdı. Kəlbəli xanın hakimiyyəti dövründə Naxçıvan xanlığı bir qədər möhkəmləndi. Azərbaycanın cənubundakı bir sıra xanlıqları özünə tabe edən Ağa Məhəmməd xan Qacar 1791-ci ildən Şimali Azərbaycana yürüşə hazırlaşmağa başladı. Lakin buna baxmayaraq Azərbaycan xanlıqları arasındakı ədavət davam edirdi.

1792-ci ildə İbrahimxəlil xan Avarlı Ömər xanla ittifaqa girərək Naxçıvana qarşı yürüş etdi. Onların qoşunlarının sayı 11 min nəfərə



çatırdı. Kəlbəli xan Xoy və İrəvan xanlarını köməyə çağırdı və onların köməyilə qələbə çaldı. Döyüşdə xeyli dağıstanlı muzdlu döyüşçü də həlak olduğundan Naxçıvan ətrafında döyüşün getdiyi yer «Ləzgiqıran» adlanır [3, 63].

Qarabağ və avar qoşunları Naxçıvanı tərk edər-etməz Ağa Məhəmməd şahın qasidləri xanlığa gəlib itaət rəmzi kimi girovlar verilməsini tələb etdi. Ağa Məhəmməd şaha müqavimət üçün kifayət qədər gücü olmayan Kəlbəli xan ürəyində nifrət bəslədiyi Abbasqulu xanı girov kimi Ağa Məhəmmədin yanına göndərdi. Sonuncu Abbasqulu xanı girov kimi Ağa Məhəmmədin yanına göndərdi. Ağa Məhəmməd xan Abbasqulu xanın Kəlbəli xanın doğma qardaşı deyil, əmisi oğlu olduğunu, əslində Kəlbəli xanın öz əmisi oğlu olaraq uzaqlaşdırdığını bilirdi. Bu səbəbdən də girovları qəbul etsə də ürəyində Kəlbəli xana qarşı kin yarandı.

Bir mənbənin məlumatına görə bu səbəbdən Şimali Azərbaycana 1795-ci ildə etdiyi birinci yürüşdən sonra Ağa Məhəmməd şah Kəlbəli xanın gözlərini çıxartdırıb Tehrana göndərdi. «Naxçıvan əyalətinin statistik təsviri»ndə bu münasibətlə yazılmışdır. «...Ağa Məhəmməd dağıdılmış Gürcüstandan geri qayıdarkən, Kəlbəli xanı silah gücünə özünə tabe edə bilməyəcəyini başa düşdüyündən hiyləyə əl atdı. Hörmətli adam kimi onu öz düşərgəsinə dəvət etdi. Lakin düşərgəyə gələn kimi kor edilib Tehrana göndərildi və həbsxanaya salındı. Bu hadisədən sonra Naxçıvan xanlığı öz müstəqilliyini demək olar ki, itirdi» [11, 49].

Lakin P.Q.Butkov Kəlbəli xanın gözlərinin 1797-ci ildə Ağa Məhəmməd şahın Şimali Azərbaycana ikinci yürüşü zamanı çıxarıldığını qeyd edir. Bu məsələ ilə bağlı o belə yazır: «Rus ordusunun qəflətən geri çəkilməsi ilə əlaqədar 1797-ci ilin yazında qəddarlıq və amansızlıqla hücum edən Ağa Məhəmməd camaatı qırırdı. Onun məqsədi şuşalı İbrahim xanı darmadağın etdikdən sonra yenidən Gürcüstana getmək idi. O, istəyirdi ki, vaxtilə Şah Abbas şamaxılılara, naxçıvanlılara, talışlara, gürcülərə və başqalarına divan tutaraq Mazandaran və Astarabada köçürdüyü kimi, o da əhalini doğma yurdlarından ayırıb sürgün etsin. Naxçıvana göndərilmiş

Sərdara göstəriş verilmişdi ki, Naxçıvan əhalisini zorla İrana köçürsün, kəndləri isə viran etsin. Naxçıvan xanı qərara aldı ki, özü şəxsən Ağa Məhəmməd xandan xahiş etsin ki, əhaliyə divan tutmasın. Lakin özü birinci olaraq, Ağa Məhəmməd xanın qəzəbinə düçar oldu» [10, 427-428].

Biz «Naxçıvan xanlığı» kitabının müəlliflərinə qoşularaq P.Q.Butkovun fikrini daha düzgün hesab edirik. Çünki Kəlbəli xan rus ordusu 1796-cı ildə Azərbaycanda olarkən nəinki V.P.Zubovla yazışmışdı, hətta o, İrana qarşı yardım almaq məqsədilə sadəlövhcəsinə Rusiyanın təbəəliyini qəbul etməyə hazır olduğunu bildirmişdi [3, 66].

Məhz, Kəlbəli xanın 1796-cı ildə rus komandanlığı ilə əlaqə saxlaması yəqin ki, Ağa Məhəmməd şahı tamamilə hövsələdən çıxarmışdı. Kəlbəli xan Tehran həbsxanasında çox qalmadı. Məlum olduğu kimi Ağa Məhəmməd şah Şimali Azərbaycana ikinci yürüşünü başa çatdıra bilmədi və Şuşada öz əyanlarının sui-qəsdi nəticəsində qətlə yetirildi. Ağa Məhəmməd şahın qətlindən sonra İranda hakimiyyəti ələ almış qardaşı oğlu Fətəli şah Kəlbəli xanı azad etdi, ancaq ona Naxçıvanda deyil, İrəvanda yaşamağa icazə verdi. Çünki Ağa Məhəmməd şah Naxçıva xanlığının idarəsini Abbasqulu xana tapşırmışdı. Kəlbəli xan yalnız 1802-ci ildə yenidən Naxçıvan xanı təyin olundu.

Birinci Rusiya – İran müharibəsi illərində 1806-cı ildən ruslara meyl edən Kəlbalı xan qohumu İrəvanlı Hüseynqulu tərəfindən həbs edilərək Tehrana göndərildi. Abbasqulu xan yenidən Naxçıvan taxtına çıxarıldı [6, 87]. Kəlbəli xanın oğlu Şeyxəli (Şıxəli) bəy isə rus ordusunun tərkibində vuruşurdu. 1808-ci il oktyabrın sonlarında gen. Nebolsinin tərkibində Şeyxəli xanın dəstəsinin də olduğu rus qoşunu Qarabağdan Naxçıvana tərəf hərəkət etdi. Şeyxəli xan rus qoşunlarının önündə getdiyindən Naxçıvan şəhəri döyüşsüz təslim oldu [6, 87].

Müharibənin sonlarna doğru Fətəli xan Kəlbəli xanı həbsdən azad etdi və o, 1812-ci ildə yenidən Naxçıvan hakimi oldu. 1820-ci ildə Kəlbəli xan idarəçiliyi oğlu Ehsan xana tapşırıb Məkkə ziyarətinə getdi. Ziyarət edən qayıdarkən yolda vəfat etdi [6, 87].



Sonrakı illərdə Hüseyn Mirzə və Məhəmməd Bağır xan qısa müddətlərdə xanlığı idarə etdilər. İkinci Rusiya-İran müharibəsinin (1826-1828) gedişində Naxçıvan rus qoşunları tərəfindən tutuldu. Rus hökuməti Ehsan xanı Naxçıvan hakimi təyin etdi. 1828-ci il Türkmənçay müqaviləsinə görə Rusiyaya Naxçıvan xanlığı İrəvan xanlığı ilə birlikdə ilhaq etdi [1, 48]. 1828-ci il martın 21-də isə Naxçıvan xanlığı ləğv edilib süni surətdə yaradılmış «Erməni vilayəti»nin tərkibinə daxil edildi.

Bir neçə kəlmə Naxçıvan xanlığının əhalisi barədə: Tədqiqatçının fikrincə xanlığın yaranması ərəfəsində xanlıq hüdudlarında əhalinin sayı 45140 nəfər, ləğvi dövründə 42497 nəfər olub [5, 117]. Həm faktiki, həm yer adlarının tədqiqi xanlıq əhalisi əksəriyyətinin Azərbaycan türklərindən ibarət olduğunu göstərir.

Beləliklə, göründüyü kimi XVIII yüzilliyin birinci yarısında digər Azərbaycan torpaqları kimi Naxçıvan vilayəti də çox çətin, mürəkkəb və böhranlı bir dövr keçirmişdi. Azərbaycan xalqının İran əsarətinə qarşı azadlıq mübarizəsi nəticəsində Naxçıvanda azadlıq qazanmış və burada müstəqil dövlət qurumu xanlıq yaranmışdı.

Naxçıvan xanlığının yaranması digər Azərbaycan xanlıqları ilə eyni qanunauyğunluğa malik olsa da, bəzi səciyyəvi xüsusiyyətlərə də malik idi. Bu xanlıq yaranması ərəfəsində Naxçıvanın idarəsi ilə bağlı idi. Nadir şah hakimiyyəti dövründə diyarı şah tərəfindən təyin olunmuş iki hakimi idarə («ölkə» hakimi və süvari bölmələrinin başçısı) etdiyindən, Nadir şah qətlə yetirildikdən sonra diyarda bu iki hakim arasında mübarizə getmiş və mübarizə hərbi rəisin-Kəngərli tayfa başçısı Heydərqulu xanın qələbəsi ilə başa çatmışdır.

Naxçıvan xanlığı Azərbaycan xanlıqları içərisində özünəməxsus yer tutmuş, digər Azərbaycan xanlıqları kimi dövlətçilik ənənələrimizin yaşadılmasında müəyyən rol oynamışdır.

## ƏDƏBIYYAT

1. Azərbaycan tarixi (yeddi cilddə). IV cild (XIX əsr). Bakı-Elm-2000, 508 s.
2. Budaqova S. Naxçıvan diyarının tarixi-coğrafiyası (XVIII əsrin II yarısı-XX əsrin I qərinəsi).Bakı, Elm. 195 s.
3. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, 1996.
4. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, Şərq-Qərb. 2007, 120 s.
5. Quliyev N. Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat). Bakı, «Elm» - 2006, 163 s.
6. Naxçıvan Ensiklopediyası (2 cilddə), c. 2, Naxçıvan, 2005, 380 s.
7. Rusiya Dövlət hərbi Tarix Arxivi. Fond. 52, siy. 1/194, 331, I his.
8. RDHTA, f. 52, siy. 1/194, iş 331, his. IV.
9. RDHTA, f. 52, siy. 1/194, iş 366, his. III.
10. Бутков П,Г, Материалы для новой истории Кавказа с 1722 по 1803 гг. Ч. 3, СПб., 1869
11. Статнческое описание Нахчиванской провинции составлеиное В. Григоревым. СПб., 1833




**T.ü.f.d. İradə Məmmədova**
**AMEA A.Bakıxanov adına Tarix İnstitutu,**
**"Ümumi Tarix" şöbəsinin böyük elmi işçisi**
**e-mail: irade.mammadli@gmail.com**

# NAXÇIVAN XANLIĞININ ƏHALISI (XVIII-XIX ƏSRIN ƏVVƏLLƏRINDƏ)

XVIII-XIX əsrin əvvəllərində Naxçıvan əhalisinin etnik tərkibini özündə əks etdirən bütün qaynaqlara nəzər saldıqda bu dövrdə türk-müsəlman əhalinin şəksiz üstünlük təşkil etdiyini görmək olar. Araşdırılan dövrdə Naxçıvan xanlığının ərazisində xristian elementi yad ünsür olmuş, müxtəlif dövrlərdən başlayaraq Rusiya imperiyasının Azərbaycanda özünə dayaq yaratmaq məqsədilə xristianların, xüsusilə də ermənilərin torpaqlarımıza süni surətdə yerləşdirilməsi nəticəsində meydana çıxmış və bu proses sonrakı dövrlərdə də davam etdirilmişdir. 1828-ci il Türkmənçay müqaviləsindən sonra ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi kütləvi xarakter almağa başlamışdır.

XVIII əsrdə Azərbaycan ərazisində mövcud olmuş xanlıqların, eləcə də Naxçıvan xanlığımn kameral təsvirlərinin olmaması əhalinin etnik, dini, sosial, say və s. tərkibinin dəqiq göstərilməsini mümkünsüz edir. Lakin, Osmanlı imperiyasınm XVIII əsrin əvvəllərində Azərbaycanın bəzi əyalətlərini tutması ilə tərtib etdikləri icmal və müfəssəl dəftərlərin ayrı-ayrı liva və sancaqlar üzrə əhalinin etnik, dini sosial tərkibinin öyrənilməsində rolu əvəzedilməzdir.

1727-ci il tarixli "Naxçıvan sancağımn müfəssəl dəftər"inə görə Naxçıvan sancağında 8957 vergiödəyən yaşayırdı. Əgər 1728-ci il tarixli "İrəvan əyalətinin müfəssəl dəftərlər"ində qeyd olunan Sədərək (207) və Şərur (1837) nahiyələrində yaşayan 2044 vergiödəyəni də bura əlavə etsək, onda Naxçıvan xanlığmın tarixi hüdüdları çərçivəsində 11001 vergiödəyən olduğunu demək olar [12, s.37-367]. Onlardan 51,5%-ini müsəlman, 48,5%-ini isə qeyri-müsəlmanlar təşkil edirdi. Eyni zamanda 1727-ci ildə Naxçıvan

sancağında yaşayan müsəlman əhalisindən olan idarəçiləri və hərbçiləri də nəzərə alsaq, onda burada müsəlman əhalinin üstünlük təşkil etməsi qənaətinə gəlmək olar [12, s. 13]. Digər tərəfdən 1727-ci ildə öz yurdlarını tərk etmiş 86 yaşayış məskəninin əhalisi müsəlman şiələrdən ibarət olmuşdur. Müfəssəl dəftəri tərtib edənlər bir çox kəndlərin əhalisinin şiə olduqları üçün əraziləri tərk etdiklərini və daha geri qayıtmayacaqlarını bildirirdilər [12, s. 324-325]. Deməli, Naxçıvan sancağı osmanlılar tərəfindən ələ keçirilənə qədər, burada türk-müsəlman əhali daha çox olmuşdur.

1727-ci ildə qəsəbə kimi qeydə alınan Ordubad şəhərində 359 evli, 230 subay müsəlman yaşayırdı [12, s.222-236]. Ordubad şəhərində xristian əhali qeydə alınmamışdı.

Araşdırılan dövrdə Naxçıvanda olmuş səyyahların məlumatları da əhəmiyyət kəsb edir. Bu məlumatlardan xanlıqlar dövründə Naxçıvan xanlığının əhalisinin əksəriyyətinin Azərbaycan türklərindən ibarət olduğu məlum olur. XVIII əsrin 80-ci illərində Naxçıvan xanlığında 500 həyət xristian qeydə alınmışdı [5, s.19].

XIX əsrin əvvəllərində Azərbaycanın şimal xanlıqlarının Rusiya imperiyası tərəfindən işğalından sonra rus məmurları tərtib etdikləri kameral təsvirlər bir sıra hallarda qüsurlu olsa da mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan xanlığının Rusiya tərəfindən işğalına qədər burada 5538 azərbaycanlı ailə yaşayırdı və erməni ailələrinin sayı köçürmələrə qədər 930 ailə təşkil edirdi [8, s. 119]. "Qafqazarxası vilayətlərin icmalı"nda isə köçürmələrə qədər burada yaşayan erməni ailələrin sayı 533 ailə, yəni daha az idi [14, h. IV, s.317].

Naxçıvan xanlığında əsas əhalinin Azərbaycan türklərindən ibarət olmasını Nikitin də təsdiq edir: "Qədim zamanlardan kəngərlilərin məskunlaşdığı Naxçıvan xanlığında tatarlar (Azərbaycan türkləri – İ.M.) böyük əksəriyyət təşkil edirdilər [13, s. 127]". 1826-cı ildə Naxçıvan xanlığında 12 min tatar (Azərbaycan türkü – İ.M.), 3800 ailə erməni qeydə alınmışdı [7, s. 26]. Köçürmələrə qədər Naxçıvan xanlığında yaşayan 39500 nəfərdən 30320 nəfəri Azərbaycan türkü, 9180 nəfəri isə erməni olmuşdur [3, v. 7]. Köçürmələrdən sonra



burada erməni əhalinin sayı süni surətdə çoxaldılmışdı. 1829-cu ildə Naxçıvan əyalətində 822 ev erməni qeydə alınmışdı [16, v. 2 arxa; 15, v. 2 arxa]. 1828-1831-ci illərdə Naxçıvan bölgəsinə 2387 erməni ailəsi köçürülmüşdü [19, s. 637].

1831-ci ildə Naxçıvan şəhəri və Naxçıvan əyalətinin kəndlərində Xoy (408 ailə), Təbriz (53 ailə), Marağa (69 ailə), Səlmas (1302 ailə – Səlmas və Xoydan 384 ailə), Deykərxan (26 ailə) və Urmiyadan (27 ailə + mənbədə ümumilikdə verilən Urmiya və Səlmasdan Məzrə kəndinə köçürülən 22 ailə) 2291 erməni ailəsi (mənbədə müəllif verilən rəqəmləri səhv hesabladığından 2285 erməni ailəsi yazır – İ.M.), Ordubad dairəsinə isə Təbriz (84 ailə) və Marağadan (182 ailə) 266 erməni ailəsi – ümumilikdə 2557 (müəllif səhv olaraq 2551 erməni ailəsi verir) erməni ailəsi köçürülmüşdü [17, s. 125-127].

1832 idə Naxçıvan, İrəvan və Ordubadın daxil olduğu "Erməni vilayəti"ndə köçürmələr nəticəsində ermənilərin sayı 82317-i nəfərə çatdırılmışdı [20, s. 67]. Həmin kameral təsvirə görə, Naxçıvan əyalətində 3859 ailə tatar və ya türkmən (Azərbaycan türkü – İ.M.), 533 ailə rus işğalınadək bura köçürülən erməni ailəsi və 1828-ci ildə İrandan köçürülmüş 2145 erməni ailəsi yaşayırdı [14, s. 317]. Göründüyü kimi, 1832-ci ilə aid məlumatda İrandan Naxçıvan əyalətinə köçürülən erməni ailələrinin sayı 1831-ci ilin statistikasına nisbətən daha az verilmişdir, yaxud da qəsdən azaldılmışdır. Həmçinin, Ordubad dairəsinə İrandan köçürülən ermənilərin sayı da 1831-ci ilə nisbətən daha az – 216 nəfər kişi cinsi göstərilmişdir [14, h. IV, s. 354].

İ. Şopenin məlumatına görə XIX əsrin 30-cu illərində keçmiş Naxçıvan xanlığının ərazisində ümumilikdə 5538 ailə (24385 nəfər) müsəlman əhali, 3325 ailə (17097 nəfər) xristian erməni yaşayırdı. Naxçıvan əyalətində müsəlmanların sayı 3863 ailə (17138 nəfər), ermənilərin sayı isə 2675 ailə (13369 nəfər) təşkil edirdi [19, s. 635-638]. Göründüyü kimi, hətta Rusiya imperiyası tərəfindən ermənilərin Naxçıvan ərazisinə köçürülməsindən sonra belə burada Azərbaycan türkləri üstünlüyə malik idilər.

**Naxçıvan şəhərinin əhalisi.**Naxçıvan şəhərinin əhalisi haqqında məlumatlar ya Naxçıvan xanlığının yaranmasınadək, ya da xanlığın Rusiya tərəfindən işğalından sonrakı dövrə təsadüf edir. Xanlıqlar dövründə Naxçıvan şəhərinin əhalisi haqqında kasad olan məlumatlar şəhərin əhalisinin etnik, dini, say və sosial tərkibinin müəyyənləşdirilməsində əhəmiyyətə malikdir.

XVIII əsrdə Naxçıvanda olmuş fransız səyyahı J. Şardən şəhərin 80% dağıdıldığını və tədricən bərpa olunduğunu, burada 2 min evin olması haqqında məlumat verirdi [18, s. 63]. Digər fransız səyyahı Q. Druvil də şəhərin dağıntılara məruz qaldığını bildirirdi [6, s. 18; 9, s. 3].

1727-ci ildə Naxçıvan şəhərində 867 vergiödəyən (789 müsəlman + 78 qeyri-xristian) qeydə alınmışdı. Yuxarı məhəllədə 399 türk vergiödəyən, Aşağı məhəllədə isə 390 türk və 78 qeyri-xristian vergiödəyən yaşayırdı [12, s. 37-50]. Ümumilikdə, Naxçıvan şəhərində türk-müsəlmanlar 91 %, xristianlar isə 9 % təşkil edirdilər.

XVIII əsrin əvvəllərində kəngərlilər Naxçıvan şəhərinin idarəsində və əhalinin say tərkibində xüsusi yer tuturdular. Şəhərdə 4-5 min əhali yaşayırdı [11, s. 101]. Nikitin şəhərdə 6 min nəfərin yaşadığını və müsəlman tatarların (Azərbaycan türkü – İ.M.) şəhərdə böyük əksəriyyət təşkil etdiyini bildirirdi [13, s. 114-115, 127]. 1796-cı ildə şəhərdə yalnız 700 ailə qeydə alınmışdı [20, s. 26].

1806-cıl ildə Naxçıvan şəhərində 5 min nəfərdən çox [4, s. 76], 1807-1828-ci illərdə isə 1100 ailə yaşayırdı [19, s. 540; 20, s. 26]. Naxçıvan xanlığının Rusiya imperiyası tərəfindən işğalı ərəfəsində şəhər əhalisi 4360 nəfər təşkil edirdi [8, s. 100].

Arxiv sənədlərinə görə Türkmənçay müqaviləsi bağlanan zaman Naxçıvan şəhərində 873 ev vardı. Bu evlərdə 1330 ailə yaşayırdı, əhalinin ümumi sayı isə 5470 nəfərə çatırdı. 5470 nəfərdən 1110-nu buraya rus işğalından sonra köçürülən ermənilər təşkil edirdilər [2, v. 8-9]. Türkmənçay müqaviləsi imzalanandan sonra İrandan Naxçıvan xanlığına və eləcə də Naxçıvan şəhərinə erməni ailələri köçürüldülər. "Statistik təsvirin" məlumatına görə, Naxçıvan şəhərinə Xoy şəhərindən 166, Təbriz şəhərindən 53, Marağa şəhərindən 69, Səlmas dairəsindən 97, Deykərxandan 26, Urmiya şəhərindən 5 erməni ailəsi (ümumilikdə 416 erməni ailəsi) köçürülmüşdü [17, s. 125]. Naxçıvan xanlığının Rusiya tərəfindən işğalından və ermənilərin buraya köçürülməsindən sonra şəhərin əhalisi 3641 nəfər (66,6%) tatardan (Azərbaycan türkündən – İ.M.), 1829 (33,4%) nəfər ermənidən, ümumilikdə isə 5470 nəfərdən ibarət idi. Şəhərdə olan 873 evdən 712-i tatarlara (81,5%), 122-si (14%) ermənilərə, 39-u isə xəzinəyə məxsus idi [19, s. 478-479]. Deməli, ermənilərin şəhərə köçürülməsindən sonra belə Azərbaycan türkləri böyük əksəriyyət təşkil edirdilər. Ermənilərin Naxçıvan şəhərinə köçürülməsindən sonra türk-müsəlman əhalinin vəziyyəti pisləşdi. Qriboyedovun qraf Paskeviçə 1828-ci il 1 noyabr tarixli məlumatından bunu aydın görmək olar: "İrəvana nisbətən, Naxçıvan vilayətində ermənilərin buraya köçürülməsindən sonra daha çox sıxıntılara və nizamsızlığa yol açdığını gördüm. Tatarların (Azərbaycan türklərinin - İ.M) narazılığı ən yüksək həddə çatmışdır. Onlar çarəsizlikdən təsərrüfat və əmlaklarını ata bilərlər, və bu halda biz nahaq yerə onların bizi tərk etmələrini İranın təsiri kimi qiymətləndirməliyik!" Bu məlumatdan bəlli olur ki, 1828-ci ildə şəhərdə 392 müsəlman ailəsi, 114 bura rus işğalından əvvəl köçürülən erməni ailəsi, 285 isə rus işğalından sonra köçürülən erməni ailəsi yaşamışdır [1, s. 647; 7, s. 89-90; 9, s. 6].

1830-cu ildə şəhərin 4 məhəlləsində 700 ev var idi. Şəhərin müsəlman evlərindən 4-ü xanlara, 47-si sultan və bəylərə, 3-ü axundlara, 7-i mollara, 18-i seyidlərə, 34-ü xan nökərlərinə, 386-ı (254 ev kəngərli tayfasının nümayəndələrinə məxsus idi) vergi mükəlləfiyyəti daşıyan tatarlara (Azərbaycan türklərinə – İ.M.) məxsus idi [17, s. 68-69, 130-131].

Mənbəyə görə, şəhərin əhalisi 1330 ailədən: 905 müsəlman, 156 erməni (rus işğalınadək bura köçürülən – İ.M.) və 269 rus işğalından sonra köçürülən erməni ailəsindən ibarət idi [14, s. IV, s. 332]. Əgər Paskeviçin məlumatından şəhərdəki erməni ailələrinin (xanlığın Rusiya tərəfindən işğalınadək buraya köçürülən) sayı 114 verilirsə, "Rusiyanın Qafqazarxası mülklərinin icmalı"nda bu erməni

ailələrinin sayı 156 göstərilir, yəni şişirdilir. Digər tərəfdən 30-cu illərdə şəhərdə müsəlman əhalinin sayı artır (392 ailədən 905 ailəyə çatır). Bu artım rus-iran müharibələri və ermənilərin şəhərə köçürülməsindən sonra müsəlman əhalinin sıxışdırılması nəticəsində buranı tərk edən Azərbaycan türklərinin geri qayıtması ilə bağlı idi.

Beləliklə, mənbələrin qarşılıqlı tədqiqi göstərir ki, Naxçıvan xanlığında Azərbaycan türkləri çoxluq təşkil etmiş, hətta Rusiya imperiyası tərəfindən ermənilərin bu ərazilərə köçürülməsindən sonra belə xanlığın dini tərkibində Azərbaycan türkləri böyük üstünlüyə malik olmuşlar.

Ədəbiyyat


1. АКАК, т. VII, док. 623, с. 647.
2. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f.24, siy.1, iş 353.
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f.24, siy.1, iş 354.
4. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı - XIX əsrin birinci qərinəsi), B., 1995.
5. Бурнашев С. Описание областей Адербиджанских в Персии и их иолитического состояния. Курск, 1793.
6. Друвиль Г. Путешествие в Персию в 1812 и 1813 гг. (Перевод с французского), географическое описание, ч. II, Москва, 1826.
7. Кавказский сборник, т.XXII, Тифлис, 1900.
8. Quliyev N. A. Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat), B., 2006.
9. Мамедова И.М. Демографичсская ситуация в столице Нахичеваиского ханства // Вестник института Истории, Археологии и Этнографии (Российская академия наук Дагестанский научный центр), 2009, № 1 (17).
10. Материалы к истории персидской войны 1826-1829) //Кавказский сборник, т. XXX, Тифлис, 1910.
11. Mustafazadə T.T. Naxçıvan diyarı XVIII əsrin əvvəli – XIX əsrlərdə // Naxçıvan: tarixi reallıq, müasir vəziyyət, inkişaf prespektivləri. 9-10 iyun 2006-cı ildə keçirilmiş beynəlxalq simpozyumun materialları. Bakı, 2006.
12. Naxçıvan sancağının müfəssəl dəftəri (qeydlərin müəllifi H. Məmmədov, tərcümə edənlər akademik Z. Bünyadov, H. Məmmədov), B, 2001.
13. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд//Сборник материалов для описаиия местностей и племеи Кавказа. Выпуск второй, Тифлис, 1882.
14. Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях, ч. IV, СПб., 1836.
15. Опись армяиским городам и селениям иаходящемуся в Персии учиненная жившим оной около 10 летах Карабахским дворяниином Лазаром Мелик Нубаровым в 1829 году // Российский Государствеиный Военио-Исторический архив (далее РГВИА), ф. 446, оп. 1, д. 175.
16. Список армянских селений в Персии, составлениый Лазар Мелик-Нубаровым 24 марта 1827 года. Тифлис.// РГВИА, ф. 446, оп. 1, д. 170.
17. Статистическое оиисание Нахичеванской провинции. Санкт-Петербург, 1833.
18. Şardən J. Səyahətnamə (Azərbaycan dilinə tərcümə edən V. Aslanov) B., 1994.
19. Шопен И. Исторический памятник состояния Армяиской области в эиоху ее ирисоединения к Российской имиерии. СПб., 1852.
20. Verdiyeva H. XIX əsrin birinci yarısında Şimali Azərbaycanın əhalisi, B., 1993.

# НАХЧИВАНСКОЕ ХАНСТВО И ВОЕНИАЯ КАМПАНИЯ 1827 Г. В РУССКО - ИРАИСКОЙ (КАДЖАРСКОЙ ) ВОЙНЕ 1826-1828 ГГ.

**Нармина Амирбекова.**
**доктор философии по историческим наукам,**
**старший иаучиый сотрудник**
**отдела «Всеобщей истории»**
**иаститута истории им. А.А. Бакиханова**
**Национальной Академии Наук Азербайджана**

Условия Гюлнстанского мира 1813 г. не удовлетворяли ни Россию, ии Иран, ии ханства Азербайджаиа. Каджарский Иран усиленно готовился к реваншу. Уже к осени 1826 г. Аббас Мирза имел 30 тыс. армию и 100 орудий. Успешная война с Османским государством 1821-1823 гг. укрепила решнмость Ирана начать войну с Россией.

Россия также была не довольная, т.к. статус кво, созданный по договору 1813 г. не позволял надежно защищать южные рубежн. «Яблоком раздора» в начавшейся второй русско-иранской (каджарской ) войне стали Нахчиванское и Ireванское ханства.

Военная кампания 1827 г. по своему характеру глубоко отлнчалась от кампании 1826 г. Эта кампания открылась широким общим наступленнем русской армии под главным иачальством ново назначенного командира Отдельного кавказского корпуса генерал-адъютанта Паскевича в пределы Нахчыванского и Ирсванского ханств.

В кампании 1827 г. Аббас- Мирзе не удалось захватить важнейших стратегических пунктов, городов и коммуникационных линий в тылу врага. Поражение каджарской армии в кампании 1826 г. (крупное поражение в Елизаветпольской (гяиджинской) битве) заставили перейти от наступления к обороне.

Общее наступление действующего корпуса генерал-адъютанта Паскевича в кампании 1827 г. совершалось по зараиее строго продуманному плану и после длительиой подготовки.

Аббас – Мирза умело использовав военную хитростью. Аштаракским боем, как приманку, ои вызвал весь действующий корпус Паскевича из лагеря Кара-бабы, находившегося в горах, около Нахчивана.

Как только Паскевич получил известие, что часть его армии, оставлеииая под начальством генерала Крассовского под Эчмиадзином, потерпела поражение в бою с иранскими (каджарскнмн) войсками, он спешно перебросил основиые свои силы на помощь Красовскому. Этого и нужно было Аббас Мирзе, чтобы сорвать подготовлявшееся иаступление Паскевича на Тебриз.

В отличин от тактики генерала А. П. Ермолова (комаидующего русской армии в кампанни 1826 г.), Паскевич, действовавший в кампании 1827 г. на территории двух ханств – Нахчыванского и Иреванского, сильио раздроблял свои военные силы. Под Иреванью и Эчмиадзином им было оставлсио около 3 тысяч солдат, под начальством генерала Крассовского. Здесь была сосредоточена только прибывшая из России в подкреплеиие войскам Отдельного Кавказского корпуса 20-я дивизия. Имеино она то и потерпела поражение под Аштараком. Генерал Крассовский должен был наблюдать за движением каджарскнх войск в крепостях Иревани, Сардар-Абада и вокруг Эчмиадзинского монастыря, охряияя таким образом, начало приаразской долины.

Когда генерал-адъютант Паскевич вынужден был передвинуть из под Иахчнвани свои силы иа помощь Крассовскому, он оставил и там под начальством князя Эристова отдельный самостоятельный отряд, имевший целью

защищать переправы через реку Араз и не допустить военные силы Аббас Мпрзы подступнть к Нахчиване или к крепости Аббас-Абад.

Таким образом, все военные силы были раздроблены Паскевичем на три самостоятельные действующне части, не счнтая мелких отрядов, несших гарнизонную службу или конвоировавшнх военные грузы. В помощь Паскевичу был прислан начальник главного штаба, генерал Дибич.

Геиерал-адъютант Паскевич в течении шести месяцев тщательно готовился к проведению кампании 1827 г. При наличии перечисленных возможностей и средств, которыми он располагал, казалось, что военные действия Паскевнча должны закончить эту войну в кратчайший срок.

На основанин всех имеющихся возможностей начальник Главного штаба генерал Дибич рассчитывал, что военную кампанию 1827 г. можио закоичить до наступления летней жары. Так от рассчитывал до марта захватить Иревань, а летом овладеть Марандом, Хоем и может быть Тебризом.

Действнтельность оировергла эти предположения. Не только в течении марта, но даже до конца сентября военные силы геиерала Паскевича былн заняты завоеванием крепостей Нахчывани, Аббас-Абада, Сардар-Абада и Иревани.

Как уже отмечалось выше, одним из главных задач кампании 1827 г. стояло захват Нахчнванского ханства и укреплении позиций русскнх войск в направлении Тебриза. В начале июня главные силы ген. Паскевича двинулись к Нахчивани нз лагеря, расположенного иа р. Гарни-чае, стоящий от Иревани в 25 км.[7, с.242,275]

Продвиженне русских в условиях удушающей жары и тяжслого клнмата иизменной долины р. Араз сильно отрозился иа здоровье русскнх солдат. Число больных с каждым днем увеличнлось. Этот поход был затруднен еще и тем, что местность, по которой предстояло двигаться, была теперь



пустынна и безлюдна, т.к. жители покинули свои места из-за военных действий.[1, док.512]

Во время продвнження главные силы русских только у самой Нахчнвани произошла стычка между каджарской армией и авангардом русских войск. Однако отсутствне Керим хана в ханстве позволилн русскнм без боя 26 июня 1827 г. взять Нахчнвань.[3, с.236; 4,с.62; 6, с.167]

По заданию ген. Паскевича разрабатывались две лииии дорог в долину р. Куры: 1. Нахчывань-Герусы-Шуша; 2. Нахчивань-Агоглан-Зардоб-Сальяны-Каспийское море. Обеспечению этих сообщений лежало на обязанности отрядов ген. Панкратьева и ген. Краббе. Дальнейшее продвижение ген. Паскевича затруднялось тем, что прокладка коммуникационной линнн с пунктом снабжения в село Герюсы еще не была закончена. Подвод военных грузов и транспортов с продовольствием в ближайшее время нельзя было ожндать.

В 10 км к юго-западу от Нахчиванн, на левом берегу р. Араз стояла крепость Аббас-Абад,[1, док.515] построенная Аббас Мирзой по указанию французских инженеров.[5,с.83-84] Опа запирала иуть в г. Хой и служнла военной базой каджарских войск на террнтории Нахчиванского ханства. После взятия Нахчивани , часть русских войск подступила к этой крепости, которая нмела важное стратегическое зпачснис. Осуществлеиием плана овладения этой крепостью, ген. Паскевич рассчнтывал привлечь сюда основные силы Аббас – Мирзы и заставнть его здесь принять генеральное сражение. Таким образом, он рассчитывал одним ударом закончнть всю кампанию. Оборону крепости возглавлялн комендант Мухаммед Эмин хан и командир нахчиванского отряда Эхсаи хан. Помочь обороне крепости должен был Аббас Мирза. Однако, он с отрядом в количестве 7 тыс. человек остановился в селе Хок и стал ждать подкрепления из Тебриза.

29 июля 1827 г. во время осмотра местности Паскевич замстил высоту на расстоянии пушечного выстрела от крепости,

с которой весь Аббас-Абад был как на ладони. Решено было на этой высоте построить редут.[8, с.287]

Став лагерем в двух километрах от Аббас-Абада, правым флангом к Аразу, а тылом к Нахчиванской дороге, Паскевич планировал обстрелом батареи разрушить укрепления на западной стороне крепости, а затем штурмом овладеть всей крепостью. Однако его планы были нарушены. Утром 5 июля каджарское войско, оттеснив казачьи аванпосты расположился в 15 км от Араза, выслав в перед сильные кавалерийские разъезды. Узнав об этом ген. Паскевич оставив часть своих войск для прикрытия осадных работ и обозов, двинулся на противника. Немедленно была переправлена через Араз вброд вся регулярная конница и конная артиллерия, под начальством ген.-ад. Бенкендорфа. Сам же Паскевич взял под командование пять батальонов пехоты и артиллерию. Остальными тремя батальонами командовал Эристов.[8, с.287]

Кавалерия и несколько пушек Аббас-Мирзы занимали высоту, контролировавшую камснистую долину. Паскевич уступами провел пехоту против левого крыла армии Аббас-Мирзы, а Эристову был дан приказ атаковаать ушелье, расположенное на левом фланге. Паскевич опрокинул левый фланг каджаров, овладел высотами центра, затем все силы бросил на преследование конницы Аббаса-Мирзы. Отряд русских пройдя 8 верст (8,48 км), остановился в урочище Хумлер у ручья Джеван- Булаг, где и произошло сражение.

Крепость Аббас-Абад смотрела на степь Хаджи- Ларус, за которой находились скалистые ущелья, в одном из которых находился родник Джеван-Вулаг, давший название урочищу.[2,с.606.]

Пехота Аббас-Мирзы стояла в 28 верстах (29, 68 км) от Джеван-Булага на укрепленной позиции у Каразиадина. Сюда Аббас-Мирза надеялся завлечь весь отряд Паскевича. В сражении кавалерией центра командовал сам Аббас-Мирза. правым флангом – Алаяр хан, а левым - Сардар Ибрагим и Гасан-хан Иреванский.

Паскевич планировал фланговыми ударами разбить противника. Основной удар русских войск приняла на себя конница Аббаса-Мирзы в количестве 16 тысяч, усилиями которой он стремился выманить противника из ущелья.

В ходе сражения обе стороны не учли рельеф местности. Конница Аббас-Мирзы не выполнила свою задачу, так как в условиях скалистого рельефа потеряла маневренность. Паскевич также не сумел окружить противника, так как его войска продвигались по отдельным ущельям. Однако Паскевичу удалось сохранить блокаду Аббас-Абада.[8, с.288]

Попытки гарнизона крепости самостоятельно прорвать блокаду окончились неудачей. 7 июля 1827 г. после артиллерийского обстрела крепость была захвачена.

Джеван-булагское сражение имело своей целью решить судьбу крепости Аббас-Абад. Паскевич планировал захватить крепость и, разбив армию Аббаса-Мирзы на подступах к ней, закрепить успех. Но быстрое продвижение частей Аббаса-Мирзы нарушили его планы.

Начальный этап операции способствоал успеху каджарской армии, однако последующие ошибки Аббаса-Мирзы свели его преимущество к минимуму. Так он не воспользовался сильной конницей Иреванского хана. Если бы Аббас-Мирза согласился на действия Гасан хана Иреванского на оперативном направлении Иревань-Нахчивань-Аббас-Абад, он мог вынудить Паскевича вести бой на два фронта. Однако Аббас-Мирза призвал к себе Иреванского хана и объединил его конницу со своим войском. Он также остановил быстрый рейд своей конницы и допустил переправу русских войск через р.Араз.

Каджарские войска, как показывают источники, потеряли не более 500 человек и, следовательно, говорить о победе русских войск в полном смысле этого слова не приходиться, несмотря на то, что Паскевичу удалось выполнить основную поставленную

перед ним задачу - захватить крепость Аббас-Абад и полностью территорию Нахчиванского ханства.

Список использованной литературы.
1. АКАК, под ред. Берже. т. VII. 1886
2. Дубровин Н.Ф. История войн и владычества русских на Кавказе т. VI Спб.1888 ,689 с.
3. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi. Bakı, 2011, 388 s.
4. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı (1747—1828). Azərnəşr, 1996. — 106 səh.
5. Əmirbəyova N.Ş. "Abbas-Abad qalası". Hərbi bilik , № 4, 2000,
6. Umudlu V. Şimali Azərbaycanın çar rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əlehinə mübarizə (1801-1828). Bakı, Elm, 2004,180 s.
7. Утверждение русского владычества на Кавказе. под ред. Потто т.IV, ч.1,Тифлис 1905 г.
8. Щербатов М. Генерал-фельдмаршал князь Паскевич. Его жнзнь и деятельность. т. III, Спб-1891.



**İLHAMİ ƏLİYEV**
AMEA Naxçıvan Bölməsi
E-mail: ilhamialiyev@yahoo.com.tr

## MUXTARİYYƏT ƏRƏFƏSİNDƏ NAXÇIVANIN ERMƏNİ TƏCAVÜZÜNDƏN MÜDAFİƏSİ

XX əsrdə ermənilər tərəfindən Azərbaycamn türk-müsəlman əhalisinə qarşı dəfələrlə törədilmiş qırğınlar, soyqırımlar, dağıntılar, milli mədəniyyətin məhv edilməsi və s. terror kampaniyalarından biri də 1918-21-ci illərdə həyata keçirilmişdir.

Bu irimiqyaslı erməni vandalizminin bir səbəbi var idi: Rusiyada 1917-ci il fevral burjua-demokratik inqilabının və oktyabr çevrilişinin qələbəsindən istifadə edən erməni millətçiləri Cənubi Qafqazda siyasi hakimiyyətə yiyələnmək, tarixi Azərbaycan torpaqlarında "Böyük Ermənistan" dövləti yaratmaq xülyasını reallaşdırmaq istəyirdilər. Bu məqsədlə onlar, illərdən bəri hazırladıqları planlarım 1918-ci ilin əvvəllərində gerçəkləşdirməyə başladılar. Həmin ilin mart ayının sonunda daşnak-bolşevik birləşmələrinin Bakıda başladıqları soyqırım digər bölgələrdə də, Quba, Şirvan, Lənkəran, Naxçıvan, Zəngəzur, Qarabağ və s. Azərbaycan torpaqlarında sentyabrın ortalarınadək davam etdirilmişdir. Nəticədə 6 ay müddətində 50 mindən artıq günahsız azərbaycanlı – qoca, uşaq, qadın daxil olmaqla erməni vəhşiliyinin qurbanına çevrilmişdir. Bu cür etnik təmizləmə və soyıqrım siyasəti yuxarıda adlarını sadaladığımız Azərbaycan bölgələrinin hamısında, özü də 1921-ci illədək davam etdirilmişdir. Bu zaman ermənilər Qarabağda 157, İrəvan quberniyasında 211, Şamaxıda 58, Qubada 122, Qarsda 92, İqdır və Üçkilsədə 60, Göyçədə 22, Dərələyəzdə 74, Vedibasarda 118, Yeni Bəyaziddə 84 kəndi dağıtmışdılar (4, s. 177). 1918-1920-ci illərdə Azərbaycanın ayrı-ayrı bölgələrində 250 min, Qərbi Azərbaycanda isə 132 min azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir (10, s. 91).

Qeyd etmək lazımdır ki, Naxçıvana erməni təcavüzü hələ 1917-ci ilin payızından başladı. İlk olaraq 1917-ci ilin oktyabrında Yamxana, Qaraxanbəyli və Tumbul kəndlərində yaşayan ermənilər bu yaşayış məntəqələrinin xüsusi kənd cəmiyyətləri kimi ayrılmaları haqda icma qərarları çıxarması (1, s. 186-187) təxribatın başlanmasına səbəb oldu. Dekabr ayında isə Naxçıvan dəmir yolunda xidmət edən rus kazakına məxsus silahın özünü azərbaycanlı kimi göstərən bir erməni tərəfindən oğurlanması rus əsgərləri ilə türk-müsəlman əhali arasında nifaq salınmasına gətirib çıxardı. Bununla da, münaqişənin yaranması üçün ilkin zəmin hazırlandı. Həm də, bu dəfə də ermənilər günahkar tərəfin azərbaycanlılar olması və məsuliyyətin öz üzərlərindən atılmasına nail oldular. Dekabr ayının 22-23-də rus-erməni silalı dəstələri Naxçıvan şəhərində azərbaycanlılar yaşayan məhəllələri atəşə tutdular (1, s. 188). Bu zaman kütləvi qırğınlar baş verməsə də, bu terror hadisəsi ilə münaqişənin başlanmasına start verildi.

Arxiv sənədləri, tarixi mənbələr və bir çox tədqiqatçı alimlərin əsərlərindən məlum olduğu kimi, bəhs edilən illərdə Naxçıvanda yaşayan ermənilər XIX əsrin birinci yarısında Çar hökuməti tərəfindən məqsədli şəkildə köçürülmüşdür. Ona görə də bu zaman Naxçıvanda erməni və müsəlman milli komitələri fəaliyyət göstərirdi (9, s. 56). Hər iki milli komitənin hərbi qüvvələri var idi. Lakin erməni təcavüzü başlayan vaxt müsəlman-türk hərbi heyətinin rəhbərliyi Tiflisə gedib, sonra qayıtmadığından bu hərbi müdafiə qüvvələri dağılmış və onların döyüş sursatını erməni tərəfi ələ keçirmişdir. Həmçinin 1917-ci il dekabrın 5-də Rusiya ilə Osmanlı dövləti arasında bağlanan Ərzincan sülhündən sonra rus hərbiçiləri silahlarını ermənilərə vermişdilər. Bununla da ermənilər böyük qardaşlarının dəstəyi ilə türk-müsəlman əhalini qırmaq, sürgünə məruz qoymaq, onların yaşayış yerlərini dağıtmaq və ələ keçirmək üçün lazımi şəraiti əldə etmiş oldular. 1918-ci ilin əvvəllərindən başlayaraq Tiflis daşnak şurası tərəfindən Naxçıvana göndərilmiş Y.Xarazyan başda olmaqla yerli daşnak erməniləri həm şəhərdə, həm



də Naxçıvan qəzasının bir çox kəndlərində müsəlman əhaliyə hücum edərək, onları qətlə yetirməyə başladılar (2, s. 11).

1918-ci il yanvarın 17-də ermənilər Əznəbürd (Çalxanqala) kəndinə hücum edib 22 nəfər uşaq və qadını qətlə yetirdilər (6, s. 10). Mart ayının 18-dən 21-nə kimi Əlincəçay vadisində yerləşən Bənəniyar, Qızılca, Saltax, Noraşen (Göydərə), Xoşkeşin və s. kəndlərə hücum edən ermənilər bu yerləri qarət etmiş, dağıtmış, əhalisini müxtəlif vəhşi üsullarla qətlə yetirmişdilər. Canlarını qurtaranlar isə qonşu kəndlərə və Naxçıvan şəhərinə qaçmışdılar. 1918-ci il martın 31-də Qaraxanbəyli kəndində yaşayan ermənilər azərbaycanlıları atəşə tutdular (2, s. 11). Bu zaman Nehrəm kənd sakinləri ermənilərə qarşı mübarizəyə qalxdılar. Vuruşmada 25 azərbaycanlı öldürüldü, onların meyitlərini döyüş meydanından çıxarmaq mümkün olmadığından sonra aparılan danışıqlar nəticəsində həmin meyitlərdən 6-ı almaq mümkün olmuşdu (2, s. 12). Gördüyümüz kimi Bakıda kütləvi qırğınlar başlayan ərəfədə Naxçıvanda erməni vəhşiliyi artıq davam edirdi.

1918-ci ilin aprelində Naxçıvanda Müsəlman Milli Komitəsinin rəhbərliyi ilə buradakı erməni qarnizonunun rəisi Y. Xarazyan arasında sülh təşəbbüsü ilə danışıqlar aparıldı (1, s. 190). Əvvəl erməni tərəfinin irəli sürdüyü şərtlər müsəlman əhali tərəfindən etirazla qarşılandığından bir nəticə əldə olunmadı. İkinci dəfə ermənilər sülhün bərpa edilməsinə daha çox can atırdılar. Çünki I Qafqaz ordusunun komandiri Kazım Qarabəkir paşanın imzası ilə Naxçıvana, Müsəlman Milli Komitəsinin sədrinə göndərilən məktubda tezliklə türk ordusunun köməyə gələcəyi bildirilirdi (8, s. 25-26).

Lakin bu xəbərdən sonra Naxçıvana gətirilən 1800 nəfərlik erməni hərbi qüvvələri, 6 top və digər döyüş sursatları, başda Y.Xarazyan olmaqla, erməniləri daha da quduzlaşdırdı. May ayında Y.Xarazyan öz dəstəsilə Naxçıvanın bir sıra (Qaraxanbəyli buradan isə Culfaya, Vənənd və onunla qonşu kəndlərə hərəkət etdi. (6, s. 34)) kəndlərinə hücum edərək, qırğınlar həyata keçirmişdir. Mayın 28-də Azərbaycanın dövlətçilik tarixində mühüm səhifə təşkil edən

Azərbaycan Xalq Cumhuriyyəti yaradıldı. Yeni qurulan milli hökumət bölgələrdə ermənilərin həyata keçirdiyi qırğınların dayandırılmasına əsaslı təsir göstərə bilməsə də, onun 1918-ci il, iyunun 4-də Türkiyə ilə bağladığı Batum müqaviləsinin şərtlərinə uyğun olaraq, birləşmiş Qafqaz İslam Ordusunun Azərbaycan torpaqlarının daşnak-bolşevik birləşmələrindən təmizlənməsində böyük rolu olmuşdur. Lakin bir məsələni qeyd edək ki, hələ bu müqavilədən əvvəl Naxçıvanın erməni təcavüzündən qorunması üçün türk hərbi qüvvələri gəlmişdi. Çünki Naxçıvan nümayəndə heyəti onların gəlişindən əvvəl kömək üçün Osmanlı hökumətinə müraciət etmişdi. Belə ki, mayın 17-də Xəlil bəyin başçılığı ilə bir qrup Osmanlı hərbiçisi Naxçıvana gələrək, Şaxtaxtında yerləşmiş, topçu Hüsni Əfəndi azərbaycanlılardan ibarət hərbi dəstələr təşkil edilməsi və topçular hazırlanması ilə məşğul olmağa başlamışdı (1, s. 194). Türklərin bu gəlişi erməni daşnaklarını öz bədnam əməllərində daha da fəallaşdırdı. 1918-ci ilin iyun-iyul aylarında ermənilər Naxçıvanda misli görünməmiş vəhşiliklər törətdilər. Çünki bu zaman Türkiyə və Azərbaycanın müxtəlif bölgələrində saysız-hesabsız və ən qəddar üsullarla qırğınlar törədən Andranik Ozanyan Naxçıvan ərazisinə daxil oldu və bir-birinin ardınca bir çox kəndlərin əhalisini qıraraq, xarabalığa çevirdi. Onun quldur dəstəsi təkcə Gilançay və Əlincəçay vadilərində 80-dən artıq kəndi dağıtdı və əhalisinin əksər hissəsini qırdı. İlk olaraq bu erməni quldurları Yaycı və Aşağı Aza kəndlərini dağıtdılar. Tək Yaycı kəndində 4 min nəfər müsəlman erməni vəhşiliyinin qurbanına çevrildi. Lakin bütün bunlarla yanaşı igid Naxçıvan oğullarının qəhrəmanlıqları sayəsində bir sıra yaşayış məntəqələri daşnaqlardan cəsarətlə müdafiə olunmuşdu. Belə ki, sonrakı hücumunu Naxçıvan qəzasının daha çox əhalisi olan Nehrəm kəndinə etmiş Andranik burada sərt müqavimətlə qarşılaşdı. Daşnaklar kəndi mühasirəyə alsalar da, cəsur Nehrəm əhalisi Hacı Mehdi və Kərbəlayi Muxtar Cəfərzadənin rəhbərliyi altında qanlı döyüşlərə girərək, erməniləri geri oturtdular. Kəndi tutmağın mümkün olmadığını görən Andranik öz dəstəsilə oradan uzaqlaşdı. Bu kəndin müdafiəsində iştirak etmiş Nehrəm taborunun üzvü



Heydərqulu Həsənov öz xatirələrində yazırdı ki, Andranik Nehrəm kəndinin kənarından keçib Təzəkənddəki 300 nəfərlik daşnaq silahlıları ilə birləşmək istəyirdi, lakin nehrəmlilər ona imkan vermədilər (2, s. 15-16). Bundan sonra Andranik Əlincəçay boyunca yerləşən bir çox kəndin əhalisini qıraraq, bu yerləri yandırdı və oradan Naxçıvan şəhərinə hücum etdi. Lakin şəhər özünü müdafiə dəstələri və bütün polis məmurları daşnaqların hücumunun qarşısını kəsdilər. Şəhəri mühasirəyə alan Andranik iyulun 2-də Müsəlman Milli komitəsinə 24 saat müddətində təslim olmaq haqqında ultimatum göndərdi (2, s. 17). Şəhər müdafiə qüvvələrinin tabe olmadıqlarını görən daşnaqlar hücuma başladılar. Döyüşlər "Cıdırlı bağ"ı istiqamətində - indiki Şərur şosesindən Xətai kəndi də daxil olmaqla olan ərazidə gedirdi. Kalbalı xan Cəfərqulu xan oğlu Naxçıvanskinin rəhbərliyi ilə, rəşadətlə vuruşan yerli özünü müdafiə qüvvələri Andranikin şəhərə daxil olmasına imkan vermədilər. Yeri gəlmişkən bir məsələni qeyd etmək lazımdır ki, 1918-1921-ci illərdə Naxçıvanın erməni təcavüzündən müdafiəsində Naxçıvan xanları və onların qohumu olan İrəvan xanlarının nəslindən olan igid oğulların böyük rolu olmuşdur. 5 iyul tarixində, mübarizənin qızğın vaxtında Duzdağ tərəfdən, türk toplarından atılan mərmilər erməni qərargahının yanına düşdü. Türklərin yaxınlaşdığını görən daşnaklar tələsik qaçmağa başladılar. İyulun 8-də türklər Naxçıvan şəhərinə daxil oldular. Onların gəlişini yerli əhali çox böyük sevinclə qarşıladı. Bu zaman şəhər və ətraf kəndlər daşnaqlardan təmizləndi. Qeyd edək ki, tədqiqatçı İ.E.Atnur isə göstərir ki, türk qüvvələri 20 iyulda Naxçıvana çatmışdır (9, s. 68). Həmin vaxt türklər Naxçıvan qəzasında erməni hücumlarından müdafiə olunmaq üçün yerli müsəlmanlardan ibarət qoşun hissələri yaratmağa başladılar. Bu işin təşkili Məhəmməd Əli xan Naxçıvanskiyə həvalə edildi (3, s. 74). Tezliklə təkcə Nehrəm, Qaraçuq və Bulqan kəndlərindən ordu üçün 200-ə qədər əsgər toplandı (2, s. 18). Bundan sonra Ordubadda Xəlil bəyin rəhbərliyi ilə nizami hissələr yaradılmağa başladı (9, s. 64-65). Çünki, bu zaman Ordubadın müdafiəsi daha vacib sayılırdı. Belə ki, Naxçıvandan geriyə çəkilən Andranik əvvəlcə Sirab, Qahab və s.

kəndlərin əhalisini qıraraq, bu yerləri dağıtmış, sonra Ordubad istiqamətində hərəkət etmişdi. Onun məqsədi daşnakların nəzarəti altında olan Zəngəzura qaçmaq idi. Buna görə də onun quldur dəstəsi Ordubad qəzasının Tivi, Bist, Parağa, Nəsirvaz, Der və s. kəndlərinə toplaşırdı ki, tezliklə bu yerlərdən çıxsınlar (2, s. 19). Həmçinin həmin vaxt türk hərbi komandanlığı Zəngəzura giriş qapısı olan Ordubadı nəzarət altına almağı özünün əsas vəzifələrindən biri sayırdı. Ordubad qəzasında nizami hissələr təşkil olunduqdan sonra ətrafda yerləşən və əvvəllər üsyan vəziyyətində olan bütün erməni kəndləri itaət altına salındı. Bu hərbi qüvvələr Zəngəzurun ermənilərdən müdafiəsində də iştirak etmişdilər (9, s. 64).

1918-ci il avqustun 5-də Türkiyənin I Qafqaz ordusu, iki gün sonra XI ordu komandam Kazım Qarabəkir Paşa Naxçıvana gəldi (9, s. 61-62). Onun gəlişi ilə bölgədə erməni təcavüzündən müdafiə məqsədilə ciddi tədbirlər görüldü. Müsəlman əhali əmin-amanlıq əldə etdi. Kazım Qarabəkir Paşanın ilk məqsədi Naxçıvan-Zəngəzur-Azərbaycan əlaqəsini yaratmaq idi (9, s. 68). Lakin onun bu planı Şərq orduları qrupu komandanlığı tərəfindən qəbul olunmadı və türk ordusu Təbrizə göndərildi. Ən acınacaqlısı isə o idi ki, 1918-ci ilin noyabrında türklərin bölgəni tamamilə tərk etməsindən sonra Naxçıvanda erməni təcavüzü yenidən baş qaldırdı. Noyabrın 5-də Naxçıvanda Araz-Türk Respublikası yaradıldı. Osmanlı hərbi dairələrinin yaxından köməyi ilə yaradılan bu hökumət Naxçıvanın Azərbaycan torpağı kimi qorunub saxlanmasında mühüm rol oynamışdı. Qısamüddətli idarəçiliyi zamanı Araz-Türk Respublikasınm hərbi naziri İ.Cahangiroğlu tərəfindən silahlı qüvvələr – könüllü xalq dəstələrindən ibarət taborlar yaradıldı. Bu taborlardan 4-ü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə, digərləri isə Vedibasar, Qəmərli və Zəngibasarda yerləşdirilmişdi (1, s. 199). Sonrakı daşnak hücumlarından bölgənin müdafiə olunmasında bu taborçular böyük qəhrəmanlıqlar göstərdilər.

1918-ci ilin dekabrında daşnaklar Şərura hücum etdilər. Bu zaman Bəhram xan Naxçıvanskinin başçılıq etdiyi Naxçıvan taboru Dəmirçi kəndi tərəfdən erməni quldurlarımn üzərinə hücuma keçdi.



Döyüşdə 25-30 erməni öldürüldü, xeyli hərbi sursat və ərzaq ələ keçirildi (2, s. 20). Daşnaklar geri çəkilməyə məcbur oldular.

1919-cu ildə də daşnaklar tez-tez Naxçıvan ərazisinə hücumlar edərək, qırğın və dağıntılar törətmişlər. Təkcə yanvar-mart aylarında Naxçıvan, Şərur və Ordubad qəzalarına müxtəlif istiqamətlərdə hücumlar etmiş və böyük qırğınlar törətmişlər. 1919-cu il yanvarın axırlarında Şərura hücum edən daşnaklara qarşı Araz-Türk Respublikası Kalbalı xan Naxçıvanskinin başçılığı ilə yerli müdafiə dəstələri göndərdi. "Qurd qapısı" adlı yerdə erməni quldurlarının qarşısı kəsildi. Qanlı döyüşlərdən sonra onlar geri oturduldu.

1918-ci ildə olduğu kimi, 1919-cu ilin də may-iyul ayları Naxçıvanda erməni təcavüzü daha şiddətli olmuşdur. İngilislərin yaxından köməyi ilə bölgədə qurulan qondarma erməni idarəçiliyi zamanı ermənilər Naxçıvanda çoxlu qırğınlar törətmişdilər. Bu zaman qəhrəman Naxçıvan oğulları iyulun 18-dən 25-dək igidliklə mübarizə apararaq, erməni rejimini dağıtmış və onları qovmuşdular. Bir həftə ərzində yerli müdafiə qüvvələri və Xəlil bəyin rəhbərliyi ilə türklər erməni qarnizonunu və daşnak Yaponun quldur dəstələrini məğlub edərək, 8 zabit və 800 əsgəri əsir götürmüş, xeyli silah-sursat – zirehli qatar, 4 top, 42 pulemyot və s. ələ keçirmişdilər (5, s. 67).

Qondarma erməni idarəçiliyi ləğv edildikdən sonra Naxçıvanda 1919-cu il, oktyabrın 24-də polkovnik Edmund Dellin rəhbərliyi ilə yeni Amerika general-qubernatorluğu fəaliyyətə başlasa da, o da bölgədəki erməni-daşnak təcavüzünü dayandıra bilmədi. Çox keçmədi ki, Amerika dövlətinin də əsl niyyəti – Naxçıvanı ermənilərə vermək planı üzə çıxdı. Buna görə də yerli türk-müsəlman əhalinin təkidli tələbi ilə amerikalılar bölgəni tərk etdi və 1920-ci ilin yanvarında Amerika general-qubernatorluğunun fəaliyyəti dayandırıldı. Lakin elə bu ayda Azərbaycan hökumətinin hərbi qüvvələrini Zəngəzurdan çıxarması Naxçıvana qarşı erməni təhlükəsini daha da artırdı. Bu zaman ermənilərin Zəngəzurda irimiqyaslı hücumları, qətl və qarətləri genişləndi. Kazım Qarabəkir paşanın fevralın 14-də ora göndərdiyi hərbi qüvvələr də daşnakların

hücumlarını dayandıra bilmədi (1, s. 219). Bundan sonra, martın 8-də 2 min nəfərlik erməni hərbi qüvvəsi Ordubad üzərinə hücuma keçsə də, Kalbalı xanın Naxçıvandan göndərdiyi müdafiə qüvvələrinin köməyi ilə düşmən geri oturduldu. Bu dəfə ermənilər 300 nəfər, 12 qatır və 7 pulemyot itirdilər (1, s. 220). Martın 21-də daşnaklar daha böyük qüvvə ilə - 10 min nəfərlik hərbi heyətlə Ordubad qəzasının Vənənd, Vələver, Düylün, Dizə, Ağrı, Əylis, Unus, Xanağa, Kilit, Gənzə və s. kəndlərinə hücum edərək, bu yerləri yandırmış, əhalinin çox hissəsini qırmış və Ordubad şəhərini mühasirəyə almışdılar (2, s. 28). Lakin yenə də Kalbalıxan və Ədib bəyin birləşmiş qüvvələri düşmənin öhdəsindən igidliklə gələrək bu yerləri azad etdilər.

1920-ci il, aprelin 28-də Azərbaycanda sovet rejiminin qurulması ilə erməni-daşnak birləşmələrinin amansız dağıntı və qətlləri daha da artdı. İyulun 11-də ermənilər Vedi tərəfdən hücuma keçdilər (11, s. 34). Onlar bu dəfə Şərur qəzasının bir neçə kəndini işğal etdilər. Bu zaman general Veysəl Ünüvarın başçılığı ilə türk hərbi dəstələri və polis rəisi Həbib Səlimovun rəbərliyi ilə yerli polis qüvvələri ermənilərin bölgədən çıxarılmasına çalışsalar da, bu mümkün olmadı. Daşnaklar Şərur qəzasını və Şaxtaxtı stansiyasım ələ keçirdilər. Məcbur qalan Şərur əhalisi Cənubi Azərbaycana və Naxçıvan ətrafındakı kəndlərə qaçdılar. Arazın o tayına keçmək üçün ən axırda gələn 500 nəfər dinc sakin (artıq bu yerlər ermənilərin əlində olduğundan) son nəfərinədək ermənilər tərəfindən öldürülmüşdür. İyulun sonlarında Naxçıvan ərazisində də sovet rejimi quruldu. Bolşeviklərin gəlişi erməni təcavüzünə müəyyən qədər təsir etsə də, amma o hələ 1921-ci ilin yayınadək davam etmişdir.

Beləliklə 1918-1921-ci illərdə erməni-daşnak birləşmələri Naxçıvanda dəfələrlə dəhşətli qətliamlar törətmiş, nəticədə 73727 nəfər azərbaycanlını ən qəddar üsullarla öldürmüşlər (1, s. 223). 1918-1920-ci illərdə Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzalarında təkcə kənd əhalisinin sayı 52 min nəfər azalmış, 287 kənd tamamilə və ya qismən dağıdılmışdı (7, s. 103).



Yuxarıda göstərilənlərdən aydın olur ki, 1918-1921-ci illərdə Naxçıvan bölgəsində genişmiqyaslı erməni təcavüzü həyata keçirilmişdir. Bu zaman bölgənin müdafiəsində yerli və türk hərbi qüvvələrinin böyük rolu olmuşdur. Burada biz xüsusilə Naxçıvanın igid oğullarının, Naxçıvan və İrəvan xanlarının, taborçuların, A.Şadlınski başda olmaqla qəhrəman Vedi camaatının, türk ordusunun cəsur komandirlərinin – Kazım Qarabəkir paşa, Xəlil bəy, General Veysəl Ünüvar, Ədib bəy və s. və əsgərlərinin adlarını fəxrlə çəkə bilərik. Bu qəhrəman azərbaycanlı və türk oğulları Naxçıvan diyarını onun tarixinin ən ziddiyyətli və mürəkkəb dövründə bədnam qonşumuz ermənilər tərəfindən işğal edilib, özününküləşdirməsinə öz qanları bahasına yol verməmişlər. Bu gün çiçəklənən Naxçıvan Muxtar Respublikasında hər bir naxçıvanlınm müqəddəs borcu vətəni qorumaqla yanaşı zaman-zaman itirilmiş dədə-baba torpaqlarımızı geri qaytarmaq olmalıdır.

## ƏDƏBİYYAT


1. Cəfərli E.Y. Naxçıvanda erməni Azərbaycan-münaqişəsi. Bakı: Nurlan, 2008, 280 s.
2. Cəfərov F.A. Erməni vəhşiliyi. Bakı: Nurlan, 2009, 186 s.
3. Cəfərov F.A. XX əsrdə ermənilərin azərbaycanlılara qarşı soyqrımı // Naxçıvan. Naxçıvan: Əcəmi, 2005, s. 66-83.
4. Erməni vəhşiliyi fakt və rəqəmlərdə // Naxçıvan. Naxçıvan: Əcəmi, 2005, s. 175-179.
5. Əliyev Ə. Əlincə yaddaşı. Bakı: Gənclik, 1997, 304 s.
6. Əliyev M.B. Qanlı günlərimiz. Bakı: Azərnəşr, 1993, 143 s.
7. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikası Azərbaycanın dövlətçilik tarixində: Tar. elm. nam. ... dis. Bakı: 1999, 335 s.
8. Hüseynzadə L.T. Araz şahiddir. Türk ordu generalı Kazım Qarabəkir paşa Naxçıvanda (1918-1920-ci illər). Bakı: Nurlan, 2001, 80 s.

9. İbrahim E.A. Muxtariyyat ərəfəsində Naxçıvan. Naxçıvan: Qeyrət, 1999, 442 s.
10. Kazımov İ.F. 1828-1920-ci illərdə Naxçıvan və çevrəsində erməni zülmünün doğurduğu demoqrafik fəlakət // Naxçıvan. Naxçıvan: Əcəmi, 2005, s. 84-94.
11. Ünüvar V. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan: Əcəmi, 2006, 104s.



*Güntəkin Nəcəfli*
*t.ü.f.d. aparıcı elmi işçi,*
*AMEA A.A.Bakıxanov*
*adına Tarix İstitutu*

## "ERMƏNİ DÖVLƏTİ YARATMAQ SİYASƏTİ"NİN ACI NƏTİCƏSİ:

***1918-1920-ci illərdə Naxçıvan bölgəsində ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımları (BOA-nın sənədləri əsasında)***

Bu gün demokratik inkişaf yolu ilə addımlayan, 1991-ci ildən öz müstəqilliyini bərpa etmiş tarixi Azərbaycanın bir parçası olan müstəqil Azərbaycan Respublikasımn ərazisi arxasında Böyük dövlətlərin dayandığı erməni qəsbkarlarmın təcavüzünə məruz qalmış, minlərlə soydaşımız öz tarixi torpaqlarından didərgin salınmışdır.

Hələ XVIII əsrin əvvəllərindən başlayaraq Rusiya imperiyası Cənubi Qafqazı bu diyarın ən qədim yerli əhalisi olan Azərbaycan türklərindən, bütövlükdə türk-müsəlman əhalidən təmizləyib bu torpaqlara erməniləri köçürmək, Osmanlı imperiyasına və Səfəvi dövlətinə qarşı gələcək işğalları həyata keçirmək üçün Azərbaycan torpaqlarında *«etibarlı xristian istinadgahına»* çevriləcək oyuncaq erməni dövləti yaratmaq siyasəti yürütməyə başladı. Bu məqsədlə I Pyotr (1682-1725) 1724-cü il noyabrın 10-da verdiyi fərmana əsasən general Matyuşkinə erməniləri azərbaycanlılar yaşayan torpaqlara yerləşdirmək üçün xüsusi göstəriş də vermişdi [7]. XVIII əsrin II yarısı – II Yekaterinanm hakimiyyəti dövründə (1762-1796) Azərbaycan torpaqlarında xristian dövləti yaratmaq siyasəti daha da fəallaşsa da onun ölümü nəticəsində yarımçıq qaldı [bax: 20].

XIX əsrin başlanğıcından başlayaraq Azərbaycan toprpaqları Rusiya imperiyası və Qacarlar İranı arasında qanlı müharibələr meydanına çevrildi. Rusiya müstəmləkəçiləri İrana və Türkiyəyə qalib gəldikdən sonra, Türkmənçay (1828) və Ədirnə (1829)

müqavilələrinə əsasən, Cənubi Qafqazda Qacarlar İranı və Osmanlı imperiyasına qarşı gələcək işğalçılıq planlarını həyata keçirmək üçün xristian – istinadgah məntəqəsi yaratmaq məqsədilə həmin dövlətlərin ərazisində yaşayan erməniləri kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına, əsasən İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazisinə və indiki Gürcüstan Respublikasının məhz azərbaycanlılar yaşayan bölgələrinə köçürdü [8, 845, 619-620; 21, 107; 18].

Çar Rusiyası XIX əsrin 20-30-cu illərindən başlayaraq erməniləri Cənubi Qafqazdakı Azərbaycan torpaqlarına köçürüb gətirməklə bu regionun qədim tarixi dövrlərdən bəri davam edən ənənəvi etnik-siyasi və dini mənzərəsini zorla dəyişdirdi. Şimali Azərbaycanın İran və Türkiyə ilə sərhəd torpaqlarında Cənubi Qafqaz üçün tamamilə yad olan yeni xristian etnosu yerləşdirdi.

Rusiya müstəmləkəçiləri, çox çəkmədən, Azərbaycan xalqının tarixi dövlətçilik ənənələrini və müstəqillik şüurunu məhv etmək üçün inzibati-ərazi islahatları keçirməyə başladı. 1828-ci il martın 21-də - Azərbaycan xalqının Novruz bayramı günlərindən birində imperator I Nikolayın fərmanı ilə Azərbaycanın İrəvan və Naxçıvan xanlıqları ləğv edildi və bu xanlıqların ərazisində İran və Türkiyədən köçürülməkdə olan ermənilər üçün qondarma *"Erməni vilayəti"* yaradıldı [22,272-273; 8,487]. Bununla Cənubi Qafqazdakı Azərbaycan torpaqlarında, daha doğrusu, İrəvan və Naxçıvan xanlıqlarının ərazisində erməni dövləti yaratmaq üçün ilk addım atıldı.

Ermənilərin köçürülməsindən sonra Cənubi Qafqaz qanlı qırğınlar dövrünə qədəm qoydu. Məhz bu vaxtdan başlayaraq Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölüşdürülməsinin əsası qoyuldu, ona qarşı soyqırımları dövrü başlandı. Rusiya müstəmləkəçiləri tərəfindən silahlandırılan və hərtərəfli müdafiə olunan erməni quldur dəstələri Azərbaycan xalqına qarşı, ümumiyyətlə Cənubi Qafqazın türk-müsəlman əhalisinə qarşı soyqırımlarına başladılar. Böyük dövlətlər özlərinin Cənubi Qafqazla bağlı geosiyasi planlarını həyata keçirmək üçün ermənilərdən bir alət kimi istifadə etdilər və bunun müqabilində onlara Azərbaycan torpağında



– keçmiş İrəvan xanlığının ərazisində dövlət yaratmaqdan ötrü hər cür köməklik göstərdilər.

Beləliklə, ermənilərin XVIII əsrdən başlayaraq çar Rusiyasının köməyi ilə Cənubi Qafqaz bölgəsinə yerləşdirilməsi və zaman-zaman Azərbaycanın qərb torpaqlarında məskunlaşdırılması, XIX əsrin I qərinəsində kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarında məskunlaşdırılması, Azərbaycan ərazisində qondarma "Erməni vilayəti"nin yaradılması, bolşeviklər tərəfindən XX əsrin 20-ci illərində onlara tarixi torpaqlarımız hesabına dövlət yaradılması və tarixi torpaqlarımızın ermənilərə pay verilməsi ilə nəticələndi. Bu prosesin sonrakı inkişafının nəticəsini saymaqla qurtaran deyil: ***Şimali və Cənubi Azərbaycanın, o cümlədən bütün Cənubi Qafqazın və Şərqi Anadolunun türk-müsəlman əhalidən "təmizlənməsinə" yönəlmiş siyasət kimi, tarixdə analoqu olmayan kütləvi soyqırımların (1905-1906-ci illər, 1918-1920-ci illər, 1992-ci il 26 fevral) həyata keçirilməsi; Şimali Azərbaycan əhalisinə qarşı deportasiyalar, mədəniyyətimizin, tarixi abidələrimizin və toponimlərimizin total şəkildə məhv edilməsi, əliyalın xalqımızın doğma torpaqlarından rus silahının gücünə didərgin salınaraq tarixdə görünməmiş vəhşiliklərə məruz qalması*** və s.

Təəssüflə qeyd etməliyik ki, qeyd olunan problemlə bağlı ölkəmizin arxivlərində saxlanılan bir çox qiymətli sənədlər sovet hakimiyyəti illərində xalqdan gizlədilmiş, Azərbaycan tarixinin ayrı-ayrı dövrləri və problemləri barədə saxta tarix "yaradılmışdır". Bu gün tarix elmi qarşısında duran ən mühüm vəzifələrdən biri də zaman-zaman azərbaycanlıların məruz qaldığı soyqırımı və deportasiyalar, itirdiyimiz torpaqlar haqqında vaxtı ilə təhrif olunmuş tarixi həqiqətlərin üzə çıxarılaraq ölkə və dünya ictimaiyyətinin diqqətinə çatdırılmasıdır.

Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı" haqqında fərmanı tariximizin bu qaranlıq səhifələrinə uzun illərdən sonra işıq salan ilk rəsmi hüquqi sənəd kimi böyük əhəmiyyətə malikdir. Ümummili liderin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin

elmə göstərdiyi yüksək qayğını əsas götürən Tarix İnstitutu bu gün nəinki ölkəmizdə, hətta Böyük Britaniya, Fransa, Almaniya, Rusiya, Türkiyə, Hindistan və Gürcüstanın arxiv və kitabxanalarında saxlanılan ilk mənbələri, o cümlədən soyqırımla bağlı sənədlərin Azərbaycana gətirilərək nəşr olunması kimi çox mühüm bir layihəni həyata keçirir.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda bu istiqamətdə son dövrlərdə mühüm işlər görülmüş, bir çox kollektiv və monoqrafik tədqiqatlar işıq üzü görmüş, ölkəmizin və müxtəlif xarici ölkələrin arxivlərindən materiallar toplanaraq institumuza gətirilmiş və sənədlər toplusu şəklində çap olumuşdur [1; 2; 3; 4]. Bu gün bu iş uğurla davam etməkdədir.

Mövcud sənədlər 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımın tam mənzərəsini ortaya qoymağa imkan verir.

I Dünya müharibəsinin yaratdığı mürəkkəb şəraitdən istifadə edərək ermənilər qonşu xalqların hesabına milli dövlət yaratmaq iddialarını gerçəkləşdirməyə başladılar. Bu sərsəm ideyanın həyata keçirilməsi üçün isə yeganə yol bu ərazilərdə yaşayan yerli əhalinin məhv edilməsi idi. 1919-1921-ci illərdə Azərbaycanın müxtəlif bölgələrində və Şərqi Anadoluda erməni daşnaklarının türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımı bəşər tarixinin ən qanlı cinayətlərindən birini təşkil edir.

Rusiya imperiyasının dapılmasından sonra Cənubi Qafqazda yaranmış Ermənistan (Ararat) Respublikası rəhbərləri xəyali "Böyük Ermənistan" ideyalarını həyata keçirmək üçün əlverişli şərait yarandıpını güman edərək, Azərbaycan və Gürcüstana qarşı ərazi iddiaları ilə çıxış etməyə başladı. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli iclasının qərarı ilə Irəvan şəhərinin siyasi mərkəz kimi ermənilərə güzəşt edilməsi onları şirnikləndirdi. Ermənilər Göyçə bölgəsinə (Yeni Bəyazid qəzasının şərq hissəsi), Naxçıvan bölgəsinə (Naxçıvan, Şərur-Dərələyəz qəzaları və Irəvan qəzasının bir hissəsi), Qazax qəzasının dağlıq hissəsinə, Qarabağa və Zəngəzura qarşı ərazi iddiaları qaldırır, xəritələr tərtib edirdilər.



Lakin onlar bununla da kifayətlənməyərək, Azərbaycan Respublikasını və dünya ictimaiyyətini fakt qarşısında qoymaq məqsədilə, Azərbaycanın göstərilən tarixi torpaqlarında soyqırımlarına başladılar. Azərbaycan Xalq Cümhuriyyəti olduqca mürəkkəb daxili və beynəlxalq şəraitdə Ermənistanın ərazi iddialarını rədd edir, Cümhuriyyətin ərazi bütövlüyünü təmin etmək üçün hərtərəfli iş aparır, mümkün olan bütün tədbirləri görürdü [23].

1919-1921-ci illərdə ermənilərin ***Naxçıvan bölgəsində*** türk-müsəlman əhaliyə qarşı həyata keçirdiyi soyqırımı cinayətləri Böyük güc mərkəzlərinin ***Azərbaycan, İran və Şərqi Anadolu torpaqlarında erməni dövləti yaratmaq üçün əsrlər boyu düşünülmüş və planlı şəkildə həyata keçirdiyi məkrli siyasətinin qanlı nəticələrindən biridir***. 1919-1920-ci illərdə Naxçıvan bölgəsində türk-müsəlman əhaliyə qarşı ermənilərin həyata keçirdiyi soyqırımlarını sübut edən çox sayda qiymətli sənədlər bu gün Türkiyə Cumhuriyyəti Başbakanlıq Osmanlı Arxivində (BOA) qorunub saxlanılır. Bu sənədlərin müəyyən hissəsi Başbakanlıq Osmanlı Arxivinin əməkdaşları tərəfindən hazırlanaraq iki cildlik toplu şəklində çap olunmuşdur [17]. Arxivdən əldə olunan sənədlərdəki faktiki materiallar sübut edir ki, 1919-1920-ci illərdə ermənilərin ***Naxçıvan bölgəsində*** on minlərlə dinc, silahsız əhali Azərbaycan türkləri o cümlədən, uşaqlar, qadınlar, qocalar etnik mənsubiyyətlərinə görə amansızcasına qətlə yetirilmişdir.

Təqdim olunan məqalə əsasən BOA-nın HR, SYS fondundan əldə olunan sənədlərdə öz əksini tapan faktların təhlili əsasında yazılmışdır. Həmin sənədlərdə Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgəsində türk-müsəlman əhaliyə beşikdəki körpələrdən tutmuş ixtiyar qocalara qədər misli görünməmiş qəddarlıqla divan tutulması, kütləvi şəkildə qətliamlar həyata keçirməsi, bir sözlə dinc əhaliyə qarşı ən acınacaqlı, qanlı cinayətlərlə dolu erməni soyqırımları təsvir olunmuşdur. Məqalədə diqqət ermənilərin Naxçıvan bölgəsində həyata keçirdiyi soyqırımlara yönəlmişdir.

Təqdim olunan sənədlərin əksəriyyəti bölgədəki ingilis nümayəndəsinin iştirakı ilə, yerli əhali tərəfindən seçilmiş

nümayəndələr tərəfindən tərtib olunmuşdur. Həmin sənədlərin əksəriyyəti həmçinin Osmanlı dövlətinin XV Nizami ordusu rəhbərlərinə ünvanlanmış və onlardan erməni təcavüzünə qarşı hərbi yardım, kömək istənilir. Bundan əlavə, Naxçıvan qəzasında baş verən hadisələrlə bağlı Osmanlı ordusunun görkəmli hərbi xadimi, Naxçıvan bölgəsinin erməni silahlı qüvvələrinin təcavüzündən qoruyan Kazım Qarabəkir paşanın məlumatları da mühüm yer tutur. Kazım Qarabəkir paşa Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin erməni silahlı qüvvələrinin təcavüzündən müdafiəsində mühüm xidmətlər göstərmişdir. Həmin ərazilərin müdafiəsi Osmanlı ordusunun onun komandanlıq etdiyi I Qafqaz korpusuna həvalə olunmuşdu. Korpusun qərargahı 1918 il avqustun 7-də Naxçıvan şəhərində qurulmuşdu. Naxçıvanı türk dünyasına açılan "Şərq qapısı" adlandıran Kazım Qarabəkir paşanın komandanlıq etdiyi türk qoşun hissələri Naxçıvan mahalını erməni silahlı dəstələrinin Zəngəzur və s. yerlərdən etdikləri hücumlardan qətiyyətə qoruya bilmişdi. Osmanlı hərbi qüvvələrinin Qafqazdan, o cümlədən Azərbaycandan çəkilməsini nəzərdə tutan Mudros barışığının (1918, oktyabr)11-ci maddəsinə əsasən, I Qafqaz korpusu da Naxçıvanı tərk etdi.

Başbakanlıq Osmanlı Arxivinin (BOA) əsasən ***"Hariciye Nezareti Siyasi Kısım"*** fondundan əldə edilmiş sənədlərdə ***Naxçıvan qəzasında*** həyata keçirilən qırğınlar və vəhşiliklər öz miqyasına, forma və metodlarına görə tarix boyu insanlığa qarşı törədilmiş, unudulması və unutdurulması mümkün olmayan ən qəddar cinayətlərdən biridir. Həmin sənədlərdə 1919-cu ilin yayından başlayaraq 1921-ci ilin əvvəlinə qədərki dövr ərzində Naxçıvan qəzasında erməni silahlı dəstələrinin silahsız azərbaycanlı əhaliyə qarşı həyata keçirdikləri soyqırımı cinayətləri haqqında ibrətamiz materiallar öz əksini tapmışdır.

Məsələn 1919-cu il iyulun 17-də tərtib olunmuş bir sənəddə [13] Naxçıvan və ətrafında yaşayan əhaliyə qarşı ermənilərin törətdikləri zülmlər haqqında məlumat verilir. Sənəd Ərzurum XV Nizami ordusuna göndərilən teleqramlardan ibarətdir. Sənəddə



əhaliyə "ermənilər tərəfindən tətbiq olunan zülm və həqarətlər, yarıçılpaq dinc əhalinin vəhşiliklə məhv edilməsi, imdad istəmək üçün qopardığı fəryad və ciyərləri yandıran nalələri" təsvir olunmuşdur.

Həmin il iyulin 24-də tərtib olunmuş digər bir sənəddə [14] isə ermənilərin Naxçıvan ətrafındakı kəndlərə hücum edərək minlərcə müsəlmanı qətl etdikləri haqqında məlumat verilir.

Ermənilərin Naxçıvan qəzasında həyata keçirdiyi soyqırımların daha çox olmasının əsas səbəbi Naxçıvan bölgəsinin əlverişli strateji mövqedə yerləşməsi və burada 2 aylıq erməni idarəçiliyinin tətbiq olunmasıdır. Naxçıvan bölgəsində ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımlar daha əvvəl başlamışdı. Xüsusi Zaqafqaziya Komitəsi (1917, mart-noyabr) və Zaqafqaziya Komissarlığı (1917, noyabr - 1918, aprel) bu qırğının qarşısını almaqda fəalhq göstərmədi. Osmanlı ordusunun bölgəyə daxil olması Naxçıvanın həyatında mühüm hadisə oldu. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması (1918, 28 may) dövlətin ərazi bütövlüyü uğrunda mübarizəni gücləndirdi. Lakin Mudros barışığına (1918-ci il oktyabr)əsasən, türk ordusunun Azərbaycanı, o cümlədən Naxçıvanı tərk etməsi vəziyyəti yenidən mürəkkəbləşdirdi.

Bölgə əhalisini qırğınlardan xilas etmək məqsədilə Naxçıvan-Şərur-Dərələyəz və Ordubad qəzalarını, həmçinin Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və b. əraziləri əhatə edən məhəlli - Araz-Türk Respublikası (1918, noyabr - 1919, mart) quruldu. Azərbaycanın Xalq Cümhuriyyəti Hökuməti bölgədə vəziyyəti yaxşılaşdırmaq məqsədilə 1919-cu il 28 fevral tarixli qərarı ilə Cənub-Qərbi Azərbaycan general qubernatorluğu yaratmışdı. Türklərin bölgəni tərk etməsindən sonra burada fəallaşan ingilislər Naxçıvanda təxminən iki ay müddətinə (1919, may-iyul)"erməni idarəçiliyi" qurmağa nail oldular,lakin xalqın qətiyyətli müqaviməti nəticəsində onun faktik fəaliyyətini təmin edə bilmədilər [5, 373-374].

Bölgə əhalisinin iradəsi əleyhinə olan bu idarəçilik Naxçıvan qəzasını Ermənistan (Ararat) Respublikasına birləşdirmək məqsədi

güdürdü. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti və bölgə əhalisi tarixi Azərbaycan ərazisi olan Naxçıvanın zorla onun əlindən qoparılması təhlükəsi qarşısında zəruri tədbirlər görmək məcburiyyətində qaldı, "erməni idarəçiliyi"nə yol verməmək tələbləri ilə Paris Sülh Konfransına (1919), müttəfiq dövlətlərin Qafqazdakı nümayəndəliklərinə dəfələrlə müraciət edildi. Lakin bu müraciətlərə məhəl qoyulmadığından yerli əhali "erməni idarəçiliyi"nə öz qüvvəsi ilə son qoymaq qərarına gəldi; əli silah tutan kişi əhalisi arasında səfərbərlik keçirildi. Görülmüş zəruri hərbi hazırlıq tədbirlərindən sonra iyulun 18-i ilə 25-i arasında Naxçıvanı və ətraf əraziləri işğalçı erməni silahlı qüvvələrindən təmizləmək, habelə qondarma "erməni idarəçiliyi"nə son qoymaq məqsədilə qanlı döyüşlər aparıldı. 1919 ilin 25 iyulu Naxçıvan mahalının erməni işğalçıları üzərində qələbəsi günü kimi xalqın yaddaşına əbədi həkk olundu, ermənilərin Naxçıvan bölgəsindəki siyasi, hərbi və iqtisadi mövqelərinə sarsıdıcı zərbə endirildi [6; 19].

Ermənilərin Naxçıvanda qısa müddətdə idarəçilik cəhdi bölgəyə ağır zərbə vurdu və burada saysız-hesabsız soyqırımlara yol açdı. BOA-dan əldə olunan sənədlər sübut edir ki, ermənilər Naxçıvan qəzasında öz bədnam niyyətlərinə nail olmaq üçün dinc əhalinin canlı-canlı yandırılması, kütləvi şəkildə diri-diri torpağa basdırılması, vəhşicəsinə canlı halda balta ilə doğranması, amansız işgəncələrlə son nəfərədək qətl edilərək Araz çayına tökülməsi kimi ən qəddar və ağılasığmaz əməllərə əl atmaqdan belə çəkinməmişlər. Təkcə bir gün ərzində *Naxçıvan* və *Şərurda* 45 kənd tamamilə məhv edilmişdir [9].

Əgər 1918-ci ilin mayına qədər azərbaycanlı əhaliyə qarşı kütləvi talanlar və vəhşiliklər I Dünya müharibəsində iştirak etmiş erməni hərbi hissələri və yerli ermənilərin quldur dəstələri tərəfindən həyata keçirilirdisə, Ararat Respublikasının yaranmasından sonra türk-müsəlman əhalisinin soyqırımı rəsmi İrəvanın dövlət siyasətinə çevrildi və bu işdə dövlətin nizami silahlı qüvvələrindən fəal istifadə olunmağa başlandı.

Başbakanlıq Osmanlı Arxivinin sənədləri içərisində Naxçıvan qəzasında *erməni idarəçiliyi* dövründə erməni hərbi birləşmələrinin



həyata keçirdiyi soyqırımları əks etdirən materiallar daha çoxdur. 1919-cu ilin iyulunda tərtib olunmuş bir sənəddə erməni hərbi birləşmələrinin Naxçıvan qəzasının Yengicə, Qıvraq kəndlərinə silah toplamaq bəhanəsi ilə hücum edib yerli əhaliyə görünməmiş işgəncələr verməsi – günahsız əhalini canlı-canlı yandırması və diri-diri basdırması təsvir olunmuşdur. Canını qurtaran insanlar doğma kəndlərini tərk edərək dağlara çəkilmişdir. Bundan əlavə, adı çəkilən kəndlərdəki məhsulların və bütün əşyaların ermənilər tərəfindən tamamilə qəsb edildiyi qeyd olunur [11].

Digər tərəfdən Birləşmiş Ştatlar Cənubi Qafqaz, İran və Türkiyənin qovuşuğunda yerləşən Naxçıvana xüsusi hərbi-strateji əhəmiyyəti olan ərazi kimi baxırdı. Qafqazda nüfuz dairəsi qazanmağa çalışan ABŞ-ın əlverişli strateji mövqedə yerləşən Naxçıvan bölgəsində möhkəmlənmək planları Antanta dövlətlərinin Ermənistana ali komissar təyin etdikləri amerikalı polkovnik V.Haskelin 1919 ilin sentyabrında irəli sürdüyü *"Haskel layihələri"* adlandırılan sənəddə öz əksini tapmışdı. Layihədə Azərbaycan torpaqları olan Naxçıvan və Şərur-Dərələyəz qəzalarının əlahiddə bitərəf zona elan edilməsi və bu ərazidə Naxçıvan general-qubernatorluğunun yaradılması nəzərdə tutulurdu. ABŞ-ın himayəsi altın Naxçıvana yiyələnməyə çalışan Ararat Respublikası *"Haskel layihələri"*nin gerçəkləşməsi üçün canfəşanlıq göstərirdi. 1919 ildə ABŞ Azərbaycan ərazisinin bir hissəsini - Naxçıvan diyarını ələ keçirməyə cəhd göstərdi. V.Haskelin Azərbaycan və daşnak Ermənistanı hökumətlərinə göndərdiyi direktivdə göstərilirdi ki, Naxçıvan diyarında və Şərur-Dərələyəz qəzasında başda amerikan general-qubernatoru olmaqla *"Neytral idarə zonası"* təsis edilir. Eyni zamanda polkovnik Haskel dəmir yollarının və İrəvanla Culfa arasındakı teleqraf xəttinin Birləşmiş Ştatların nəzarəti altına verilməsini tələb edirdi.

Haskelin müavini polkovnik Ceyms Rey 1919 il oktyabrın 24-də Naxçıvana gəldi və Müsəlman Milli Şurası qarşısında V.Haskelin bəyanatını elan edərək, qubernatorluğun yaradıldığını, ABŞ ordusunun mühəndisi, polkovnik Edmund L.Dellinin ona başçı təyin

olunduğunu bildirdi. Ermənistan-daşnak hökumətinin razılıqla qarşıladığı bu bəyanat Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qəti etirazı və Naxçıvan əhalisinin ciddi müqaviməti ilə üzləşdi. Naxçıvan Milli Şurasının və bütün Naxçıvan əhalisinin təkidlə Ceyms Rey qərarını dəyişməyə məcbur oldu. Delli Naxçıvanda general-qubernator kimi deyil, Antanta ali komissarı V.Haskelin nümayəndəsi kimi qaldı. Lakin, bölgə əhalisinin güclü müqaviməti və inadlı mübarizəsi, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin isə ciddi diplomatik səyləri bu növbəti təxribat aktının qarşısını vaxtında aldı və ermənilərin Naxçıvanı ABŞ-ın yardımı ilə ələ keçirmək niyyətini növbəti dəfə puça çıxardı.1920-ci ilin yanvarında sonuncu Amerika əsgəri Naxçıvan torpağını tərk etdi [bax: 6; 19].

1920-ci il martın 6-da tərtib olunmuş bir sənəddə [12] Şərur, Çıldır və Ağbabada ermənilərin türk-müsəlman əhaliyə etdiyi zülm və qətliamlardan sonra amerikalı polkovnik Haskel digər amerikalı və ingilis məmurları ilə bölgəyə gələrək əhalini sakitləşdirməyə çalışmışdı. Həmin vaxt ermənilərin eyni məntəqələrdəki 28 kəndə təkrar hücum edərək daha dəhşətli qətliamlar törətmiş, gənc qadın və qızları zorla özləri ilə aparmışlar. Sənəd XV Nizami ordu komandanlığına göndərilən rəsmi məktubdur.

30.06.1920-ci il tarixli bir sənəddə [10] ermənilərin Naxçıvan və Araz ətraflarında qadın və uşaqlar da daxil olmaqla dinc əhalinin müxtəlif bədən üzvlərinin kəsilərək ayrı-ayrı şəkillərdə qətliam etdikləri, qadınlara hücum və təcavüz olunduğu, kəndlərə olunan basqınlar və əhalinin diri-diri yandırılması və s. hadisələrlə bağlı ingilis nümayəndəsinə göndərilən məlumat öz əksini tapmışdır. Bütün bu məlumatlar həm də bölgədəki ingilis nümayəndəsinə göndərilmişdir.

Başbakanlıq Osmanlı Arxivindən əldə olunan sənədlər içərisində *Naxçıvan qəzasında* erməni hərbi birləşmələrinin həyata keçirdiyi soyqırım cinayətini əks etdirən materiallar kitabın arxasına əlavə olunmuşdur. Burada soyqırıma məruz qalan insanların adları açıqlanmışdır. 1918-1920-ci illərdə Naxçıvanın Şərur və Sədərək bölgəsində ermənilər tərəfindən 56 kənddə həyata keçirilən soyqırımı nəticəsində 428 nəfər qətl edilmiş, 2.286 ev yerlə-yeksan olunmuş, 7.178 nəfər evsiz-eşiksiz qalmış, bunun nəticəsində 6.740 nəfər səfalətdən məhv olmuş, 24 qadın erməni təcavüzünün qurbanı olmuş, 3.971.200 pud ərzaq, 731500 pud pambıq, 169.250 qoyun və 47.367 baş qaramal ermənilər tərəfindən qəsb edilmişdir. Dərələyəz bölgəsində isə erməni hərbi birləşmələrinin həyata keçirdiyi soyqırım nəticəsində 54 kənddə 57.240 nəfər qətl edilmiş 9.735 ev yerlə-yeksan olunmuşdur [16]. Bütün məhv olan insanların ümumi sayı 64408 nəfərdir.

04.12. 1920-ci ildə tərtib olunmuş sənədə görə 2 il ərzində ermənilərin Şərur, Sədərək və Dərələyəz bölgəsinin 110 kənddə misli görünməmiş vəhşiliklər törətmiş əhalini tamamilə məhv etmişlər [15].

Bu soyqırımlar Naxçıvanın sovetləşməsindən sonra da davam etmişdi. 1921-ci ildə Naxcıvan qəzasında ermənilər tərəfindən işgəncə ilə 12 nəfər öldürülmüşdü [16].

***Naxçıvan bölgəsində*** türk-müsəlman əhaliyə qarşı ermənilərin həyata keçirdiyi soyqırımı öz miqyasına, forma və metodlarına görə tarix boyu insanlığa qarşı törədilmiş, yaddan çıxarılması və bağışlanması mümkün olmayan ən qəddar cinayətlərdən biridir.

## MƏNBƏ VƏ ƏDƏBIYYAT


1. Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. I cild, Bakı, 2009.
2. Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. III cild. Xatirələr". Sənədlər toplusu. Bakı, 2010.
3. Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı. II cild, 1-ci kitab. Gəncə quberniyası. Bakı, 2010.
4. Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı. II cild, 2-ci kitab. İrəvan quberniyasında soyqırımı. Bakı, 2010.
5. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Bakı, 2005, c. II.

6. Азербайджанская Демократическая Республика (1918-1920).
7. АВПРИ, ф.СРА, оп.100/1, 1724 г. док.2, л.л.46-46об, 47, 63-63 об.
8. АКАК, т.VII, Тифлис, 1878.
9. BOA, DH. KMS. 53-3/15.
10. BOA, HR. SYS 2877/13.
11. BOA, HR. SYS 2877/16.
12. BOA, HR. SYS 2878/22.
13. BOA, HR. SYS 2877/45.
14. BOA, HR. SYS 2877/54.
15. BOA, HR. SYS 2878/62.
16. BOA, HR. SYS 2878/93.
17. Ermeniler tarafından yapılan katliam belgeleri. (1914-1919) c.I; (1919-1921) c.II, Ankara, 2001.
18. İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi.
19. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyəti və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), Bakı, 1996.
20. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı, 2007.
21. Глинка С. Описание переселеиия армяи адербиджанских в переделы России. Москва, 1831.
22. Полное собранне законов Российской империи, (ПСЗРИ) Собр. второе, т.III. 1828, СПб., 1830.
23. Щепотцев А., Доклад о спорных Кавказских территориях, на которые имеют права самоопределившиеся азербайджаиские тюрки, Изв. АН Азерб. ССР (серия истории, философии и права), 1990, № 2.



**Fəxrəddin Səfərli**
**AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor**
**E-mail: hacifexreddin@yahoo.com.tr**

# MUXTARİYYƏT İLLƏRİNDƏ NAXÇIVANDA TARİX ELMİNİN İNKİŞAFI (1996-2014-CÜ İLLƏR)

Keçən yüzilliyin sonlarında, 1988-ci ildə ermənilər tərəfindən yaradılan Dağlıq Qarabağ problemi ilə əlaqədar bütün Azərbaycanda, o cümlədən Naxçıvanda başlayan güclü böhran bölgədə həyatın bütün sahələrində olduğu kimi tariximizlə bağlı aparılan elmi tədqiqatlara da öz mənfi təsirini göstərmişdi. 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən, xüsusi ilə ulu öndər Heydər Əliyev 1993-cü ildə respublikada ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan və ictimai-siyasi sabitliyin bərpasından sonra ölkənin hər yerində olduğu kimi onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da yüksəliş, tərəqqi dövrü başlandı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, müasir Naxçıvanın qurucusu və memarı Vasif Talıbovun rəhbərliyi ilə bölgədə tərəqqi başladı. 1995-ci ilin dekabrından başlanan bu tərəqqi az sonra intibaha çevrildi. Tərəqqi və intibah illərində Naxçıvan MR-da həyatın bütün sahələri yüksək inkişaf səviyyəsinə çatdı. Muxtar respublika geridə qalmış aqrar ölkədən inkişaf etmiş kənd təsərrüfatı, sənaye, elm, təhsil və mədəniyyət mərkəzinə çevrildi, hətta xaricə məhsul ixrac etməyə başladı. Bu hərtərəfli inkişafın çərçivəsində elmin bütün sahələri kimi tarix elmi sahəsində də tərəqqi özünü yüksək səviyyədə göstərdi.

Naxçıvanda tarix elminin inkişafında 1996-cı il dönüş nöqtəsi oldu. Naxçıvan MR Ali Məclisi Sədrinin Sərəncamı ilə həmin ilin yayında

Naxçıvan şəhərində keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumu həmin dönüşün başlanğıc nöqtəsi oldu (7).

Naxçıvanda tarix elminin inkişafında Ali Məclis Sədrinin təşəbbüsü, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Sərəncamı ilə 2002-ci ilin 7 avqustunda AMEA Naxçıvan Bölməsinin və onun nəzdində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun yaradılması mühüm mərhələ çecrildi. Bununla da ermənilərin Azərbaycana qarşı ərazi iddialarında əsas yer tutan Naxçıvanın tarixinin bütün problemlərinin, həmçinin diyarın arxeologiyasının, etnoqrafiyasının, epiqrafikasının, ümumiyyətlə maddi-mədəniyyət abidələrinin dərindən, ətraflı və sistemli şəkildə öyrənilməsi üçün münbit şərait yaradıldı, bu sahədə tədqiqatçılara böyük imkanlar və geniş meydan verildi.

Bölgədə tarix elminin inkişafında muxtar dövlətimizin başçısı Vasif Talıbovun imzaladığı bir sıra sərəncamların əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Əshabi-Kəhf, Gəmiqaya, Açıq Səma altında muzey, tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması, Nuh türbəsinin bərpası və s. haqqında imzalanan sərəncamlar bölgədə tarix elminin inkişafı və tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynamışlar.

Bu sərəncamlardan irəli gələn vəzifələrin həyata keçirilməsi istiqamətində bir sıra uğurlu işlər həyata keçirilmişdir. Tarixçi alimlər Gəmiqaya abidəsində kompleks tədqiqatlar aparmış, muxtar respublika ərazisindəki tarix-mədəniyyət abidələrini qeydə alaraq pasportlaşdırmış, həmin abidələr əsasında Azərbaycan və ingilis dillərində "Naxçıvan abidələri ensiklopediyası" hazırlanaraq nəşr etdirilmiş, Naxçıvanda ermənilərə məxsus abidələrin olmaması sübuta yetirilmişdir (5). Etiraf etmək lazımdır ki, yüksək dövlət qayğısı olmasaydı bu cür möhtəşəm və ağır işi qısa müddətdə başa çatdırmaq mümkün olmazdı. Bu məsələ ilə əlaqədar Ali Məclisin Sədri vaxtaşırı işçi qrupu qəbul etmiş, vəziyyətlə tanış olmuş, yaranmış problemləri yerindəcə həll etmiş, işin keyfiyyətinə müsbət təsir edən töfsiyyə və tapşırıqlarını vermişdir. Nəticədə qarşıya qoyulan məqsəd uğurla həyata keçirilmişdir.



2010-cu ildə işıq üzü görən "Naxçıvan tarixi atlası" tarixçi alimlərimizin ən böyük uğurlarındandır (6). Həmçinin, Naxçıvanda ilkin şəhər mədəniyyətinin 5 min il əvvəl meydana gəlməsi istiqamətində tarixçilərimizin apardığı tədqiqatlar da əldə olunan uğurlar sırasındadır. Son illərdə tarixçi alimlərimizin Naxçıvan tarixinin müxtəlif problemlərinə, arxeologiyasına, etnoqrafiyasına, epiqrafikasına və s. aid bir sıra sanballı əsərləri işıq üzü görmüşdür. Təkcə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları 2010-cu ildə bölgə tarixinin müxtəlif problemlərinə dair 10 kitab və monoqrafiya, 130-dan artıq məqalə nəşr etdirmişlər (1, s. 18, 23). Bu uğurlar daha da artıralaraq 2013-cü ildə ən yüksək zirvəyə çatmışdır.

Naxçıvanda yaşayıb yaradan tarixçi alimlər öz fəaliyyətləri ilə Azərbaycan miqyasından kənara çıxaraq, tanmmış alimlərlə əlaqələr saxlayır, bir sıra xarici ölkələrdə keçirilən mötəbər elmi konfrans və simpoziumlarda iştirak və çıxış edir, Azərbaycan həqiqətlərini dünyaya çatdırırlar. Həmçinin, bəhs etdiyimiz dövrdə Naxçıvan şəhərində də bir sıra Respublika və Beynəlxalq miqyaslı konfranslar, simpoziumlar keçirilmişdir. Çox yaxşı haldır ki, muxtar respublika rəhbəri bu elmi məclislərin bir neçəsində iştirak və çıxış etmişdir. Bu sıradan Ali Məclis Sədrinin Gəmiqayada 2001, 2002 və 2005-ci illərdə aparılan tədqiqatların yekunlarına həsr olunan və 2005-ci ildə abidənin özündə keçirilən müşavirədə 9) və 2009-cu ildə Naxçıvan şəhərində keçirilən "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" beynəlxalq simpoziumunda iştirakını və çıxışım xüsusilə vurğulamaq yerinə düşər (8, s. 10-16). Qeyd etmək yerinə düşər ki, Naxçıvanda tarix elminin inkişafında bu və Ali Məclis Sədrinin Sərəncamları ilə 20-24 iyul 2011-ci ildə Naxçıvan şəhərində keçirilən "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" və 27-28 iyul 2012-ci ildə keçirilən "Naxçıvan: ilkin şəhər və Duzdağ" beynəlxalq simpoziumları xüsusi mərhələ təşkil edir. Bu simpoziumlarda keçirilən müzakirələrdə yerli alimlərlə əcnəbi alimlərin fikirləri üst-üstə düşmüş və belə bir fikir vurğulanmışdır ki, Naxçıvan bölgəsi ilkin şəhər mədəniyyətinin yarandığı ocaqlardan biridir. Simpoziumdakı çıxış və müzakirələrdə

dəfələrlə qeyd edilmişdir ki, Naxçıvan şəhərinin əsası bir yaşayış məskəni kimi daha əvvəllər qoyulsa da, o təxminən 5000 il bundan əvvəl şəhər kimi formalaşmışdır. Qeyd olunan elmi məclislərdə əldə olunan bu nəticələr isə öz növbəsində bölgədə tarixi tədqiqatların inkişafına öz müsbət təsirini göstərmişdir.

Son 15 ildə keçmiş irsə hörmət və ehtiram, muxtar respublika ərazisindəki tarix-mədəniyyət abidələrinə diqqət və qayğı yüksək səviyyədə olmuşdur. İntibah dövrü kimi xarakterizə olunan bu müddətdə bölgədəki bir sıra tarix-mədəniyyət abidələrində, müqəddəs yerlərdə (Əshabi-Kəhf, çoxlu məscidlər, imamzadələr, xanəgahlar, türbələr, hamamlar və s.), ümumiyyətlə 60-dan artıq abidədə bərpa və abadlıq işləri aparılmış, onlara yeni həyat verilmişdir. Ali Məclisin Sədri abidələr bərpa və təmir olunarkən işlərin gedişi ilə yerində tanış olmuş, tövsiyə və tapşırıqlarını vermiş, orijinallığın saxlanmasına və keyfiyyətə xüsusi diqqət yetirmişdir. Naxçıvan şəhərində Nuh peyğəmbərin və Hüseyn Cavidin qəbri üzərində möhtəşəm türbələrin ucaldılması tarixi keçmişimizə hörmət və ehtiramın parlaq ifadəsidir.

İntibah dövründə Naxçıvanda tariximizin müxtəlif dövrlərinə aid maddi-mədəniyyət nümunələrinin qorunub saxlandığı, nümayiş və təbliğ etdirildiyi, həm də elmi tədqiqatlar aparıldığı muzeylər də diqqətdən kənarda qalmamışdır. Muxtar Respublikanın Ali vəzifəli şəxsinin tapşırığı ilə bir sıra muzeylərdə təmir-bərpa işləri aparılmış, Naxçıvan Dövlət Tarix Muzeyi yeni binaya köçürülmüş, "Xalça Muzeyi" üçün yeni bina inşa edilmiş, xüsusi Sərəncamla Açıq səma altında muzey, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi yaradılmışdır (4).

Bölgədə aparılan elmi tədqiqatların genişləndirilməsinin, keyfiyyətinin yüksək ixtisaslı kadrlardan asılı olduğunu nəzərə alaraq bütün siyasi fəaliyyəti ərzində yeni alim kadrların hazırlanmasına böyük önəm verən Ali Məclisin Sədri Bakıda hazırlanan kadrlarla kifayətlənmədi, Naxçıvanda da tarixçi kadrların hazırlanması sahəsində əvəzolunmaz işlər gördü. Bu məqsədlə o, Naxçıvanda "Filologiya" ixtisası ilə yanaşı "Vətən tarixi" ixtisası üzrə alimlər hazırlamaq üçün Dissertasiya Şurasının yaradılmasına nail oldu və 1996-cı ildən başlayaraq NDU-da "Vətən tarixi" ixtisası üzrə alim kadrlar hazırlanmağa başlandı. 2006-cı ildən AMEA Naxçıvan Bölməsində "Vətən tarixi" ixtisası ilə yanaşı arxeoloq kadrların da hazırlanmasına başlanmışdır (2, s. 69). Üç ixtisas (Vətən tarixi, Arxeologiya, İqtisadiyyat) üzrə fəlsəfə doktorları hazırlayan Dissertasiya şurasına 2013-cü ildən etibarən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən adları qeyd olunan ixtisaslar üzrə elmlər doktorları hazırlamaq səlahiyyəti verilmişdir. Əgər intibaha qədər Naxçıvanda 1 nəfər də olsun tarix elmləri doktoru yox idisə, intibah illərində yaradılan yüksək münbit şəraitin nəticəsi olaraq Naxçıvanda 7 tarix elmləri doktoru, 20-dən artıq tarix elmləri üzrə fəlsəfə doktoru hazırlanmışdır. Çox fərəhli haldır ki, artıq Naxçıvanda hazırlanan tarixçi kadrların içərisində həm də diyarın arxeologiyası, etnoqrafiyası, epiqrafikası, numizmatikası ilə məşğul olan tədqiqatçılar da yetişmişdir. Naxçıvanda yüksək ixtisaslı tarixçi kadrların yetişdirilməsində Birdəfəlik Dissertasiya Şuralarının böyük rolu olmuşdur.

Hazırda NDU-da və AMEA Naxçıvan Bölməsində doktorantura və dissertantlıq yolu ilə tarixçi kadrların hazırlanması sahəsində uğurlu işlər aparılır. 1997-ci ildən etibarən NDU-da magistratura yolu ilə tarixin müxtəlif problemləri üzrə elmdə ilk addımlarını atan gənc tarixçi kadrların hazırlanması da intibah dövrünün uğurlarındandır.

Aparılan uğurlu və məqsədyönlü siyasət öz bəhrəsini vermiş, nəticədə Naxçıvanda böyük tarixçilər ordusu formalaşmışdır. Qeyd etmək yerinə düşər ki, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu 2003-cü ilin yanvarında 1 nəfər tarix elmləri doktoru, 3 nəfər tarix elmləri üzrə fəlsəfə doktoru və bir neçə dissertantla fəaliyyətə başlamışdır. Hazırda İnstitutda 4 nəfər tarix elmləri doktoru (onlardan biri akademik, ikisi müxbir üzv, biri professordur), 9 tarix üzrə fəlsəfə doktoru çalışmaqdadır.

Naxçıvanda təkcə Naxçıvan MR-sı üçün deyil, həmçinin Azərbaycanın digər ali təhsil ocaqları, hətta İran və Türkiyə Respublikaları üçün də kadrlar hazırlanır. Naxçıvanda yaşayan və yetişən tarixçi alimlər Bakıya opponent kimi dəvət olunur, AMEA Naxçıvan Bölməsi və NDU müxtəlif Dissertasiya Şuraları tərəfindən aparıcı müəssisə kimi seçilir.

Naxçıvan Muxtar Respublikasında tarix elminin inkişafında Ali Məclis Sədrinin dəstəyi ilə yaradılan "Qeyrət", "Əcəmi", "Tusi", "Qızıldağ", "Təhsil" və s. bu kimi nəşriyyatların, AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun Xəbərlərinin, "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının da xüsusi rolu olmuşdur. Bakıda, Gəncədə və digər şəhərlərdə, hətta MDB dövlətlərində çalışan tarixçi alimlər əsərlərini Naxçıvanda nəşr olunan və Ali Attestasiya Komissiyası tərəfindən tanınan nüfuzlu jurnallarda nəşr etdirməyə üstünlük verirlər.

Bütün bunlar heç də asanlıqla əldə olunmamış, Ali Məclis Sədrinin yorulmaz, dönməz, ardıcıl və məqsədyönlü fəaliyyəti sayəsində başa gəlmişdir. 16 dekabr 1995-ci ildə muxtar respublikaya rəhbər seçilərkən "Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm" (3, s. 6) – deyən Vasif Talıbovun xalq tərəfindən haqlı olaraq "intibah dövrü" kimi dəyərləndirilən son 15 illik zaman kəsiyində həyata keçirdiyi möhtəşəm işlər, yaratdığı möcüzələr, bütövlükdə şah əsəri olan müasir Naxçıvan bir daha təsdiq edir ki, ulu öndər Heydər Əliyevin işləyib hazırladığı, Azərbaycan Prezidenti İlham Əliyevin şəraitə uyğun olaraq yaradıcılıqla inkişaf etdirdiyi inkişaf strategiyası bütün zamanlar üçün alternativi olmayan və ölkəmizi daha işıqlı gələcəyə aparan mükəmməl bir təlimdir.



## ƏDƏBİYYAT


1. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2010-cu il elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxçıvan: Tusi, 2010, 106 s.
2. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının misilsiz inkişaf yolu. "İntibahın 15 ili" kitabında, s. 29-88. Naxçıvan: Əcəmi, 2010, 280 s.
3. Həbibbəyli İ. Yeniləşən Naxçıvanın möhtəşəm hesabatı. "İntibahın 15 ili" kitabında, s. 5-28. Naxçıvan: Əcəmi, 2010, 280 s.
4. "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı. "Şərq qapısı" qəzeti, 26 oktyabr 2010-cu il, sayı: 200 (20114).
5. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan: 2008, 521 s.
6. Naxçıvan tarixi atlası. Bakı: 2010, 56 s.
7. Naxçıvan tarixinin səhifələri. "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları. Bakı: ADPU-nun mətbəəsi, 1996, 222 s.
8. "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" mövzusunda keçirilən beynəlxalq simpoziumda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı. Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan (24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: Əcəmi, 2010, 300 s.
9. "Şərq qapısı" qəzeti, 22 iyul 2005-ci il, sayı: 139 (17.815).

**Aypara Sədi qızı Rüstəmova**
**tarix üzrə fəlsəfə doktoru**
**AMEA A.A.Bakıxanov adına**
**Tarix İnstitutu**

# 1946-50-CI ILLƏRDƏ AZƏRBAYCAN SSR EA NAXÇIVAN ELMI-TƏDQIQAT BAZASININ FƏALIYYƏTI

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti 2014-cü il 14 yanvar tarixli Sərəncam imzalamışdır[14].Sərəncamla əlaqədar olaraq ölkə üzrə yubiley tədbirlərinin - elmi konfransların, müsabiqələrin, sərgilərin keçirilməsi davam edir.

Naxçıvan Muxtar Respublikasının 90 illik tarixi həm də diyarın mədəniyyətinin, elminin inkişaf yoludur. Tarixən Naxçıvan Azərbaycanın mühüm elm və mədəniyyət ocağı olmuşdur. Naxçıvan diyarı nəinki Azərbaycan, eləcə də dünya şöhrətli alim və mütəfəkkirlər yetirmişdir. Onlardan Əbu Əbdullah əl-Müfərriq Nəsəvi, Əhməd ibn Nəcəf Nəsəvi, Əkmələddin Naxçıvani. Nəsirəddin Tusi, Nəcməddin Naxçıvani, Hinduşah Naxçıvani. İzəddin Naxçıvani, Fəxrəddin Naxçıvani, Baba Nemətullah Naxçıvani, Fəzlullah Nəimi və b.qeyd etmək olar [19, 402].

Yubiley ərəfəsində Naxçıvanda elmin inkişafının tarixi təcrübəsinə - müstəqil Azərbaycan SSR Elmlər Akademiyasının yaranmasının ilk illərində Naxçıvan Ehmi-Tədqiqat Bazasının fəaliyyətinə nəzər salmaq xüsusi əhəmiyyət kəsb edir.

1945-ci ildə müstəqil Azərbaycan EA yaranması ilə respublikanın ayrı-ayrı zonalarında da elmi-tədqiqat işlərinin aparılmasına şərait yarandı. Belə ki, bu zonalarda təbii ehtiyatların üzə çıxarılmasında. kənd təsərrüfatı və bitkiçiliyin inkişaf etdirilməsində, maddi və mənəvi abidələrimizin öyrənilməsində EA-nın elmi bazalarının. təcrübə stansiyalarının rolu böyük olmuşdur. Elmi-Tədqiqat Bazaları EA struktur bölməsi olaraq Rəyasət heyətinə tabe edilmişdi. Bazalar



Gəncə, Naxçıvan, Xankəndi, Qubada təşkil olunmuşdu [17, 110; 15,37].

1923-cü ildə yaranmış Azərbaycam Tədqiq və Tətəbbö Cəmiyyəti tərəfindən əsası qoyulan Naxçıvan şöbəsi müstəqil EA-nın yaranması ilə ***Naxçıvan Elmi-Tədqiqat Bazası*** (Naxçıvan Bazası) kimi öz fəaliyyətini yenidən qurdu. Bazanın əsas vəzifəsi Naxçıvan MSSR-nın təbii xammal ehtiyatlarının öyrənilməsini və ondan səmərəli şəkildə istifadə olunmasının elmi metodlarının işlənməsi, eləcə də respublikanın iqtisadiyyatını, tarixini, arxeoloji və epik abidələrini, folklorunu öyrənməkdən ibarət idi»[20, ;16, 229].

1946-cı ildə Naxçıvan Bazasında aparılan tarixi və arxeoloji tədqiqatlar nəticəsində «Naxçıvan MSSR-nin tarixi yerləri və abidələri» mövzusu üzrə Naxçıvanın tarixi yerləri və abidələri haqqında məlumatlarla yanaşı, ədəbiyyat nümunələri də toplandı. Bütün materiallar ümumiləşdirilərək hazırlandı və iş Azərbaycan SSR EA A.A.Bakıxanov adına Tarix İnstitutuna təqdim olundu.

1947-ci ildə Azərbaycan SSR EA tərəfindən Naxçıvana kompleks ekspedisiya təşkil edildi. Ekspedisiyaya SSRİ EA həqiqi üzvü A.A.Qrossheym və Azərbaycan SSR EA həqiqi üzvü Ş.A.Əzizbəyov rəhbərlik edirdi. Ekspedisiyanın alimləri Naxçıvan bazasının mütəxəssisləri ilə birgə Naxçıvan MSSR-mn təbii ehtiyatlarmın tədqiqi ilə məşğul oldular [18,102].

Naxçıvan bazasında «Naxçıvan rayonunda Azərbaycan dili dialekti» mövzusu üzrə material toplanması işi də aparılmışdır. 1947-ci ildə mövzu üzrə toplanan materiallar əsasında giriş və Azərbaycan dilinin Naxçıvan dialektinin fonetikası yazılmışdır.

1949-cu ildə Naxçıvan bazasında aşağıdakı 4 mövzu üzrə tədqiqat işləri aparılmışdır:

1. «Tikinti işlərinin bəzi məsələlərinin tədqiqi». Mövzu üzərində texnika elmləri namizədi H.M. Cəfərov 1948-ci ildən çalışmağa başlamışdı. Tədqiqatın nəticələri Azərbaycan SSR EA «Məruzələri»nin 1949-cu il 1, 2, 9, 10-cu saylarında nəşr edilmişdir.
2. «Naxçıvan MSSR-da dənli bitkilərin ziyanverici həşəratları və onlarla mübarizə tədbirləri» Bu dissertasiya mövzusu

üzərində Hüseynov çalışmışdır. Tədqiqat zamanı ziyanvericilərə qarşı superfosfatdan istifadə edilməsi yaxşı nəticələr əldə etməyə imkan verdi.

3. «Naxçıvan MSSR-nın rayonlarında çəyirdəkli bitkilərin ziyanverici həşəratları və onlarla mübarizə tədbirləri» mövzusu üzərində k.e.n. M.R.Əmənov çalışmışdır.

4. «Naxçıvan şairi Ə.Q.Qəmküsarın həyat və fəaliyyəti» adlı dissertasiya mövzusu üzrə opponentlərin rəyi təqdim olundu [1].

Bazanın dissertantları tərəfindən plandan əlavə vilayətin xalq təsərrüfatınm problemləri ilə əlaqədar işlər də görüldü. Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinin sədri Naxçıvan Bazası Elmi Şurasının üzvü dissertant P.M.Əliyev «Naxçıvan partiya təşkilatı kollektivləşmə illərində», Elmi Şuranın üzvü, bazanın dissertantı Naxçıvan MSSR Maarif Naziri Hüseynov «Azərbaycan sovet prozasında vətəndaş müharibəsi mövzusu» üzərində çalışmışdır [2].

Baza öz işini Kənd Təsərrüfatı Nazirliyi və Yerli Sənaye Nazirlikləri, Azərbaycan SSR EA-nın Zoologiya, Aqrokimya və torpaqşünaslıq, Fizika-riyaziyyat və Nizami adına Ədəbiyyat İnstitutları ilə əlaqəli şəkildə qururdu [3]

1949-cu ildə Naxçıvan Bazası tərəfindən 7 çap vərəqi həcmində 500 nüsxədə «Elmi Əsərlər» toplusu ***nəşr*** edildi. Əsərlər Naxçıvan MSSR-nın 25 illiyinə həsr olunmuşdu. Bundan başqa bazanın direktoru H.M.Cəfərovun dissertasiya mövzusu üzrə işləri Azərbaycan SSR EA Məruzələrinin 1, 2, 9, 11 saylarında çap edildi. Həmçinin, Müəllimlər İnstitutunun tələbələri üçün Analitik həndəsə üzrə dərs vəsaiti və tapşırıqların həlli metodları toplusu 5 çap vərəqi həcmində çap edildi. Bu dərs vəsaitləri Bazanın Elmi Şurası və EA Fizika-riyaziyyat İnstitutu tərəfindən bəyənildi. Bazanın elmi katibi A.Cəfərov tərəfindən dissertasiya mövzusu üzrə 3 iş yazıldı. Bunlardan biri Bazanın Əsərlərində, ikincisi EA Məruzələrinin 5-ci sayında nəşr edildi, digəri isə nəşriyyata təqdim olundu. Bazanın kiçik elmi işçisi L.T. Hüseynovun dissertasiya mövzusu üzrə 1 işi bazanın «Əsərləri»ndə çap edildi. «Naxçıvan teatrının tarixi» adlı ikinci əsəri isə nəşrə verildi.



Ümumiyyətlə, 1949-cu il ərzində 20 iş yazılmışdı ki, bunlardan da 12 iş nəşr edildi[ 9].

1950-ci ildə Naxçıvan bazasında 4 mövzunun işlənməsi nəzərdə tutulmuşdu:

1. Tikinti işlərinin bəzi məsələləri(Asma körpünün tikintisi).Mövzu keçici olaraq bu il də davam etmişdir. İcraçı texnika e.n. H.M.Cəfərov olmuşdur.

2. Gavalı qurdu və onunla mübarizə tədbirləri. İcraçı M.R Əmənov idi.

3. Naxçıvan MSSR rayonlarında dənli bitkilərin əsas ziyanvericiləri və onlarla mübarizə tədbirləri;

4. Naxçıvan şairi Ə.Q.Qəmgüsarın əsərlərinin toplusunun tərtibi. İcraçı f.e.n.L.T.Hüseynov idi.

1950-ci ildə bazanın əməkdaşları tərəfindən kənd təsərrüfatı üzrə Naxçıvan MSSR şəraitində buğdanın qədim və yüksək məhsuldar növü və buğda səpini zamanı mineral gübrənin verilməsi üzrə təcrübə sınaqlarının qoyuldu[10 ].

1950-ci ilin mart ayından bazanın elmi işçisi, f.e.n. L.T.Hüseynzadə Naxçıvan bazasının direktoru təyin edilir. L.Hüseynzadə bazanın keçici «Naxçıvan şairi Ə.Q.Qəmgüsarın əsərlərinin toplusunun tərtibi» mövzusunun icraçısı kimi şairin bütün əsərlərini toplayaraq işlədi. Toplanan materiallar əsasında 8 çap vərəqi həcmində Ə.Q.Qəmgüsarın əsərlərinin külliyyatını tərtib etdi [11].

1950-ci ildə elmi işçi Cəfərovun «Naxçıvan MSSR rayonlarında dənli bitkilərin əsas ziyanvericiləri və onlarla mübarizə tədbirləri» adlı dissertasiya işi Azərbaycan SSR EA Rəyasət Heyəti tərəfindən bəyənilərək müdafiəyə buraxıldı [11].

«Naxçıvan MSSR şəraitində buğdanın qədim və yüksək məhsuldar növü üzərində təcrübə aparılması» ilə S.Y.Novruzova məşğul olmuşdur. S.Novruzova respublikanın müxtəlif məntəqələrindən 10 buğda növü topladı. 7 yüksək məhsuldarlığı olan buğda növləri də akademiyadan alınaraq, 17 buğda növü 4 dəfə sınaq üçün təkrar olaraq səpildi.

Azərbaycan SSR və Naxçıvan MSSR Kənd Təsərrüfatı Nazirliyinin 1950-ci il 16 oktyabr qərarı ilə 15 kolxozda payızlıq buğda səpini zamanı gübrə istifadəsi üzrə sınaqlar qoyuldu. İşin icrası bazanın elmi katibi Cəfərova tapşırıldı. Digər bir sınaq da. pambığı yığılmış sahədə payızlıq buğdanın səpini ilə əlaqədar qoyuldu. Bu sınaqlar Naxçıvan MSSR Noraşen rayonunda 90 hektar sahədə qoyuldu və müsbət nəticələr verdi [4].

Naxçıvan Bazasında ***elmi kadrların hazırlanması*** yönündə də işlər davam edirdi. Bazanın direktoru H.M.Cəfərova elmi-tədqiqat işləri, həmçinin, pedaqoji fəaliyyəti ilə əlaqədar Azərbaycan SSR EA RH 1949-cu il 11 may tarixli qərarı ilə böyük elmi işçi və AAK 1949-cu il 17 sentyabr (prot.№17) tarixli qərarı ilə dosent elmi dərəcəsi verildi [5].

1949-cu ilin sonu üçün ***Naxçıvan bazasının kadrlarının*** sayı 13 ştat vahidi olmuşdur. Bunlardan 4 nəfəri elmi kadr-direktor, elmi katib, 2 nəfəri kiçik elmi işçi, 3 nəfəri elmi-texniki, 6 nəfəri isə xidmət işləri üzrə kadrlar idi. Çox təəssüf ki, direktordan başqa heç kimin elmi dərəcəsi yox idi [13].

1950-ci il üçün bazanın əmək haqqı fondu 11.206 rubl olmuşdur [12].

Naxçıvan Bazasımn apardığı elmi-tədqiqat işləri və sınaqları bazanın ***Elmi Şurasında*** vaxtaşırı müzakirə edilirdi. İl ərzində 10-12 elmi şura keçirilirdi [7].

Naxçıvan Bazasında ölkəşünaslıq muzeyi, biokimya laboratoriyası və kitabxana da fəaliyyət göstərmişdir. Bazanın ***ölkəşünaslıq muzeyinin*** əlyazmaları fondunda 150 nüsxə qiymətli tarixi əsər mühafizə edilirdi ki, il ərzində bu fonda yeni materiallar da daxil edilərək tam qaydaya salındı [12].

Bazanın laboratoriyasının təmiri və texniki təchizatı nəzərdə tutulsa da, vəsait çatışmazlığından yeni avadanlıqlar alınmadı, su çəkilmədi, kanalizasiya işləri görülmədi. Bütün bunlar da işə mənfi təsir göstərirdi [8].

***Bazanın kitabxanası*** bu illər ərzində kənd təsərrüfatı və təbliğat xarakterli yeni kitablarla zənginləşdirildi. Kitabxana fondu 5.000



nüsxədən ibarət idi. Bazanın Kitabxanası 30-dan çox adda qəzet və jurnal alırdı. Kitabxana Bakının və Moskva şəhərinin iri kitabxanaları ilə əlaqə saxlayırdı. Belə ki, kitabxana Kitabxanalar arası abonement (KAA) vasitəsi ilə öz oxucuları üçün həmin kitabxanalardan lazımi ədəbiyyatı əldə edirdi [8].

Qeyd etmək lazımdır ki, Azərbaycan SSR EA Naxçıvan Elmi-Tədqiqat Bazası 1946-50-ci illərdə öz fəaliyyətini Naxçıvanın sosial-iqtisadi inkişafının elmi əsaslarla tədqiqinə yönəltmişdir.

## Ədəbiyyat


1. AMEA RH AEİTSŞ, f.7siy.1,qutu 25, iş 299, v.114.
2. AMEA RH AEİTSŞ, f.7siy.1,qutu 25, iş 299, v.115.
3. AMEA RH AEİTSŞ, f.7siy.1,qutu 25, iş 299, v.137.
4. AMEA RH AEİTSŞ, f.7siy.1,qutu 25, iş 299, v.138.
5. AMEA RH AEİTSŞ, f.7siy.1,qutu 25, iş 299, v.116.
6. AMEA RH AEİTSŞ, f.7siy.1,qutu 25, iş 299, v.140.
7. AMEA RH AEİTSŞ, f.7siy.1,qutu 25, iş 299, v.142.
8. AMEA RH AEİTSŞ, f.7siy.1,qutu 25, iş 299, v.143.
9. AMEA RH AEİTSŞ, f.7siy.1, qutu 31, iş 351, v.109.
10. AMEA RH AEİTSŞ, f.7siy.1, qutu 31, iş 351, v.111.
11. AMEA RH AEİTSŞ, f.7siy.1, qutu 31, iş 351, v.112.
12. AMEA RH AEİTSŞ, f.7siy.1, qutu 31, iş 351, v.116.
13. AMEA RH AEİTSŞ, f.7siy.1, qutu 40, iş 445, v.10-11.
14. Azərbaycan qəz. 15 yanvar, 2014-cü il.
15. Azərbaycan Milli Elmlər Akademiyası-60.Bakı:Elm, 2005, 469s.
16. Qasımov Ə.Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər).Bakı: "Turxan" NPB, 2013, 264 s.
17. Мусаева Т.А., Мамедов А.А. На путях создания Национальной Академии Наук и формирования кадров научной интеллигенции Азербайджана (1920-1945 гг.) Баку: Нурлан, 2005, 176.с.

18. NaukaitexnikasovetskoqoAzerbaydjana. Letopisğvajneyhixsobıtiy (1920-1987qq.). Baku: Glm, 1987. 252 s.
19. Naxçıvan Ensiklopediyası. Bakı: Naxçıvan Ensiklopediyası. 2002, 594 s.
Труды Нахичеванской базы АН Азербайджанской ССР. Баку: Изд. АН Азербайджанской ССР. 1949, 223с.



**Kərimova Tamilla Sabir qızı,**
**tarix üzrə fəlsəfə doktoru,**
**AMEA A.A.Bakıxanov adına**
**Tarix İnstitutunun aparıcı elmi işçisi**

## AZƏRBAYCANI TƏDQIQ VƏ TƏTƏBBÖ CƏMIYYƏTININ NAXÇIVAN ŞÖBƏSININ ILK SƏDRIVAHAB SALMAN OĞLU HƏSƏNZADƏ

Azərbaycan xalqının XX Azərbaycanda elmin təşəkkülü və inkişafının ilk mərhələləri keçmişə qovuşmuş, tarixə çevrilmişdir. Keçmişi bilmədən bugünkü tariximizi öyrənmək çətindir. Keçmiş tariximizi öyrənməklə xalqın milli şüurunun yüksəldilməsi, onun tarixi keçmişinin dolğun və obyektiv işıqlandırılması, gələcək nəsillərə çatdırılması hər birimizin müqəddəs borcudur. XX əsr Azərbaycan elm tarixində məhsuldar və məzmunlu bir mərhələ təşkil edən 20-30-cu illər milli mədəniyyətimizin inkişaf salnaməsində, Azərbaycan elminin formalaşmasında mühüm rol oynamışdır. Bu dövrün ən mühüm nailiyyətlərdən biri milli elmin və mədəniyyətin inkişafında əhəmiyyətli rol oynamış elmi ziyalılar olmuşdur.

Keçən əsrin birinci yarısında Azərbaycan mədəniyyətin, elmin inkişaf etməsində misilsiz xidmətlər göstərmiş Naxçıvan Muxtar respublikasının ziyalı və maarifpərvər zümrəsinin görkəmli nümayəndəsi ictimai, dövlət və maarif xadimi, diyarşünas Həsənzadə Vahab Salman oğlunun adını fəxrlə çəkə bilərik. O, 1890-cı ildə Ordubad rayonunun Əylis kəndində boyaqçı ailəsində anadan olmuşdur. İlk təhsilini Əylis kənd məhəlli məktəbində 1904-cü ilin axırınadək davam etdirmişdir, sonra isə 1905-ci ildə valideynləri ilə birlikdə köçdüyü Şəki şəhərində açılmış yeni tipli «Sibqət» məktəbində almışdır. O, «Sibqət» məktəbində oxumaqla bərabər 1907-1912-ci illərdə Gəncə Ruhani Seminariyasını oxumuş, ərəb və fars dillərini, islam tarixini, məntiq, islamiyyət, kəlam, fiqh, üsul və s. elmləri mükəmməl öyrənməyə nail olmuşdur və mükəmməl təhsil almışdır. Dərslərdə fəallıq göstərdiyindən müəllimlər ona böyük

rəğbət bəsləyirdilər. Bu illərdə o, Qurani-Kərimi tam, mükəmməl öyrənmişdir [1, s. 30].

1912-ci ildə seminariyanı bitirdikdən sonra, islamiyyətə aid bir çox fənlərdən ayrılıqda təhsil alıb onları öyrənmiş, Zaqafqaziya «Şeyxül-islam idareyi-ruhaniyyəsində» imtahan verərək diplom almışdır. Seminariyanı bitirən V.Həsənzadə Əylisə qayıtmış, vətən övladlarının savadlanması və maariflənməsi üçün «üsuli-cədid» məktəbi təsis etmişdir. Bu məktəbin müdiri və müəllimi olan V.Həsənzadə məktəbə cəlb etdiyi qız və oğlanlara əlifbadan başlayaraq dil, ədəbiyyat, şərq ədəbiyyatı, fars dili, habelə təbiət. zoologiya, coğrafiya, astronomiya və onlarla başqa dünyəvi elmlərin əsaslarını təlim edirdi.Bu məktəbi bitirən qız və oğlanlar məktəblərdə müəllimlik etməyə başlaya bilərdilər. V.Həsənzadənin vaxtilə tərtib etdiyi «Əddürusül-ibtidaiyyə» ərəb dili dərsliyinin əlyazması Azərbaycan Milli EA Füzuli ad. Əlyazmalar İnstitutunda mühafizə olunur [7]. Az bir vaxtda məşhurlaşmış məktəbi el arasında "Vahabın müəllimlik küpü" adlandırırdılar[4].

1918-ci ildə Naxçıvanda mart qırğınları. zamanı erməni daşnaklarına qarşı vuruşmuşdur.1919-1920-ci illərdə Müsəlman İctimai Siyasi Təşkilatları Milli Şurasının İcraiyyə Komitəsinin katibi vəzifəsini icra etmişdir.

1920-ci ildə Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra NMK-nın əmri ilə yenidən həmin məktəbə müdir təyin olunmuşdur. V.Həsənzadə 1921-1923-ci illərdə Naxçıvan inqilab komitəsinin üzvü və Ordubad qəza inqilab komitəsinin sədri, 1923-1927-ci illərdə Naxçıvan MSSR Xalq Maarif Komissarı vəzifələrində çalışmış. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilmişdir. 1923-1929-cu illərdə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin deputatı olmuşdur. Bu illərdə Naxçıvanda bir çox yeni məktəblərintəsis olunması, çoxlu müəllim kadrlarının yetişdirilməsində, uşaq evlərin. ədəbiyyat cəmiyyətlərinin açılıb, təşkilində çox böyük rolu olmuşdur[2 , s. 235].

25 may 1925-ci ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsiyarandı və o, bu cəmiyyətin sədri. Mirbağır Mirhüseynzadə isə elmi katibi seçilmişdir. V.Hüseynzadə 1925-1927-ci illərdə cəmiyyətin sədri kimi şərəfli bir vəzifəni yetirmiş, az bir vaxt ərzində öz ətrafına çoxlu üzv toplamışdır. Cəmiyyətin ən fəal üzvlərindən Məhəmməd Rəsulzadə, Hüseyn Musayev, Əbdüləzim Rüstəmov, Lətif Hüseynzadə, Xəlil Hacılarov, Həsən Səfərli, Yusif Qazıyev, Rza Paşazadə, Əbülfəzl Sadıxzadə, Mehdi bəy Hacınski, Məhəmməd Əhmədzadə, Neman Əfəndizadə, Əsəd Cəfərzadə, Əlisəttar Qılmanov, Asəf Ağakişiyev və b. idi. Cəmiyyət yarandığı ilk gündən ictimaiyyətlə sıx əlaqə saxlamış, respublikanın maddi mədəniyyət abidələrinə, tarixinə, el ədəbiyyatı və etnoqrafiyasına dair məlumat və materialların toplanması və tədqiqinə xüsusi əhəmiyyət vermişdir[5, s.4]. Cəmiyyət üzvləri Naxçıvan diyarının qədim tarixini əks etdirən yerüstü və yeraltı abidələrinin üzə çıxarılması, öyrənilməsi və qorunması məsələlərinə çox diqqət və qayğı ilə yanaşırdılar.

Məşhur tarixçi, arxeoloqlardan K.N.Smirnov, İ.İ.Meşşaninov, A.A.Miller, V.M.Sısoyev, Ə.H.Ələkbərov, İ.S.Əzimbəyov və başqaları Naxçıvanda arxeoloji, etnoqrafik araşdırmalar aparmağa gələrkən onlara yaxından köməklik göstərmiş, əldə edilən qiymətli maddi mədəniyyət nümunələri ilə Naxçıvan Dövlət Tarix Muzeyini zənginləşdirmişdir[6, v. 3, 1].

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsi öz fəaliyyəti dövründə bir neçə yerdə arxeoloji qazıntı işləri aparmışdır. İlk arxeoloji tədqiqatlar 1925-1927-ci illərdə Cəmiyyətin üzvləri və Azərbaycan Arxeoloji Komitəsinin üzvləri V.M.Sısoyev və İ.Əzimbəyovunrəhbərliyi ilə Xaraba Gilanda (Ordubad rayonu), İ.İ.Meşşaninovun Qızılvəngdə (Qızılburun), A.A.Millerin Qızılvəng məbədi yaxınlığında, Ə.Ələkbərovun Şərur, Qarabağlarda, Mirbağır MirheydərzadəninŞahtaxtlı kəndi yaxınlığındakı Gavurqalada və s. ərazilərindəkiabidələrdə qazıntı və ilkin tədqiqat işləri aparılmışdır. Cəmiyyət tərəfindən Əlincə qalasında, Əbrəqunus dairəsinin bir sıra kəndlərində tədqiqatlar aparılmışdır.

Cəmiyyətin sədri V.Həsənzadə fəaliyyətə başladığı ilk günlərindən etibarən tarixi abidələrin qorunması məqsədilə onların

təmir etdirilməsinə çalışmış və bu işi həmişə diqqət mərkəzində saxlamışdır. Bu dövrdə Naxçıvan şəhərinin Şahab məhəlləsindəki Yusif bin Kusair türbəsinin, Qala məhəlləsindəki İmamzadə memarlıq kompleksinin, Qarabağlar kəndində olan türbə və qoşa minarələrin təmir və bərpa edilməsi məsələsini qaldırıldı[10, s.147-148].

Naxçıvanda ilk dəfə olaraq Azərbaycan Yazıçılar Cəmiyyətinin Naxçıvan şöbəsi yaradılmış və V.Həsənzadə onun sədri olmuşdur. Bu ədəbiyyat cəmiyyətinin üzvlərindən «Şərq qadını» qəzetinin redaktoru Abbas Gülməmmədov, Əbulfəzl Sadıqzadə, Molla Mahmud Çakər, Naxçıvan İK-nın sədri Məşədi Babayev, Mehdi bəy Hacınski, Mirbağır Mirheydərzadə, Əyyub Abasov, Səkinə Rzalı. Əsgər Kəngərli, Neymət Nəim, Müzəffər Asim və başqalarını göstərmək olar. Bu təqdim olunan cəmiyyət üzvləri ilə birlikdə kollektiv foto şəkil 1928-ci il «İnqilab və mədəniyyət» jurnalında proletar yazıçılarının Birinci qurultay münasibəti ilə verilmiş materialların arasında dərc olunmuşdur.

1929-1934-cü illərdə Ordubad konserv zavodunun direktoru işləmişdir. 1934-cü ildə AK(b)P qərarı və dəvəti əsasında Bakıya gələrək Azərbaycankinofilm idarəsində 1935-ci ilə kimi müfəttiş vəzifəsində çalışmışdır[4]. Mirzə Vahab Həsənzadə mədəni bir ziyalı olmaqla xalqını, millətini də savadlı, mədəni millətlər arasında görmək istəyirdi.

V.Həsənzadə SSR Elmlər Akademiyasının akademiki Yusif Məmmədəliyevin, müxbir üzvü Bəhman Axundovun, müəllim Əli Qəmbərlinin, Müzəffər Abutalıbovun, Həsən Kazımovun, Cavad Sadıqovun və bir çoxlarının təhsil görüb yetişməsində şəxsən fəaliyyət göstərmişdir[4].

V.Həsənzadənin oğlu Turan Həsənzadənin xatirələrindən: «Atamdan eşitdiklərimə görə o, Y.Məmmədəliyevin atasını və başqa yaxın qohumlarını yaxşı tanıyırdı[4]. Yusif öyrənib əldə etmişdir ki. Ordubad qəzasında ən görkəmli ziyalılardan olan, şərq dillərinə bələd olan Mirzə Vahabın Əylis kəndində yaşadığı evdə çox zəngin kitabxanası vardır[3, s.25]. Yusif kiçik yaşlarından oxumağa səy edən, Şərq klassiklərini mütaliə etməyi çox həvəs göstərirdi. Lakin onun istədiyi kitabları Ordubadda və bu ətrafda tapıb əldə etmək çox çətin idi Qohumlarının məsləhəti ilə məktəbli Yusif Ordubaddan Əylis kəndinə 7-8 km yolu piyada gəlib bizim evi tapdı. Söhbət əsnasında məlum oldu ki, o, İran, Türkiyə, və Şərqin ən görkəmli sənətkarlarını mütaliə etmək və onların yaradıcılığı ilə yaxından tanış olmaq istəyir. Yusif kitabları iki-iki verilməsini xahiş etdi. Ona verilən kitabları ağ dəsmalın içinə bükür, pencəyin altına qoyub aparırdı. Səliqə ilə qaytarıb gətirərdi. Y.Məmmədəliyevin Mirzə Vahabdan alıb oxuduğu və ondan şərqin görkəmli sənətkarları Sədi Şirazi, Hafiz Şirazi, Nizami Gəncəvi və onun «İsgəndarnamə»si, Məhəmməd Fizuli və onun «Leyli və Məcnun»u, Firdovsinin «Şahnamə»si, Xaqani, Şirvani, Ömər Xəyyam və başqa bu kimi görkəmli şəxslərin əsərlərini fars dilində oxuyan Y.Məmmədəliyev həmin dilləri dərindən mənimsəyə bilmişdir. Ona görədir ki, sonralar lazım olan məclisdə Y.Məmmədəliyev bu böyük şəxsiyyətlərdən fars dilində rəvan şeirlər deyir və onu ingilis, rus dillərinə oradaca tərcümə edirdi. Atam bir fikri həmişə təkrar edirdi: «Yusif zəkalı bir oğlandır. Belə bir gəncin çox böyük gələcəyi olmalıdır». Doğrudanda o gələcəkdə Azərbaycan xalqının böyük oğlu – görkəmli elm xadimi olmuş və akademik Y.Məmmədəliyevi bütün dünya tanımışdır. Sonralar, Y.Məmmədəliyev kimya elminə yiyələndən sonra da, Akademiyanın prezidenti olanan sonra da Mirzə Vahaba rast gələndə ona ehtiram göstərir və deyirdi: «Siz mənim ilk müəllimim və dünyagörüşümün inkişafında ilk fəaliyyət göstərən şəxs olmusunuz. Mən şərq xalqlarının klassikləri haqqında əldə etdiyim məlumatları heç bir vaxt unuda bilmərəm»[4].

V.Həsənzadə əfqan, fars, ərəb, türk, tacik, özbək, rus dillərini mükəmməl bildiyinə görə onu SSRİ EA Azərbaycan filialına (AzF) dəvət etmişdirlər. 1935-1938-ci illərdə o, Tarix, Dil vəƏdəbiyyat İnstitutunun «Azərbaycan tarixi»şöbəsində kiçik elmi işçisi vəzifəsindəçalışmışdır. Bu illər ərzində o, Mirzə Adıgözəl bəyin «Qarabağnamə»əsərini, fars müəllifi Səədullanın Azərbaycan tarixi üzrə«Zübdət-ət-Təvarix»əsərini, Nizamülmülkün «Siyasətnamə»sini,

Həmdulla Qəzvininin, Şeyx Fəzlullahın, Mirzə Mehdixanın, Mirxondun, Xandəmirin, Mirzə Məmməd Tağı xanın və digərlərinin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir[9]. V.Həsənzadə 1936-cı ildən SSRİ EA Azərbaycan filialın əsas kitabxanasının müdiri vəzifəsinə təyin edildi. Bu illərdə o, respublikanın rayonlarından, şəhər və kəndlərindən Şərq, o cümlədən Azərbaycan ədəbiyyatına, tarixinə, elm və mədəniyyətinə, ictimai-fəlsəfi fikrinə, islamiyyətə aid qədim və nadir əlyazmalarının, kitabların, Quranın müxtəlif nəşrləri AzF-na toplanmasına nail olmuşdur. Çoxlu əlyazmaların və qiymətli çap kitabların toplanması nəticəsində AzF-da Şərq şöbəsi yaradılmışdır və o, bu şöbənin müdiri (1937-1941) təyin olunmuşdur. Sonralar həmin xəzinə, yaradılmasında V.Həsənzadənin çox böyük xidməti olan Azərbaycan EA Əlyazmalar Fonduna (indiki AMEA Əlyazmalar İnstitutu) verilmişdir.Bundan başqa o, 1937-ci ilin avqustundan dövlət tapşırığım yerinə yetirmək üçün Din Tarixi Muzeyinin açılışı işlərinə cəlb edilmişdir.

1941-ci il dekabrın 19-da Azərbaycan SSR XDİK orqanları tərəfindən «əksinqilabi ədəbiyyatı saxlamaqda» təqsir edilərək həbs edilmiş və 5 il müddətinə azadlıqdan məhrum edilmişdir.

Mənzilində aparılan axtarış zamanı tapılan kitablar (ərəb əlifbası ilə) «zərərli» olduqlarına görə SSRİ EA Azərbaycan Filialının xüsusi şöbəsinə təhvil verilərək məhv edilməsi idilər.Həmin kitabların AzF xüsusi şöbəsinə təhvil verilməsi haqqında özünün qeyd aparmasına baxmayaraq, əslində onlar onun kitabxanasında saxlanılırdı. Beləliklə, öz həyatı və azadlığı hesabına o nadir əlyazmaları və kitabları məhv olmaqdan xilas etmişdir[8].

Azərbaycana qayıtdıqdan sonra ona Bakıda yaşamağa icazə verilməmişdir. 1945-ci ildə Quba ikiillik Dövlət Müəllimlər İnstitutuna fars dili, pedaqoji məktəbdə orta əsrlər Azərbaycan ədəbiyyatı müəllimi təyin olunmuşdu. Həmin tarixdən institutun kitabxanasında müdir vəzifəsində də çalışmışdır. Təqaüdə çıxandan sonra ömrünün son illərini Əylis kəndində keçirmişdir. V.Həsənzadə 14 yanvar 1960-cı ildə doğma ana vətəni olan Əylis kəndində vəfat etmişdir. Şərq dillərini, islam tarixini, Qurani-Kərimi mükəmməl



bilən zəmanəsinin xeyirxah, maarifpərvər oğlu Vahab Həsənzadə ömrünün sonuna kimi öz xalqının maariflənməsi və firavan yaşaması üçün yorulmaq bilmədən fəaliyyət göstərmişdir.

**İstifadə olunmuş ədəbiyyat:**


1. T.M.Naibova. Əylis dünyanın ən qədim yaşayış məskənidir.- Azərbaycan Dövlət Neft Akademiyasının Elmi Əsərləri. Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr olunur. B.,1999, №3
2. Naxçıvan Ensiklopediyası, I cild. B., 2005
3. Б.А.Платонов. Мамедалиев. Б., 1966
4. Materiallar V.Həsənzadənin oğlu AMEA Nizami ad.Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi mərhum Turan Həsənzadə tərəfindən təqdim olunmuşdur.
5. F.Xəlilov. Naxçıvanı öyrənən elmi cəmiyyət.B., 2005
6. AMEA Rəyasət Heyətinin «Azərbaycan elmi irsin təkmilləşdirməsi və sistemləşdirməsi» şöbəsinin materialları, f.1, siy.1, sax.vah.32, qutu 2; Azərbaycan Respublikasının Dövlət Arxivi, f. 389, siy.1, iş 6; f.387 siy.1, iş 79
7. «Əddürusül-ibtidaiyyə» (əlyazma). (V.Həsənzadənin ərəb dili dərsliyi). - AMEA M.Füzuli ad. Əlyazmalar İnstitutu, f.4504
8. Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin arxivi,istintaq işi № PR39407 (V.Həsənzadənin istintaq işi)
9. Выписки из работ Шейха Фазлуллаха, Мирза Мехтихана, Хондамира, Искендер бека, Мюнши, Мирхонда, Мирза Мамед Таги хана и др. – AMEA Tarix İnstitutunun Elmi arxivi, inv.№ 444-449, 670-675, 681.
10. A.Ə.Quluzadə, R.Ə.Quliyev. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Naxçıvan şöbəsinin tarixi abidələrinin öyrənilməsində rolu. - Azərbaycan arxeologiyası və etnoqrafiyası, 2006, №1.

Zeynəb Quliyeva
AMEA Naxçıvan Bölməsi
E-mail: zeyneb_guliyeva@yahoo.com

## MUXTARİYYƏT DÖVRÜNDƏ NAXÇIVANIN TUNC DÖVRÜ ABİDƏLƏRİNİN TƏDQİQİ

Azərbaycanın tarixi coğrafiyasında xüsusi yeri olan Naxçıvan müxtəlif dövrlərə aid abidələrlə zəngin olsa da, onların elmi dövriyyəyə daxil edilməsi məhz muxtariyyət illərində həyata keçirilmişdir. Ötən əsrin 30-cu illərindən başlayaraq aparılan arxeoloji tədqiqatların nəticəsi olaraq burada xeyli miqdarda maddi-mədəniyyət nümunələri aşkar edilmişdir ki, bunların böyük bir qismi Tunc dövrünü əks etdirir. Bu dövrdə görkəmli alimlər tərəfindən aşkar edilən I və II Kültəpələr, Gəmiqaya, Qızılburun, Şahtaxtı, Plovdağ, Nəhəcir, Ovçulartəpəsi, Ərəbyengicə, Şortəpə, Xələc, Yaycı və digərləri ilə təmsil olunan fundamental abidələr milli dəyərlərmizin tarixi köklərinin araşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu fikir öz təsdiqini Qızılburun keramikası üzərində təsvir edilən yallı səhnəsinin (2, s. 254; 8, çizim 22) qayalarda və xalçalarımız (NDTM. Inv.№877/П-97) üzərindəki təsvirlərlə harmoniya yaratmasında tapır (Şəkil 1, 1-3).

Şəkil 1. Naxçıvanın Tunc dövrü keramikası üzərindəki ornamentasiyanın qayalarda və xalçalardakı paralelləri

Xalqımızın mill birliyini ifadə edən bu səhnə uzaq Daş dövründən başlayaraq zamanın gözlə görünməyən sədlərini heç bir deformasiyaya uğramadan keçərkən tarixə öz möhürünü vurmuş,






Qobustan qayalarında, Gəmiqaya təsvirlərində, Tunc dövrü keramikasında və müasir xalçalarımızda ortaya çıxmaqla zamanlararası bir mədəniyyət körpüsü yaratmışdır. Bu körpünün ən böyük əhəmiyyəti onun eyni mədəniyyəti özündə ehtiva etməsindədir. Bu nüans Azərbaycan, həmçinin onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın qədim türk yurdu olduğunu təsdiq edən yüzlərlə faktdan biridir. Uzun müddət elmə qapalı qalan bu cür dəyərli maddi-mədəniyyət nümunələri Naxçıvanın Tunc dövrü abidələrindən xeyli miqdarda aşkar edilmişdir. Bu dövrün abidələri çoxsaylı olduğundan onların hamısı haqqında məlumat vermək geniş həcmli əsər və zaman tələb edir. Lakin onların kompakt halda aşkar edildiyi Arpaçay, Naxçıvançay və Gilançay vadilərində olan fundamental abidələr və onlardan üzə çıxarılan maraqlı maddi-mədəniyyət nümunələrinin timsalında muxtariyyət dövründə aparılan tədqiqatların əhəmiyyətini və inkişafını izləmək mümkündür. Naxçıvanın Tunc dövrü abidələrində muxtariyyət dövründə aparılan tədqiqatlar bir neçə mərhələyə bölünür.

Muxtariyyətin birinci mərhələsində (1924-1969) Oğlanqala, Şortəpə və Şahtaxtı yaşayış yerlərində Ə.Ələkbərovun rəhbərliyi ilə aparılan kəşfiyyat qazıntıları nəticəsində xeyli miqdarda arxeoloji materiallar, o cümlədən əmək alətləri, bəzək əşyaları, silahlar, məişət əşyaları, sadə və boyalı qablar (1, s. 10), həmçinin 30-40 sm dərinlikdə uşağa məxsus, 80-90 sm dərinlikdə yaşlı adama məxsus avadanlıqsız məzarlar üzə çıxarılmışdır. 1939-cu ildə isə təsadüf nəticəsində dağıdılan Şortəpə nekropolundan e.ə. XVII- XV əsrlərə aid edilən çölmək, küpə, çaynik, kasa tipli keramika nümunələri aşkar edilmişdir (13, s. 100). 1951-ci ildə AMEA Tarix İnstitutu tərəfindən Naxçıvana göndərilən arxeoloji ekspedisiya görkəmli arxeoloq O.Həbibullayevin rəhbərliyi altında I Kültəpə abidəsində geniş arxeoloji tədqiqatlara başlamış (14, s.14), 1960-cı ildə isə II Kültəpə abidəsi qeydə alınmışdır. 1958-ci ildə O.Həbibullayevin rəhbərlik etdiyi ekspedisiya Sədərək kəndi yaxınlığında, 2 il sonra isə Yuxarı Daşarx yaxınlığında dağıdılmış küp qəbirləri tədqiq etmiş, əldə edilən gil qab qırıqları və başqa arxeoloji tapıntılara əsasən

yaşayş yerinin Tunc dövrünə aid olduğu qeyd edilmişdir (13, s. 15). Lakin sonralar tədqiqatlar davam etdirilmədiyindən bir müddət fasilə yaranmışdır.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi ilə arxeoloji tədqiqatlar sahəsində başlayan II mərhələdə birinci mərhələdən fərqli olaraq, arxeoloji tədqiqatların miqyası genişlənmiş, aşkar edilən abidələrin sayı artmışdır. Dizə, Oğlanqala. Ovçulartəpəsi, Xələc, Ərəbyengicə, Aralıq, Həmzəli, Daşarx abidələri məhz bu mərhələdən başlayaraq geniş tədqiqat obyektinə çevrilmişdir. 1969-cu ildə Şərur rayonunun Dizə kəndi yaxınlığında təsadüf nəticəsində Erkən Tunc dövrünə aid bir neçə küp qəbir üzə çıxarılmış, buradan toplanan e.ə. IV minilliyin sonu-III minilliyin əvvəllərinə aid yarımşarşəkilli qulpa malik qara rəngdə boyanmış qab nümunələri (13, s. 20) və digər materiallar R.Göyüşov və V.Əliyev tərəfindən nəşr edilmişdir. 1971-ci ildə Ovçulartəpəsi yaşayış yerində başlanan arxeoloji tədqiqatlar (8, s. 10) 1980-ci ildə V.Əliyev və A.Seyidov, daha sonra S.Aşurov və V.Baxşəliyev tərəfindən davam etdirilmişdir. 1982-ci ildə Xələc yaşayış yeri V.Əliyev və A.Seyidov *tərəfindən tədqiq edilərək*, boz və çəhrayı rəngdə gil qab parçalarının, əmək alətləri və nalşəkilli ocaq qurğusunun e.ə. IV minilliyin sonu–III minilliyin birinci yarısına aid olduğu qeyd edilmişdir (3, s. 71; 1, s. 83). 1984-cü ildə Ərəbyengicə qədim yaşayış yerində V.Əliyev, A.Seyidov tərəfindən kəşfiyyat qazıntıları aparlmış, 1984-1986-cı illərdə xeyli yerüstü material: dən daşları, sürtkəc və saxsı məmulatları toplanmışdır. 1985-ci ildə yenidən tədqiqat obyektinə çevrilən Şortəpədən Orta Tunc dövrünə aid keramika toplanaraq Şərur rayon Tarix Diyarşünaslıq muzeyinə verilmişdir (5, s. 29). 1991-1993-cü illərdə Aralıq, Həmzəli və Daşarx kəndləri ərazilərində Tunc və Antik dövrə aid yaşayış yerləri aşkar edilmiş, xeyli miqdarda Kür-Araz mədəniyyətinə aid keramika. daş əmək alətləri və tunc bəzək nümunələri üzə çıxarılmışdır. Bu dövrdə Aşağı Yaycı kəndi yaxınlığında yerləşən daha bir abidə su anbarı tikilərkən dağıntıya məruz qalmış və daş qutu qəbirlərdən Orta Tunc dövrünə aid monoxrom boyalı qablar aşkar edilmişdir.



Haftavantəpə, Göytəpə, Qordlartəpə kimi qədim abidələrin materialları ilə analogiya yaradan (3, s. 139) Yaycı qabları, həmçinin digər abidələrin materialları həmin illərdə Naxçıvanda yaradılan tarix-diyarşünaslıq muzeylərinin (8, s. 52)qiymətli eksponatlarına çevrilmişdir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən, xüsusilə ümummilli lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra başlanan III mərhələdə Naxçıvanda arxeoloji qazıntılar intensiv xarakter almışdır. 2001-ci ildən başlayaraq Ovçulartəpəsində aparılan tədqiqatlar nəticəsində aşkar edilən çoxlu sayda çəhrayı, sarı, boz rəngli gil qab qırıqları, daş alətlər, tunc iynə qırıqları, tikinti qalıqları abidənin e.ə. 3500-2600-cü illərə aid edilməsinə (1, s. 91) stimul vermişdir. Tezliklə bu qədim yaşayış yeri əcnəbi arxeoloqları da özünə cəlb etmişdir: 2006-cı ildən başlayaraq Naxçıvanlı arxeoloqlar Fransa arxeoloji ekspedisiyası ilə birlikdə burada tədqiqatlar aparırlar. 2008-ci ildə A.Seyidov və V.Baxşəliyev tərəfindən Ərəbyengicə yaşayış yerinin geniş tədqiqinə başlanmış və e.ə. IV-III minilliklərə aid boz-qara və çəhrayı rəngli keramika nümunələri, həmçinin, dördkünc və oval formalı binaların qalıqları aşkar edilmişdir (9, s. 15-20). 2013-cü ildə AMEA Naxçıvan Bölməsinin ekspedisiyası tərəfindən aparılan qazıntılar nəticəsində buradan xeyli miqdarda Kür-Araz keramikası, əmək alətləri, ocaq yeri və qurğuları aşkar edilmişdir.

Bu dövrdə arxeoloji tədqiqatların bir qismi Gilançay vadisində aparılmışdır. I Plovdağ yaşayış yeri, I və II Plovdağ nekropolları, həmçinin Gəmiqayada V.Əliyev, B.İbrahimli və digər arxeoloqlar tərəfindən aparılan tədqiqatlar nəticəsində Tunc dövrünə aid keramika nümunələri, təsərrüfat alətləri, qurbangahlı, kromlexlə əhatə edilmiş qəbirlər, bəzək əşyaları, sümük qalıqları, tikili qalıqları, qayaüstü təsvirlər və s. maddi-mədəniyyət nümunələri üzə çıxarılmışdır (4, s. 24; 7, s. 54-62). Qeyd etmək lazımdır ki, bəhs edilən abidələrdə arxeoloji tədqiqatlar davam etdirilir. Təbii ki, bu işlərin görülməsində 2001-2002-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü və xüsusi köməkliyi ilə təşkil edilmiş Naxçıvan-Gəmiqaya

ekspedisiyasının, həmçinin Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən imzalanan "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" 26 aprel 2001-ci il tarixli Sərəncamın böyük rolu olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanan 5 fevral 2008-ci il tarixli "Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən 2008-2009-cu illərdə aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamdan sonra isə Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvanda da arxeoloji tədqiqatların həcmi genişlənmiş, aşkar edilən abidələrin sayı artmışdır. Onların içərisində xüsusi çəkisi olan Tunc dövrü abidələri Azərbaycan arxeologiyasına mühüm töhfələr vermişdir ki, onların bir neçəsini qeyd etmək yerinə düşər.

Naxçıvanın Tunc dövrü abidələri regionun qədim tarixinin üzə çıxarılması, Azərbaycanın, o cümlədən Naxçıvanın qonşu regionlarla mədəni-iqtisadi əlaqələrinin öyrənilməsi, Kür-Araz mədəniyyətinin, Boyalı qablar mədəniyyətinin mənşəyinin və mənsubiyyətinin, ən başlıcası isə buranın tarixi türk məskəni olmasının sübuta yetirilməsi baxımından çox əhəmiyyətli olmuşdur. Buradan aşkar edilən maddi-mədəniyyət nümunələri təkcə istehsal edildiyi dövrün deyil sonrakı dövrlərin də maddi-mədəniyyət nümunələri ilə səsləşir. Bu cəhətdən Gəmiqayada təsvirləri diqqəti cəlb edir. Burada çəkilmiş zoomorf təsvirlər (12, s. 55) çoxçeşidli olması ilə diqqəti cəlb edir. Qədim Naxçıvan tayfalarının həyat tərzini əks etdirən belə təsvirlərin müxtəlif növlərinə Tunc dövrü keramikası və Naxçıvan xalçaları üzərində də rastlanmışdır. Bunu Şərur rayon Tarix Diyarşünaslıq muzeyinin eksponatlarından biri olan Yaycı küpəsi və Culfa rayon Tarix Diyarşünaslıq muzeyinin eksponatları arasında yer alan Naxçıvan xalçası üzərindəki zoomorf təsvirlərin nümunəsində görmək olar (Şəkil 2, 1-4). Keçmişlə bu günü birləşdirən belə faktlara muzeylərimizdə çox rastlanmışdır. Bunlardan biri olan Naxçıvan Dövlət Tarix muzeyində saxlanılan xalça (NDTM.





Inv.№21671/П-828) bu cəhətdən diqqəti dahadiqqətəlatiqdir. Naxçıvan qrupu üçün xarakterik olan boz-çəhrayı rəngli xalçanın üzərində Erkən Tunc dövrü ornamentasiyasının əsas atributlarından olan "S", "T" şəkilli ştamplar, çərxi-fələk, romblar, bucaqlar, qoşa spirallar, həmçinin zoomorf təsvirlərin olması tarixin dərin qatlarından süzülüb gələn vahid türk mədəniyyətini hədəf göstərməkdədir. Təsadüfi deyil ki, bu işarələr qədim Şumer işarələri ilə də analogiya yaradır (15, s. 138). Naxçıvan muzeylərində qorunub saxlanılan maddi-mədəniyyət nümunələrinin ornamentasiyasında belə piktoqramlardan geniş istifadə edilmişdir.

Şəkil 2. Tunc dövrünə aid zoomorf təsvirlərin Naxçıvan xalçası üzərindəki paralelləri (1-Ordubad TDM; 2-Şərur TDM; 3-Culfa TDM).

Naxçıvanın Tunc dövrü abidələrindən aşkar edilən materiallar milli-mənəvi dəyərlərimizin köklərinin araşdırılmasında da xüsusi əhəmiyyətə malikdir. Məlum olduğu kimi, hər bir xalqın mənəvi pasportu olan milli dəyərlər onun tarixi, adət-ənənəsi, məşğuliyyəti, məişəti və inanclarını özündə əks etdirir və onların gələcək nəsillərə ötürülməsəndə maddi-mədəniyyət nümunələri vasitəçilik missiyasını yerinə yetirir. Culfa muzeyində saxlanılan və XVII əsrə aid edilən zoomorf təsvirli xalça (CTDM.inv.№874), Babək rayon Tarix-Diyarşünaslıq muzeyində saxlanılan xalçalar üzərindəki ornamentlərin prototiplərinə Erkən Tunc dövrünün piktoqramları (romb, çərxi-fələk işarəsi, antropomorf və zoomorf təsvirlər) arasında rast gəlinməsi bu fikri təsdiq edir. Belə ornamentasiyanın Naxçıvanın digər maddi-mədəniyyət nümunələri üzərində, o cümlədən məzar daşlarında (7, şəkil 6) həmçinin, Ubeyd keramikası üzərində (10, s. 497) olan təsvirlərlə oxşarlığı tarixin bütün dövrlərində buranın

aborigenləri olan qədim türk tayfaları tərəfindən yaradılan vahid türk mədəniyyətdən qaynaqlandığını göstərir, hansı ki, onlar "..türk xalqlarının mənəvi dəyərlər toplusu, türk dili, maddi və mənəvi sənətlərin məcmusunu" (6, s. 5) özündə ehtiva edir. Bu dəyərlərin qorunması bu gün də uğurla davam etdirilir. Onların qorunmasında Pespublika Prezidenti İlham Əliyev tərəfindən, eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən verilən sərəncamlar mayak rolunu oynayır.

## ƏDƏBIYYAT


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванский АССР. Баку: Элм , 1982 , 316 с .
2. Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. Bakı: Şərq-Qərb, 2007, 568 s.
3. Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı: Nafta – Press, 2002, 158 s.
4. Balasaqunlu Y. Qutadğu bilig. Bakı, 2006, 440 s.
5. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. Ali məktəb tələbələri üçün vəsait. Bakı: Elm, 2007, 240 s.
6. Baxşəliyev V., Seyidov A., Qədirzadə Q., İbrahimli B. Qədim Ordubad. Naxçıvan, Əcəmi, 2014, 312 s.
7. Baxşəliyev V.B., C.Marro, Aşurov S. Ovçulartəpəsi yaşayış yerində arxeoloji qazıntılar //Azərbaycanda arxeoloji tədqiqatlar . Bakı, 2008, s. 132-135
8. Belli O., Bahşaliyev V. Nahçivan Bölgesinde Orta ve Son Tunç Çağı Boya Bezemeli Çanak Çömlek Kültürü. Ankara, 2001, 120 s.
9. Əliyev V. Gəmiqaya. Bakı: Əbilov, Zeynalov və oğulları. Bakı. 2005, 148 s.
10. Исмаилзаде Г.С. Азербайджан в системе раннеброизовой культурной общности Кавказа. Баку: Nafta-Press, 2008, 304 с.
11. Səfərli H. Naxçıvanda sufiliklə bağlı mərkəzlər. Bakı: Elm və təhsil, 2013, 328 s.
12. Seyidov A., Baxşəliyev V. Ərəbyengicə. Bakı: Nurlan, 2009, 160 s.
13. Yusifov Y.Qədim Şərq tarixi. Bakı, Şərq-Qərb, 2007, 536 s.
14. Kəngərli S. Muzeylər elm və mədəniyyət toplusudur. Naxçıvan, Əcəmi, 2000, 52 s.
15. Фарзали А. (Фарзалиев Аждар Алиш оглу) «Ноев Ковчег и Гямигая-Гобустанский алфавит», Баку, 2005, ГАПП-ПОЛИГРАФ, 302 с.

Ə.Q.Qasımov
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun
«Əliyevşünaslıq» şöbəsinin müdiri, t.ü.e.d.
T.ü.f.d., b.e.i. İ.Həsənov

## NAXÇIVANI MUXTARIYYƏTƏ APARAN YOLA BIR NƏZƏR

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra milli tarixşünaslıq qarşısında duran ən mühüm vəzifələrdən biri də Azərbaycan tarixinin bütün dövrlərinin elmi təhlilinə nail olmaqdan ibarətdir. Bu cəhətdən Naxçıvan Muxtar Respublikasının yaranması, onun muxtariyyət statusu əldə etməsi istisna təşkil etmir.

Ölkə prezidenti cənab İlham Əliyev Azərbaycanın qədim tarixə, zəngin mədəniyyətə və həmçinin milli dövlətçilik ənənələrinə malik olan Naxçıvanın tarixinin, o cümlədən onun muxtariyyat tarixinin yenidən tədqiqinin elmi və siyasi əhəmiyyətindən bəhs edərək göstərmişdir ki, Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, bu diyarın tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir» [1, 5 avqust. 2009].

Azərbaycanın ayrılmaz, üzvi tərkib hissəsi kimi vətənimizin ictimai-iqtisadi, siyasi, mədəni inkişafı prosesində nəzərəçarpacaq mövqeyi və rolu olan Naxçıvan diyarı mürkkəb, çətin və eyni zamanda şərəfli inkişaf yolu keçmişdir.

İbtidai insanların ilk məskənlərindən biri olan Naxçıvan ərazisində aşkar edilən daş və tunc dövrünün abidələri, Gəmiqayada aşkarlanan külli miqdarda müxtəlif quruluşlu təsvirlər, öz sənətkarlığı ilə seçilən boyalı qablar mədəniyyəti, qədim şəhərsalma mədəniyyətinin izləri



bu yurdun ilkin sivilizasiya beşiklərindən olduğunu sübut edir. Azərbaycanın siyasi-tarixi təkamülünün erkən mərhələsində Naxçıvan uzun illər ərzində bir-birini əvəz edən Manna, Midiya və Əhəmənilər, Atropatena, Sasanilər, Ərəb xilafəti, Səlcuq və s. dövlətlərin tərkibinə qatılmış və bu dövlətlərin inkişaf etmiş strateji əhəmiyyətə malik əyalətlərindən və idarə mərkəzlərindən biri olmuşdur.

Naxçıvan XV-XVIII əsrdə gərgin siyasi mübarizələr meydanı olmuş, XV əsrdə Qaraqoyunlu, sonralar isə Ağqoyunlu dövlətlərinin tərkibinə qatılmış, 1501-ci ildən isə Səfəvilərin hakimiyyəti altına keçmişdi. Daha sonra Nadir şahın dövlətində mühüm əhəmiyyət kəsb edən və həmin dövlətlərin süqutundan sonra Naxçıvan Azərbaycanda yaranmış on səkkiz xanlıqdan birinin mərkəzi olmuşdur.

XIX yüzilliyin birinci yarısında yaranmış tarixi şərait nəticəsində iki yerə parçalanmış Azərbaycanın Arazdan şimaldakı hissəsi, həmçinin Naxçıvan xanlığı və Rusiya imperiyasının tərkibinə qatıldı. Yeni inzibati dəyişikliklər nəticəsində tarixən formalaşmış və sabitləşmiş sərhədlərimiz pozuldu. Çar Rusiyasının geosiyasi məqsədlərinə müvafiq olaraq həmin vaxtdan İranda və Türkiyədə yaşayan ermənilərin Azərbaycana, o cümlədən Naxçıvan ərazisinə köçürülməsinə başlanıldı. Ümumi sayı 140 mindən çox olan köçürülən ermənilərin 10 min nəfərdən çoxu Naxçıvanda məskunlaşdı [2, 5 avqust, 1999].

Məhz həmin dövrdən Naxçıvan daşnakların sərsəm «Böyük Ermənistan» dövləti yaratmaq planlarında, eləcə də ərazi iddialarında əsas hədəfə çevrilmiş oldu.

Naxçıvan tarixinə ümumi fonda nəzər saldıqda belə qənaətə gəlmək olar ki, XX yüzilliyin I rübü onun tarixində nəzərəçarpacaq dərəcədə ziddiyyətli, mürəkkəb bir dövr olmuşdur. Bu dövrdə mühüm strateji əhəmiyyət kəsb edən Naxçıvan diyarı regional və beynəlxalq miqyaslı ictimai-siyasi hadisələrin məkanına çevrilmişdir. Xarakterik cəhət o idi ki, həmin dövrdə ermənilərin yalan tarixi iddiaları üzündən bölgədə baş vermiş hadisələr elə dəhşətli faciəli şəkil almışdı ki, artıq Naxçıvan məsələsi Cənubi Qafqaz

çərçivəsindən çox-çox kənara çıxaraq beynəlxalq problemə çevrilmişdir. Ona görə də Naxçıvan məsələsi bir sıra dövlətlərin parlamentlərində, beynəlxalq konfranslarda, o cümlədən bir neçə dəfə Zaqafqaziya Seymində Ermənistan və Naxçıvanda olan ABŞ nümayəndəliyində, Türkiyə Parlamentində, Versal sülh konfransında, Moskva və Qars beynəlxalq konfranslarında müzakirə edilmişdir.

1917-ci ildə Rusiyada fevral burjua inqilabı Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan Naxçıvanda siyasi vəziyyətin mürəkkəbləşməsinə və daha da gərginləşməsinə ciddi təsir göstərmiş oldu. Bu zaman müəyyən qüvvələr, xüsusilə, Sovet Rusiyasının da mürəkkəb vəziyyətdən istifadə edərək Naxçıvanı Ermənistana vermək, bununla da Osmanlı Türkiyəsi və Azərbaycan əlaqəsini kəsmək məqsədilə cəhdlər göstərmişdir [1, 9 fevral, 2009].

Erməni daşnak qüvvələri isə yaranmış mürəkkəb şəraitdən istifadə edərək bölgəni öz növbəsində Ermənistana qatmaq arzusu ilə təcavüzkarlıq hərəkatlarını daha da intensivləşdirdilər. Belə ki, 1918-ci ilin iyununda Andranikin başçılığı ilə erməni quldur dəstələri Naxçıvana basqın edərək, dinc əhaliyə qarşı dəhşətli vəhşiliklər törətdi və təkcə Gilançay və Əlincəçay vadisində 80-dən artıq kəndi viran qoymaqla, əhalisini isə amansızlıqla qətlə yetirdilər [3, s. 7].

1918-ci ilin iyulun 10-da Naxçıvanda ermənilərə qarşı qanlı ölüm-dirim savaşının ən təhlükəli bir anında türk mücahidləri köməyə yetişdi. Qəhrəman türk generalı Kazım Qarabəkir Paşanın qoşunları erməniləri məğlub edib Naxçıvandan qovdular. Nəticədə ermənilərin qanlı qırğınlarına müvəqqəti olaraq son qoyuldu.

1918-ci ilin payızında birinci dünya müharibəsində vəziyyətin tamamilə Antantanın xeyrinə dəyişməsi və Almaniya hərbi legionun məğlubiyyətə düçar olması səbəbindən imzalanmış Mudros müqaviləsinin şərtlərinə görə türk qoşunları Azərbaycanı, o cümlədən Naxçıvanı tərk etməli oldu. Bundan sonra Naxçıvan ərazisinin ermənilərdən qorunması kimi vacib bir məsələ gündəliyə gəldi.

Bu zaman müsəlman türk əhalisinin təmsilçiləri Qəmərli qəsəbəsində yığıncaq keçirərərk bir hökumət rəisi və 6 nəfər nazirdən ibarət Araz-Türk Respublikası qurulması qərarlaşdırdı. Beləliklə, 1918-ci ilin noyabr ayının 3-də mərkəzi İqdır olmaqla Araz-Türk Respublikası quruldu. Naxçıvan rəsmi paytaxt olmasa da idarəçilik, müdafiə işlərinin əksəriyyəti burada yerləşdirildi.

Bu dövlət qurumu üç aydan az yaşamasına baxmayaraq bölgənin qüvvələrinin ermənilərə qarşı birləşməsində və ərazinin erməni işğalından qorunmasında əhəmiyyətli rol oynadı.

Lakin 1919-cu ilin yanvarında Naxçıvana gələn ingilislər ermənilərin fitvası ilə Araz-Türk Respublikasını Türkiyənin yaratdığı qeyri-qanuni qurum hesab edərək onu ləğv etdi. Əvəzində əhalisinin böyük əksəriyyəti azərbaycanlılardan ibarət olan Naxçıvanda ingilis ordusunun süngüsü ilə daşnak general-qubernatorluğu yaratdı. Bu qurum isə əhali tərəfindən çox böyük narazılıqla qarşılandı. Əhalinin müraciətinin birində qeyd edilirdi ki, azərbaycanlılar yaxşı tanıdıqları ermənilərin tabeçiliyinə keçməklə nəinki özlərini, habelə gələcək nəsillərini də alçaltmış, təhqir etmiş olarlar və Naxçıvan, Şərur, Vedibasar rayonlarının general Devinin əmri ilə müvəqqəti olsa da erməni hökumətinin idarəçiliyinə verilməsini bölgənin əhalisinə qarşı açıq-aşkar zorakılıq faktı kimi qiymətləndirdilər [6, s. 136-137].

1919-cu iyul ayının ortalarında əhali Naxçıvan şəhərində və Şərur qəzasında erməni hərbi hökumətinə qarşı üsyan etdilər. Üsyan tezliklə bütün Naxçıvan qəzasını bürüdü. Qeyd etmək lazımdır ki, hələ 1919-cu ilin 4 iyunda ingilis qoşunları Naxçıvanı tərk etdikdən sonra bölgədə siyasi vəziyyət yenidən gərginləşmişdi. Naxçıvan Milli Şurası ermənilər əleyhinə ümumxalq mübarizəsinə qalxmışdı [4, s. 250].

Üçgünlük qanlı döyüşdə Kalbalı xanın rəhbərliyi ilə xalq qoşunu ermənilərə sarsıdıcı zərbə vurdu.

Bu zaman Türkiyə hərbi komandanlığı bu ərazilərə yaxşı bələd olan türk zabiti Xəlil bəyi kiçik bir hərbi kontingentlə Naçıvana göndərdi. Azərbaycan hökuməti öz nümayəndəsi Səməd bəy Cəmillinskini müvəqqəti general-qubernator təyin etdi və diyarı idarə etmək üçün zəruri olan digər dövlət idarələri yaradıldı.

Beləliklə, Naxçıvan əhalisinin inadlı müqaviməti və qardaş Türkiyənin siyasi səyləri, qətiyyətli mövqeyi ermənilərin bölgə ilə bağlı planlarını alt-üst etdi.

Bununla belə 1919-cu il iyulun 5-də Avropa Ali Şurası tərəfindən amerikalı polkovnik Hackel Ermənistana ali komissar təyin edildi. ABŞ Naxçıvan bölgəsi ətrafındakı erməni-azərbaycanlı münaqişəsindən faydalanmağa çalışmaqla, əsasən, daşnakpərəst mövqe tutsa da müəyyən mülahizələrə (regiona kifayət qədər hərbi qüvvə gətirə bilməməsi, bölgənin azərbaycanlı əhalisinin çox güclü müqaviməti, AXC hökumətinin barışmaz mövqeyi) görə ikili siyasət yürütmək qaldı. Ali komissar bölgənin Azərbaycanın idarəçiliyində saxlanılacağını ümumi halda elan etsə də, tezliklə burada möhkəmlənmək siyasətini həyata keçirilməsinə başladı. ABŞ-ın bölgəyə dair siyasəti və planımn mahiyyəti Haskelin 1919-cu il sentyabrın 1-də H.Yusifbəyova göndərdiyi məktubda və onun 1919-cu il 27 sentyabr tarixli bəyanatında açıqlandı. Həmin məktubda öz əksini tapan 20 maddədən ibarət sənəddə və 12 maddədən ibarət bəyanatda Naxçıvan və Şərur-Dərələyəz ərazilərində bitərəf zona yaradılacağı, onun Haskeli tərəfindən təyin edilən Amerikan qubernatoru tərəfindən idarə ediləcəyi bildirilir, bölgənin siyasi və iqtisadi həyatının müxtəlif sahələrinə aid digər məslələrə də toxunulurdu [6, s. 170-171].

Bu layihə ermənilərin ürəyincə olsa da, Azərbaycan hökuməti tərəfindən müsbət qarşılanmadı. Layihəyə öz etirazını bildirən Paris Sülh Konfransında iştirak edən Azərbaycan nümayəndə heyəti Konfransın adına teleqram göndərdilər. Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri M.Y.Cəfərovun Haskelə göndərdiyi 1919-cu il 29 sentyabr və 4 oktyabr tarixli cavab teleqramlarında AXC hökumətinin bu məsələdəki prinsipial mövqeyi bir daha xatırlanılmaqla bitərəf zona ideyasına etiraz olunur. bölgənin yalnız Azərbaycanm ayrılmaz tərkib hissəsi kimi Amerika general qubernatorluğu vasitəsilə idarəçiliyinə razılıq verilirdi [5, s. 172].



1919-cu ilin sentyabrın 9-da Naxçıvan nümayəndələri Tiflisdə V.Haskellə görüşərək ona 10 bənddən ibarət Memorondum təqdim etdilər. Görüş zamanı Haskelin «Naxçıvan və onun ətrafındakı mahalların ermənilərin idarəçiliyinə verilməsinə onların əhalisi necə baxar?» sualına cavabında Ə.Qasımov demişdir ki, xalq öz qüvvəsi ilə qəsbkarları qovaraq azadlıq əldə etmişdir, Ermənistanın təbəələri olmağa-yenidən əsarət altına düşməyə heç vaxt razı olmaz [6, s. 174].

Beləliklə, Naxçıvan əhalisinin dəyanəti və mübarizliyi nəticəsində ermənipərəst Haskelin məkrli niyyəti baş tutmadı.

1920-ci ilin aprelində Bakı Rusiyanın ordu hissələri tərəfindən işğal olundu. Azərbaycan Xalq Cümhuriyyəti devrildi və Azərbaycanda Sovet hakimiyyəti bərqərar oldu.

Naxçıvan və Zəngəzur bölgələrinin rus-sovet qoşunları tərəfindən işğalı ərəfəsində burada siyasi-hərbi vəziyyət çox mürəkkəb və gərgin idi. Daşnak quldur dəstələri ətraf kəndləri qarət edərək Naxçıvan istiqamətində irəliləməyə başladı. Naxçıvan Milli Komitəsinin silahlı qüvvələri türk qoşunlarının köməkliyi ilə düşmənin qarşısım almağa müvəffəq oldu. İyulun 28-də XI Qızıl Ordu hissələri Gorus, Şahbuz və Cəhridən keçərək Naxçıvana daxil oldular. Sovet hakimiyyəti elan edildi və Hərbi İnqilab Komitəsi yaradıldı [5, s. 51]. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin sədri M.Bəktaşov Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri N.Nərimanova belə bir məktubla müraciət etdi: «Naxçıvan xalqının böyük əksəriyyətinin qərarı ilə Naxçıvan ölkəsi özünü Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz hissəsi hesab edir» [8, s. 82].

Beləliklə, ərazi sovetləşsə də və bunun milli təminatı ortaya qoyulsa da ermənilər yenə öz məkrli iddialarından əl çəkmədilər.

1920-ci ilin payızında Ermənistan Zəngəzuru Sovet Rusiyası vasitəsilə ələ keçirmək istiqamətində fəaliyyətini daha da genişləndirdi. Hadisələr Mərkəzin hazırladığı xüsusi ssenari üzrə cərəyan edirdi. 1920-ci ilin noyabr ayının 30-da AK(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasında «Ermənistan İnqilab

Komitəsinin Ermənistanda Sovet hakimiyyətinin elan olunması haqqında teleqramı» müzakirə edilmiş və geniş bir qərar qəbul olunmuşdur. Qərarda qeyd edilirdi ki, Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir. Digər bəndlərdə isə deyilirdi ki, Zəngəzur və Naxçıvan Ermənistana keçirilir, Qarabağın dağlıq hissəsinə öz müqəddaratını təyin etmək hüququ verilirdi. Digər bəndlərdə isə Azərbaycan hökumətinin başçısı Nəriman Nərimanova bütün bunlar barədə Bəyanat hazırlamaq və onu Bakı Sovetinin plenumunda elan etmək tapışırıldı. Dekabrın 1-də Azərbaycan inqilab komitəsinin bəyanatında həmin prinsiplər ifadə edildi.

1920-ci il 1 dekabr bəyanatına qarşı yerli əhali kəskin etiraz etməsinə baxmayaraq qədim türk torpağı Zəngəzurun bir hissəsi Dərələyəz, Sürməli, Qəmərli, Ulu Göyçə, Vedibasar, Gümrü, Ağbaba və 10 min kvadratmer sahədən artıq digər torpaqlarımız Ermənistana verildi. Bununla belə Ermənistan Naxçıvandan da əl çəkmək istəmirdi. Türkiyə hökuməti isə öz növbəsində erməni iddiaları ilə əlaqədar Naxçıvanın gələcək taleyi.ilə bağlı narahat idi. Ona görə də türk qoşunları hələ də Naxçıvanda qalmaqda idi. Rusiya diplomatiyası isə onu rahatsız etsə də müəyyən güzəştlərə getməklə Türkiyə ilə dostluq və qardaşlıq haqqında müqavilə bağlamağa çalışırdı.

Qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi ilə Azərbaycan özünün tərkib hissəsi olan Naxçıvandan ayrı salındı. Bu isə Naxçıvanın muxtariyyət məsələsini siyasi zərurətə çevrildi.

Naxçıvan əhalisi özlərini Azərbaycandan heç vaxt ayrı təsəvvür etmirdilər. Hələ o zaman Naxçıvan diyarının əhalisi öz qəti fikrini belə ifadə etmişdi: «Bu xalq mədəni dövlətlərin alovlarında məhv olmaqla razı olar, amma Azərbaycandan ayrılmaz» [1, 16 may, 1999]. Təsadüfi deyil ki, 1921-ci ilin əvvəllərində Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda bölgə əhalisinin 90 faizindən çoxu Naxçıvan diyarının muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi [8, s. 95].

Naxçıvan diyarının muxtariyyət statusu məsələsində N.Nərimanovun prinsipial mövqeyi və B.Şahtaxtinskinin apardığı danışıqlar Moskvanın Naxçıvan məsələlərinə münasibətinin dəyişməsinə və nəticə etibarilə Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsinə həlledici təsir etmişdir [7, s. 51]. Bunun nəticəsi idiki 1921-ci il martın 16-da RK(b)R Siyasi Bürosu Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasınm yaradılması barədə qərar qəbul etmişdi [1, 19 fevral, 2014].

Qeyd etmək lazımdır ki, Naxçıvanın muxtariyyət məsələsinin Azərbaycanın xeyrinə həll edilməsində Türkiyənin inkaredilməz xidmətləri olmuşdur. Naxçıvanın tarixi taleyinin tam tarixi bir haqla Azərbaycana bağlanmasında Türkiyənin çox əhəmiyyətli rolunu məhz onun prinsipiallıq göstərdiyi Moskva və Qars müqavilələri reallaşdırdı.

1921-ci il martın 16-da Moskvada Rusiya ilə Türkiyə arasında 16 maddədən və 2 əlavədən ibarət «Dostluq və qardaşlıq haqqında» müqavilə imzalandı. Həmin müqavilənin üçüncü maddəsinə əsasən razılığa gəlindi ki, Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında və həmin vilayətin Azərbaycan tərəfindən heç bir üçüncü dövlətə güzəştə edilməməsi şərti ilə Naxçıvan Muxtar Vilayəti təşkil olunur. Beləliklə, Naxçıvanın tarixində mühüm rol oynayan Moskva müqaviləsində onun Azərbaycanın tərkibində muxtar qurum olaraq qalmasına dair ilkin razılıq əldə edildi.

Naxçıvanın sonrakı tarixi müqəddaratında isə Qars müqaviləsi xüsusi əhəmiyyət kəsb edir. 1921-ci il oktyabrın 13-də RSFSR-in iştirakı ilə Azərbaycan SSR, Gürcüstan SSR, Ermənistan SSR və Türkiyə arasında imzalanan Qars müqaviləsi ilk növbədə Moskva müqaviləsinin əsas müddəalarını bir daha təsdiqlədi. Naxçıvanın ərazi mənsubiyyəti məsələsi ilə onun sərhədləri də qəti surətdə müəyyənləşdirdi.

Qars müqaviləsini imzalayan bütün dövlətlər Türkiyə, Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistan Naxçıvanı Azərbaycanın

tərkibində muxtar qurum kimi tanımış və ona beynəlxalq hüquqi təminat vermişlər.

Beləliklə də, Naxçıvan əhalisinin inadlı müqaviməti və qardaş Türkiyənin hərbi-siyasi, diplomatik səyləri, qətiyyətli mövqeyi nəticəsində bölgənin ərazi mənsubiyyəti məsələsi Azərbaycan üçün əski tarix, qanun və ədalət mövqeyindən həll olundu.

Ümumiyyətlə, Naxçıvanın muxtariyyətinin elan edilməsi tarixdə unikal hadisədir. Naxçıvanın muxtariyyəti başqa muxtar qurumlardan fərqli olaraq milli yox, ərazi muxtariyyətidir və Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycanın əsas ərazilərindən tam təcrid olunmuş «anklaf» ərazidir. Məhz bu fövqəladə xüsusiyyət kəsb etməsinə görədir ki, Ulu öndər Heydər Əliyev Azərbaycan istiqlal savaşına məhz Naxçıvanda başlamış, bu mücadiləni Azərbaycana rəhbərliyi dövründə başa çatdırılmışdır.

Son olaraq qeyd etmək vacibdir ki, Naxçıvamn muxtariyyət statusuna malik olması onun əbədi mövcudluğunun mühüm təminatıdır.

## ƏDƏBIYYAT SIYAHISI


1. Azərbaycan qəzeti. 5 avqust, 2009-cu il.
2. «Elm» qəzeti. 5 avqust, 1999-cu il.
3. İ.M.Hacıyev. Naxçıvan-Azərbaycanın dövlətçilik tarixində / Moskva Dövlət Universitetinin Elmi əsərləri. 2004-cü il, № 13, 7 s.
4. İbrahim Ethem Atnur. Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan, 2013, s. 250.
5. İ.Hacıyev. Ə.Amonoğlu. Tarihte və günümüzdə Naxçıvan. Ankara, 1998, s. 51.
6. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici döalətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996.
7. S.Sadıqov. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı, 1995, s. 51.




Q.A.Madatov. Pobeda Sovetskoy vlasti v Naxçıvani i razovanie Naxçıvanskoy ASSR. Bakı, 1968, s. 82.

**Kamran İsmayılov**
**AMEA A.A.Bakıxanov adına Tarix**
**İnstitutunun aparıcı elmi işçisi**

## AZƏRBAYCANIN ZƏNGƏZUR VƏ VEDIBASAR BÖLGƏLƏRININ MÜDAFIƏSINDƏ NAXÇIVANLILARIN ROLU (1918-1920-CI ILLƏR)

Azərbaycanın qədim torpaqları – Naxçıvan, Zəngəzur və Vedibasarı təkcə coğrafi yaxınlıq deyil, həm də ümumi tarixi tale birləşdirir. Tarix boyu bu bölgələrimizə ermənilər əsassız ərazi iddiaları irəli sürmüş, əhalisinə qarşı saysız-hesabsız zorakılıqlar və vəhşiliklər törətmişlər.

Xüsusən, XX əsrin əvvəllərindən başlayaraq başda Daşnaksutyun partiyası olmaqla erməni millətçi-şovinist dairələri bu əraziləri ələ keçirmək, oradakı türk-müsəlman əhalisini məhv etmək üçün geniş təcavüzkarlıq hərəkətlərinə rəvac vermişlər. Eyni zamanda bu bölgələrin azərbaycanlı əhalisi də öz torpaqlarını erməni təcavüzündən qorumaq üçün bütün imkanlardan istifadə edərək, birgə mübarizə aparmışlar. Ancaq nəzərə almaq lazımdır ki, hər bir bölgədə təbii, siyasi, tarixi, etnik-demoqrafik şərtlərə uyğun olaraq bu mübarizə müxtəlif formalarda aparılmış və fərqli nəticələr vermişdir.

Adı çəkilən bölgələrlə müqayisədə, Naxçıvan diyarının spesifik üstünlükləri (azərbaycanlı əhalinin əksəriyyət təşkil etməsi, dövlətçilik ənənələrinin və siyasi elitanın mövcudluğu, xaric dövlətlə həmsərhəd olması, şəhər təsərrüfatının və sənayenin müəyyən inkişaf səviyyəsi və bütün bunların məcmusu olaraq əhalinin siyasi mütəşəkkilliyinin yüksək olması) burada ermənilərin ciddi uğur qazanmalarına mane olmuş, sonda onların acınacaqlı məğlubiyyəti ilə nəticələnmişdir.

Təqdim olunan məqalədə biz bir Naxçıvanla qonşu olan bölgələrdə ermənilərin təcavüzkar hərəkətlərinin qarşısının alınmasında naxçıvanlıların rolu ilə bağlı məsələləri əhatə etmək məqsədi güdürük.



Tarixi faktlar sübut edir ki, XX əsrin əvvəllərindən başlayaraq ermənilərin bu bölgələrdə törətdikləri fitnə-fəsadların qarşısının alınmasında Naxçıvan əhalisi mühüm rol oynamışdır. 1905-ci ildə Naxçıvan şəhərində və ətraf məntəqələrdə müsəlmanlara qarşı həyata keçirdikləri zorakılıqlara rəğmən ciddi məğlubiyyətlə üzləşmiş ermənilər «Naxçıvan intiqamını almaq üçün» (M.S.Ordubadi) sayca üstünlük təşkil etdikləri bölgələrdə (İrəvan qubemiyasında, Zəngəzurda) yerli müsəlmanlara qarşı ağlasığmaz cinayətlər törətmişlər.

1905-ci ildə İrəvan quberniyasının müxtəlif yerlərində – ermənilərin özbaşınalıqlarının qarşısının alınmasında yerli müsəlmanların özünümüdafiə dəstələri ilə yanaşı Naxçıvandan gəlmiş könüllülərin də mühüm xidmətləri olmuşdur. Həmin illərdə erməni vəhşiliklərindən ən çox ziyan çəkmiş bölgələrimizdən biri də Zəngəzur qəzası olmuşdur. Çar rejiminin yerli hakimiyyət orqanlarının və ayrı-ayrı məmurlarının himayədarlığından istifadə edən ermənilər qəzanın onlarla müsəlman kəndinə divan tutmuş dinc azərbaycanlı əhalini qırmışlar. Bu bölgənin müsəlman əhalisinin təhlükəsizliyinin təmin edilməsində naxçıvanlılar, xüsusən Ordubad camaatı böyük xidmətlər göstərmişlər.

Zəngəzurun Qafan və Oxçu dərələrinin müsəlman kəndləri erməni zülmündən ən çox əziyyət çəkmiş məntəqələr idilər. Ermənilər bu kəndləri ələ keçirmək üçün əvvəlcədən ciddi hazırlıq görmüş, İrəvandan, Aleksandropoldan, Şuşadan və başqa yerlərdən buraya böyük sayda hərbi qüvvələr toplamışdılar. Oxcu dərəsi müsəlmanlarına qarşı cəza əməliyyatlarında Ordubadın ermənilər yaşayan Əylis, Kələki, Danakert, Çənnəb, Tivi və b. kəndlərinin quldur dəstələri də yaxından iştirak etmişdilər. 1906-cı ilin avqustunda müsəlman kəndlərinə hücum edən ermənilər dəqiq olmayan məlumatlara görə 200-ə qədər dinc müsəlmanı qətlə yetirmiş, sağ qalanlar isə canlarım qurtarmaq üçün Ordubad şəhərinə və mahal kəndlərinə pənah gətirmişdilər.

Hakimiyyət orqanlarına Zəngəzur qaçqınlarının və ordubadlıların saysız-hesabsız müraciətlərinə baxmayaraq ermənilərə qarşı heç bir tədbir görülmədiyindən, ordubadlılar özləri onların dərslərini vermək və qaçqın soydaşlarını yurd-yuvalarına qaytarmaq qərarına gəlmişdilər. Ordubadlılar zəngəzurlu qaçqınlarla birgə 1800 nəfərlik hərbi dəstə təşkil edərək 1905-ci ilin sentyabrında Oxçu dərəsinə hərbi yürüş etmiş və ermənilərin acınacaqlı məğlubiyyətə uğradaraq müsəlman kəndlərini azad etmişdilər. Yalnız hökumət qoşunlarının gəlməsi xəbəri erməniləri darmadağın olunmaq təhlükəsindən xilas etmişdi. Ümumiyyətlə, Ordubad könüllülərinin bu yürüşü bütün hərb qaydalarına uyğun aparılmış və müvəffəqiyyətlə başa çatdırılmışdı. Böyük Azərbaycan ədibi M.S.Ordubadi bu yürüşdən bəhs edərkən yazır ki, bu məğlubiyyətdən sonra ermənilər əvvəlki harisliklərindən əl çəkib oxçululara əziyyət vermək *fikrindən tamamilə əl götürürlər*. M.S.Ordubadi sonra qeyd edir ki, Ordubad və mahal camaatının bu dərəcədə olan qeyrətləri milli səhifələrimizə qızıl qələm ilə qırmızı bir xətt çəkib onu bəzədi və qiymətə mindirdi. Allah onları iki cahanda xoşbəxt buyursun.

Lakin çox təəssüf ki, M.S.Ordubadinin «Qanlı illər» əsərindən başqa bu uğurlu əməliyyat haqqında tarix ədəbiyyatında ətraflı məlumat yoxdur. Böyük *ədibimizin ermənilərin dinc oturacağı*, müsəlmanları bir daha narahat etməyəcəkləri ilə bağlı ümidləri özünü doğrultmadı. Cəmi 11-12 ildən sonra Zəngəzur müsəlmanları ermənilərin növbəti, daha amansız xəyanətləri ilə üzləşdilər.

Birinci dünya müharibəsinin son illərində, 1917-ci ildə Rusiyada baş vermiş təlatümlü hadisələrdən sonra Cənubi Qafqazda yaranmış şəraiti özlərinə fürsət bilən erməni şovinist-millətçi dairələri Naxçıvanda, İrəvanda, Vedibasarda, Zəngəzurda, Qarabağda və başqa bölgələrimizdə yenidən türk-müsəlman əhaliyə qarşı kütləvi zorakılıqlara başlayaraq bu bölgələrin etnik vəziyyətini öz xeyirlərinə dəyişmək və milli dövlətlərini yaratmaq planlarını həyata keçirməyə başladılar. Nəticədə, 1917-1921-ci illər ərzində ermənilərin həyata keçirdiyi soyqırımı və deportasiya siyasəti nəticəsində yüz minlərlə



soydaşımız həlak olmuş, öz doğma yurdlarından didərgin düşmüşdülər.

Əlbəttə, erməni təcavüzkarlarına qarşı azərbaycanlılar mümkün qədər müqavimət göstərmiş, ayrı-ayrı bölgələrdə düşmənə ciddi zərbələr vurmuşlar. Lakin bir sıra faktorların (mütəşəkkillik və silah-sursat cəhətdən ermənilərin üstünlüyü, azərbaycanlılara qarşı əməliyyatlarda nizami ordu hissələrinin iştirak etməsi, AXC hökumətinin bir sıra səbəblərdən İrəvan quberniyası və Zəngəzur qəzası müsəlman əhalisinə zəruri hərbi, maddi və mənəvi yardım göstərə bilməməsi, Türkiyənin I Dünya müharibəsində məğlub olması, yerli azərbaycanlıların siyasi cəhətdən mütəşəkkil olmamaları, nüfuzlu siyasi liderlərin, hərbi komandirlərin azlığı və s.) təsiri altında həmin bölgələrin ermənilərin nəzarəti altına keçməsinin qarşısını almaq mümkün olmamışdı.

Yalnız Naxçıvan əhalisi ermənilərin (Ermənistan dövlətinin) bütün hərbi, siyasi-diplomatik, ideoloji təbliğat cəhdlərinə baxmayaraq bölgənin Ermənistan tərəfdən işğal olunmasına imkan vermədi, əksinə, Sədərəkdən tutmuş Ordubada qədər bütün naxçıvanlılar əldə silah öz torpaqlarının müdafiəsinə qalxaraq, burada Azərbaycanın suveren hüquqlarını təsbit etdilər.

Naxçıvan əhalisi 1918-ci ildə Andranikin quldur dəstəsinin Naxçıvanı ələ keçirmək cəhdlərinin qarşısını qətiyyətlə almış, müttəfiqlərin bölgəni Ermənistana verməlürinə, hətta burada 1919-cu ilin may-iyul aylarında erməni idarəçiliyinin yaradılmasına baxmayaraq milli-azadlıq müharibəsinə başlayaraq işğalçı qoşunları öz torpaqlarından qovub çıxarmışdılar. Sonrakı aylarda da ermənilərin silah gücünə, ingilislərin, amerikalıların, sonra isə bolşeviklərin yardımı ilə Naxçıvan diyarını işğal etmək planları naxçıvanlıların qətiyyəti sayəsində alt-üst edilmişdi.

Bəziləri ermənilərin Naxçıvanı işğal edə bilməmələrini Türkiyə amili, türk qoşunlarının bölgədə olması faktı ilə izah etməyə çalışırlar. Əlbəttə, Naxçıvanın Azərbaycanın tərkib hissəsi kimi qalmasında qardaş Türkiyənin hərbi, siyasi, diplomatik yardımının böyük əhəmiyyəti olmuşdur. Lakin nəzərə almaq lazımdır ki,

Türkiyə I Dünya müharibəsində məğlub olduğuna görə Mudros sülhünün şərtlərinə əsasən bütün Cənub Qafqazı, o cümlədən Naxçıvanı, İrəvan quberniyasını tərk etməli olmuşdur. 1918-ci ilin dekabrın əvvəllərində bölgəni tərk edərkən türk qoşunları yerli müsəlman əhalinin təhlükəsizliyini təmin etmək məqsədi ilə az sayda əsgər və zabit, müəyyən miqdarda silah-sursat qoyub getsələr də, Ermənistanın nizami ordularına qarşı bu çox cüzi qüvvə idi. Türk qoşun hissələri Naxçıvana bir də 1920-ci ilin əvvəlində gəlmişdilər. Bu müddət ərzində öz dövlətçiliyini qorumaq uğrunda mübarizə aparan Türkiyə Azərbaycan və Naxçıvana əməli hərbi kömək göstərə bilməmişdi. Bu səbəbdən erməni işğalçılarına qarşı mübarizənin əsas ağırlığı Naxçıvanın yerli könüllü müdafiə dəstələrinin üzərinə düşmüşdü. Naxçıvanın qəhrəman oğulları öz üzərinə götürdükləri bu şərəfli missiyanı ləyaqətlə yerinə yetirdilər, düşmənə nəinki bir qarış torpaq vermədilər, əksinə, vaxtilə yuva qurmalarına razılıq verdikləri, müxtəlif ölkələrdən Naxçıvana gələrək burada yerləşmiş ermənilərin dönüklüyünə, xəyanətinə görə onları layiqincə cəzalandıraraq, bu müqəddəs torpağa yad əllərin toxunmasına bir daha imkan vermədilər. Bunu Naxçıvan qəzasımn etnik tərkibində baş vermiş sonrakı dəyişikliklər də təsdiq edir. Əgər 1897-1916-cı illərdə Rusiya imperiyasının xristian elementinin - ermənilərin sayını artırmaq siyasəti sayəsində qəzada erməni əhalisi 1,5 dəfə artmışdısa və bu artım başlıca olaraq mexaniki amillər, əsasən köçürülmələr hesabına baş vermişdisə, azərbaycanlıların sayı cəmi 108,7% artmışdı. Erməni əhalisinin sürətlə artması sayəsində o 1916-cı ildə qəza əhalisinin təqribən 40 %-ni təşkil etmişdi.

Lakin sonrakı illərdə Ermənistanın Naxçıvana qarşı başladığı işğalçılıq siyasəti əslində buradakı erməni əhali üçün daha mənfi nəticələrə gətirib çıxarmış oldu. 1926-cı ildə burada cəmi 11.3 min erməni (10,8 %) yaşayırdı ki, bu da 1916-cı illə müqayisədə təqribən 5 dəfə az idi. Düzdür, bu illər ərzində qəzanın bütün əhalisinin sayında da ciddi azalmalar baş vermiş, daha dəqiq, 30 min azalaraq cəmi 90 min təşkil etmişdi. Əlavə edək ki, 1959-cu ildə muxtar respublikada erməni əhalisinin sayı 9.5 min nəfər (6.7%), 1979-cu



ildə isə 3.4 min (1.6%) təşkil etmişdi. Bütün bunlar ermənilərin uzun illər davam etmiş təcavüzkarlıq siyasətinin labüd və məntiqi nəticəsi idi.

Naxçıvan əhalisinin 1918-1920-ci illərdə Ermənistanın hərbi təcavüzünə, işğalçılıq siyasətinə qarşı mübarizəsi ətraf bölgələrə də təsirini göstərmişdi. Xüsusən Naxçıvanla qonşu rayonların – Vedibasarın və Zəngəzurun türk-müsəlman əhalisinin ermənilərin silahlı terrorundan və vəhşiliklərindən qorunmasında, bu bölgələrdə Azərbaycanın suverenliyinin təmin edilməsində naxçıvanlıların böyük rolu olmuşdur.

Zənnimizcə, ətraf bölgələrin türk-müsəlman əhalisinə naxçıvanlıların yardımını aşağıdakı şəkildə səciyyələndirmək olar:

1. Hərbi səciyyəli dəstək. Artıq qeyd edildiyi kimi, naxçıvanlılar 1918-ci ilin əvvəllərindən başlayaraq Ermənistanın nizami ordularına qarşı qətiyyətli mübarizə aparmış və öz torpaqlarının bütövlüyünü qoruya bilmişdilər. Ermənistan hökuməti Naxçıvanı ram etmək üçün digər rayonlardan buraya əlavə qoşun hissələri gətirməyə məcbur olmuşdu ki, bu da müəyyən dərəcədə Ermənistan Respublikasının daxili ərazilərində, eləcə də Vedibasarda və Zəngəzurda yerli müsəlmanlara qarşı repressiyaların bir qədər azalmasına səbəb olmuşdu.

Naxçıvanlılar əvvəlcə Andranikin, sonra isə Ermənistan hökumət qoşunlarının diqqətini özünə çəkməklə, qonşu rayonların müsəlmanlarının özlərini səfərbər etmələrinə, müdafiələrini təşkil etməyə şərait yaratmışdılar. Düzdür, türk qoşunları bölgəni tərk etdikdən sonra – 1918-ci ilin sonlarında -1919-cu ilin əvvəllərində erməni hərbi qüvvələri müəyyən uğurlar qazanmış, Şərura, Şahtaxtına qədər gəlib çatsalar da naxçıvanlıların əks-hücumu nəticəsində geri oturdulmuşdular.

1919-cu ilin yaymda ingilislərin köməyi ilə Naxçıvanda öz idarəçiliyini qurmuş ermənilər eyni zamanda Vedibasar və Zəngəzurda dinc azərbaycanhlara qarşı hərbi əməliyyatlara başladılar. Ermənilər Zəngəzurda öz məqsədlərinə çatsalar da Vedi rayonunda ciddi müqavimətlə rastlaşdılar. 1919-cu il iyulun

əvvəllərində baş vermiş döyüşlərdə ermənilər ciddi uğursuzluğa düçar oldular. Vedililərə qarşı aparılan əməliyyatları dayandırmaq üçün Azərbaycan hökuməti, onun İrəvandakı nümayəndəsi X.Təkinski bir sıra siyasi-diplomatik addımlar atsalar da bunlar bir nəticə verməmişdi. Yalnız iyul ayının ortalarında Naxçıvanda ermənilər əleyhinə əməliyyatların başlanması Vedibasar müsəlmanlarını real soyqırımından xilas etdi. 1919-cu il iyulun 17-də Naxçıvan milli qüvvələri buradakı erməni qoşunlarına hücum edərək böyük uğura imza atdılar. Hücum nəticəsində bir çox silahlı erməni öldürülmüş və əsir götürülmüş, qalanları isə Zəngəzur və Dərələyəz istiqamətinə qaçmağa məcbur olmuşdular. İki cəbhədə mübarizə aparmağın çətinliyini başa düşən erməni hərbi rəhbərliyi belə şəraitdə qüvvələrin parçalanmasından ehtiyat edərək Naxçıvanda türk-müsəlman əhalinin üsyanının yatırılmasını əsas vəzifə hesab etmiş və Vedibasarda hərbi əməliyyatları müvəqqəti dayandırmışdı. Dəmiryolu ilə geri çəkilmək imkanı olmayan erməni qoşunları Şərur-Şahtaxtı rayonunda da ciddi itkilər vermiş, təkcə iyul ayının 24-də Xanlıqlarda yerləşən 300-ə yaxın erməni əsgəri əsir alınmışdı.

Naxçıvanda ciddi məğlubiyyətə uğrayan, Vedibasar azərbaycanlılarının müqavimətini qıra bilməyən erməni cəlladları bu uğursuzluqların əvəzini Zəngəzurun dinc, silahsız müsəlmanlarından çıxmağa başladılar. Bu qəzada əsil soyqırım törədən ermənilər təkcə 1919-cu ilin oktyabr ayının əvvəllərində 110 müsəlman kəndini məhv etmiş, 60 mindən çox insan ermənilərin zorakılıqları nəticəsində qaçqın düşmüşdü.

Naxçıvan könüllüləri zəngəzurlu soydaşlarına kömək üçün bir sıra hərbi əməliyyatlar həyata keçirmişlər. Bu əməliyyatlardan biri 1919-cu ilin noyabrın sonlarında baş vermişdi. Xəlil bəyin və Kəlbəli xanın başçılığı altında hərbi dəstə erməni qoşunlarının Zəngəzura gedən yolunu tutmaq üçün Bazarçay rayonuna yürüşü bir sıra səbəblərdən (bu səbəblər haqqında Naxçıvanın müvəqqəti general-qubernatorunun Qarabağ general-qubernatoruna raportunda məlumat verilmişdir – K.İ.) uğursuzluqla nəticəsində də ermənilərin bir müddət diqqətini yayındırmağa kömək etmişdi. Sisyan istiqamətində



hücuma keçmiş naxçıvanlılar bir neçə erməni kəndini ələ keçirmiş və şimal istiqamətindən Zəngəzura doğru hərəkət edən Azərbaycan ordusu ilə birləşmək, Dərələyəz boğazı ilə Ermənistanın Zəngəzurla əlaqəsini kəsmək imkanı yaranmışdı. Çox təəssüf ki, Azərbaycanla Ermənistan arasında bağlanmış 1919-cu il 23 noyabr tarixli sazişə uyğun olaraq Azərbaycan hökumətinin öz qoşunlarını Zəngəzurdan çıxarması və əksinə, Ermənistanın bölgəyə yeni qoşun hissələri gətirməsi ilə bu unikal şans əldən verilmiş oldu və biz, son nəticədə Zəngəzuru itirdik.

Naxçıvanın ermənilər yaşayan kəndlərində quldur dəstələrinin zərərsizləş-dirilməsi də Zəngəzurda ermənilərin fəallığına öz təsirini göstərmişdi. Xüsusən 1919-cu ilin sonlarında Ordubadın Əylis, Danakert, Çənnəb, Parağa, Tivi kəndlərinin quldurlardan təmizlənməsi, bu kəndlərdən erməni əhalisinin mütəşəkkil qaydada köçürülməsi Zəngəzurda fəaliyyət göstərən qruplara silah-sursat, insan və ərzaq yardımının göstərilməsinin qarşısını almış, Zəngəzurda və Ordubadın yuxarıda adları çəkilmiş kəndlərində fəaliyyət göstərən quldur dəstələrinin birləşməsi təhlükəsini aradan qaldırmışdı.

Naxçıvanın geostrateji cəhətdən əhəmiyyətli mövqeyi də xüsusi qeyd olunmalıdır.

Ermənistan hökuməti Zəngəzurla ən əlverişli rabitə yolu olan Naxçıvanı ələ keçirmək üçün bütün imkanlardan istifadə etməyə çalışırdı. Ermənilər Naxçıvanın türk dünyasının birliyinin təmin olunması baxımından da mühüm əhəmiyyət kəsb etdiyini, bu regionun Azərbaycanın Türkiyə ilə birbaşa quru əlaqəsini yaradan region olduğunu yaxşı dərk edirdilər. Eyni zamanda Naxçıvan Ermənistanın əsas ticarət tərəfdaşı olan İranla əlaqələrində xüsusi rol oynayırdı. Aleksandropol-Şahtaxtı-Culfa-Təbriz dəmir yolunun mühüm hissəsi Naxçıvan ərazisindən keçirdi. Bu ərazini ələ keçirməklə dəmiryol xəttinə nəzarəti təmin etmək, əslində bütün regiona nəzarəti ələ keçirmək demək idi. Bu baxımdan da Naxçıvanın uğurlu müdafiəsi həm də bütövlükdə Azərbaycan üçün strateji məsələ idi.

Siyasi-diplomatik xarakterli tədbirlər: Naxçıvan şəhəri bütün bölgənin siyasi mərkəzi rolunda çıxış etdiyindən Naxçıvanın milli liderləri onun taleyi gələcək statusu ilə bağlı baş verən proseslərdə bilavasitə iştirak edir, İngiltərə, Amerika, Ermənistan, İran tərəfləri ilə çoxsaylı təmaslarında həm Naxçıvan diyarının, həm də qonşu rayonlarının təmsilçisi və maraqlarının ifadəçisi kimi çıxış edirdilər. Bunu Azərbaycan hökumətinin, onun İrəvandakı rəsmi nümayəndələrinin, eləcə də Naxçıvanın yerli hakimiyyət orqanları və ayrı-ayrı nümayəndələrinin müxtəlif ünvanlara göndərdikləri teleqramlar, məktublar, müraciətlər də təsdiq edir. Eyni zamanda İrəvan quberniyasının müxtəlif yerlərindən, Zəngəzurdan Naxçıvana göndərdikləri müraciətlərdə oranın müsəlman əhalisi Naxçıvan liderlərindən onları qorumalarını, himayələrinə götürmələrini xahiş edirdilər. Bu baxımdan Araz-Türk hökumətinin (Respublikasının) fəaliyyəti səciyyəvidir. ATH-nin ərazisi Naxçıvan, Şərur-Dərləyəz, Ordubad qəzalarını, habelə Gərnibasar, Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri rayonlarını əhatə edirdi. Hökumətin mərkəzi əvvəlcə Qəmərli elan edilsə də, sonra erməni hücumları ilə əlaqədar Naxçıvan şəhərinə köçərək burada fəaliyyət göstərmişdir. Göründüyü kimi ATH təkcə Naxçıvan ərazisini deyil, İrəvan quberniyasının digər ərazilərini, eləcə də Zəngəzurun cənub hissəsini (Mehri rayonunu) əhatə etmiş, bu ərazilərin ermənilərdən qorunması üçün müəyyən cəhdlər göstərmişdir.

İqtisadi dəstək. Bu dövrdə göstərilən bölgələrin Bakı, Azərbaycanın digər rayonları, İrəvan şəhəri, eləcə də İranla əlaqələri kəsildiyindən bu bölgələrin əhalisinin iqtisadi tələbatları, ərzaq təminatı əsasən Naxçıvan vasitəsi ilə ödənilirdi. Bu dövrdə Ordubad, Qafan və Mehri rayonlarının, Şərur-Naxçıvan isə Sisyan rayonu və İrəvan qəzasının əsas təminat mənbəyi idi. Yeri gəlmişkən, Naxçıvan vasitəsilə təkcə azərbaycanlılar deyil, ermənilər də öz ərzaq ehtiyaclarını ödəyirdilər. Həm də Naxçıvanın Culfa məntəqəsi İranla əlaqələrinin həyata keçirildiyi əsas nöqtə idi. Ona görə də Mehri-Ordubad-Naxçıvan-Şahtaxtı yolunu ələ keçirmək ermənilər üçün əsil ölüm-dirim məsələsinə çevrilmişdi.



Humanitar-mənəvi dəstək. Ermənistanın Azərbaycana qarşı 1918-1920-ci illərdə həyata keçirdiyi işğalçılıq siyasətinin ən acı nəticələrindən biri də çoxminlik qaçqın ordusunun yaranması oldu. İrəvan quberniyasının bütün qəzalarında, Zəngəzurda həyata keçirilmiş soyqırım və deportasiya nəticəsində minlərlə müsəlman öldürülmüş və əsir götürülmüş, 300-dən çox kənd yandırılmışdı. Cənubi Azərbaycana pənah aparan 45000 çox qaçqın İranda, 400 min qaçqın Naxçıvanda ağır şərtlər daxilində həyatla mübarizə aparırdı. Sonrakı illərdə, xüsusən 1920-ci ildə Naxçıvana qaçqınların gəlməsi daha kütləvi xaraktr almışdı. Bu yaxınlarada Rusiya Hərbi Arxivinin fondlarında tapdığımız sənədlərdən birində qeyd olunur ki, 1920-ci ildə daşnakların vəhşilikləri nəticəsində 500 min qaçqın Araz çayı boyunca toplanmışdır. Həmin sənəddə olan, Qırmızı Ordunun Naxçıvandakı hərbi hissəsinin komandanlığının XI Ordu komandanlığına göndərdiyi 1920-ci ilin sentyabrına aid məlumatına görə isə 1(bir) milyona yaxın müsəlman daşnakların tutduqları ərazilərdən qaçaraq Naxçıvan rayonunda, açıq səma altında dözülməz şəraitdə yaşayırdı. Belə şəraitdə özləri də əziyyət çəkən naxçıvanlılar öz soydaşlarını taleyin ümidinə buraxmayaraq onlara arxa olmuşdular. Bu məqsədlə Naxçıvan Milli Şurası nəzdində B.Şahtaxtinskinin sədrliyi ilə Qaçqınlar Komitəsi yaradılmışdı, əhali arasında qaçqınlara yardım məqsədi ilə müxtəlif xeyriyyə tədbirləri keçirilirdi. Ermənistan sovetləşəndən sonra İrəvan quberniyasından və Zəngəzurdan Naxçıvana pənah gətirmiş azərbaycanlı qaçqınların çox az hissəsi öz doğma yurdlarına qayıda bildi. Onların əksəriyyəti üçün Naxçıvan torpağı ikinci vətən oldu. Naxçıvana İrəvan quberniyasının müxtəlif qəzalarından gəlmiş azərbaycanlı qaçqınlar Şərurda, Naxçıvan şəhərində və ətraf ərazilərdə, Zəngəzurdan qaçqın düşənlər isə əsasən Şahbuz, Culfa və Ordubad rayonlarında məskunlaşdılar. Qaçqın azərbaycanlılar bir qayda olaraq ermənilərin tərk etdiyi kəndlərdə (bələlərinin sayı 43 idi K.İ.) yerləşmişdilər. Bu gün onların nəsilləri də haqlı olaraq özlərini naxçıvanlı sayırlar.

Beləliklə, Naxçıvan diyarının tarixi üçün ağır dövr olan 1918-1920-ci illərdə Naxçıvan əhalisi nəinki öz torpağının ermənilərin

əlinə keçməsinə imkan vermədi, burada Azərbaycanın varlığını qoruyub saxladı, eyni zamanda qonşu bölgələrdə yaşayan və ermənilərin vəhşiliklərinə məruz qalan soydaşlarına mümkün olan dəstəyi göstərdi.

Ümid edirik ki, gələcəkdə bu problemlə bağlı tədqiqatlar daha geniş səpkidə davam etdiriləcək, Naxçıvanın qonşu ərazilərlə qarşılıqlı münasibətləri, baş vermiş hadisələrin regionun etnososial strukturuna təsiri daha dərindən araşdırılacaqdır.

Bu gün biz Naxçıvanın alınmaz qalaya çevrilməsində həlledici rol oynamış, bu yurdun türk döyüş ruhunu özündə təcəssüm etdirən qəhrəman oğullarını fəxarətlə yad edir, onlara minnətdarlığımızı bildiririk. Fəxr edirik ki, bu gün də Naxçıvanı yad əllərdən qoruyan igid oğullarımız var və onlar ata-babalarımn şərəfli hərb ənənələrini layiqincə davam etdirirlər.

**İstifadə edilmiş ədəbiyyat**

M.S.Ordubadi. Qanlı illər, B., 1991, s. 126-131.
Yenə orada, s. 140.
İbrahim Etnur. Muxtariyyət ərəfəsində Naxçıvan, Naxçıvan, 2001, s. 88, 238.
Первая всеобщая перепись населения Российской империи 1897 года, LXXI, Эриванская губерния, Тифлис, с. 52-53; Кавказский календарь на 1917 г., Тифлис, 1916, с. 214-221.
Кавказскнй календарь на 1917, с. 214-221.
Народное хозяство Азербайджанской ССР к 70-летию Великого Октября. Баку, 1987, с.257
Итоги всесоюзной переписи населения 1959 г. Азерб. ССР, М., 1963, с. 140-141; Численность и состав населения СССР, М. 1984, с. 126-127.
Сохрабян Э.А. Шарур-Нахичеван в 1918-1920 гг. История геноцида нахичеванских армян, Ереван, 2012, с. 278.
ARPİİSSA, f. 277; iş 40, v. 57, 79.
ARDA, f. 894, s. 10, iş 78, v. 9-13.
Коммунист, 1920, 15 октября.
Военный архив Российской Федерации, фонд.195, дело 455, лист 92
Там же, лист 116



## MÜNDƏRİCAT

Naxçıvanm muxtariyyət statusu......................................................3
İSMAYIL HACIYEV
Naxçıvanın arxeoloji abidələri tarixi irsimizin varislik rəmzidir..........................................................................29
NƏCƏF MÜSEYİBLİ
Naxçivan qədim mədəniyyətlərin mərkəzidir..............................37
VƏLI BAXŞƏLIYEV
Naxçıvanın Kür-Araz mədəniyyəti abidələri son tədqiqatlarda...57
ABBAS SEYİDOV
Qədim Sədərək abidələri..............................................................67
NƏCƏF MÜSEYİBLİ
Gilan çay vadisinin arxeoloji abidələri......................................107
BƏHLUL İBRAHİMLİ
Şahtaxti abidlərinin öyrənilməsi tarixi........................................123
QƏHRƏMAN AĞAYEV
Meydantəpədə arxeoloji tədqiqatlar...........................................131
ƏKBƏR BƏDƏLOV
Naxçıvan diyarı XV-XVII əsrlərdə...........................................138
TOFİQ NƏCƏFLI
Naxçıvan xanlığının tarixindən..................................................162
TOFİQ MUSTAFAZADƏ
Naxçıvan xanlığının əhalisi (XVIII-XIX əsrin əvvəllərində).....173
İRADƏ MƏMMƏDOVA
1826-1828-ci illər Rus İran (Qacar) muharibəsi dövründə Naxçıvan xanlığı və 1827-ci il hərbi kampaniyası....................180
NƏRMİNƏ ƏMİRBƏYOVA
Muxtariyyət ərəfəsində Naxçıvanın erməni təcavüzündən müdafiəsi.........................................................................187
İLHAMİ ƏLIYEV
"Erməni dövləti" yaratmaq siyasətinin acı nəticələri................197

GÜNTƏKİN NƏCƏFLİ
Muxtariyyət illərində Naxçıvanda tarix elminin inkişafı (1996-2014-cü illər)........................................................................209
FƏXRƏDDİN SƏFƏRLİ
1946-1950-ci illərdə Azərbaycan SSR EA naxçıvan Elmi-Tədqiqat Bazasının fəaliyyəti....................................................216
AYPARA RÜSTƏMOVA
Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsinin ilk sədri Vahab Salman oğlu Həşimzadə..................................223
TAMİLLA KƏRİMOVA
Muxtariyyət dövründə Naxçıvanın tunc dövrü abidələrinin tətbiqi....................................................................230
ZEYNƏB QULİYEVA
Naxçivani muxtariyyətə aparan yola bir nəzər.........................238
ƏDALƏT QASIMOV
Azərbaycanın Zəngəzur və Vedibasar bölgələrinin müdafiəsində naxçivanlilarin rolu (1918-1920-ci illər)...............................248
KAMRAN İSMAYILOV



**AZƏRBAYCAN TARİX QURUMU**
**SƏDƏRƏK XEYRİYYƏ CƏMİYYƏTİ**

**NAXÇIVAN QƏDİMDƏN GÜNÜMÜZƏ QƏDƏR**
**(Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş məqalələr toplusu)**

Kitab Sədərək Xeyriyyə Cəmiyyətinin
Maliyyə dəstəyi ilə çap olunmuşdur.

Satışı nəzərdə tutulmamışdır.

Format 60x84, 16/1, s.,ç.v. 16,375, kağız 80 qr/m2 ofset,
Tiraj: 250əd.
"Victory" mətbəəsində çap olunmuşdur.